Sənət toplusu



1 • 2019

# QOBUSTAN

www.ayb.az








# QOBUSTAN

1/182
Yaz - 2019

**SƏNƏT TOPLUSU** **1969-cu ildən çıxır**

*Təsisçilər:*

***ANAR,***
***"Qobustan"ın***
***Yaradıcı heyəti***
***və***
***Azərbaycan***
***Yazıçılar***
***Birliyi***



**Baş redaktor:**
**Vaqif ƏLİXANLI**

Redaksiya heyəti:

Aydın TALIBZADƏ, Cəfər QİYASİ, Zemfira SƏFƏROVA, Gülbəniz GÖYÜŞQIZI, Ziyadxan ƏLİYEV, Yusif NƏĞMƏKAR, Nüşabə Əsəd MƏMMƏDLİ, Əyyub QİYAS, Maarif SOLTAN (redaktor müavini), Tofiq NURƏLİ, Gülşən ƏLİYEVA-KƏNGƏRLİ, Sadıq ELCANLI, Natəvan DƏMİRÇİOĞLU, Dayandur SEVGİN



Şəhadətnamə № 347
Əlyazmalar geri qaytarılmır
Redaksiyanın ünvanı:
Baki-370000,
Xaqani küçəsi, 53
*Telefon: 493-68-01*



Əlyazmalar geri qaytarılmır



www.azyb.net
qobustan.jurnali@mail.ru

Bədii redaktor: AYXAN
Kompüter mühəndisi: NƏRMİNƏ

# BU SAYIMIZDA:

***"QOBUSTAN"*** **(2019-1)**


**Qırx sətir**

**ZAMANLA SƏSLƏŞƏN FİLOSOF: *RAHİD ULUSEL***
*"Narın düşüncələr"dən...*

## EL-OBA ---------------------------------- 7

Ömər Xəyyam
**"NOVRUZNAMƏ"dən...**
*Novruz yaz-yaşılla yaşıdmış...*

Mövlud Süleymanlı
**SU. TORPAQ. OD. SƏMA.**
Çərşənbələr bu sıraynan olmalıymış

Tahir Talıblı
**NOVRUZ ÇƏRŞƏNBƏLƏRİ**
bu da yenə çərşənbə söhbətidir...

Sahab Əliyeva
**NOVRUZ TAMAŞALARI: XANBƏZƏMƏ**
çox yerdə toylarda oynanır

Vaqif Əlixanlı
**YAZ - GÜNDOĞANDAN GÜNBATANA...**
Dünyanın üzü güləndə...

## DÜNYANI BƏZƏYƏNLƏR ------------------ 17

***Tahir Salahov - 90***

İsa Həbibbəyli
**AZƏRBAYCANIN VƏ DÜNYANIN TAHİRİ...**
sərt realizmdən - romantizmə...

**T.SALAHOV: «HƏR DƏFƏ SANKİ İLK ƏSƏRİMİ ÇƏKİRƏM...»**
Saminə Hidayətqızının sorğusu

**PAŞA TƏBRİZLİ: «O GÜZGÜYƏ BAXANDA DOĞULDUM...»**
tanınmış fotoqrafı Narıngül danışdırır...

**BİR HEYKƏLƏ BİR CÜT BAXIŞ...**
söhbət Koroğlu heykəlindən gedir...

## SARI SİM ---------------------------------------- 33

Esmira Nəzərli
**«İNDİ NƏ QƏDƏR DESƏZ OXUYARAM...»**
səsinin ekizliyini İdris Mehdiyev özüylə apardı...

Əhsən Rəhmanlı
**UZAQ SAHİLLƏRDƏ RƏQS**
o italyanlara rəqslərimizi öyrədir...

Mustafa Çəmənli
**YAQUB MƏMMƏDOVDUN GÜLMƏCƏLƏRİ...**
təzə çıxan kitabdan seçmələr...

Nərgiz Quliyeva
**ÇİN MUSİQİ MƏDƏNİYYƏTİ TARİXİNDƏN...**
onda ki, Avropada hər şey körpəydi...

## PƏRDƏ ARXASI -------------------- 46

Mehdi Məmmədov - 100

Atababa İsmayıloğlu
**MÜƏLLİMİM VƏ USTADIM...**

Əsəd Məmmədov
**MEHDİ ƏMİMİN ƏN BÖYÜK MƏHƏBBƏTİ...**

**ZÜLFÜQAR ABBASOV: «TEATRSIZ TƏRƏQQİ KAMİL OLA BİLMƏZ.»**
O Ağalar İdrisoğlu ilə dərdləşir...

İsrafil İsrafilov
**TƏƏSÜF...**
Vaqif İbrahimoğlunun teatrda yeri görükür...

## XATİRƏ ÇİÇƏYİ -------------------- 61

Gülşən Əliyeva-Kəngərli
**«MOLLA NƏSRƏDDİN» HAVASI VƏ SÖZÜN AĞIR GƏLƏN YÜKÜ...**

Yavuz Akpınar
**HÜSEYNZADƏ ƏLİ TURANIN ARXİVİNDƏN...**
Qafqaz İslam ordusunun bildirişi

Oqtay Abbasov
**ÜMMANDAN UMACAĞI OLMAYAN ŞAİR...**
Ələkbər Salahzadəni anarkən...

Aydan
**ZAMAN - GÜZƏŞTSİZ MÜNSİFDİR**
«qara kvadrat» önündə düşüncələr...

İskəndər Atilla
**H.CAVİDİN «PEYĞƏMBƏR»İ**
...və onun «səhnəsiz» taleyi

## PİLLƏLƏR* -------------------- 73

Türkan Abbasova
**MÜŞFİQ - TƏSVİRİ SƏNƏTİMİZDƏ**
(İkinci yazı)

Aynurə Hacıyeva
**AZƏRBAYCAN TARİX MUZEYİ.**
***ARAŞDIRMALARA BİR NƏZƏR.***

Səməngül Bayramova
**SOLTAN HACIBƏYOVUN KAMERA MUSİQİSİ VƏ MƏTNŞÜNASLIQ PROBLEMLƏRİ**

## YAZI-YOZU -------------------- 83

Mirmehdi Ağaoğlu
**ÜÇÜNCÜ...**
birpərdəli pyes


*Bu bölmədəki yazıların redaktəsi və bəzi çap xərcləri müəlliflərin hesabınadır

*"Qobustan" toplusunu Yazıçılar Birliyinin "Bayatı" kitab mağazasından ala bilərsiniz.*


12 çap vərəqi
Formatı 60X84 1/8
Sifariş: 06
300 sayda

Qiymətı:
1 manat 50 qəpik

Çapa imzalanıb:
5.03.2019

Toplu "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunub

Telefon:
050-569-99-90

Ünvan:
Bakı, S.Rüstəm 59.

## Qırx sətir

80-ci illərin, deyəsən, ortalarıydı... Yazqabağı... Onda mən Mədəniyyət Nazirliyində işləyirdim. Tez-tez də Moskvada ezamiyyətdə olurdum. Bir dəfə də getdim. "Moskva" mehmanxanasında yer olmadı. Deyəsən o vaxtkı Yuqoslaviyanın mədəniyyət günləriydi... Mərkəzdəki otellər zığ vururdu. Öz gəlmələrini aralıya, daha doğrusu, VDNX ətrafındakı mehmanxanalara göndərirdilər. Mən də "Altay"a düşmüşdüm... Mənimçün heç bir çətinliyi yox idi... Çünki vaxtilə üç il Moskvanın tən ortasında əskərlik çəkmişəm. Demək olar ki, bu şəhərin hər künc-bucağına bələddim... Nə isə... Getdim... Yol yorğunu olasan, Moskvanın basırığı da bir yandan... Səhər tezdən Nazirlikdə olmalıydım... Gərək vaxtında yataydım ki, sabahkı iclasda məni yuxu tutmasın... Gecənin bir aləmi məni yuxudan oyatdılar. Kimsə boğazının qalın yerinə salıb oxuyurdu... Bu uruslarda adətdi də, "ley-peydən sonra" kefləri qalxır, başlayırlar oxumağa...Hələ yaxşı ki, oxuyan təkdi, məclis olsaydı, batardım... Amma məclis bunun yanında qələt eləyir. "Altay"ın qalın divarı belə, qonşu otaqdan gələn səsin qabağını ala bilmirdi... Rus operalarından hansındansa oxuyurdu. Mənbilən, "Yevgeni Onegin"dən idi, ya da "Boris Qodunov"dan... amma zalım uşağı görəsən bilirdimi ki, mənim yuxuma haram qatıb və müsəlmanın da yuxusuna haram qatmaq nədi? (M.Cəlilə min rəhmət!) Durdum, divarı döydüm... Səs o andaca kəsildi, bütün gecəni bir də oxumadı, elə bil mənim divar döyməyimə bəndmiş, qəsdi məni oyatmaqmış. Öz "müqəddəs vəzifəsini" yerinə yetirəndən sonra, yəqin özü indi xorna çəkir, mən də qalmışam aranı dağa, dağı arana daşıya-daşıya... Məni təzədən nə vaxt yuxu aparıb, heç mənsiməmişəm... Səhər qapının döyülməyinə oyandım. Durub açdım "İqor polku" dastanından qopub gəlmiş kimi, saçları çiyninə tökülmüş sarışın bir oğlan idi. Ədəb-ərkanla salam verdi, üzr istədi və məlum oldu ki, qonşu nömrədə yaşayan, gecə məni yatmağa qoymayan bu mərdümazarmış... O danışdı, mən qulaq asdım... Məlum oldu ki, Krasnoyarskdandı, üçüncü dəfədi onu Böyük Teatra çağırırlar, qulaq asırlar, götürmək fikirləri yoxdu... deyirlər - get, baxarıq... Hər dəfə də nə qabağına maşın göndərirlər, nə fərli-başlı, Böyük Teatra yaxın mehmanxana tuturlar... Teatrda "yekələrdən" kimsə yəqin onu burunlayır, yaxına buraxmaq istəmir... Bu dəfə də götürməsələr, - İngiltərədə Kovent-Qarden teatrı vaxtlı-vaxtına müsabiqə keçirir, çalışacağam ora düşüm - dedi. Mənbilən Böyük teatrdakı paxılların ora əlləri çatmaz... Biləndə ki, Bakıdanam, gülümsünüb dedi, - nə bilmək olar, bəlkə elə bir gün Bakıda səhnəyə çıxmaq mənə qismət oldu... Axşam daha Dmitrini görmədim... Aşağıdan dedilər ki, Dmitri çıxıb gedib, özü də yaman dilxoruydu. Başa düşdüm ki, bu dəfə də onu özləri çağırıb, özləri də ona qapını göstəriblər... Üstündən düz ilyarım keçəndən sonra təsadüfən rus qəzetlərinin birində - "Nedelya" idi deyəsən, - oxudum ki, həmin o gecə mənim yuxuma haram qatan oğlan "Kovent-Qarden" müsabiqəsindən keçib... Keçib də sözdü, onu işə götürüblər, onunla beş illik "dünyaya qastrol" müqaviləsi bağlanıb... (Amma Bakıya gəlib çıxmadı). Həqiqətən dünya şöhrəti qazandı. Paris operasında, La Skalada, Metropoliten Operada... dünyanın neçə-neçə məşhur teatrlarında oxudu. Gəl ki, Moskvanın Böyük teatrında oxumadı ki, oxumadı... Daha doğrusu, bircə dəfə solo konsertə çıxdı... Paytaxt tamaşaçısı ilə halallaşmaq xətrinə. Sonuncu konserti isə Krasnoyarskda baş tutdu. Ata-anasına, dost-doğma şəhərinə "əlvida" deməkçin... Yer üzündə təbiblər, loğmanlar qalmadı Dmitri Xvorostovskinin xilası üçün çalışmasın... Amma, kim olursan ol, bəndə nəkarədi fələyin yazısına düzəliş eləyə... Allah öz dinində rəhmət eləsin...

Dmitri Xvorostovski Londonda evlənmişdi, ingilis qızından iki uşağı qaldı... TV-də gördüm, Dmitrinin ata-anasına heç yovuşana oxşamırdılar...

Vaqif Əlixanlı

# ZAMANLA SƏSLƏŞƏN FİLOSOF...

## *RAHİD ULUSEL*

Rahid Ulusel 1986-cı ildə AMEA-nın Ədəbiyyat İnstitutunda "Müasir Azərbaycan fəlsəfi lirikası"ndan namizədlik, 2007-dəsə Bakı Dövlət Universitetində "Qloballaşma və harmoniya fəlsəfəsi" mövzusunda dissertasiya müdafiə edərək, fəlsəfə elmləri doktoru alimlik dərəcələri alıb.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu üzrə Dissertasiya Şurasının, Fəlsəfə Cəmiyyətləri Beynəlxalq Federasiyasının, Ədəbiyyat İnstitutu Elmi Əsərləri - Redaksiya Şurasının üzvüdür. XXII Dünya Fəlsəfə Konqresi (Koreya, Seul Universiteti, 2008), VIII Dünya Konqresi (İsveç, Stokholm, 2010), II Beynəlxalq Konfrans (ABŞ, Harvard Universiteti, 2011), XXIII Dünya Fəlsəfə Konqresi (Yunanıstan, Afina, 2013) və digər beynəlxalq elmi tədbirlərdə Azərbaycanı layiqincə təmsil edib...

Bu vaxta qədər respublika dövri mətbuatında bir çox esseləri, elmi jurnallarda filologiya, fəlsəfə, estetika, kulturologiya problemlərinə dair 270 məqaləsi, 22 kitabı və monoqrafiyası çap olunub. 2017-ci ildə AMEA Ədəbiyyat İnstitutu tərəfindən "İlin Alimi" adına layiq görülüb...

...Özü demişkən, - "65 yaşımın dikdirindən ömrümə baxdıqda, onu bütün qatları ilə görməyə, məni yetirən zamanla necə səsləşdiyimi aramaqdayam... Həmin o yaşadığım illərin, fəsillərin, süd, çörək, sünbül, çiçək, heyva ətirli yaddaşım dillənir ki, heç nə boş-boşuna, hədərə getməyib. Dünyaya üzümü tutub belə deyirəm: Dünya, sənin hər dənənlə, hər yarpağınla dostam!"

...İyirmi bir yaşında Güllütəpə kəndinə müəllim göndəriləndə, elə ilk dərslərini "Koroğlu"nun Uvertürası ilə başlayırdı... Şagirdlərə proqram və dərsliklərdə olmayan örnəkləri, milli dəyərləri, qaynaqları öyrədirdi. İllər sonra həmin kəndə, bir toy mərasiminə dəvət olunanda, necə hörmətlə qarşılandığına özü də təəccüb qaldı. Keçmiş şagirdləriylə indiyədək davam edən dost-doğma münasibətlərsə o deməkdi ki, çəkilən zəhmət həqiqətən hədər getməyib, necə ki, torpaq - ona əkilən hər bir toxumu yadında saxlamaqdadır...

O "Qobustan"ın ilk müəlliflərindən biridir. O dövrün mühafizəkar yanaşmalarına sığmayan "Estetik tənqidin metodolojisi" adlı polemik →



*"...1954-cü ildə, nəhs olmayan bir gündə - avqustun 13-ü, atamın 67 yaşı olanda, Masallının Kəlbəhüseynli (əski adı - Qaladibi) kəndində dünyaya gəldim. 1971-ci ildə Çaxırlı orta məktəbini, sonra da 1975-ci ildə Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filoloji fakültəsini fərqlənmə diplomu ilə bitirdim. 1975-ci ildə təyinatla Masallının Güllütəpə orta məktəbində, 1979-1991-ci illərdəsə Çaxırlıda müəllimlik elədim. 1992-ci ildə Masallı rayon İcra Hakimiyyətində başçının humanitar məsələlər üzrə müavini, 1994-2002-ci illərdə Masallıda çıxan "Yeni Qəzet"in baş redaktoru oldum. 2005-2007-də Bakıda, Qərb Universitetində, fəlsəfə və mədəniyyətşünaslıq fənlərindən dərs dedim. 2002-ci ildənsə Atatürk Mərkəzinin və həm də Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisiyəm..."*

→ məqaləsi hələ 1978-ci ildə toplumuzda işıq üzü görmüşdü... Elmi rəhbəri və illər uzunu yaxın dostu olmuş Yaşar Qarayev ilk yazılarına dayaq durmuş, tanınmış filosof Yuri Borevin "Estetika" kitabının tərcüməsini məhz R.Uluselə etibar etmişdi...

Getdikcə güvəni artan bu addımlarla, R.Ulusel düşüncələrinin özünəməxsus yönü - analitik və fundamental özüllər üzə çıxmağa başladı. Onun elmi axtarışlarımın əsas istiqaməti - Mədəniyyətlərin İpək Yolu, planetar inkişafın qanunauyğunluğu, Humanitar, Şərq və Qərb sivilizasiya meqasisteminin öyrənilməsi və eləcə başqa mövzular R.Uluselin maraq dairəsindəydi.

Bundan əlavə 30 ildən artıq yorulmadan incələdiyi "harmoniya fəlsəfəsi" R.Uluselin araşdırmalarında indinin özünəcən xüsusi yer tutur.

Onun "Nəsimi və Nikolay Kuzanlı", "Füzuli və Mikelancelo", "Cavid və Cibran "Peyğəmbər"ləri" - kimi esselərində klassik örnəklər məhz bu baxımdan dəyərlidir. R.Ulusel belə yazır:

*"Koreyanın Seul Milli Universitetində keçirilən beynəlxalq konqresdə mən öz mövqeyimi ortaya qoydum. Ərz elədim ki, qloballaşma - heç də təkqütblülük deyil. Dünyanın birqütblü konstruksiyasında tək dövlətin hegemonluğu, tək sivilizasiyanın dominantlığı, digər dövlət və sivilizasiyaların, bütövlükdə isə dünyanın hərtərəfli inkişaf imkanlarını daraldır. Daha doğrusu, qaliblər və məğlublar eyni qlobal təhlükənin konflikt rejimində yaşamasına məhkum edilir. Bəşəriyyəti ardıcıl böhranlara, təsadüflərə, sistemsizliyə, deməli, qoluzorlu dövlətin özbaşınalığına sürükləyən amorf dünya konstruksiyası, əslində planetar sivilizasiyanın inkişaf məntiqinə daban-dabana ziddir. Bunun hara aparıb çıxaracağı, hələki bəlli deyil".*

Görürük ki, çağdaş dünya düzümü və əslində idarəolunmazlığı Rahid Uluselin sözünə artıq haqq qazandırmaqdadır... Fəlsəfənin, eləcə digər humanitar elmlərin qaynağında aparılan adi araşdırmalar, təbii ki, R.Uluseli düşüncənin daha "yuvarlaq", daha yığcam formasına - aforizm, yaxud öz ifadəsiylə desək, - çox maraqlı yazı tərzinə - "*sayrışa*" gətirib çıxarmalıydı. Və belə də oldu. Son 4-5 ildə R.Ulusel elə bil deyimlər yağmuruna düşdü. Bunun barı-bəhrəsi - onun **"Narın düşüncələr"** adlı kitabıdır. Həmin kitabın yaranış məntiqini onun cildindəki sözlərlə ifadə etmək olar: *"Elitar mədəniyyət özünün ən yüksək səviyyəsinə aforizmdə çatır"*; *"Düşüncə və davranış arasında ən möhkəm, ən etibarlı ideya körpüsünü məhz aforizm qurur; Bir sətirlik aforizmdən bir kitablıq fundamental tədqiqata yol çox olsa elə bircə addımlıqdır"*.

...Hər birimizin həyat yoluna işıq salan bu sətirlər də elə potensial imkanları yerindən tərpətmək üçün qələmə alınıb: **"Damlada Okeanın yaddaşı olmasa, Ona qayıda bilməz"**; *Dünya - mənim həyatımın tarixidir"*; **"Dünya - indiyə qədərki, hazırkı və indidən sonrakı bütün gərdişi ilə mənim taleyimdir"**; *"Yerüzü və Göyüzü: bu iki poliqon hər zaman Sənin uçuşuna hazırdır!"* və s...

Çox nəsnədən qopsa, ya qopmasa da, R.Uluseli bu dünyaya çox titrək və doğma tellər bağlayır. Özünün dediyi kimi, - varlığısa demək olar ki, üç aləmin xəmirindən yoğrulub: Təbiətin, Fəlsəfənin və Ahəngin. Bu səbəbdən o içərisində yaşadığımız dünyaya Vəhdət Pəncərəsindən baxır, Harmoniya Fəlsəfəsindən söz eşidir, Dünyanın ruhuna bələd olur, Özünü yaratma Fəlsəfəsindən isə, başqa sözlə desək, *"ömür çeşnisinə ilmə vurur..."*

...İndi, 65 yaşının "dikdirində dayanan" filosof Rahid Ulusel belə hesab edir ki, bu illər ərzində əxz etdikləri, əslinə qalsa, bundan sonrası onun qələmə alacağı yazıların, görəcəyi işlərin təməli sayılmalıdır...



145





*Öz tarixini yaza bilməyən xalqın nəinki tarixini, hətta taleyini də başqaları yazır...*

***

*Çağımızın İslam dünyası ərəbi ölmüş dəvə kimidi...*

***

*Biz Qərbə çata bilməsək də... çalışaq ki, onu ötüb keçək...*

***

*Şərq ideyası Qərbə sümürüləndən sonra, yenidən Şərqə qayıdanda görən özünü tanıyırmı?*

***

*Dayaz və məhdud cəmiyyətlərin saxta kübarlığı iyrənc görükür...*

***

*Səhər açılanda bir qarışqanın ardınca düşüb gedin, günün sonunda görəcəksiz - həyat necə mənalı imiş...*

***

*Nə Qərb Şərqi başa düşəcək, nə də Şərq Qərbi - ortadakılar heç birini...*

***

*Şərqin yerində Qərb əkmək istəyirlər. Bilirsiz nə bitəcək? Kol-kos...*

***Rahid Ulusel***

***"Narın düşüncələr"dən...***

**Ömər Xəyyam**

# "Novruznamə"dən...

"...Mənim çox yaxın, sözünə sadiq olan bir simsarım rica etdi ki, Novruzun yaranma tarixini ərz eləyim. Mən də dostumun xahişini nəzərə alıban ən qiymətli olan söz vasitəsi ilə qısaca da olsa bu barədə ərz etməyi özümə borc bildim...

Bu risaləmdə Novruzun əsil çöhrəsi, hansı hökmdarın əyyamında Novruzun bayram edildiyi bəyan edilir və o günlərin niyə bayram edilməyin müxtəsər səbəbi açıqlanır.

Məlumdur ki, həmən gün Günəşin dövr etməsi ilə bağlıdır. Belə ki, qədimlərdə Şah Cəmşid, Günəşin dövr etmə sirrini biləndən sonra onu bayram etməyə fərman verdi. Qeyri hökmdarlar da dəxi bunu bayram etməyə başladı. Belə nəql olunur ki, şah Kəyumərs hökmdar olandan sonra aylara, günlərə ad qoymaq qərarına gəldi ki, həmin günlər camaatın yadında qalsın. Günəş Qoç bürcünə varid olan birinci sübhə o Novruz adını qoydu; saray əhlini və cəmi üləmanı bir yerə yığıb əmr elədi ki, təqvimi bu günün səhərindən başlasınlar. Müdriklər də onun əmrini yerinə yetirdilər. Həmən gün xalq arasında da bayram sayıldı və bu barədə şahlığın dörd bir tərəfinə car çəkildi; çaparlar, qasidlər göndərildi... o vaxtdan üzü bəri Novruz İranda və Turanda bayram edilməkdədir. Hələ üstəlik Əfridun şah əmr elədi ki, harda olur-olsun, onun məmurları ədalətli olmalıdır. Həm də şah öz torpağını oğlanları arasında bölüşdürdü. Bu minvalla Türküstan, Rum eli və İranın bütün hökmdarları bir-biriylə qohumdurlar...

Novruzun bayram edilməsi İskəndər - Zülqərneyn əyyamına qədər davam etdi. Amma, əhali get-gedə Uzun ili bayram saymağı yadırğadı. Şah Ərdəşir təzədən Novruzu bərqərar etdi... Bu hal Ənuşirəvanın şahlığına qədər öz qüvvəsindhə qaldı. Fəqət sonradan Ənuşirəvan, Kəyumərsin və Cəmşidin fərmanını qüvvədən saldı ki, qoy Uzun il gəlib çatsın, sonra Novruzu yenidən bayram etməyə başlasınlar... Bu hal Xəlifə Mömünün əyyamına qədər dəyişmədi. Xəlifə Mömün əmr elədi Günəş Qoç bürcünə girən günü Novruz sayılsın. Buna müvafiq "Mömünün nücum cədvəlləri" tərtib olundu ki, təqvimdə indinin özünəcən bu cədvəllərdən istifadə olunur... Daha sonra gələn hökmdarlar Novruz gününün yerini lazım bildikləri kimi dəyişdi; hər hökmdar Novruzun vaxt-vədəsini öz bildiyi kimi yozdu...

Bu hal, dinimizin dayağı, böyük Sultan Məlikşaha qədər davam etdi. Allah onun imanını kamil eləsin; Sultan Məlikşahın fərmanı bu oldu ki, Novruzun günü əvvəlki tarixinə qaytarılsın. Bu məqsədlə Sultan Məlikşah Xorasandan üləmalar gətizdirdi. Üləmalar rəsədxana tikdilər, üsturlab, cürbəcür cihazlar qurdular, gecə-gündüz Günəşi, Ayı müşahidə etdilər, ayların, günlərin uzun-qısalığını ölçdülər və ən nəhayət Qovruzu fərvərdin ayına keçirdilər. Amma, əcəl şan-şöhrət sahibi olan Sultan Məlikşaha aman vermədi ki, başladığı işi axıra qədər yerinə yetirsin...

Novruz barədə əsl həqiqət bundan ibarətdir ki, bunu da biz təfərrüatı ilə özümüzdən əvvəlki üləmalardan eşitmişik... Allah-Təala haqq dünyasına köçənlərə rəhmət, qalanlara uzun ömür qismət eləsin..."



# Su, Torpaq, Od, Hava...



**Mövlud Süleymanlı**
**xalq yazıçısı**

*...Suyun öz tərkibi də heç şübhəsiz, bu başa çıxartdığım dörd ünsürdən ibarətdir. Yəni, mən bu fikirdəyəm ki,* ***su*** *da tərkibcə həmin ardıcıllıqla özündən- yəni sudan, sonra torpaqdan, oddan, havadan başqa bir şey deyil. Eləcə də* ***torpaq****; sudan, özündən, oddan və havadan doğulub. Sözümün canı yaxşı anlaşılsın deyə, yazıya belə başlamağı lazım bildim. Ona görə ki, Novruz (İl-Ay) bayramının bu ilki çərşənbə axşamlarını da düzgün keçirtmədik; su çərşənbəsindən sonra yalnış olaraq od çərşənbəsini qarşıladıq. Gəlin düşünək,* ***sudan sonra od gələrmi heç?!*** *Belə bir şey mümkün olsaydı, yəni sudan sonra od gəlsəydi yer üzündə canlı qalmazdı. Yəni yer üzünün özü də olmazdı...*

*Düşündüklərimə görə kosmik aləmdə həyat işartısı ona görə yoxdu ki, dediyim ardıcıllıq orda bu sırayla gəlmir. Ola bilsin ki, hava birinci sıradadır, "Yalnış da bir naxışdır" deyək...*

*Əlbəttə, hər birinə hörmətim olsa da deyə bilərəm ki, yanlışlıq bizim bəzi elm adamlarından,- etnoqraflarımızdan, folklorçularımızdan, tarixçilərimizdən gəlir: "Qurani- Kərim"də də deyilir:* ***sudan torpaq, gil götürdüm, yoğurdum, yapdım, odda bişirdim, üfürüb ruh verdim, gözlərini açdı.*** *Indi bu gedişə-prosesə kiçicik bir dəyişiklik etsək, nəyinsə alınacağına ümid etmək mümkündürmü? Bu da gerçəkdir ki, bu bayramla bağlı çox tarixi ağrılar- acılar çəkmişik, qadağalar-yasaqlar yaşamışıq...*

*Düşünək, bu yasaqlar-qadağalar nəyə görəydi? Sovetlər Birliyinin dinsizlik dönəmində belə, sonacan din yığışdırılmadı, amma Novruz bayramı elə yığışdırıldı ki, yaddaşımızda bu cür* ***qarışıqlıq*** *yarandı... Nəyə görəydi bütün bunlar?! Ona görəydi ki, bizim varlığımızı qəbul etmək istəməyənlər Novruz bayramının dahiyanə gerçəkliyini bizdən yaxşı bilirdilər. Bilirdilər ki, harda daha güclü olarıq, bizim gücümüz harda daha da çoxdur. Onlar bizim gücümüzü almaq üçün bir başa varlığımıza bağlı olan Novruz bayramını sıradan çıxartmaq, daha doğrusu, bununla da bizim özümüzü sıradan çıxartmaq istəyirdilər.*

*Hər halda biz Novruz bayramını ürəklərimizdə, evimizdə-köşəmizdə gizlədə-gizlədə də olsa yaşatdıq.* ***Çox Şükür! Eli var olsun!*** *Beləliklə...*

**Su çərşənbəsi...**

Su çərşənbəsində deyərlər: **"su damar gətirdi", "su haqdan gəlir"**. İslam dinini qəbul edəndən sonra onu da dedi ki, bu günün suyu **"zəmzəm suyudu"**. İnamını dəyişmədi, ifadəsini dəyişdi. İlin-Ayın sonu olduğunu bilirdi... **Bütün zamanlarda Son, daha doğrusu, qurtaracaqlar özündə həm də başlanğıcları yaşadır.** Xalq bilirdi ki, hər şeyin yenidən doğulan, - başlanğıc çağıdır: *"Su ilkdi,- dedi - hər şeyi suya çəkin"*. Hər şey suya, - başlanğıca çəkildi, yuyulub yaxandı. Qocalar, yaşlılar dirçəlib canlandılar, soyuq suya girə bilməsələr də *"çilək altdan"* keçdilər, yəni üstlərinə başlarına su çilədilər. Qundaqda olanların qundağına su çiləndi. Hansı qundaq çilək altda gülümsədisə: "Suyun əli dəydi uşağa, su uşağa toxundu" dedilər, sevindilər, güldülər. Qapı-bacalar süpürülüb sulandı. El diliylə desək: *"Evlərin içi eşiyə töküldü". "Olanlar olmalıdır yenə, amma olanların-qalanların ağırlığını-yağırlığını yuyun"*, dedilər. *Belə də deyim var: "Suyu çıxacaqdan qoy (axıt), odu girəcəkdən (qala)". Yəni, pis niyyətlə yurda ayaq basan olursa Od yusun, pis niyyətlə çıxan varsa su yusun...*

*Nənəm deyərdi, su duaların getdiyi yerə axır...*

* * *

Kəndimiz irili-xırdalı dağ çaylarının arasında "dəvə beli" iki dağın üstündə yerləşirdi. Bütün qeydlərimdə o kənddə gördüklərimə, yaşadıqlarıma əsaslanıram... Su çərşənbəsində "o başdan", yəni dan sökülməmişdən demək olar ki, böyüklü-kiçikli hamını su üstündə görmək olardı. Hamı alaqaranlıqda çığırışa-çığırışa yuyunub yaxanmaqda olardı. Hər bayram ərəfəsində çay yanı, yəni suya yaxın torpaqda "Dəlmə keçid" deyilən keçid düzəldərdilər, hər ev həyətinə gedən yolun girəcəyində öz od-tonqalını qalayardı, suda yuyunub, ağırlanıb-uğurlananlar: **"Sudan keçdim, ağırlandım-uğurlandım, anam torpaq, sənnən də keçirəm, sən də ağırlığımı-yağırlığımı al, ağırla-** →

**uğurla məni!"** deyib həmin "dəlmə keçid"dən, keçərdilər, keçib də hərə öz tonqalına tərəf qaçardı, tonqalın üstündən atdanıb özünü oda verərdi. İstər qar olsun, istər yağış olsun, mənim təmsil olunduğum nəsil ilin-ayın son (axır) bayramını belə keçirən görmüşük, belə keçirmişik...

Bir çox elm adamları fikrini, - su çərşənbəsindən sonra od çərşənbəsinin gəldiyini sübut etmək üçün ustad aşıq Ələsgərin məşhur şeirindən misal çəkir: "abı, atəş, xaki, bad"... Gəlin, ustad Ələsgəri, özü demiş, "qannı tutmayaq", bədahətən deyilən şeirin düzəni-sahmanı bunu tələb edib. Hecanın, bölgünün, vəznin pozulmaması üçün belə lazım olub. Özü də farsca, heç nəyə də əsaslanmadan deyilib... Belə olmasaydı, dava-dalaş salan adamlara, ailələrə deyilən "biriniz od olanda, biriniz su olun" kimi ifadələr yaranmazdı.

* * *

*Yeddi-səkkiz yaşımız vardı. İlin-Ayın son çərşənbə gecəsində bizim evə yığışdıq, analarımız bizə "duzlu kömbə" yedirtdi. Kömbənin, dedilər, duzunu öz əllərinizlə tökün. Biz nə qədər un vardısa o qədər də duz tökdük, analarımız demiş, kömbə oldu* ***duzbora****. Yəni həddən artıq duzlu. Biz gözlərimiz yaşara-yaşara duzlu kömbəni axıracan yeyib yatdıq...Su istəsəydik də içə bilməzdik. Otaqdan su yığışdırılmışdı...Suyu yalnız yuxuda görə bilərdik. Mən doğrudan da suyu yuxuda gördüm. Həyətimizdə iri söyüd ağacları vardı, ağacların arasından bulaq qaynayırdı. Gördüm, bir qız həmin bulaqdan su doldurub mənə sarı gəldi. Suyu öz bulağımızdan doldursa da niyəsə uzaqdan gəlməyə başladı. Mən gözləyirdim, bilirdim ki , mənə su gətirəcək, gətirdi, suyu mənə uzadıb gülümsədi. Şəvə kimi qara saçları, yoğun, tək hörüyü vardı, arxaya atmışdı, gümüşü rəngdə saç bağıyla da bağlamışdı. Gözümü açanda başımın üstündə anamı gördüm: - Su içdinmi yuxuda? - hə,- dedim,- Bir qız qarşı dağdan enib mənə su gətirdi.*

*Özüm də dikəlib pəncərədən qonşu kəndin yoluna baxdım. Anam gülüb:-Boy,- dedi, - uzaqdan evlənəcəksən.*

*Elə də oldu, iyirmi ildən sonra Bakı Dövlət Universitetinə sənədlərimi verəndə qızı tanıdım, növbəyə durmuşduq, yuxuda gördüyüm gümüşü rəngdə saç bağı da hörüyündə, iyirmi ildən sonra öz növbəsini yox, məni gözləyirdi...*

* * *

*Orta məktəbi qonşu kənddə bitirmişik, o vaxtlar məktəbin yataqxanası olmadığı üçün məktəbin özü bizə kənd evlərindən otaq kirələmişdi. Biz ağır daşlardan "ştanq" düzəltmişdik, elə torpaq döşəməli evin içində vaxt tapan kimi daş qaldırırdıq...Hansı çərşənbə axşamıydısa ev yiyəsi dedi:-Bala, daşı evdə saxlamayın, ağırlıqdı,il boyu ağırlığınnan çıxa bilmərik, üstümüzdə qalar, atın bayıra...*

*Daşı bayıra daşıdıq, qaranlıq çökmüşdü. Qızlar, qadınlar qulaq falına çıxıblarmış. Mən qucağımda qara daş qapını açdım, qapımızı pusmağa gəlmiş qonşu qızla üz-üzə çıxdım...Aradan əlli il keçib o gözəl yaraşıqlı qızın daşa dönmüş üzünü hələ də unuda bilmirəm. Ağlaya-ağlaya dediyi sözlər də qulaqlarımdan getmir: - Bəxtimə gəlmişdim, üzümə daş çıxdı...*

* * *

## Torpaq çərşənbəsi...

Həmişə suyla bir yerdədir, heç kəs torpağı sudan ayrı bilməz. Təsəvvürdə, yəni yaddaşda ancaq bir şey var; sudan torpağa çıxmaq, torpağa, yəni yaşamağa... Sudan Oda çıxış yoxdu, ola da bilməz. Sudan Oda gedən yol məhvə, yox olmağa aparar. Suyla torpaq bir yerdə bətn kimidir, ana bətni kimi...Var olan hər şey bir-birinə bağlıdır, hər şey, əgər hərəkətdədirsə, öz yerini, -nədən sonra nəyin gəldiyini bilir. Bununla da Yaranışın əbədi hərəkəti alınır. Bax, od indi gəlir, yalnız indi bu əbədi hərəkətə qatılır: ılıq-ılıq, gülümsəyə-gülümsəyə suyla torpağı-ana bətnini isitməyə, cücərtməyə gəlir... Bu cücərmə, yəni yerin, el diliylə desək, **cücük çağı** əslində suyla torpağın qovuşduğu vaxta deyilir. Bu vaxt ana bətnində olduğu kimi, torpağa düşən toxum zamanı gələndə suyla torpağın tərkibindəki istiliklə - odla mayalanır, cücərir və Günəşi içir... Mənim düşüncəmə görə insanların bu bayramla bağlı bildikləri də dediyim həmin **əbədi hərəkətin, - bu əbədi düzənin içindədir**. Xalq bu əbədi düzənin içində olduğuna görə də bildiklərini hardan bildiyini anlamır, anlamaq da lazım olmur, təbiətə qarışıb yaşayır. Ona görə də təbiətin qanunauyğunluğu kimi insanlarımızın da bildikləri belə dəqiqdi, gözlə görünə biləcək, əllə toxunulacaq qədər gerçəkdir.

Torpağın elə vaxtıdır ki, el diliylə desək elə bil "dincə qoyulub", indi gərnəşəcək, yəni torpağın suya açılan vaxtıdı, suyu içib üzünü Oda çevirəcək, isinib nəfəsini dərəcək...Bu ara həm də **səməninin cücüyə qoyulması çağıdı. Ən çox da "Deyin səmənisi"...**Yeniyetmə (ərlik) qızlar bu vaxtlar bəxtlərinə səməni göyərdirlər.

* * *

Böyük bacılarımın, böyük bibilərimin yeniyetmə çağlarında hərənin öz səmənisi olardı; deyin səmənisi...Deyin-niyyət eləyib səməni böyüdərdilər. Üç-dörd yaşım olardı, az-çox yadımdadı, dili dualı, alxışlı... Sonrakı nəsillərdə artıq bunları görmədim, beş-on ilin içində çox şey dəyişmişdi; Amma evimiz →

yanından axan çay öz əbədi yürüşüylə hələ də axıb getməyindəydi; İlin-Ayın son gecələrində bizi yenə ağırlayır-uğurlayır, vaxtını keçirdib solub-saralmış səmənilələri axıdıb aparırdı...



**Od çərşənbəsi...**

İlin-Ayın son çərşənbələrində **Su, Torpaq** kimi **Od** da adi od kimi, yəni yalnız qaladığımız ocaq kimi, əlimizi yandıran, yaxan istilik kimi xatırlanmır, sayalı, müqəddəs, duyğularla anılır. Böyük alimimiz mərhum prof. Məmmədhüseyn Təhmasibin dediyi kimi Xalq odu atəşpərəstlikdən, zərdüşdlükdən öncələrdə qoruduğu, sirlərini, alxışlarını ifadə etdiyi, ən əsası dualarını tapındığı vasitə kimi yaşadır... İl-Ay bayramında Od daha çox təmizlik vasitəsi kimi lazım olur. Bayram tonqalını həyətin girəcəyində qalayır ki, həyətə keçən özüylə ağırlıq gətirməsin, pis niyətsiz, ağırlıqsız-yağırlıqsız keçsin. Xalqın özü məsəl çəkir: **"Od yuduğunu su yumaz"** Ona görə də deyir, heç olmasa ildə bir kərə özünü təmizlə, canını oddan keçirt, atıl tonqalın üstündən... "Qara yerdən üstünə qonan **görünməzlər** var, oda ver, yandır". Doğrudan da oddan sonra adam özündə yüngüllük hiss edir. Ola bilsin ki, sudan çıxdıqlarına görə də bayram tonqalının alovu hamıya rahatlıq, dinclik gətirir...

El arasında odla bağlı deyimlər çoxdur, amma bunları təsnif etmək lazımdır. Mənim fikrimcə odla bağlı Novruz bayramı ərəfəsində deyilən ifadələr adi günlərdə deyilən ifadələrdən seçilir. Od çərşənbəsinə aid olan ifadələrdə birbaşalıq var, quraşdırma, əfsanə, nağıl yoxdur; yəni başqa, - adi vaxtlarda od-ocaq səs eləyəndə közə-kösövə duz səpib **"pisliyimizi danışan, gözün bu odda yansın"** deyimini Od çərşənbəsində, - İlin-Ayın son çərşənbəsində deməzlər. İlaxır çərşənbədə **"Oda arxa çevirmə", "Oda tüpürmə", "Gorum ol, ocaq, gorumda yan"** ifadələrini, deyimlərini işlətməzlər. Bəzi toy adətlərimizdə olduğu kimi qız evinin adamları oğlan evindən "köz oğurlamağa" cəhd etməz. Novruz bayramı ərəfəsində elə bil Odun ilkinə - doğuluşuna qayıdılır; Oda tapınmağa, Odun böyüklüyünə sığınmaq istəyi yenidən yaranır, hardasa böyüklü-kiçikli özümüzdən asılı olmadan, hansısa bir təbii qüvvənin təsiriylə oda sığınırıq da, tapınırıq da. Eyni zamanda demək olar ki, Odun üstünə çıxırıq, Odun



üstündən keçirik, başqa vaxtlarda nə olur-olsun Odu tapdamazdıq, heç arxamızı da çevirməzdik, amma İlin-Ayın son çərşəmbəsində Odla ağırlığımzı-yağırlığımızı yuyuruq, keçən ildən qalma gərəksiz şeyləri yandırırıq, səhərəcən tonqallarımız yanıb bizim üçün iş görür, könlümüzə-ruhumuza ümidlər, uğurlar verə-verə bizi sabahlara göndərir. Suyla yuyunub-yaxandığımız kimi odla da yuyunuruq. Odun-ocağın bizdən aşağıda, ayağımızın altında olmağı lazım gəlir, üstündən atdanırıq, üstümüzün suyunu, - ağırlığımızı Oda tökürük, yanımızı, arxamızı çeviririk... Başqa vaxt belə eləməzdik. **Hamısı ona görədir ki, biz həmin Anda Başlanğıcı, böyük Doğuluşu, hər şeyin, əsasən də dörd ünsürün,- Suyun, Torpağın, Odun, Havanın yenidən bir-birinə qovuşması, təmizlənməsi dönəmini yaşayırıq...** Keçirdiyimiz həmin An-Od, yəni İlin-Ayın Od çərşənbəsində qaladığımız tonqallardakı alov yaşadığımız bütün zamanlardan bizə daha yaxın, daha səmimi, daha istiqanlıdır. Ona görə də bilməliyik ki, o an hər şey yaranışdan, - doğuluşdan necə varsa eləcədir; bütün başlanğıclarda, doğuluşlarda olduğu kimi təmiz, arı-durudur...

**Yel çərşənbəsi-Hava...**

El arasında Ağyel-Qarayel ifadələri alxışlar-qarğışlar mənasında çox tez-tez işlədilir. Alxış kimi: "Üstünnən qara yellər əsməsin", "Ağ yelə tuş olasan səni", "Xıdır Nəbi babanın Yel atı dadına çatsın həmişə", "Üstündən acı yellər əsməsin", "Günün ağ olsun..." Qarğış kimi: "Qarayeldən gözün açılmasın", "Yoluna Qarayellər əssin" Səmt-yön mənasında da ifadələr var: "Yağış Ağyel səmtdəndi, tez kəsəcək", "Üzü Qarayelə getmə..." Ağyel deyəndə cənub-güney, Qarayel deyəndə şimal-quzey nəzərə alınır. Belə deyimlər var: "Ağyel çox olarsa yandırar", "Qarayel çox olarsa dondurar"...

El-elat ilkindi çağından havaya göz atıb gündəlik işini havaya görə qurardı. Gedişat, yəni güzəran havadan asılı idi, asılıdır, desək daha düz olar... **"Qarayeldən qapı qoyma"** məsəli var. Ev tikəndə də hər şeydən öncə havanı nəzərə-gözə almalydı. **"Üstünə gün düşsün..."** Bu anlayışla işinə-gücünə →

gərək olan hər şeyi **günəqarşıya** çıxardardı. Ona görə də bütün tikililərimiz, evlərimiz, qalalarımız dədə-babadan üzü günəşədi. **"Özünü günə ver, yelin-quzun canından çıxsın"**, ifadəsi də elə belə yaranmayıb. Sudan, torpaqdan, oddan, havadan "baş çıxartmasaydıq" yerüzündə bu düzəni yarada bilməzdik. Dediyimiz bu dörd ünsürə və dörd ünsürün qeyd etdiyimiz bu sırasına,- su, torpaq, od, hava ardıcıllığına görə yaşayışımızı qurduq... El arasında "...üstündən **vaxt** addadı" ifadəsi var. İndi işlənməsə də köhnə, yaşlı kişilərin yaddaşında qalmış olar. Qəfildən ürəyi gedib yıxılan heyvanlar olurdu. Deyirdilər üstündən vaxt addadı. Yadımdadı, atımız birdən-birə yıxılıb yolun ortasında qaldı, dörd yanına yumru cız - xətt çəkdilər, burnunun üstündən qan aldılar, sıçrayıb qalxdı. Bütün ömrüm boyu fikirləşmişəm: "üstündən vaxt addadı" əslində nə deməkdir? Vaxtın səni qoyub geçib getməsi, yaxud, vaxtla ayaqlaşmamaq, vaxtdan qalmaq... Hər nədisə bütün hallarda Xalqın yenə də dahiyanə bir sirrə yetik olmağıdır. Soruşub aydınlatmağa adam qalmadı, gecikdim; nəsl dəyişdi. Elə həmin ifadəylə deyim: üstümdən vaxt addadı...



Bu ifadələrin, deyimlərin, - adət-ənənələrin arasında heyrətamiz kəşflər də var; boğaz qoyunun qarnındakı quzunun dərisinin nə rəngdə olduğunu bilənlər vardı. Bir dəfə maraqlanıb soruşdum. "Qoyunun dilinin rəngindən bilinir, - dedi, - mələyəndə bax, dili hansı rəngdədisə qarnındakı quzunun dərisi də o rəngdədi."

Bunu bilmək həm də papaqlıq quzu dərisi üçün lazım olurdu. Ən yaxşı, ən bahalı, addı-sanlı papaq doğulmamış quzu dərisindən tikilirdi. Quzu qoyunun qarnından quzuluğuyla bir yerdə, quzuluq pərdəsi (uşaqlıq) qarışıq çıxarılırdı. Bunun üçün az günəşli hava lazım idi; dəri quzuluq pərdəsindən az günəşli havada götürülməliydi, çünki quzu ölsə də dərisi hələ də canlıydı, tükləri isindikcə qıvrılıb havaya açılmalıydı. Belə papaqlar geyildikcə başda açılar. Ona görə də quzunun rəngini hələ anasının qarnındaykən bilən insanlar lazım olurdu. El arasında belə bir məsəl də işlədilir: **"Elə qız al ki, papaq kimi başında açılsın."**

Belə deyim də var: "Filnkəsin odunu-suyunu verdim..." Yəni döyüb-söyüb anlatdım, mənasında... Dəmiri qızdırıb döyəndən sonra suyunu vermək gəlir. Nə düzəldirsənsə suyun verilməsindən çox şey asılıdır. Əgər qılınc düzəldirsənsə odla suyun arasında havanın çox böyük təsiri var. Yəni dəmiri qızdırıb istədiyin formaya gətirəndən sonra havada çox saxlasan qılıncın kəsəri olmaz. Tiyəsi küt qılıncın, bıçağın "ağzını hava vurub" deyərlər. Tiyəsi çox sərt olanda da "suyu çox olub" deyərlər...

Su, Torpaq, Od çərşənbələri haqda dediyim kimi Hava-Yel çərşənbəsində də münasibət, - atalar sözləri, deyimlər ifadələr hardasa dəyişib başqa məna alır.

O gecə, yəni Yel-Hava çərşənbəsində deyərlər: **"yerə nəfəs endi"**. Bu yer üzündə olan bitgi aləminin nəfəs dərməyidir; **nəfəsini dərib yenidən ayılmağı, suyun, torpağın, odun, havanın bir olmağından sonra ilk tərpəniş, hərəkət, ritm... Üç çərşənbədən, - su, torpaq, od, çərşənbəsindən sonra yerə enən nəfəs.**

Mən elə bilirəm ki, **İnsan** dünyanın harasında olursa olsun, hansı qitədə, hansı ölkədə yaşayırsa yaşasın, **udduğu havaya, aldığı nəfəsə görə** dediyim həmin **ritmin-ahəngin** içindədir. Bizə elə gəlir ki, qitələr, ölkələr ayrı-ayrıdır, bir-birinə o qədər də dəxli yoxdur. Məncə bütün ölkələr əslində eyni yürüşün-hərəkətin içindədir və eyni aqibəti yaşayırlar. Harda oluruqsa olaq, yer kürəsi adlanan bir damın altındayıq. Nəfəs ilk, - başlanğıc üçün lazımdır, hər hansı bir canlı sonda aldığı nəfəslə böyük hərəkətlərə, yürüşlərə qoşulur, burdan da yeni anlayışlara, düşüncələrə yol açır, bu da yaşadığı ömrün ahənginə qovuşmaqdır... yəni insan, eləcə də canlı hər nə varsa dediyim bu aləmə qanunauyğunluqla, - aldığı ilk nəfəslə keçə bilir. Üç həyat - yaşam daşıyıcısının, - **suyun, torpağın, odun qovuşduğu anda, dördüncünün, - havanın gəlməyi yaranışın qanunauyğunluğunu tam etmək üçün, tamamlamaq, yəni, Olmaq üçündür... OL! Bu həmin andı, Yaranış anı...**

Havadan öncə gələn su, torpaq, od da ona görə bu sıraya, bu düzənə, bu qanunauyğunluğa girir ki, törəməni, törənişi-yaranışı təmin etsin... Məncə bundan sonra belə sonuca, - nəticəyə gələ bilərik: **yaxşı ki, bu böyük törən, yaranış qanunauyğunluğu, gündüzlə gecənin bərabər olmağı səndən-məndən asılı deyil. Sən havanı əvvələ, torpağı axıra salsan da bu əbədi ardıcıllığı poza bilməzsən... Unutma bu ardıcıllıq dünya yaranandan - Yaranışdan belədir: Su, Torpaq, Od, Hava...**





# NOVRUZ ÇƏRŞƏNBƏLƏRİ

**Tahir Talıblı**
**Əməkdar jurnalist**

*2019-cu il Azərbaycan Radiosunda yayımlanan "Bulaq" verilişinin 50 yaşı tamam olur. Bu qədər efir ömrü bəlkə də efir tarixində nadir hadisələrdən biridi, uzun və tarixi bir yol 50 yaş, 50 il. "Bulağın" bu şəkildə, bu yaranmasınnan iki il əvvəl, folklorçu alim, rəhmətlik Paşa Əfəndiyev "Xalq yaradıcılığı-Bulağ"ı adı altında 15 dəqiqəlik veriliş yayımlayıb, milli musiqiylə müşayiət olunan bayatılar oxunub.Bu uzun illər "Bulaq" verilişi dilimizin inkişafında misilsiz işlər gördü, canlı xalq danışıq dilini efirə gətirdi, xalq təfəkkürünnən, qaynaqlarınnan bir sistem yaratdı. Canlı xalq dilinin yazı diliynən qovuşmasına, yaxşı mənada qarışmasına xidmət göstərdi. Həm də böyük bir ədəbi nəslin yetişməsində ayrıca məktəb oldu. Yüzlərcə, minlərcə, etnoqrafik deyimlərimizin, ifadələrimizin çözülməsinə, etno-tərkibinin aşılmasına, hətta elmi işlərə təkan verdi. Demək olar ki, onlarla "Bulaq"çılar nəsli yetişdi, bir-birini əvəzlədi, hər müəllif də öz fərdi üslubuyla bir "Bulaq" üslubu formalaşdırdı. "Bulaq" verilişinin qismən araşdırdığı Çərşənbələrlə bağlı bu qısa xülasəni "Qobustan"ın oxucularına təqdim eləyirik.*

İnsan ömründə qış fəsli digər fəsillərə nisbətən problemlidi. Qışın ağırrığı, şaxtalar, qar-qaramat təbii ki, insanın məişətində, yaşayış tərzində müəyyən çətinliklər törədir. (Bunlara geniş izah əlavə etmək olar). Amma insan daxilən, könülcə yaza, yaşıllığa, təbiətə daha çox bağlı olduğunnan, bəlkə də qışın tez və nisbətən yüngül keçməsini daim arzulayır, günləri sayır. Bu ağır vaxt (təqribən 3 aylıq bir dövr) müəyyən bölümlərlə bölgülənir. Qışın ilk dövrü **böyük çilə** adlanır, qırx gün ömrü olur. Bu qırx günü addamaq, keçmək özü də, həm rəmzi məna daşıyır, həm də ağırrığın böyük hissəsi keçilmiş olur. Elə çilə sözü də ağırrıq mənasındadı. Bəzi bölgələrdə "çilə çıxarmaq" kimi ayin də keçirilir. Bu da ağırrığı dəf eləmədi. Sonra **kiçik çilə** gəlir. Bu, 20 günlük vaxtdı. Təqribən fevralın 20-də başa çatır. Vaxt baxımdan kiçikdi, azdı, ancaq qışın ağırrığının çoxu bu vaxta düşür. Bu vaxtlar insan daha çox yornuqlayır, zəifləyir, mal-qaranın azuqəsi azalır, çətinlik çoxalır. Odu ki, kiçik çilənin çıxmasını da insan günbəgün izləyir.

Kiçik çillənin demək olar ki, tən ortalarında Xızır-İlyaz deyilən bir törən də mövcuddu ki, əskidən nənələrimiz, babalarımız bu mərasimə böyük önəm veriblər. Bu törənin ən əsas atributu qovutdu, qovrulmuş buğdanın unu. Xıdır Nəbi də deyilən bu mərasim gecəsi qabda narın ələnmiş qovut qoyulur yanında su və şam yandırılır. Xəzər İlyaz dəvət olunur. Əslində yazın gəlməsi arzulanır.

...Kiçik çilədən sonra **boz ay** başlayır. Boz ay təqribən 30 günlük vaxtdı. Artıq vaxtın üzü yazadı. Yaz isə novruzla başlayan bir vaxtdı, tarixdi. Təbii ki, insan özünü yaza çıxarmalı, dünyanın, təbiətin təzələndiyi bir vaxta yetirə bilməlidi. Bu təzə vaxta çatmaq, həm də bir murazdı. Təbii ki, boz ayın da çətinlikləri, ağırlıqları olur. Odur ki, bu ağrılıqları, çətinlikləri dəf eləyə bilmək üçün 30 günlük vaxt özü də hissələrə bölünür. Bu hissələr çərşənbələrlə sıralanır. Çərşənbələr özü də sınaqlı günlərdi... Həm fiziki, həm təbiət hadisələri baxımından, həm də mifoloji yöndən. Hər çərşənbəni adladıqca insan özünü yaza daha çox yaxınlaşmış sayılır.

Bu gün Azərbaycan folklorunda **çərşənbələrin** sırası belə verilir **(su, od, torpaq, yel)**. Bir çox mətbuat səhifələrində, Teleradio verilişlərində bu istənilən şəkildə qarışdırılır, təhrifə yol verilir. Bu sıralanma dinimizin baş kitabı Qur'anda da öz əksini tapıb. Bu sıralanmaya klassik ədəbiyyatımızda sıxı-sıxı rast gəlinir. Aşıq Ələsgərdə də **"Abi atəş, xaki, bad"** deyin bu sıralamanı düzgünləyir. ⟶

Bu dördlük hər şeydən əvvəl dünyanın yaranma formularısını ifadə edir... yəni, dünya bu dörd ünsür üçtə bərqərardı. Bu ünsürlərdən biri yoxsa, həyat yoxdu. İndi digər uzaq planetlərdə bu dörd ünsür axtarılmadadı.



Çərşənbələrə gəldikdə isə əvvəl **suya istilik gəlir**, böyük dəryalar, dənizlər dibindən isinir. El obada adamları çox gözəl müşahidə eləyib: görürsən ki, hava soyuqdu, ala-tala qar da görünür, çayın üzü buz bağlayıb. Ama buzun üstündən buğ qalxır. Belədə deyillər ki, sulara ixtiyar verildi. Təbiətdə ilk oyanan məhz sudu, dəryalardı, dənizlərdi...

...Növbədə oyanış torpağındı, bir çərşənbə sonra da torpaqda oyanma hiss olunur. Torpaq qızır. Artıq az vaxtdan sonra əkinə, səpinə başlamaq olur. Qədim türklər torpağın bu halına isitip deyərdilər. Torpaq ki, isindi, köç, yaylaq mövsümü də başlardı. Ruslarda çölü ifadə eləyən "step" sözü, "isitip"dən yaranan sözdü.

Ən sonda yerə nəfəs verilir; hava tam isinməyə başlayır, bu hal yel çərşənbəsi ilə müşayiət olunur. Bu o deyən sözdü ki, daha əkin, səpin işini tam aparmaq olar, torpağa nə atılsa bitəcək. Bizim folklorumuzda, mifolojimizdə bu sıralanma dünyanın yaranış ünsürüdü.

Əslində isə çərşənbələrin sıralanması eldə, obada ayrı-ayrı adlarladı. İlk çərşənbəyə **yalançı çərşənbə** deyilir, bəzi bölgələrdə bu çərşənbəyə **əzəl çərşənbə** də deyilir. Dördüncü çərşənbə ilin-ayın axır çərşənbəsi adlanır.

**Bu günlər həm də olduqca sınaqlı günlərdi. Bizim mifoloji düşüncəmizə görə ilin-günün axır çərşənbə gecəsində bir anlığa axar sular dayanır, atlar kişnək vurur. Kim bu hadisəni görsə bütün arzuları gerçəkləşər, - deyillər.**

Beləliklə, günbəgün, anbaan üzü Novruzumuza, yazımıza qovuşmaqdayıq. Elə bu sözün ucunnan tutub ucuzluğa yox, dərinniyə getmək istəsək deməliyik ki, bu bayram türk təqvimində ən böyük bir şöləndi, geniş miqyasda keçirilən müxtəlif rituallardan ibarət bir bayramdı. Elə çox vaxt dilimizdə "Bayram" kimi də işlənib. Elə indii də çox bölgələrdə Novruz əvəzinə Bayram deyilir.

Müxtəlif ədəbi məntlərdə də Novruz əvəzinə Bayram sözü işlənib. "Bayram yeli çardaxları yıxanda" (M.Şəhriyar), "Bayram oldu heç bilmirəm neyniyim" (M.P.Vaqif). Daha çox misallar söyləmək, bənzəyişlər gətirmək olar. Təbii ki, Novruz vaxtın təzələndiyidi. Bu da o deməkdi ki, dünyanın təzə bir üzüdü. Təzə görünənnəri, görünəcəkləridi. İçimizin, çölümüzün, düşüncələrimizin təzə qatları bu təzə vaxtnan açılasıdı, həm də...

Vaxt həm də tələbdi. Özümüzün özümüzə tələbi. Qalxışdığımızdı, çatmaq istədiklərimizdi. Vaxt həm də köklənməkdi, vaxtında köklənməkdi vaxt. Yaz bu köklənməyə çağırandı.

Mifolojimizdən gəlmə bir ritualizm mövcuddu. Kosa-kosa oyunu. Bu daha çox səhnələşdirilmiş bir xalq oyunudu, törəndi. Ümumilikdə müqəddəs heyvanlara mifoloji düşüncəmizdə böyük yer verilir, inam gətirilir. Qurd bir onqon olaraq türk qövləri üçün bir mərdlik simvoludu. Əski inanclara görə günəş özü qurdun övladıdı. Qurd yaranış başlanğıcı kimi türk düşüncəsində mövcuddu. "Əzvay qurd əniyi erkəyində bir köküm var" (D.O.)

Keçi yazın obrazıdı, südü dirilik suyunu, yunu, tükü yazın ilk cücərtilərini ifadə eləyir. Kosa qışın obrazıdı. Keçi Kosanı vurub öldürür. Məzhəkəçi keçəl kosanın bu vəziyyətini lağa qoyub üstündə oxuyur:

Arşın uzun, bez qısa
Kəfənsiz öldü kosa.



# EL TAMAŞALARI: XANBƏZƏMƏ

Ordubadda keçirilən Novruz mərasimlərindən biri "Xanbəzəmə"dir. Mart ayının 21-dən 24-ə qədər şəhərin Sərşəhər, Mingəs meydanlarındakı çinarların altında taxt-tac qurulur, yerə xalı-xalça döşənir. Taxt-tacda oturmaq üçün xalq tərəfindən Xan seçilir, ona əba, arxalıq, xalat, çarıq geyindirilir, belinə qurşaq bağlanır, başına tac qoyulur, vəzir-vəkil, fərraşları, cəlladı ilə birlikdə taxta çıxarılır. Sonra çalğıçılar çağırtdırıb, meydanda çal-çağır dəstgahı qururlar. Camaat meydana toplaşıb, bu mərasimə tamaşa eləyir. Xan özünü ciddi aparmalı, bir dəfə də olsun dodağı qaçmamalı, qürurlu şəkildə öz "taxtında" oturub əmrlər verməlidir. Xanın əsas vəzifəsi ədalətsizliyi çıxdaş edib, düzgün qərarlar çıxarmaqdır. O, eyni zamanda, kimin nə şikayəti varsa, qulaq asmalı və ona əncam çəkməlidir.

Mərasim başlayandan sonra Xan üzünü camaata tutub xəbər alır:

- Kimin nə dərdi-səri, şikayəti var?

Bir qarı "hüzura" gəlib deyir:

- Xan sağ olsun! Var-yox bir toyuğum vardı. Onun yumurtası ilə dolanırdım. Dünən toyuğum oğurlanıb. Təmənnam budu, oğrunu tapıb toyuğumu geri qaytarasız.

Xan deyir:

- Toyuğun əlamətlərini söylə, tapdırım.

Qarı meydanı dolanıb oynaya-oynaya oxuyur:

*Mənim toyuğum çil-çil idi,*
*Qanadları mil-mil idi.*
*Səni yanasan toyuq tutan,*
*Odlanasan toyuq tutan.*

Xan "əmniyyət müdirini" çağırır, toyuğun tapılıb gətirilməsini əmr edir... Çox keçmir ki, qarının toyuğu həqiqətən tapılıb özünə qaytarılır...

...Buna bənzər şikayətlər davam edir, Xan üç gün şikayətçilərin dərdini dinləyir. Meydanın bir tərəfində cavan oğlanlar, o biri tərəfində isə yaşlı kişilər cərgə ilə düzülür, əl-ələ tutaraq zurna-balaban çalğısıynan yallı gedirlər. Hər dəstənin də başında əlində yaylıq, özünə güvənən bir igid dayanır. Əgər dəstənin axırında, ya ortasında kimsə cərgəni pozub, dala qalsa, onda Xan həmin şəxsi cəzalandırır. Ya həmin şəxsin kürəyinə şallaq vurulmalı, ya o, mahnı oxumalı, ya da cərimə ödəməlidir. Xanın əmri qətidir, heç kəs onun əmrindən çıxa bilməz və heç kim də onun sözünün qabağına söz deyə bilməz. Camaat "cəza alası" adamı gözdən qoymayıb, əmrin yerinə yetirilməsini səbrsizliklə gözləyir. Cəzalanan şəxs isə camaat arasında pərt olmasın deyə, ya mahnı oxuyur, ya da camaata bir səbət yumurta, bir qab səməni, yaxud halva verməknən canını qurtarır.

Sonra kim öz gücünə arxayındısa, irəli çıxır və musiqi sədaları altında əl-qolunu ata-ata meydanı dörd dolanır, özü ilə güləşəcək pəhləvan axtarır. Xalq arasında zarafatı, duzlu-məzəli söhbətləri ilə tanınan bir nəfəri meydana dartırlar ki, güləşsin. Bundan sonra əsl tamaşa başlanır. Güləşənlər qurşağa qədər soyunur, əl-ələ verib görüşür, ya da elə paltarda, zurna-balabanın sədaları altında əl-qollarını ölçə-ölçə meydanda gərdiş edirlər. Gah bir-birinə yaxınlaşıb, döşləşir, gah da aralanıb, yenidən meydanda var-gəl edirlər. Camaat da hay-küy salır, hərə öz tanıdığı, dəstəklədiyi adamın adını çəkir və "Hə, qorxma, tut belindən, qaldır yuxarı, olmadı, bir də" deyə-deyə onları həvəsləndirir. Bu zaman güləşənlərdən biri cəld tərpənib rəqibinə badalaq vurur, onu başı üstünə qaldırır və üç dəfə fırladıb, ehmalca yerə qoyur. Meydandakı camaat əl çalaraq qalibi alqışlayır. Xan isə öz növbəsində qalibi şarf, pul, bir cüt corab və başqa şeylərlə mükafatlandırır.

Bu mərasimdə Xanla təlxək, keçəllə kosa arasında olan deyişmələr də maraqlı olub, tamaşaya xüsusi gözəllik gətirir... Xan meydanın boş olduğu bir məqamda üzünü təlxəyə tutub deyir:

Gətir xonça, tabağı,
Hər matahda nəyin var.
Gəlib bizi görməyə,
Təbrizdən qonağım var.

→

Təlxək bir sıra oyun və him-cimlə üz-gözünü əyib Xana deyir:

Şəkərbura, paxlava,
Dadlı qayğanağım var.

Bundan sonra isə meydanda keçəllə kosa arasında tamaşa başlanır. Keçəl oxuya-oxuya meydana girir:

Ay kosa, varım, yoxumdu
Təkcə bir bu çuxamdı.
Apar məni ehsana...

Kosa tərsinə kürk geymiş hazırcavab, eyni zamanda çox xəsis bir adamdır. Başında uzun motalı papaq, ayağında taxta başmaq var. Boynundan zınqırov asılıb. Paltarının altından qarnına yastıq bağlayıb. Əlində bəzəkli qırmızı çömçə adamların arasında gəzişir. Keçəli eşidən kosa ona belə cavab verir:



Öz malıma qıymaram,
Yad süfrədən doymaram.
Müftə yumurta olsa,
Qabığını soymaram.

Keçəl kosanın xəsisliyini görüb onu tərifləyir:

Ay uyruğu, uyruğu,
Əritmişəm quyruğu.
Saqqalı it quyruğu,
Bığları yovşan kosa,
Gözləri dovşan kosa.

Keçəllə kosanın məzhəkəli oyun və tamaşaları başa çatır.

Yeniyetmə cavanlar isə meydandan kənara çəkilib, hərə öz tay-tuşu ilə ciblərindən yeddi rəngə boyanmış, bişmiş yumurta çıxarıb, döyüşdürür və sınmış yumurtaları papaqlarına doldurub, ya meydanda ucuz qiymətə satır, ya da evlərinə aparıb özləri yeyirlər. Belə deyirlər ki, hər kəs bu bayramda üç ədəd boyanmış yumurta yeməsə, işi düz gətirməz.

Bu mərasim zamanı meydanlarda adam əlindən tərpənmək olmur. Meydanlar dolub-boşalır və təzə qonaqlar gəlir. Meydanların giriş qapısında, əlində müxtəlif şirniyyatlar, bükmə, paxlava ilə dolu məcməyi tutmuş bir nəfərsə şənliyə gələnlərə yaxınlaşır, konfet, xoruz, ördək, qaz formasında şirni olan məcməyini onların qabağına tutur və hər kəsə "Bayramınız mübarək olsun" deyir. Adamlar da bir-iki konfet götürür, ağızlarını şirin edir və "Sənin də bayramın mübarək olsun" deyib tamaşaçılara qoşulurlar.

Bəzən elə olur ki, Xanı taxtdan salmalı olurlar. O, güldüyünə, yaxud məclisi idarə edə bilmədiyinə görə taxtdan salınır və əvəzinə yeni Xan seçilir. Bu yeni Xan ədaləti daha əzmlə bərpa edir. Çoxlu şikayətçi qəbul edir və ədalətli qərarlar çıxarır. Tamaşa bayramın sonuncu günü çox nikbin sonluqla başa çatır. Xan gələn Novruza qədər ölkədə ədalətin və əmin-amanlığın davam edəcəyinə əminliyini bildirir və xalqı bayram münasibətilə təbrik edir. Meydanda yenidən gur musiqi səsi ucalır, adamlar bir-birini təbrik edir, hardansa təlxəyin lap uzaqlardan gələn səsi eşidilir:

Gəldi hamıya müjdə, xoş xəbər,
Haydı hamımız iş başına hər səhər.

Özündə bir çox xalq təqvimi məsələlərini, tarixi məqamları, xalq inanc və mərasim ənənələrini birləşdirən Xanbəzəmə Ordubadın **(Xanbəzəmə - Azərbaycanın qeyri bölgə toy-bayramlarında da oynanılır - red.)** özünəməxsus gələnəklərindən biridir. Bu mərasimin təbliği milli-mənəvi yaddaşımızda xüsusi dəyəri olan adətlərin yaşadılması və gələcək nəsillərə ötürülməsində mühüm rola malikdir. Bu mənada, tariximizin ən çətin məqamlarında belə qəlblərdə yaşayan, yaddaşlardan silinməyən bayram və mərasimlər, inanırıq ki, bundan sonra da birlik və bütövlük rəmzi kimi xalqımızın yaddaşında əbədi yaşayacaqdır...

**Sahab Əliyeva**
**Naxçıvan şəhəri**

**Vaqif Əlixanlı**

# DÜNYANIN YAZI...

...Bizim kəndin ətəyi ilə Babadağından baş alıb gələn çay axır. Və çayın zümzüməsi hər fəsildə, hətta qışda, donub kükrəmiş buzun altından belə kəndin qulağındadı. Novruz gecəsindən sonra ahıllar deyərdi, - gördüzmü, bir gecənin içində çayın səsi də dəyişdi. Yaponiyadan tutmuş ispanlaracan. Yazın gəlişi el-obanın nəzərindədi. Məsələn, yaponlarda baharın nəfəsi çəltik zəminlərində qurbağaların qurultusu ilə ayarlanar. Heç uzağa getməyək, kitabı açsaq, bunu yapon poeziyasında - elə hoqquların özündə görərik.

Şərqin bəzi ölkələrində Novruzqabağı xoruz döyüşdürəllər. Axı çox yerdə xoruz - günəşin timsalıdı. Bizdəki şəkərburanın üstündəki naxışlar da Yaz günəşinin saçaqlarıdı ki var.

Bəzi isti ölkələrdə belə bir sınaq var - yazbaşı çəməndə gül-çiçək bir-birinə qovuşsa, deməli bar-bəhər bol olacaq. Dədə-babadan qalma adətdi - Novruzun şumu başlayanda, xışın, ya kotanın ağzına yumurta çalınar, ya da yumurtanı şuma basdırallar. Belə vaxtda çöllərin yovşanı yolunub evə gətirilsə, yazın ömrü guya uzun çəkər, "yaz qarımaz" deyəllər. İndi bilinmir necə qalıb, ya qalmayıb, amma əvvəllər qapının üstündən, ya doqqazdan bir qopma kömür asılardı ki, cin-şəyatin qorxub evə girməsin. Novruzun üç günü evin başıörpəklisi tikiş tikməz, iynəyə sap keçirməzdi... Novruz günlərində beldən qılınc-xəncər asılmaz. Ocağın köhnə külü götürülər, yerində novruz ocağı çatılardı. Evlərdə səməni ilə yanaşı, arpa sıyığı bişirilər. Novruzacan darda olan xanalar kəsilər, xalı-xalçalar toxunub qurtarar, bayramdan sonra ilmə vurulmazdı. Novruz günlərində bala doğan inəklərin ağız südü təmiz torpağa əndərilərdi ki, qismətə ağca, bəxtəvər günlər çıxsın. Qurumağa meyilli, bar gətirməyən ağacların üstünə balta çəkilər ki, guya kəsilib odun olacağından qorxub göyərsin, çiçək açıb bar gətirsin. El-obanın qız-gəlini, barsız, qısır ağac sayılan söyüdün təzə pöhrələrindən qırıb hörüklərinə toxuyar ki, söyüd bar gətirən ağaclara baxıban köks ötürməsin, paxıllığı tutmasın. Guya hörüyünə söyüd pöhrəsi hörən qız-gəlin "qocaldım" deməz, hansı evə gəlin getsə, ayağı düşərli, sayalı olar.

...Qədim türk ulusunda Yazın gəlişiynən bağlı baş tutan şülənlərin demək olar ki, hamısı, bu günkü dilnən desək, döyüş ruhunda olub. Yazağzı bütün məmləkət boyu güləş yarışları keçirilərdi. Ordunun düzümünə baxış olardı. Bu günkü dilnən desək, hərbi parad; hökmdarın gözü qabağında hərbi qurumlara, hökmdar cəriyinə layiq olanlar seçilərdi.

... Bayram günləri oxatma yarışları baş alıb gedərdi. Ox hədəfə dəyəndə yarışa göz qoyanlar "ox-yay" deyib haraylar, qələbəni bu cür saya sayardılar. Bəlkə elə bizim "cana sinmək" kimi işlətdiyimiz "oxxay" kəlməsi də ordan qopub gəlir?! Kim bilə...

Mənə qalsa, ən maraqlısı ulu türk xaqanı Xan Xubilay əyyamında olub. Yazın gəlişiynən bağlı hər il Xan Xubilay cıdır keçirərmiş. Əvvəlcə ulus və oymaqlarda, sora da seçilmişlər paytaxtda... Cıdıra çıxanlar atı 7 yerişnən sürməliydi. Yorğasından tutmuş, dördnalacan. Atı sürüb-sürüb şahə qaldırmaq da bir cürəsiydi... Onu da deyim ki, dünyanın bu günkü atçılıq idmanında bunların hamısı demək olar ki, sürülür. (Biz harda qalmışıq - orası ayrı söhbətdi). Ən maraqlısı ondaydı ki, qaydaya görə gərək miniklərin, yəni at sürən oğlanların yaşı 12-dən yuxarı olmayaydı. Novruz bayramının özü də ayrıca İnsan taleyi yaşamış kimidi. Tarix boyu bəziləri onu əsl bayram gözündə görüb, bəziləri əksinə - Novruzu tanımaq istəməyib. Səlcuqlar dövründə, Sultan Alp Arslan, onun oğlu Sultan Məlikşah Novruz bayramını necə təmtəraqla keçiriblərsə, Məlikşah öləndən sonra onun yerinə çıxan oğlu Böyküyarıq demək olar ki, Novruza qadağa qoyub - yəni keçirirsiz keçirin, amma səməni göyərtmək yasaqdı. Həm də şamsız, odsuz-alovsuz; Bir-birinin evinə gedib bayramlaşmaq da məsləhət deyil. Belə münasibət bizə ötən yüzildən, yəni Sovetin bizə bozartdığı üzdən bəllidir...

Nə yaxşı ki, bu gün elin-obanın bu gözəl bayramı həyət-bacamıza, ev-eşiyimizə, hər birimizin ömrünə ayaq açır, Təbiətin, Yaradanın lütfünü, şəfqətini bizə çatdırır, heç birimizdən əsirgəmir...

# DÜNYANI BƏZƏYƏNLƏR



*Əsl gözəllik öz ətrafında da gözəllik toxumlarını əkir, gözəlliyin bağını salır...*

---

*Gözəlliyə yanlış və yarımçıq baxmaq... onu yalnız gənclik çağında görməkdir. Halbuki, o insanla yaşa dolur, qocalır, kamillik həddinə çatır;*

---

*Meyvələrin rəngi - onların dadının, çiçəklərisə - onların ətrinin şəklidir...*

---

*Təbiətdən ayrılan sivilizasiya, ana döşündən qoparılan südəmər kimidir...*

---

*Gözəllik həyatın bəzəyi deyil, özəyidir;*

---

*Gözəlliyi yaşada bildikcə yaşayırıq...*

***Rahid Ulusel***
***"Narın düşüncələr"dən...***



**İsa Həbibbəyli**
**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik**

## AZƏRBAYCANIN VƏ DÜNYANIN TAHİRİ...

*sərt realizmdən - romantizmə...*

Çoxəsrlik Azərbaycan təsviri sənət tarixində dünya şöhrətli görkəmli rəssam Tahir Salahovun yaradıcılığı xüsusi bir mərhələ təşkil edir. Qürur hissi ilə demək olar ki, Tahir Salahov təkcə Azərbaycanda deyil, dünya miqyasında şöhrət qazanmış, özünün böyük sənət məktəbini yaratmışdır. Keçmiş sovetlər ittifaqında və Qərbdə Tahir Salahov sərt realizm cərəyanının əsas yaradıcısı kimi qəbul olunub. Haqlı olaraq bu görkəmli sənətkar öz orijinallığına və böyük xidmətlərinə görə dünyanın ən məşhur rəssamları ilə müqayisə edilir. Azərbaycan, eləcə də keçmiş sovet rəssamlığında Tahir Salahovun xüsusi yeri və özünəməxsus mövqeyi vardır. Tahir Salahov Azərbaycan təsviri sənətinə həqiqi dünya şöhrəti qazandırmış əvəzolunmaz sənətkardır.

Böyük fırça ustası hələ sovet hakimiyyəti illərində bəlkə də rəssamlıq sənəti üçün təsəvvür edilməyən çətin mövzularla həyatın görünməyən və ya az görünən tərəflərini tünd boyalarla sənətdə ifadə etmək vəzifəsini ciddi bir iradə ilə həyata keçirmişdir. İstifadə etdiyi rənglərin tündlüyünə və ya təsvir etdiyi mövzuların gərginliyinə, həmçinin rəsmlərindəki çətin həyat notlarının bədii ifadəsinə istinad edərək, Tahir Salahov "sərt realizm" cərəyanının yaradıcısı kimi qəbul edilir.

Tahir Salahovun timsalında meydana çıxmış "sərt üslub" sənət nəzəriyyəsi baxımından "sərt realizm" mənasını daşıyır. Tahir Salahov özü də "sərt realizm" yaradıcılıq üslubunu stalinizmdən sonra meydana çıxmış və həyat həqiqətlərinə əsaslanan bir yaradıcılıq istiqaməti hesab etmişdir. Onun fikrincə, "bu istiqamət Sovet İttifaqında 1950-ci illərin sonunda, Stalinin ölümündən sonra yaranmışdır. O vaxta qədər hamı belə alışmışdı ki, təsviri sənət insanı ancaq sevindirməlidir. Bizim nəsil "yumşalma" dövrünü keçmişdir və həqiqəti, o cümlədən sərt gerçəkliyi göstərmək istəmişdir. Lakin bu sərtlik - o da nikbinlikdir, ancaq həyatın reallığından doğulur... Tədricən bu məktəb qəbul olundu."

→

Tahir Salahovun yaradıcılığına aid edilən "sərt realizm" anlayışı ədəbiyyatda və incəsənətdə sovet hakimiyyətinə qədər mövcud olmuş tənqidi realizm kökündə sovet gerçəkliyi üçün səciyyəvi olmayan bir sənət cərəyanı idi. Tahir Salahov istehsalat mövzusu fonunda yaratdığı böyük sənət şedevrləri ilə sosialist realizmi şəraitində tənqidi realist istiqamətini inkişaf etdirməyi bacarmışdır. Lakin, keçmiş sovet ideologiyası zama-nında bunu - tənqidi realist olmağı açıq etiraf etmək mümkün deyildi. Bununla belə, Tahir Salahovu həm rəsmi, həm də realist rəssam olduğunu qeyri-rəsmi şəkildə olsa da, əksəriyyət həmişə qəbul etmişdir. Görkəmli sovet rəssamlarından Pavel Nikonov, Viktor İvanov, Qeliy Korjev və başqaları da sərt üslubda orijinal tablolar çəkmişlər. Lakin bütövlükdə rəssamlıqda İttifaq miqyasında "sərt realizm" sənət məktəbini yaratmaq Tahir Salahova məxsus mühüm xidmətdir.



Tahir Salahov təsviri sənətdə fikir, düşüncə, ideya, mövqe rəssamlığının qüdrətli yaradıcısıdır. Onun hər əsərinin sadəcə olaraq yaxşı, cəlbedici mövzusu və ya görüntüsü yox, daha çox öz mənası, fəlsəfəsi vardır. Bu mənada Tahir Salahov mütəfəkkir rəssamdır. O, mütəfəkkir sənətkar olduğunu sənət haqqındakı elmi-nəzəri görüşləri ilə deyil, təsviri sənətin, rənglərin dili ilə ifadə etdiyi dərin, sərt və müdrik fikirlərlə nümayiş etdirir.

Tünd rənglər, sərt cizgilər Tahir Salahov tablolarının əsas bədii ifadə vasitəsidir. Seçilmiş mövzuların və obyektin ciddiliyi ilə rənglərin sərtliyi Tahir Salahovun sənətində bir-birini üzvi surətdə tamamlayır. Tahir Salahov dalğanı, qasırğanı, tufanı, təlatümü öz rəngində, bütün təbiiliyi ilə təqdim etməyi bacarır. Adam onun bir-birindən fərqli mövzularda çəkilmiş əsərlərinə baxanda özünü sanki həmin təsvir olunan mühitdə hiss edir.

Xalq rəssamı Tahir Salahovun sənəti əslində onun yaradıcılığında aparıcı olan üç rəngin harmoniyası üzərində qurulub: qara, qırmızı və ağ. Doğrudur, Tahir Salahov digər rənglərdən də yerli-yerində istifadə etməkdə mahirdir. Lakin əsərlərindəki digər rəng effektləri onun sənəti üçün xarakterik olan qara, qırmızı və ağ rənglərin kölgəsində qalmış və bu əsas rənglərin çaları kimi köməkçi rənglər funksiyasını daşımış, ayrı-ayrı əsərlərdə aparıcı rənglərin ifadə etdikləri mənaların daha aydın və cəlbedici şəkildə çatdırılmasına yardımçı olmuşlar...

Tahir Salahov rəssamlıq fəaliyyətinə nisbətən açıq rəngdə çəkdiyi əsərlərlə başlamışdır. Onun 1957-ci ildə Surikov adına Rəssamlıq İnstitutunda tələbə ikən diplom işi kimi çəkdiyi "Növbədən qayıdarkən" adlı tablosunda tündvari açıq rənglərdən istifadə olunmuşdur. Əslində diplom işi kimi əla qiymətə layiq görülmüş "Növbədən qayıdarkən" tablosu Tahir Salahovun yaradıcılığı üçün xarakter olan bir çox keyfiyyətləri özündə cəmləşdirir. Əvvəla bu, sonralar Tahir Salahovun yaradıcılığında geniş yer tutan Xəzər mövzusunun mükəmməl bir başlanğıcıdır. Nisbətən açıq rəngdə çəkilməsinə baxmayaraq, bu əsərdə işdən qayıdan insanların yorğunluğu və iradəsi bütün sərtliyi ilə ifadə olunmuşdur. "Növbədən qayıdarkən" tablosu Tahir Salahovun yaradıcılığındakı "sərt üslubun" ilk klassik nümunəsidir. Bir də ki, əsasən açıq boya ilə çəkilmiş bu əsərdə sonralar Tahir Salahovun yaradıcılığında üstünlük qazanmış qara, qırmızı və ağ rənglərin ilkin cizgilərini görmək mümkündür.

Diqqətlə izləsək, görərik ki, Tahir Salahovun yaradıcılığında uzun illər qara rəngdən istifadə daha qabarıqdır. Sənətkarın daha çox →

müraciət etdiyi Xəzər və neft mövzusu, neftçi və fəhlə obrazları ilə yağlı qara boya bir-birini tamamlayır. Həm də Tahir Salahovun yaratdığı sərt realist üslub üçün də tünd və qara rənglərdən yaradıcı şəkildə istifadə etmək yerinə düşür, müraciət olunan mövzunun və ya obrazın əsas cizgilərini canlandırmağa xidmət göstərir.



Məşhur "Səhər eşalonu" (1958),"Neftçi" (1959), "Təmirçilər" (1960), "Qara Qarayev" (1960), "M.Ə.Sabir" (1962), "Qız qalası" (1969), "Yeni dəniz" (1970), "Nardaran kəndi" (1974), "Venetsiya. Böyük kanal" (1979), "Babək" baletinə eskiz" (1983), "Çikaqo" (1987), "Parisin payız görkəmi" (1989), "Firidun Şuşinskinin portreti" (1994) və sair bu kimi əsərlərdə qara və ya tünd rənglər - mövzunun bədii həllində aparıcıdır. Nəticə etibarilə qara rəng Tahir Salahov sənətində həyatın təsviri, cəmiyyət hadisələrinə sənətkar mövqeyinin ifadə olunmasına münasib şərait yaradır. Qara rəngin yaratdığı ovqat Tahir Salahov sənətində ciddilik, gerçəklik kimi mətləbləri ifadə etməkdədir.

Tahir Salahov sənətində qırmızı rəngin də özünəməxsus yeri və mənası vardır. Doğrudur, Tahir Salahovun əsərlərində digər rənglərlə müqayisədə qırmızı rəng nisbətən az işlənir. Halbuki tünd qırmızı rəng Tahir Salahovun realizmi, daha doğrusu, "sərt realizmi" üçün daha münasib rəng hesab oluna bilərdi. Ancaq Tahir Salahov öz əsərlərini tünd qırmızı rəngə boyamaqdansa, fikirlərini yerli-yerində, öz ölçüsündə, kiçik miqyasda işlətdiyi qırmızı rənglə ifadə etməyə üstünlük verir. Məsələn, onun "Neftçi" adlı əsərində (1959) bütün cizgiləri mazut rəngində olan Bakı neftçisinin yalnız müştüyünün qırmızı rəngdə olması sovet dövründə



Azərbaycan neftinin sümürülüb daşınma mətləbini dolğun şəkildə ifadə edir. Sovet dövründə isə neftçinin qırmızı müştüyü neft sənayesində çalışan bolşevizmin rəmzi, fəhlə əməyinin zəhmətini nikbin bədii ifadəsi kimi qiymətləndirilmişdir. Yaxud, məşhur «Bəstəkar Dmitri Şostakoviçin portreti»ndə (1976) təsvir olunmuş qırmızı divan dahi sənətkarın narahat həyatını dəqiq şəkildə mənalandırır. "Xalq şairi Rəsul Rzanın portreti"ndə (1971) kiçik qırmızı qələm azadlığa, müstəqilliyə meylli sənətkarın əsərlərində örtülü şəkildə qan qoxulu ciddi mətləblərin, ictimai fikirlərin ifadəsini nəzərə çatdırılır. Bir sıra rəsm əsərlərində qırmızı rəngdən istifadə etməsə, yaxud edə bilməsə də, T.Salahov qurduğu kompozisiyaya müxtəlif vəziyyətlərdə təqdim olunmuş, yaxud emalatxana şəraitində bankanın içərisinə salınmış qırmızı fırçanı daxil etməklə, öz sənətkar düşüncəsini ön plana çəkir. Belə məqamlarda fırçanın ucu boyda olan qırmızı rəngin daşıdığı məna təqdim olunan rəsm əsərinin zahiri görkəmində yox, assosiativ şəkildə, şüuraltı səviyyədə öz əksini tapır. «Bəstəkar Qara Qarayevin portreti»ndə (1960) qırmızı rəng yoxdur. Lakin Tahir Salahov royalın üstündə fırçalardan birini təsvir etməklə, dünyaşöhrətli bəstəkarın dərin fəlsəfəsini nəzərə çarpdırmağa müvəffəq olur. Bu portretdəki rənglərlə və qırmızı rənglə Qara Qarayevin məşhur "İldırımlı yollarla" baletinin ideyası arasında yaxınlıq duyulur.

→

Fikrət Əmirovun portretini çəkərkən də (1967) bu görkəmli sənətkarı qırmızı köynəkdə təqdim etmək heç də səbəbsiz olmayıb, onun yaradıcılıq qayəsini, xüsusən vətəndaş sənətkarın mühitlə münasibətini mənalandırır. Abşeron motivləri silsiləsindən altmış-əksəninci illər arasında çəkilmiş tabloların çoxunda cüzi şəkildə istifadə olunan, bəzən hətta nöqtə boyda nəzərə çarpan qırmızı rəngdən zor dönəmdə xalqın öz sərvətlərinə sahib olmasının çətinlikləri örtülü tərdə çatdırılır. Tahir Salahovun yaradıcılığında XX əsrə aid sönükmüş Abşeron kəndləri, adam gözə dəyməyən dənizkənarı bağlar, uçub dağılmaq təhlükəsi ilə üz-üzə qalan qədim Abşeron abidələri tünd, sərt rəng və cizgilərlə kətan üzərinə köçürülür. Tahir Salahov bu qəbildən olan əsərlərində yalnız öz imzasını qırmızı rənglə yazmaqla kifayətlənir ki, əslində bu da böyük ürək yanğısının, vətəndaş narahatlığının ifadəsidir. Tahir Salahovun natürmort üçün də iri qırmızı bibəri seçməsi özlüyündə ideya-fəlsəfi mahiyyət daşıyır. Tahir Salahovun əsərlərində qırmızı rəng sözsüz ki, açar rolunu oynayır. Qırmızı rəngin çalarlarına nüfuz etmədən, Tahir Salahovun yaradıcılıq qayəsini demək istədiyini tam mənası ilə dərk etmək çətindir.



Onu deyək ki, Tahir Salahovun yaradıcılığında tünd qırmızı rənglə açıq qırmızının məna çalarında fərqlər vardır. "Ana" portretində çəkərkən, balaca Aydanı kətan üzərində canlandırarkən, "Koroğlu" operası üçün geyim eskizləri çəkərkən (1975) görkəmli rəssamın istifadə etdiyi açıq qırmızı rəng - milli düşüncəni, xalqın ümid və arzularını mənalandırmağa xidmət göstərir. "Çiçəkləyən nar" rəsmindəki (1978) yaşıl yarpaqların arasında işıq kimi yanan qırmızı çiçəklərdə də nikbin notlar qabarıqdır. "Naxçıvan dağları" rəsmində (1971) qırmızı rəng Naxçıvan təbiətinin özünəməxsus fərqli görkəmi ilə yanaşı, həm də qürur və əzəməti ön mövqeyə çıxarır. Başqa məqamlarda isə rəssamın qırmızı hərflərlə yazılan imzasından həm də sovet dövründə senzuranı yayındırmaq üçün orijinal fənd kimi istifadə olunmuşdur.

Deмək olar ki, Yer üzünü başdan-ayağa gəzib görmüş böyük sənətkarın beynəlxalq mövzuda çəkdiyi çoxsaylı əsərlər ilk növbədə Azərbaycan xalqını Yer kürəsinin müxtəlif guşələrində yaşayan xalqların, insanların həyatı ilə tanış etmək istəyindən yaranıb. Bununla belə rəssam bilərəkdən əcnəbi mühitdən alınma mövzular vasitəsilə milli azadlıq, müstəqillik düşüncələrini ifadə üçün fürsət tapır. Məsələn, keçmiş Çexoslovakiya həyatından alınmış əsərində Praqa şəhərinin təsvirindən daha çox, o vaxt sovet qoşunlarının Mərkəzi Avropadakı işğalçılıq niyyətlərinə etiraz notları səslənməkdədir. Bu əsərdəki qara kabus kimi görünən vahiməli tankın gəlişi döngədə təsvir olunmuş «Stop» - yol nişanı hərəkəti tənzimələyən işarədən çox, işğal-çılıq, təcavüzkarlıq niyyətlərinə son qoyulma fikrini mənalandırır...

Tahir Salahovu görkəmli Azərbaycan rəssamı, qüdrətli fırça ustası kimi bütün dünya tanıyır. Deməli, Tahir Salahovun sənəti vasitəsilə beynəlxalq aləm, həm də Azərbaycanı bir daha tanımaq imkanı qazanır. Mövzusundan, üslubundan, yanaşma tərzindən asılı olmayaraq, Tahir Salahovun əsərlərinin çoxunda bir parça, bir ovuc, bir yaxı, bir cizgi, Abşeron ovqatı mövcuddur. Onun tablolarının hər biri təsviri sənətimizdə hadisə kimi qarşılanıbdır. Əslində Tahir Salahovun tünd rənglərlə ifadə olunan "sərt realizmində" Abşeron cizgiləri, Xəzər notları Vətən sevgisini, ümidi və inamı, əzmi-iradəni dolğun şəkildə ifadə edir...

Tahir Salahov sənətində müəyyən lirizm, romantika elementləri də müşahidə olunur. Bu isə öz növbəsində Tahir Salahovun tablolarında ağ rəngdən istifadə üçün zərurət yaradır. Sovet hakimiyyəti illərində Tahir Salahovun yaradıcılığında ağ rəngin bir neçə çaları diqqət mərkəzindədir. O, ağ rəngdən daha çox Abşeron mövzusunda çəkdiyi tablolarda faydalanır. Bu rəng Tahir Salahova əyri-üyrü Abşeron küçələrini, Abşeron qadınlarını, əncir bağlarını, üfüqü, çiçəkləri göstərmək üçün lazım idi... ⟶



Onun tablolarında tünd, qara rənglər içərisində bir az ağartı heç vaxt təsadüfi olmayıb, tamaşaçıya əsas mətləbi "diqtə" etməyə xidmət göstərib. Bundan başqa, ona "sərt realizm" üçün qara və ağ rənglərin təzadını yaratmaq üçün də bu lazım idi. Yəni Tahir Salahovun rəsmlərində ağ rəng əslində qara rəngi daha qabarıq göstərməyə xidmət göstərib. Məsələn, "Aydan rəsm çəkir", "Köhnə Ramana", "Xəzərdə qayalar"ında ağ rəng - təzadı və işığı mənalandırmağa yol açır. Tahir Salahovun 2007-ci ildə çəkilmiş "Odlar yurdu" kompozisiyasına daxil olan "Atəşpərəstlər məbədi", "Xəzər bu gün", "Qız qalası" silsiləsində ağ rəng - al rəng effektinə çevrilir. Burdakı ağ və al rənglər Müstəqil Azərbaycan Respublikasının təntənəsini bütün reallığı ilə diqqətə çatdırır. "Bağ çiçəkləri" (2005) tablosundakı ağ çiçəklər də kompozisiyaya daxil olan digər rəngləri çiçəklərlə harmoniyanı nəzərə çarpdırmağa xidmət göstərir.

Diqqət edilsə, son onilliklərdə Tahir Salahovun yaradıcılığında tünd rənglərlə müqayisədə açıq qırmızı və ağ rəngdən istifadə göz qabağındadır. Tahir Salahovun lövhələrində yalnız son illərdə meydana çıxmış yaşıl rəng də onun rənglər epoxasından uzaqlaşma göstəricilərindən biridir. Bütün bunlar Tahir Salahovun yaradıcılığında "sərt realizmdən" romantizmə dönüşün baş verdiyini nümayiş etdirir. Daha doğrusu, hazırkı mərhələdə Xalq rəssamı Tahir Salahov realist-romantik sənətkar kimi yeni dövranı və müasir insanı ilhamla vəsf etməkdədir.

Hazırda Azərbaycan Respublikasının, eləcə SSRİ-nin Xalq rəssamı, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahov həyat və yaradıcılığının ən bitkin və kamil dövrünü yaşayır. Uzun illər Azərbaycanın və SSRİ-nin Rəssamlar İttifaqına sədrlik etmiş, Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti kimi elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirən qüdrətli fırça ustası yeni nəsil rəssamların yetişib formalaşmasına və rəssamlıq sənətinin inkişafına misilsiz töhfələr bəxş etməkdədir. O, Azərbaycanın və dünyanın bir çox ölkələrində, o cümlədən Rusiyada, Fransada, Almaniyada, İspaniyada, Bolqarıstanda, Avstriyada və başqa ölkələrdə Beynəlxalq Akademiyaların, elmi və yaradıcılıq qurumlarının üzvü seçilmiş, yüksək mükafatlara layiq görülmüş, dəfələrlə SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı seçilmişdir.

Azərbaycanda Xalq rəssamı Tahir Salahovun çoxcəhətli elmi-pedaqoji və rəssamlıq fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı ilə Tahir Salahov ölkəmizin ən yüksək mükafatı olan Heydər Əliyev ordeni ilə təltif olunmuşdur. Tahir Salahov Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimidir. Görkəmli rəssam həm də Azərbaycan Milli Elmlər Akademiyasının Üzeyir Hacıbəyov adına mükafatını almışdır.

Xalq rəssamı Tahir Salahov özünəməxsus sənət dünyası və bənzərsiz rəngləri ilə Azərbaycan təsviri sənətinə Abşeron torpağından, Xəzərdən gəlib, görkəmli bir sə-nət-kar kimi sanki Xəzərdən doğan bir sənət günəşidir. Ümumiyyətlə, Tahir Salahovun misilsiz istedadının məhsulu olan hər bir tablosundan "neft qoxusu və əncir ətri" gəlir. Xəzər dənizi və Abşeron torpağı Tahir Sala-hov üçün ölkənin sadəcə bir parçası deyil, geniş mənada Ana Vətənin ümumi-ləşmiş rəmzidir. Günəş həyatı işıqlandırdığı və ona can verdiyi kimi, Tahir Salahovun əsərləri də cəmiyyətin dərin qatlarına, mühüm mətləblərinə gur işıq salır, həyata, insanlığa, düşüncəyə, dünyaya və ölkə gerçəkliyinə aydınlıq gətirir, həmişə işığa və tərəqqiyə səsləyir...



# TAHİR SALAHOV: "HƏR DƏFƏ MƏNƏ ELƏ GƏLİR Kİ, İLK ƏSƏRİMİ ÇƏKİRƏM..."

*"Ölməzlər Akademiyası" adlanan Fransa Zərif Sənətlər Akademiyasına SSRİ-dən cəmi üç nəfər üzv seçilib ki, onlardan biri həmyerlimiz Tahir Salahovdur. O həm də Amerika Birləşmiş Ştatlarının bir neçə şəhərinin və Montana ştatının fəxri vətəndaşıdır. Azərbaycan Rəssamlıq Akademiyasında bakalavr və magistrlər buraxılışı üzrə dövlət komissiyasına sədrlik edir. Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üzrə Dövlət Komissiyasının, Heydər Əliyev Mükafatı Komissiyasının üzvüdür. Azərbaycan Ensiklopediyasının redaksiya heyətinə də daxildir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvüdür. Əsərləri dünyanın mötəbər muzeylərində və qalereyalarında, şəxsi kolleksiyalarda saxlanılır. YUNESKO-nun nəzdində Millətlərarası Rəssamlar Federasiyasının vitse-prezidenti, 1997-ci ildə Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti seçilib. Elə buna görə də, çox zaman onu belə adlandırırlar: "İncəsənətimizin səlahiyyətli səfiri"*

*Sözün qısası, müsahibim Lenin mükafatı laureatı, SSRİ və Azərbaycan Dövlət Mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq rəssamıTahir Salahovdur.*

**- Tahir müəllim, atanız Teymur Salahov 1937-ci ildə repressiya qurbanı olub. Evdar qadın olan ananız Sona xanım beş uşaqla yalqız qalıb. O günləri xatırlamaq yəqin ki, sizin üçün ağırdır...**

- ...Uşaqlığım 1937-ci ildə bitdi. Sentyabrın 29-u atamı həbs etdilər və xalq düşməni damğası vurdular, bir ildən sonra iyulun 4-də isə güllələdilər. O illərdə ailəmiz Qasım İsmayılov küçəsindəki 7 saylı evdə, ikiotaqlı mənzildə yaşayırdı. Özum də bu evdə dünyaya göz açmışdım. İndiyədək həmin evin qabağından keçəndə uşaqlıq xatirələri gəlib durur gözümün qarşısında. Bəli, onda anam Sona xanım - evdar qadın beş uşaqla tək qaldı.... Atamın bəraətinə qədərki 20 il ərzində qapımızı bir nəfər də döymədi. Tək və köməksiz qalan anam olmazın əzablarla beş uşağı böyüdüb oxutdura bildi... Dünyada bütün analar bir-birinə bənzəyir. Amma hamı elə bilir ki, onun anasının tayı-bərabəri yoxdur. Mən də eləcə. Anam bizə həm də ata olub... Sonra müharibə... Təbii ki, beş uşaq anasının səhər erkəndən qecəyədək zavodda işləməsi asan deyildi. Hamımız qazancımızı anamıza verirdik... Kecib-qəldiyim yollarda qalan izləri düşünürəm, doğma ata-anamı xatırlayıram. Bu gün sənətin hansı zirvəsindəyəmsə, elə onlara borcluyam. Hər ikisinin ruhu qarşısında baş əyirəm...

**- Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinin ən istedadlı məzunlarından biri olmusuz. Həmin o vaxtkı məktəb yadınızda necə qalıb?**

- Necə qala bilər ki?! İlk sənət dərslərimi orda almışam. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində tanınmış pedaqoq - rəngkar ⟶

Baba Əliyevin sinfində oxumuşam və bu müəllimimi həmişə hörmət və ehtiramla xatırlayıram. Çətin həyat tərzinə baxmayaraq, o heç vaxt məndən öz diqqət və qayğısını əsirgəmirdi.Tez-tez deyirdi: "Bir az səbrli ol. Məktəbi bitirən kimi Moskvada, ya Leninqradda ali təhsil almağı unutma. İnanıram ki, səni böyük gələcək gözləyir. Amma məsləhətimə əməl etməsən, çox şey itirəcəksən..."



Moskvada, Surikov adına Rəssamlıq İnstitutunda oxumaq fikrindəydim. Bəxtim üzümə doğrudan da güldü. Mən bu mötəbər təhsil ocağının tələbəsi oldum. İnstitutu bitirdim, yaradıcılığın əzablı, çətin və keşməkeşli, eyni zamanda bəxtəvər və romantik yollarında daha ciddiyyətlə addım atmağa başladım.

**- Özünüzü rəssam kimi sınadığınız ilk tablonuz, kətan üzərində "Gecə növbəsindən qayıdanlar" adlı diplom işiniz olub. Deyilənə görə, məhz bu tablonuz sovet təsviri sənətində "Sərt üslub" deyilən yeni cərəyanın ilk və ən layiqli nümunələrindən sayılır...**

- Diplom işi kimi təqdim etdiyim "Gecə növbəsindən qayıdanlar" tablosu bədii ictimaiyyətin, sənət aləminin diqqətindən yayınmadı. Tənqid əsəri dəyərinçə qiymətləndirdi. Bu təbii ki, məndə özünəinam hissimi daha da quvvətləndirdi. O vaxtlar çox çətin dövr idi. Bildiyiniz kimi, sovet realizmi metodu incəsənətimizin hər sahəsinə nüfuz edərək sənətkarı qovub dar çərçivəyə sıxışdırır, onu eyni səpgili əsərlər yaratmağa məçbur edirdi. Düz deyirsiz, mən sənətə "sərt üslubun" yaradıcılarından biri kimi gəlmişəm. Sənətə gətirdiyimiz həmin yeni üslubla bağlı bizə çox təzyiqlər olunurdu. Hətta yeni nəsildən olan bir sıra rəssamların əsərlərinə qadağa qoyulmuşdu. Bu, bütün ölkənin sənət aləmində həqiqətən təşvişə səbəb olmuşdu. Və nə yaxşı ki, o vaxtlar biz respublikamızda rəssamları bu təhlükədən qoruya bildik.



**- Palitranızda portretlər çoxdur...**

- Hər hansı bir insanın portretini yaradarkən mən ilk növbədə onu hiss etməliyəm, yaxından tanımalıyam. Bu, ən vacib cəhətdir. Hər hansı portreti çəkərkən onunla mütləq daxili bir ünsiyyət qurmalısan. Bu ünsiyyət olmasa, portret də istənilən səviyyədə alınmaz. Mən əsl mənada dahi insanların portretlərini çəkmişəm.Və həmin insanların hər biriylə bağlı unudulmaz xatirələrim var. Ümumiyyətlə rəssam çalışmalıdır ki, portreti yaradarkən qarşısındakı insanın xarakterini, daxili dünyasını kətana köçürməyi bacarsın, onda portret də yaşayar və heç vaxt köhnəlməz. Bunun üçün məhz o həqiqət anını tutmaq, saxlamaq və əbədiyyətə qovuşdurmaq lazımdı. Dünya incəsənətində olan məşhur portretlərə nəzər salsaq görərik ki, yaşarı yalnız o portretlərdir ki, orada həyatın bircə anı həkk olunub.

**- Ustad, Sizi niyə "rənglər dünyasının hökmdarı" adlandırırlar? Ümumiyyətlə, rənglər aləmi əsərin ideoloji cəhətdən qavranılmasında həqiqətənmi mahiyyət kəsb edir?** →

- Əlbəttə ki... Məsələn, Qara Qarayevi çəkəndə bir müddət portreti hansı fonda, hansı baxışdan quracağıma qərar verə bilmirdim. Birdən sanki nəsə baş verdi və mən bütün kompozisiyanı ən xırda detallarına qədər gördüm. Dərhal Qara müəllimdən soruşdum: "Sizin ağ sviteriniz varmı?" Dedi ki, var. Və Qara müəllimin məhz həmin sviteri geyinməsi bütün kompozisiyanın həllində mənim əlimdən tutdu.

**- Yüksək bir peşəkar olaraq fərdi üslubunuzdan daha geniş bəhs etmənizi xahiş edərdik.**



- Sənətdə də, həyatda olduğu kimi, təsadüflər çox olur və hərdən bu təsadüflər hər hansı bir əsərin taleyini həll edir. Bir fikir də həmişə başımda dolanır: fərdi üslub əlamətləri sənətkarın ideya-bədii konsepsiyasında təzahür etməlidir. Çünki bu cəhət yaradıcılığın ifadə tərzində əsas amillərdən biridir. Qara Qarayevin portreti üzərində işləyərkən mən öz qəhrəmanıma məhz belə dərin fəlsəfi yanaşmanı əsas götürmüşdüm. Rəsul Rzanın portreti üzərində isə altı ay işlədim. O vaxtlar Rəsul müəllimin həyatında Ensiklopediyadakı işiylə bağlı müəyyən çətinliklər yaranmışdı. Həmin vaxt mən ona bir növ mənəvi dəstək olurdum və hiss edirdim ki, mən işləyəndə o sanki dincəlir, fikri dağılır. Və düşünürəm ki, həmin portret vasitəsi ilə mən Rəsul müəllimə xas olan daxili enerji və dinamizmi çatdıra bilmişəm...

**- Tahir müəllim, maraqlıdır, yaradıcılıq axtarışlarınızı hələdəmi davam etdirirsiniz?**

- Pikassodan soruşanda ki, siz nə axtarırsınız, o cavab verib ki, mən axtarmıram, tapıram. Zənnimcə hər rəssam öz imkanlarından irəli gələrək yazır-yaradır. Hər bir sənətkar daim axtarışda olmalıdır. Bunun üçünsə yalnız özünün qurduğu dar çərçivələrə qapanıb qalmamalıdır, başqa rəssamların yaradıcılığını da diqqətlə izləməlidir.

Qəribədir, qörən niyə 30-40 il öncəki hadisələri anmalı oluram? Məsələ burasındadır ki, ömrümin bu ahıl çağında əvvəlki xasiyyətimdən dönməmişəm. Sənət aləmində mürəkkəb bir mərhələ keçdikdən, yaradıcılıqda saysız-hesabsız müxtəlif səpgili əsərə imza atdıqdan sonra da özümdə arxayınlıq duymuram. Yəni necə vardımsa, eləcəyəm... Mən yaradıcılığın çox çətin, ağır, mürəkkəb və risqli yolunu qət etməli oldum. Bir tərəfdən sovet dövrünün yaradıcı sənətkarı üçün vaçib şərt sayılan "sosialist realizmi" prinsiplərinə "sadiq qalmaq" məcburiyyəti, diqər tərəfdən azad fikrin, həyat həqiqətinin bədii təcəssümünə çalışmaq istəyi çətindən çətindi. Çünki hər hansı sənətkarın hər hansı janrda yaratdığı bu və ya digər əsər "əbədilik" pasportu almaq üçün, təbii ki, ilk növbədə bəşəri ideallara söykənməli, dilindən, irqindən, dinindən, yerindən asılı olmayaraq, hər kəsin saf duyğularına təsir etməlidir.



**- Son illərdə çəkdiyiniz, yaradıcılığınızda ayrıca bir mərhələ təşkil edən tablolar Sizin portretlər qalereyanızı daha da zənginləşdirib. Şah əsərlərinizdən biri sözsüz ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin portretidir. Xahiş edərdik, bu barədə bir qədər geniş danışasız.**

- Yadımdadı, möhtərəm Prezidentimiz Heydər Əliyevin 75 illik yubileyi ərəfəsində buraya gəldim və həmin portreti də özümlə gətirdim. Prezident Sarayında görüş zamanı portreti Heydər Əliyeviçə təqdim etdim. Onunla çox səmimi, dostçasına söhbətimiz oldu. Həmin görüşdən sonra Bakıda, respublikada çoxları məndən soruşurdular ki, mənim bu əsərimi nə vaxt və harada görüb, tanış ola bilərlər? Bir müddət keçdi və mən xahiş etdim ki, portreti nümayiş etdirmək, xalqa göstərmək üçün mənə imkan yaratsınlar. Rüstəm Mustafayev adına Dövlət İncəsənət muzeyində portretin təqdimatı keçirildi.



Yaradıcılığım ərzində böyük tablolardan, müxtəlif mövzulu əsərlərdən əlavə, Azərbaycanın mədəniyyət xadimlərinin, habelə tarixi şəxsiyyətlərin, eləcə dünya mədəniyyətinin ən böyük xadimlərinin, seçmə adamların, ulduzların portretlərini də çəkmişəm. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin portreti planetimizin ən görkəmli insanları olan müasirlərimiz haqqında əsərlər qalereyasının davamıdır. Prezident Heydər Əliyevin portretində mən özünə inanan, iradəli, habelə qeyri-adi, nümunəvi bir şəxsiyyət olan dövlət xadiminin, böyük siyasətçinin gündəlik işgüzar fəaliyyətini əks etdirməyə çalışmışam. Onun şəxsiyyətində saydığım cəhətlər məni həqiqətən çox maraqlandırıb və bunları ifadə etməyə çalışmışam. Möhtərəm Heydər Əliyev həmişə sənət adamlarına qarşı çox diqqətli olub. Və deyim ki, mənim əsərim bütün rəssamlar adından Heydər Əliyevə minnətdarlıq əlamətidir. →

**- Üzünüzə deməк olmasın, belə bir fikir mövcuddur ki, sizin əsərləriniz tamaşaçının qəlbinə daha tez yol tapır. Bütün dünyada məşhur olan Tahir Salahovun bu fikrə münasibəti necədir? Həqiqətənmi belədir?**

- Qısaca deyim. Yəqin ki, bu, insanlara olan məhəbbətimdən sevgimdən irəli gəlir. Heç özum də bilmirəm ki, insanlara nə üçün bu qədər vurğunam və onları nə üçün bu qədər sevirəm. Bu cəhət təkcə mənim rəssam təbiətimdən irəli gəlmir. Hər dəfə əlimə fırça alanda mənə elə qəlir ki, ilk əsərimi çəkirəm...Qözlərimi yumub xəyalən ötən illəri vərəq-vərəq çevirəndə, sevincli-kədərli illəri, anları xatırlayanda təskinliyim bu olur ki, taleyin qisməti qaçılmazdır. Özümü dərk edən qündən əsas bir cəhət xasiyyətimin binə daşı olub - yalansız yaşamaq, həqiqət bayrağını uca tutmaq! Mən yalansız yaşamaq və insanı sevmək kredosu ilə həyat və yaradıcılıq tərzimi tənzimləyə-tənzimləyə ömrümü keçirmişəm və keçirməkdəyəm...Və dünyaya göz açan əsərlərim məhz belə bir duyğunun və həyat baxışının son nəticəsi kimi sənət nümunəsi olmaq hüququ qazanıb... Nə vaxtsa oxuduğum bir fikir həmişəlik yaddaşımda qalıb: "Sənətdə daimi qələbə yoxdur, qələbəni hər gün qazanmaq lazım gəlir".

**- Heç "ötəri əsərlərə" baş qatıb vaxtınızı öldürən anlar olubmu?**

- Heç vaxt öz fırçama, öz sənətimə xəyanət etməmişəm. Bu mənim bəlkə də xoşbəxtliyimdir. Ümumiyyətlə, həyatda çiddiliyi sevirəm. Kətan üzərində boyalar yaxanda da, doğmalara, dostlara və həmkarlara münasibətdə də ciddi yanaşma tərzi mənim əvvəldən xasiyyətimdədir.

Vaxtilə mən özümüzdə çox maraqlı rəssamların sərgilərini təşkil edirdim. Onların arasında dünya şöhrətli bir çox sənətkarların adlarını çəkə bilərəm. Axı bir zamanlar biz Sovet İttifaqının rəssamlarına müasir dünya incəsənətini tanıdırdıq. Bu qarşılıqlı zənginləşmə təsviri sənətimizdə bir çox yeni və parlaq simaların üzə çıxmasına təkan verdi.

**- Təsviri sənətin ən tanınmış ağsaqqallarından biri, daha doğrusu, birincisi olaraq, gənc rəssamların yaradıcılığı barədə nə deyə bilərsiz?**

- ...Uzun illər istər Azərbaycanda, keçmiş SSRİ-də, eləcə Rusiyada rəssamlıq təşkilatlarında rəhbər vəzifələr tutduğum illərdə, habelə Bakının, Moskvanın ali məktəblərində dərs dediyim dövrdə gənc rəssamların hazırlığı, istedadlı rəngkarların üzə çıxması, tanınması naminə qayğı və zəhmətimi heç vaxt əsirgəməmişəm. Bu da bir mənəvi ləzzətdir. İndi müxtəlif ölkələrdə və şəhərlərdə rastlaşdığım keçmiş tələbələrimin yaradıcılıq uğurlarının şahidi olanda qəlbim sevincdən köksümə sığmır...

Azərbaycan rəssamlıq məktəbi artıq ötən əsrin ikinci yarısında öz təsdiqini tapmışdır. Fəqət, həmin məktəbin bərqərar olması üçün uzun və ağır, mürəkkəb bir yol qət etmişik. Təbriz miniatür məktəbinin "həyata vəsiqə" alması çox şeyi anladır. Bütün dünyada sənət bilicilərinin heyrətinə səbəb olan miniatür sənətimiz şanlı bir tarixə malikdir. Memar Əcəmi Naxçıvani də, Bəhmənyar da, Bəhruz Kəngərli də bu sıradan Azərbaycan təsviri sənətinin yüksəlişində misilsiz xidmət göstərmişlər. Bu söhbətin mabədi olaraq XX əsrin əvvəllərində istedadı parlayan Əzim Əzimzadəni xüsusi məhəbbətlə yada salmalıyıq. Azərbaycan təsviri sənətində xeyli fırça ustası silinməz izlər qoymuşlar. Məhz onların yaradıcılıq dühası nəticəsində "Azərbaycan rəssamlıq məktəbi" termini özünü doğrultmuşdur. Bu məktəb indi daha qüvvətli bir realist yolla özünün növbəti inkişaf mərhələsini yaşayır...

**- Allah canınızı sağ eləsin. 90 illik ömür əvəzolunmaz sənətkar Tahir Salahova hansı duyğuları bəxş edib?**

- ...Hərdən öz-özümə sual verirəm: bir daha dünyaya gəlmiş olsaydım, yenə də rəssamlığı özümə sənət seçərdimmi? Şübhəsiz! Qoy dediyim sözlər, heç də ənənəvi cavab təsiri buraxmasın. Hərgah həqiqətən də mənə ömrümü bir daha təzədən yaşamaq şansı verilsəydi, indiki həyatımı bir də yaşayardım... Nə isə... Hər şey tale və qismətə bağlıdır. Bunu heç vaxt yaddan çıxarmaq olmaz...

**- Çox sağ olun. Tahir müəllim, bizə vaxt ayırdığınıza görə Sizə çox-çox təşəkkürlər. Yüz yaşayasız... Ondan da artıq...**

- Siz də sağ olun.

**Sorğunu Saminə Hidayətqızı apardı**




# Paşa Təbrizli: *O güzgüyə baxanda doğuldum...*

**Bir də gördün oğuldu adam**
**Bir də gördün atadı.**
**Bir də gördün yox oldu adam**
**Bir də gördün fotodu.**
**Ə. Salahzadə**

*Hələ XIX əsrdən inkişaf etməyə başlayan foto sənəti insanları unudulmağa qoymayan, zamanları adlayan, nəsildən-nəslə inamla ötürülən bir yaddaş kartıdır. Foto insanı reallıq qarşısında düşünməyə sövq edən, gerçəkliyi anladan, öz dolğunluğu, konkretliyi ilə müqayisə olunmayan bir sənətdir. Məşhur İspan rəssamı Salvador Dali fotoqrafiyanı "ruhun azad yaradıcılığı" adlandırırdı. Əvvəllər əllə yaradılmadığı, böyük zəhmət və zaman sərf edilmədiyi üçün sadəcə mexaniki vasitə kimi baxılan, yalnız məişətə daxil olan foto sənəti bu gün artıq incəsənətin bir qolu sayılır. Dünyanın bir çox ölkələrində, o cümlədən bizdə də foto sənətinə maraq böyükdür. Müxtəlif foto sərgilər, foto festivallar, müsabiqələr buna misal ola bilər. Bu günkü cəmiyyətin fotoqrafiyaya olan marağı və tələbatı isə heç nəylə əvəz oluna bilməz.*

*Bu yaxınlarda bir çox beynəlxalq festivallarda uğur qazanmış, hər dəfə fərdi sərgiləri böyük maraq doğuran tanınmış foroqraf Paşa Təbrizli redaksiyamızın qonağı oldu. Söhbət əsnasında bəlli oldu ki, Paşa fotosənəti ilə yanaşı, həm də rejissorluğa baş vurub - sənədli filmlər çəkir, hətta şeir də yazır. Ən başlıcası isə çox maraqlı həmsöhbətdir.*

**- Xoş gəlmisiniz! Bəlkə söhbətimizə elə uşaqlıqdan başlayaq...**

- Necə istəyirsiz... Təbrizdə, Maralan məhəlləsində anadan olmuşam. Ailəmiz - anam, bacım, qardaşım və məndən ibarətdi. Təvəllüd tariximi isə şeirlə anlatmaq istəyirəm:

May ayında
Anam bir alma dərdi...
Əmisi oğlu gülümsündü,
Yağış şıdırğı yağırdı.
Və
Sərt bir
Qış küləyində
...Mən ağladım.
Qar ağır-ağır yağırdı...

Beləcə zaman keçdi və ilk dəfə güzgüdə özümü gördüm. Baxdım ki, güzgüdən bir uşaq mənə tərəf boylanır. Mən də xeyli ona tamaşa elədim. Bu, özümlə ilk tanışlığım oldu və o andan düşünmək hissimi dərk elədim. Bəlkə də, elə o güzgüyə baxanda doğuldum. İnadla özümü tanımaq istədim, sonra kitablara üz tutdum. Mövlanəni, Nişapurlu Əttarı, Qərb fəlsəfəsini, İran ədəbiyyatını yorulmadan oxudum, hey oxudum. O kitablarda özümü tapmağa çalışdım.

→

**- Ümidiniz var idimi tapmağa?.. Tapa bildinizmi?**

- Hələki axtarışdayam. Bu çox gözəl axtarışdır. Mən deyərdim ki, əsas tapmaq deyil, yolu getməkdir. Əslində, əsas məqsədimi, bəlkə də nə axtardığımı da unutmuşam... Hələki bu istiqamətdə gedirəm... Elə mənim çəkdiyim fotolar da axtarışdır. Onları çəkəndə sanki öz həyatımın, axtarışlarımın, soraqlarımın şəklini çəkirəm. Kimlərdə tapıram özümü, kimlər yoxdu həmin siyahıda?.. Bu taylı çox adam; Ömər Eldarov, Anar, Fikrət Qoca, Alim Qasımov, Rasim Balayev, Tofiq Bakıxanov və neçə-neçə başqaları... Hamısında özümü görürəm. Çünki onların sənətdə qazandığı uğurlar bir yana qalsın, o adamlar həm də həyatın eniş-yoxuşunu çox görüblər. Nə qədər tapdıqları, itirdikləri olub. Belə adamlarla kəlmə kəsmək, durub oturmaq, həmsöhbət olmaq, təmas qurmaq çox maraqlıdır. Açığı, onlarla ünsiyyətdən zövq alıram. Bu adamları əbədiləşdirmək, gələcək nəsillərə tanıtmaq mənə çox xoşdur. Hesab edirəm ki, bir fotoqraf kimi gördüyüm işin əhəmiyyəti böyükdür. Mədəniyyətimizi, ədəbiyyatımızı, musiqimizi qoruyan insanları qorumaq bizim borcumuzdur. Onları gələcək nəslə həm də bir şəxsiyyət, bir sima olaraq təqdim etmək lazımdır. Şəxsən mən bunu özümə milli borc hesab edirəm.



**- Usta, belə çıxır ki, siz ümumiyyətlə, xoşqılıq, ünsiyyət quran adamsınız...**

- Vallah, nə deyə billəm ki?! Bir şeyi ərz eləyim ki, şəkillə danışmaq, insanlarla danışmaqdan qat-qat maraqlıdır. Ola bilər ki, realda insanla bir kəlmə kəsməyim, amma onun şəkli ilə saatlarla necə deyərlər, baş-başa verib danışa bilərəm...

**- Şəkil çəkmək, foto sənəti elədir ki, - hamı elə gümandadır ki, bununla hər adam məşğul ola bilər. Doğrudur, hamı əlinə fotoaparat alıb şəkil çəkməyə qadirdi. Amma usta fotoqraf kimi tanına bilməz. Birdən-birə sizdə fotoya necə oldu ki, maraq oyandı?**

- Təbrizdə, evimizin altında zirzəmi vardı. Kiçik yaşlarımda tez-tez o zirzəmiyə enərdim. Evdəkilər elə bilərdi ki, yəqin ora mən meyvə qurusu götürmək üçün düşürəm. Amma məni o zirzəmiyə çəkən burdakı köhnə sandıq idi. Sandığın içərisində isə ailə şəkillərimiz olan albom vardı. Hər dəfə albomu vərəqləyəndə bir şəkil mənim diqqətimi yaman çəkərdi. Oturub uzun-uzadı o şəklə tamaşa edərdim, yaddaşımda nələrisə quraşdırıb canlandırardım. O şəklə baxdıqca ürəyim döyünərdi. Şəkildə bir adam vardı, o adam mənə çox tanış gəlirdi. Hiss edirdim ki, həm də çox doğma bir adamdı. Dumanlı şəkildə xatırlayırdım ki, bu kişini nə vaxtsa evimizdə görmüşəm, amma hal-hazırda evimizdə yoxdur... Bəli, o kişi bizim ailənin bir üzvü olmuş atam idi. Atamı itirəndə dörd yaşım olardı. Evdə həmişə onun yoxluğunu hiss edirdim. Deyirdim hamı burdadı, bəs görəsən o bir nəfər niyə yoxdu? O bir nəfəri soruşa bilmirdim, amma yoxluğunu dərk edirdim... Mən atamı o foto ilə tapdım, gizlincə ona doyunca tamaşa elədim. Başqa ailələrdə rast gəldiyim sappasağ ata obrazı bizdə şəkillərdə yaşayırdı. On il bu həsrəti özümlə gəzdirdim və... Mənim fotoya həvəsim də ordan yaranmış oldu. Gördüm ki, foto deyilən şey - həyatda yox olanı var edə bilər... Foto olmasaydı, mən atamı hardan tapar, onun çöhrəsinin cizgilərini hardan və necə görərdim? Fotonun bax belə bir gücü var.

→

**- Fotoya həvəsinizi ailədə başqa bilənlər vardımı?**

- Əlbəttə. Hətta anam məni bu işə daha da həvəsləndirdi. Bu sənətimə görə həm də anama borcluyam. Anam məni foto dünyasına gətirib. Anamın canında da bu həvəs varmış. Mənim dörd yaşımda çəkilən bir şəklim var. O şəklin çəkildiyi gün yadımdadır. Atam rəhmətə gedən gün anam dayımı çağırıb deyib ki, aparın bunun şəklini çəkin. İstəyirəm, - deyib sonra uşaq xatırlasın ki, atası ölən günü o bu yaşda, bu görkəmdə olub. O şəkil əziz bir xatirə kimi indi də qalır. Çox vaxt mükafat alanda anamı səhnəyə çağırıb mükafatı ona təqdim eləyirəm.

**- Usta, bəs çəkdiyiniz ilk şəkil yadınızdadımı?**

- İlk foto aparatı alandan sonra həyətimizdə futbol oynayan uşaqların şəklini çəkdim. Sonra həmin şəkilləri onlara çatdıranda üzlərindəki sevinci gördüm. Ürəyim fərəhlə dolub-daşdı. Elə bu peşəmdə zövq aldığım tərəf də insanların çöhrələrində gördüyüm həmin sevincdir.



**- Siz bu gün art-fotoqrafiya ilə məşğulsunuz. Bəs ictimaiyyət sizi fotoqraf kimi nə vaxt tanıdı?**

- 2015-ci ildə İranda "İran - Azərbaycan məşhur simaları" adlı kitabım çıxıb. Bu kitabın araya-ərsəyə gəlməsinə yeddi il vaxt sərf etmişəm. Kitabdakı fotolarım məni tanıtdırdı. Bu kitaba Əli Nəzmi, Fərhad İbrahimi, Məhəmməd Hüseyn Mübeyyin, Kərim Məşrutəçi, Kərim Marağalı, Məhəmməd Fasunəki, Ayətullah Həsəni, Yəhya Şeyda, Aşıq Bulud, Barışmaz, Həsən İsgəndəri və bir çox tanınmış simaların fotoları daxildir. Kitab İranda ilin kitabı kimi də mükafata layiq görülüb.

Bu kitabdan sonra Təbriz, Ərdəbil, Urmiya, Marağa, Tehran şəhərlərində sərgilərim olub. Eyni zamanda, Naxçıvanda da sərgim keçirilib. 2014-cü ildə Yaponiyada keçirilən festivalda Qızıl medala layiq görülmüşəm. Dünyanın bir çox fotoqraflarının toplandığı həmin festivalda belə uğur qazanmağım məni çox sevindirir. Bu yaxınlarda Bakıda Azərbaycanın tanınmış simalarının fotolarından ibarət bir sərgi açmağa hazırlaşıram.

**- Bilirik ki, necə deyərlər, məişət fotoqrafiyası geniş yayılıb. Hətta belə bir deyim də var ki, fotoqraflıq - əlçatan sənətdir. Amma sənətin peşəkarı olan bir fotoqraf kimi tanınmaq elə də asan iş deyil. Çəkdiyiniz şəkillərin adi şəkillərdən fərqini nədə görürsüz?**

- Nəyinki bizim gördüyümüz fotolar, hətta insanların öz simaları belə onları olduğu kimi əks etdirmir. Biz onların sifətinə baxırıq, amma olduqları kimi görə bilmirik. Mənim məqsədim insanların zahiri simasını göstərmək deyil. Mən fotodan əvvəl onların daxili dünyası haqqında düşünürəm, onları öyrənməyə çalışıram. Bu - hazırlıq mərhələsidir. Buna bəzən o qədər zaman sərf edirəm ki, heç inanmazsız. İnsanı öyrənmək, onun daxili dünyasına baş vurmaq o qədər də asan deyil. Çünki hər bir insan qarşısındakı insanla öz arasında müəyyən məsafə saxlayır. Həm də fotosunu işlədiyim adamları çox sevirəm. Bu adamlar mənə çox doğmadırlar. Məsələn, bu yaxınlarda bir məşhur insanla söhbətim oldu. Gördüm ki, bu adam ruhən mənə çox yaxındır, doğmadır. O ruh fotolara da sirayət edir.

**- Foto sənəti özünü tanıdanda bir fransız rəssamı bu sənətin imkanlarını nəzərə alaraq demişdi: "Rəssamlıq bu gündən məhv oldu". Amma bu təbii ki, belə olmadı. Foto ilə rəsm əsəri arasındakı fərq onların hər birini ayrı-ayrılıqda yaşatdı. Siz bu fərqi necə görürsünüz?**

- Əlbəttə ki, fərqi var. Bizim işimiz rəssamlıq deyil. Fotoqrafın əsas işi gercəkliyi yüksək səviyyədə təqdim etməkdir. Fotoqraflar vasitəsiz, birbaşa həqiqəti təqdim edirlər. Ən böyük fərq bundadır ki, rəssamlıq həqiqəti olduğu kimi göstərəmməz. Rəssamlar çəkdikləri rəsmlərə öz fantaziyalarını, istedadlarını, zəhmətlərini qatırlar. Foto isə həqiqəti →

göstərir. Adicə bir misal gətirim. Əlinizdə uşaqlıq illərinin şəkli var. Baxırsan ki, şəkildə 5 uşaq var. Onların arasından öz şəklini tapıb deyirsən ki, bu mənəm. Amma rəssam eyni şəkli çəkər, deyərsiz ki, bu mənim rəsmimdir. Deməzsiz ki, bu mənəm. Bax, məsələ bu "mənəm" dədir. Bir vaxtlar fotoqrafiya ilə rəssamlıq arasında mübahisələr, çəkişmələr də oldu. Fotoqraflar meydana çıxanda rəssamlar narahat oldular. Sonra zaman keçdikcə, hərə öz yolu ilə davam etdi. Bir-birinə mane olmadılar.

Fotoqraflıq sənətinin yaşı az olsa da, özünün yeni imkanları, özünəməxsus xüsusiyyətləri var. Fotolar da rəsm əsərləri kimi insanları həyəcanlandırmağa qadirdir.



**- Siz həm də rejissorsunuz. Bunun özü də asan sənət deyil, hətta deyərdim ki, çox mürəkkəbdir. Burda necə, yenə həqiqətləri üzə çıxarıb olduğu kimi göstərə bilirsinizmi?**

- Mən daha çox sənədli filmlər çəkirəm. Buna görə də yenə də gerçəkləri əks etdirirəm. 2015-ci ildə "Hacı Firuz A" adlı sənədli film çəkmişəm. Bu Əhli-beyt məddahı Hacı Firuz Zirəkkarın həyatından bəhs edən sənədli filmdir. Onu deyim ki, hazırda Azərbaycanın tanınmış adamları haqqında sənədli film üzərində işləyirəm.

**- Tez-tez Bakıda olursunuz. Bakını bir fotoqraf gözüylə necə görürsünüz?**

- Bakı haqqında bir çox fotolarım var. 2013-cü ildə, Bakıya ilk gəlişimdə Bakının müxtəlif şəkillərini çəkmişəm. Bakıya da mən bir İnsan kimi baxıram. Əvvəlcə onun ruhuyla tanış olub sonra şəklini çəkirəm. Bu şəkilləri yığıb bir kitab halına salmaq fikrindəyəm. Həm də bu şəkillərə müxtəlif şeirlər həsr etməyi düşünürəm. Təbii ki, bu şeirlər yalnız mənim tərəfimdən yazılmayacaq. Müxtəlif şairlərə müraciət etmək fikrim var. İnşallah, sonra da Bakıya həsr olunmuş ayrıca bir sərgi keçirəcəyəm. Həmin sərgidə tam fərqli şəkillər olacaq. Burda mənim Bakıya olan baxışım üzə çıxacaq. Bu fotolar sübut edəcək ki, baxmaqla görmək heç də eyni deyil...

**- Bayaq dediz ki, şeir də yazırsınız...**

- Bəli, şeir də yazıram. "İsmail olmayacaqsan" adlı bir şeir kitabım Təbrizdə çap olunub. Şeir yazmağım da fotoqraflığıma bağlıdır. Hər ikisi həssaslığı sevir.

**- Yenə başqa ölkələrdə də sərgi açmaq fikriniz varmı?**

- Xeyr, hələlik yoxdur. Düşünürəm ki, çıraq daha çox öz ətrafına işıq saçmalıdır.

**- Hər halda, gələcək işləriniz, planlarınız maraqlıdı...**

- Hələki "Azərbaycanın məşhur simalarının fotoları" adlı bir layihə üzərində çalışıram. Yeri gəlmişkən, bu layihədə mənə dəstək verən Azərbaycanın xalq artisti Alim Qasımova və "Dədə Qorqud" otelinin müdiri Heydər bəyə öz minnətdarlığımı bildirirəm. Azərbaycanda sərgi keçirəndən sonra, inşallah müxtəlif ölkələrin dünya miqyasında tanınan insanlarının fotolarını çəkmək fikrim var. Bu fotolardan ibarət bir kitab - albom çıxartmaq istəyirəm. Azərbaycandan da 3 nəfər məşhur insanın fotosunu həmin kitaba daxil etməyi düşünürəm. Həm də istəyirəm ki, həmin layihəni Azərbaycanda həyata keçirdim. Çünki bu həm də Azərbaycanı dünyada daha da tanıtmağa imkan verəcək.

Bir də ürəyimdə çoxdankı bir arzum da var. Azərbaycan Prezidentinin fotosunu çəkmək istəyirəm. İstəyirəm elə bir foto olsun ki, cənab Prezidentin bir lider kimi bütün xüsusiyyətlərini əks elətdirə bilsin...

**- Paşa usta, maraqlı söhbət üçün sizə təşəkkür edirik və uğurlar arzulayırıq!**

- Siz də sağ olun. Məmnuniyyətlə sizi bu yaxınlarda baş tutacaq sərgimdə gözləyirəm.

**Söhbətləşdi: Narıngül**

*Bir heykələ bir cüt baxış...*

# KOROĞLUNUN HEYKƏLİ ÖNÜNDƏ BƏZİ DÜŞÜNCƏLƏR...

Milli qəhrəman aşıq və şair Koroğlunun Bakıda heykəli çoxdan qoyulmalıydı. Gecikməsinin obyektiv və subyektiv səbəbləri əlbəttə ki, yox deyil. Obyektiv deyəndə bizdən asılı olmayanları, subyektiv deyəndəsə özümüzdən asılı olanları nəzərdə tuturam. Nə isə... Axır ki, Bakıda Koroğlunun heykəlini gördük...

Heykəlin müəllifi Azərbaycanın tanınmış heykəltəraşı xalq rəssamı, ustad sənətkar Tokay Məmmədovdur. Tokay müəllimin yaddaqalan Bakını, başqa şəhərləri bəzəyən əsərləri çoxdur. Amma, nə üçünsə Koroğlunun heykəli gözlədiyim kimi olmadı. Bəlkə də səhv eləyirəm... Ancaq mənə elə gəlir ki, dastanı oxuyan hər bir kəs, aşıq, şair, milli qəhrəman Koroğlunun obrazını gözləri önündə canlandırmağı bacaran hər bir Vətən övladı belə düşünür...



İlk baxışdan gözə çarpan odur ki, Qıratın yəhəri - yüyəni yoxdur. Halbuki dastanda Koroğlunun bir dəfə də çılpaq, yəhər-yüyənsiz at mindiyinə işarə belə yoxdur. "Həmzənin Qıratı aparmağı" qolunda deyilir: "Qıratı ifçin yəhərləyib Koroğlunun qabağına çəkdilər". Koroğlunun sağ əlində qılınc, sol əlində qalxan olduğuna görə, heykəltəraşın onu döyüş anında təsvir etmək istəyi heç şübhə doğurmur. Ancaq bu istəyin heykəldə ifadəsini görmürük. İstər-istəməz fikirləşirsən ki, Tokay müəllim "Koroğlu" dastanını başdan-ayağa qədər oxuyub incəliklərinə varsaydı,
(babalımı yuya bilmərəm, bəlkə də oxuyub) bilərdi ki, Koroğlu heç vaxt döyüşə gedəndə yalın-çılpaq at minməyib.

At minənlər yaxşı bilir ki, atın üstündə möhkəm dayanmaq, yıxılmamaq üçün atın belinə mütləq yəhər qoyulmalıdı. Yəhərsiz atın üstündə dayanmaq, xüsusilə döyüş vaxtı duruş gətirmək çox çətindir. Digər tərəfdən, döyüş zamanı atı idarə etmək, onu sağa, sola, qabağa sıçratmaq lazım gəlir ki, bunlar ancaq yüyənin köməyilə oluna bilər.Yüyən eyni zamanda qəhrəmana at belində özünü saxlamaq üçün də vacibdir. Bundan savayı, qəhrəmanın özünü at belində saxlamağına və onu döyüşdə idarə etməyinə üzəngi də əsas vasitədir. Üzəngilər - qəhrəmanın özünü atın üstündə saxlamağı üçün bir cüt dayaq rolunu oynamalıdır...

Qıratın duruşu və ayaqları da elə ilk baxışdan qondarma kimidi. Xüsusilə - dal ayaqlar... At minən və kənardan ona baxan kəs bilməmiş deyil ki, arxa ayaqlar heç vaxt bu vəziyyətdə olmur. Qaçan atın qabaq ayaqları yerə dəymək anında, arxa ayaqlar yığılmış vəziyyətdə qarının altında durur. Qabaq ayaqlar yerdən üzülha-üzüldə arxa ayaqlar eyni anda yerə dəyir və at özünü irəli atır. Bunların hamısı bir göz qırpımında baş verir. İndiki halda heykəl belə təsir bağışlayır ki, at uçurumun dibinə sarı getməkdədi... Yüyənsiz at heç vaxt başını bu cür saxlamır. Yalnız yüyəni dartanda atın başı bu cür qanrıla bilər. Döyüş vaxtısa ümumiyyətlə, bu cür duruşdan söhbət gedə bilməz. Həm də Qıratın Koroğluya qoşulub döyüşdüyünü də unutmaq lazım deyil... →

Mənim şəxsi fikrimdir - nədənsə Koroğlu bir qəhrəman kimi şəxsən mənim yaddaşımdakı Koroğluya oxşamır. Onun atın üstündəki oturuşu təbiilikdən xeyli uzaqdır. Koroğlunun sol ayağı sallanıb az qala yerə çatdığı halda, sağ ayağı dizdən qatlanmış şəkildə atın belindədir. Heç bir döyüşçünün savaş zamanı atın üstündə bu vəziyyətdə dayanmağı heç inandırıcı deyil. Döyüş olmayanda belə heç kim atın üstündə bu cür oturmur. Yəhərdə oturub ayaqlarını üzəngiyə qoyan və bir əlində yüyən tutan adam özünü atın üstündə daha yaxşı saxlayır. Üzəngilər və ayaqların onlara qoyulub sıxılmağı da bir tarazlıq yaradır, belə ki, qəhrəmanın yıxılmaq ehtimalını aradan qaldırır. Atın iki üzəngisi tərəzinin iki gözünə bənzəyir...

Koroğlu qəhrəmanıydı. O, atın üstündə necə oturmağı, döyüş vaxtı özünü necə saxlamağı yaxşı bilirdi.

Koroğlunun sağ əlindəki Misri qılınc xəncərə daha çox oxşayır. Axı dastanda Misri qılıncın çox gözəl təsviri verilib.

Koroğlu həm qılıncı, həm də qalxanı ilə büsbütün süni təsir bağışlayır. Mənbilən, döyüş vaxtı nə qılıncı, nə də qalxanı bu cür tutmazlar...

Dastandan bilirik ki, Koroğlu, Qırat, Misri qılınc və Saz bir-birindən ayrılmazdır. Saz və Koroğlu nərəsi onun ruhundan, canından, qanından havalanırdı. Saz onun qollarına güc, ürəyinə təpər verirdi. Sazın unudulmağı məncə heykəlin ən gözə çarpan qüsurlarından biridir...Bilmirəm haqlıyam, ya yox? Amma, mənə elə gəlir ki, Koroğludan film çəkən, onu tabloda təsvir edən, ya onun heykəlini yaradan hər bir sənətkar, bu xalq qəhrəmanının obrazını əvvəl-əvvəldən gərək öz ürəyində yarada... Məncə ustad heykəltəraş bu heykəli öz emalatxanasına gərəkiydi ki, qəlbində hazır aparaydı... Bəlkə heykəltəraş Koroğlunu, Qıratı, Misri qılıncı da başqa cür görür? Unutmayaq ki, bu elin-obanın, könül bağladığı, xalqın böyükdən-kiçiyə hamının sevdiyi, əzizlədiyi qəhrəmanın heykəlidir. Onun heykəli də özünə layiq olmalıdır...

**İslam SADIQ**
**Şair, filologiya elmləri doktoru**



## Bakının heykəlləri üçün darıxıram...

*Mən indi Bakıdan uzaqda yaşayıram, institutda oxuyuram. Artıq üçüncü kurs tələbəsiyəm. Yay tətilində yaxın ölkələrə, - Gürcüstana, Dağıstana, hətta Türkmənistana gedib oraları gəzib dolanmışam. Tərif olmasın, mən o fikirdəyəm ki, bizim doğma Bakımızın gözəlliyindən heç harda yoxdur. Xüsusilə son illər Bakını gəzib baxanda adamın ürəyi açılır. Şəhərimizə gələn qonaqları Bakıya hayıl-mayıl görəndə sevincdən qəlbim köksümə sığmır... Necə də gözəl şəhərimiz var. Ancaq nədənsə mənə elə gəlir ki, Bakıda, hələ də başqa şəhərlərə nisbətən heykəllər azlıq edir. Zərər yoxdur, onların sayı nə qədər az olsa da, hər halda şəxsən mənim bir tamaşaçı kimi zövqümü oxşayır. Nizaminin adını daşıyan Ədəbiyyat Muzeyinin qarşısındakı meydanı dahi şairin heykəli olmadan necə təsəvvürə gətirmək olar? Yaxud, Füzulinin heykəli onun yaratdığı dillər əzbəri olan əsərlərinə bənzəmirmi?*

*Hələ mən Xan qızı Natəvanın heykəlini demirəm... "Azərbaycan" kino-teatrının qarşısına o qədər yaraşır ki, elə bil, binayi-qədimdən, hətta ətrafındakı o binalar tikilməmişdən elə orada imiş... Bizim qohumlar köhnə "Muğan" mehmanxanasının yaxındığında yaşayırlar. Bu dəfə ora yaxın bağda Qoç Koroğlunun uca heykəlini gördüm... Çox qəribə heykəldir. Başqalarına bənzəmir. Elə bil heykəltəraş elə qəhrəmanını bu günün nəzəriylə təsvir etmişdi. Mənim fikrimcə, elə də olmalıdır. Bu günkü texniki tərəqqi dövründən baxanda köhnə dövrlərin qəhrəmanları elə bu görkəmdə də olmalıdır. Yəni istər-istəməz onlara baxanda gülümsəməlisən. Məncə, heykəltəraş da Koroğlunu öz təsəvvüründə belə yaşadıb. Özü də sənətkar Koroğlunu buludlar arasında görür... Atı da, özü də sanki xəyallarımızda olan kimidir. Mən şəxsən Koroğlunu səhv, yaxud yanlış olsa da bu cür təsəvvür edirəm...*

**Hörmətlə,**
**Qurban Cüməxanov**
**Rusiya Federasiyası, Kemerovo şəhəri, tələbə**

Esmira Nəzərli



*Gecə-gündüz çal-çağır, axırda olur naxır...*

*Bizim ulartı dediyimizə, canavar özü "solo" deyir...*

*Səs yaranışla, söz insanla... başlayır. Musiqidə qoca səslə gənc söz... bir-birindən qaynaqlanır.*

*İki ideya çəyirdəyindən göyərən böyük sənət... milli və ümumdünya ruhunun vəhdətindən yaranır.*

***Rahid Ulusel***
***Narın düşüncələr"dən...***

# "İndi də nə qədər desəniz, oxuyaram..."



...Bəli, oxuyardı. Ömür vəfa etsəydi, inanın ki, mütləq oxuyardı. Bəlkə də həmişəkindən qat-qat yaxşı, şaqraq oxuyardı. İndi 60-70 sinnində olanlar təzə-təzə efirə çıxıb, özlərini sınayırlar. O isə on üç yaşından oxuya-oxuya, Gəncədən üzü bəri yol alaraq, gəlib-çıxmışdı paytaxta...

O kimiydi? Bu yaşında nə vadar eləmişdi onu? Ömürlüyünə nəzər salsaz iri, qara gözlü, gur, qara saçlı bu oğlanın uzaq Gəncədən Bakı kimi qələbəlik bir şəhərə gəlmə səbəbi sizə aydın olar...

Ömürlüyündən:

Atası - Saleh Hacı Mustafa oğlu Mehdiyev Gəncə şəhərində sayılıb-seçilən mühəndislərdən biri olub. 1943-cü ildə müharibəyə gedib qayıtmayıb.

Anası - Güllü xanım Əlikişibəyova yurdumuzun ecazkar bir güşəsində dünyaya göz açıb, bu yerlərin havasını, suyunu dadıb və Şuşanın bütün özəlliklərini canına çəkib. Onun gözəlliyi el arasında adla idi. Səsinə də söz ola bilməzdi. Güllü xanım Qarabağın tanınmış nəslindən olub, Qasım bəy Zakirə qohumluğu çatırdı. Həyat yoldaşının ölümündən sonra ona irsən keçmiş ləl-cəvahiratını satır, balalarını böyüdüb, ərsəyə çatdırır, onları korluq çəkməyə qoymur. "Qarabağ şikəstəsi"ni elə oxuyardı ki... Güllü xanım həm bir ana kimi, həm də musiqi duyumuna görə oğlunda olan fitri istedadı özlüyündə çoxdan aşkarlamışdı. Odur ki, hələ əzəldən hər dəfə ata ocağına gəlib-gedərkən oğluna şərait yaradırdı ki, Şuşanın musiqi məclislərində iştirak eləsin, adlı-sanlı xanəndələri dinləsin, qədim el havalarını öyrənsin. Ananın bu ciddi-cəhdi izsiz ötüb-keçmədi.

...Taleyin işini bilmək olmur: bir tərəfdən verəndə, digər tərəfdən alır. Güllü xanım dörd övladından nə qədər nigaran olsa da, gözəlliyini də, məlahətli səsini də sonbeşiyinə ərməğan edib, ömrünü övladlarına bağışladı. O vaxt İdrisin cəmi 13 yaşı vardı. Hələ uşaqlıqdan təmiz, cingiltili səsi vardı... →

Dinlədiyi mahnıları dərhal qavrayır, yaddaşında saxlayırdı. Tədricən öz-özünə zümzümə etdiyi bu nəğmələrin səsi-sorağı təhsil aldığı Gəncə şəhər orta məktəbində bədii özfəaliyyət kollektivinin rəhbərinə çatır... Daha sonralar olimpiadalar, müsabiqələr, festivallar... öz təsirini göstərir. Mükafatların sayı artdıqca, bir-birini əvəz etdikcə, böyük tanışlıqlar yaranırdı. Məhz bu tanışlıqlar onu Bakıya indiki T.İsmayılovun adını daşıyan məktəblilər sarayına gətirib-çıxarır. Balaca İdrisin əsl vokal sənətinə yolu da elə buradan başlayır, sənətin incəliklərinə ilk dəfə solisti olduğu bu uşaq xorunun sayəsində yiyələnir.

Ustad A.A.Milovanov vokal-xor sənətinin gözəl bilicisi sayılırdı. Onun rəhbərlik etdiyi bu uşaq xorunun sorağı dillər əzbəriydi. Xorun yetirmələri sırasında Müslüm Maqomayev, Lütfiyar İmanov kimi gələcəyin böyük vokalçıları da yetişirdi.

O vaxtlar Azərbaycanda, xüsusən Şuşada kiçik yaşlı fitri istedadlara muğam oxuyan balaca xanəndələrə rast gəlmək olurdu. Amma vokalçı müğənni kimi məktəbyaşlı uşaqlarsa, demək olar, yox dərəcəsindəydi. İdris bu boşluğu doldurub, ilk vokalçı şagird kimi Milovanovun xorundan pərvazlandı.

Bizdə belə bir qaydamı deyim, ya istəkmi hökm sürür: mütləq gərək ali təhsil alasan. Gənc İdris də ali məktəb seçimində Az.NKİ-a (Azərbaycan Neft və Kimya İnstitutuna) üstünlük verir. Amma müğənniliyə olan həvəsi heç də sönmür. Təhsil aldığı illərdə institutda həvəskar musiqiçilərdən ibarət ansamblda da çalışır. Hərdən belə hallar da olur: bəxtin gətirir, gözləmədiyin anda xoş bir təsadüf həyatının məcrasını dəyişir. Gənc İdris hərbi xidmətə çağrılır, əsgərlik illərini Kalininqrad şəhərində Baltik Donanmasının Mahnı Rəqs ansamblında keçirməli olur. Tezliklə ansamblın aparıcı solisti kimi qarşısında böyük səfərlər açılır.

Ansambl sovetlər ölkəsinin bir sıra şəhərlərinə, hətta Avropanın, dünyanın bir çox ölkələrinə qastrol səfərlərinə çıxırdı: İsveç, Norveç, Danimarka, Almaniya, Finlandiya... Gənc İdris də onlarla birgə ölkələr gəzirdi.

Müğənni təkrarsız ifasıyla təkcə özünə hörmət-izzət qazanmırdı. Həm də o nəğmələrin bəstəçi (Emin Sabitoğlu, Tofiq Quliyev, Səid Rüstəmov, Ruhəngiz Qasımova) və mətn müəlliflərini (Rəsul Rza, Mirvarid Dilbazi, Tofiq Mütəllibov, Vaqif Səmədoğlu) əcnəbi dinləyicilərinə tanıtdırırdı. Onun arzu-istəyi də elə bu deyildimi?!

Əsgərlik müddəti bitəndən sonra onu ansamblda saxlamaq qərarına gəlirlər. Gənc İdris razılaşmır. Çoxdan bəri qəribsədiyi Vətənə dönür. Ən əvvəl təhsil aldığı Dövlət Neft və Kimya Akademiyasının bədii özfəaliyyət kollektivində fəaliyyətini davam etdirir. Tofiq Əhmədovla tanış olub, onun rəhbərlik etdiyi Estrada orkestrinə dəvət alır. Dörd il sonra "Zabitlər Evi"ndəki Mahnı və Rəqs ansamblının solisti olur, xarici səfərlərdə respublikamızı layiqincə təmsil edir.

* * *

İdris Mehdiyev artıq kifayət qədər tanınmış müğənni kimi öz fikir və düşüncələrini pərəstişkarlarıyla bölüşürdü:

**"Oxuduqlarımın hamısını praktik surətdə öyrənmişəm. Nə musiqi texnikumunda oxumuşam, nə konservatoriya bitirmişəm. Az.NKİ-da təhsil almışam. Bu o demək deyil ki, müğənni gərək hökmən konservatoriya təhsili alsın. Əsas səsdir. O qədər adam tanıyıram ki, diplomları var, səsləri yox. Mənsə Azərbaycan estrada musiqisinə, xalq mahnılarımıza hələ balacalıqdan bələdəm. Sənətimin vurğunuyam. Sevimli müğənnim Rəşid Behbudovdur. Ona görə də həmişə məhz onun ifa elədiyi mahnıları oxuyuram".**

Doğrudan da, dünya şöhrətli Rəşid Behbudov onun idealıydı. Özü kimi onun nəğmələri də İdrisə əzizdi. Hər bir təzə işə başlarkən ilk növbədə onu düşünər, xəyalən onunla məsləhətləşər, onun münasibətini bilmək istərdi. Ustadın yaratdığı, dünyada ilk və yeganə olan Mahnı Teatrının solisti olmaq arzusuyla yaşayırdı. İstəyini bildirmək məqsədiylə özünü toparlayıb, bəxtini sınamaq qərarına gəlir. Böyük sənətkar onu dinləyir, lakin üç günə qəti fikir söyləyəcəyini bildirir...

Gənc İdris bu üç günü "o mənə vaxt ayırdı, o məni dinlədi" deyə sevincindən sanki qanad açıb uçurdu. Çünki böyük sənətkarın onu qəbul edəcəyinə yüz faiz əmin idi. Lakin müsbət cavab almayınca İdris müəllim eləcə qanadları sınmış halda evə qayıdır, neçə gün özünə yer tapa bilmir... ⟶

Azərbaycan bəstəkarlarının lirik, xəfif, həzin nəğmələri onun ecazkar səsində xarici dinləyicilərin belə qəlbini oxşayırdı. Rauf Hacıyev "Sevgilim", Tofiq Quliyev "Qızıl üzük", "Sənə də qalmaz", Səid Rüstəmov "Qurban adına", Əziz Əzizov "Kənd yolunda", Cahangir Cahangirov "Ana"... (Kaş ki, bu mahnıları indi sizə onun öz səsində təqdim edə biləydik).



Ötən ilin axırlarında **Beynəlxalq Muğam Mərkəzində** keçirilən tədbirdəsə İdris Mehdiyevin anım günündə təkcə bu yazının müəllifinin deyil, tamaşaçılardan çoxunun ürəyindən yəqin ki, belə bir fikir keçdi: dünya şöhrətli müğənnimiz Rəşid Behbudovun səsinə necə də bənzəri varmış təmiz, məlahətli səs, aydın tələffüz, şirin avaz. Halbuki bəziləri kimi özünü hansısa məşhur sənətçiyə bənzətmək, onun kölgəsində ucalmaq iddiasından çox-çox uzaq idi.

Həmin ərəfədə Azərbaycan estradasının öncül müğənnisi kimi İdris Mehdiyev Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanına və yalnız dörd ildən sonra "Əməkdar artist" fəxri adına layiq görülür. Vəssəlam! İllər ərzində gördüyü işlərin, çəkdiyi zəhmətin göstəricisi, qədir-qiyməti bu idimi? Əlbəttə ki yox. Doğrudur, Azərbaycan vokal ifaçılığında özünəməxsus yer tutmuş, ömrünün sonuna kimi sevimli peşəsindən ayrılmayan, daha doğrusu, ayrıla bilməyən İdris Mehdiyev bu sayqısızlığı özünə dərd etmədi. Əksinə, "Əməkdar artist" adını daim uca tutdu. Əvəzində müğənninin pərəstişkarları narahatlıqlarını gizləyə bilməyib onları düşündürən bu suala cavab tapa bilməyəndə nə səbəbdənsə sağlığında qazana bilmədiklərini "ölümündən sonra da əldə eləmək olar" deyə özlərində təskinlik tapırlar.

Tədbir ərəfəsində bir neçə tanışa İdris Mehdiyevin adını xatırlatmağa çalışdım. Tanımadılar. Xatırlamadılar. Xatırlamazlar da. Haçan mavi ekranda uzun illər televiziyanın işçisi olmuş İdris Mehdiyevin ifasında nəğmələr səsləndirilib? Amma Muğam Mərkəzinin isti ocağında müğənninin xatirə işığına toplaşanların yaddaşı təzələndi. Və bu retro mahnıları dinləyincə, ürəklər riqqətə gəldi. İstər-istəməz sevinc yaşlarının aydınlığında müğənninin özünün vaxtilə dediyi sözlər yada düşdü: **"Bunların hamısı gözlərim önündədir. Elə bil dünən idi".**

İdris Mehdiyevdən bircə müsahibə qalıb yadigar. Bu müsahibə illər öncəsi yazılsa da, ordakı cavablar sanki bu günümüzün aktual mövzusuyla səsləşir. Yəni vaxtilə müğənnini narahat edən məsələlər bu gün də öz əhəmiyyətini itirməyib... Həm də öz həllini tapmayıb...

* * *

**"O vaxtlar indiki kimi rəqabət yox idi. Məsələn, "Gilavar" mahnısını İLK dəfə mən oxumuşam. Mahnı vaxtilə çox populyar oldu. Sonra o mahnını bir başqası oxumaq istəyirdisə, heç kəs ona mane olmurdu. "Mən oxumuşam, sən niyə oxuyursan" söhbəti yox idi. Hamı bir-birinə hörmətlə yanaşırdı. Məndən mahnı istəyirdilərsə, deyirdim: buyurun, oxuyun".**

* * *

"Xoşbəxt ulduz altında doğulan insan" - belə adlandırırdılar onu. Nurlu siması, fitri istedadı, məlahətli səsiylə yanaşı, yüksək insani keyfiyyətlərə malik idi. İfaçılıq mədəniyyəti, özünə qarşı tələbkarlığı və təvazökarlığı ilə pərəstişkarların qəlbinə yol tapmışdı. Sadə, sadə olduğu qədər də səmimiydi. Heç kəsdən heç nə ummurdu, umu-küsü nə olduğunu bilməzdi. Sanki onun üçün "pis adam" məfhumu yox idi. Hər kəsə arxa-dayaq olmaqdan, kiməsə əl uzatmaqdan zövq alırdı. Harada görünüb ki, müdir Bakıdan Sumqayıta vaxt sərf edib, anası xəstə yatan, körpəsini tapşırmağa yer tapmayan işçisinə əməkhaqqını çatdırsın. Bunu yalnız İdris müəllim edə bilərdi. Edirdi də. Nə qədər toyların aparıcısı olub, ad günləri keçirib. Hamısı da təmənnasız. ⟶

Son iş yeri Azərbaycan Radio və Televiziyasının xoru oldu. Bəstəkar, Xalq artisti Ramiz Mustafayev bədii rəhbər kimi İdris Mehdiyev barədə yüksək fikirdəydi, onun ifaçılıq məharətini dəyərləndirirdi. Xorun solisti kimi kantata və oratoriyalarını, eyni zamanda Xor üçün işləyib tərtib elədiyi xalq mahnılarımızın solo hissəsini yalnız ona həvalə edirdi. "Küçələrə su səpmişəm", "Evləri var xana-xana", "Qalanın dibində"...

İdris müəllimin dostları arasında əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Şəfəqin xüsusi yeri vardı. Bəstəkar yazdığı "Haradayam mən?" romansını da yalnız dostuna etibar eləmişdi. Olduqca çətin ifa olunan və qəliz mətniylə ifasını daha da ağırlaşdıran bu romans Dövlət radiosunun fonotekasının "qızıl fond"una daxil edilib və vaxtaşırı efirdə səslənir. İdris Mehdiyev hələ ki, bu çətin oxunan romansın ilk və yeganə ifaçısıdır.

* * *

**"İndi oxuyanların çoxu cavan uşaqlardı. Səs vardı, yoxdu - fərqi yoxdu onlar üçün, oxuyurlar. Lakin bütün bunlara heç də oxumaq demək olmaz. Əsl oxumaq canlı oxumaqdır. İndiyə qədər həmişə buna riayət etmişəm".**

* * *

İdris Mehdiyev sənətini də, ailəsini də eyni dərəcədə sevirdi. Sənəti ona nə qədər qiymətliydisə, ailəsi də o qədər əzizdi. Həyat yoldaşı Məhəbbət xanıma da, iki qızı Gülşən və Günaya da o qədər bağlıydı ki, onları həyatı qədər qiymətli olan sənətinə belə qurban verə bilməzdi. Ömrünün sonuna kimi Dövlət Radio və Televiziya Xorunun bədii rəhbəri və direktoru kimi çalışdı. Onu işdən azad edəndə: "Axı mən hələ oxuya bilirəm", deyə təəccübünü gizlədə bilməmişdi. "İndi də nə qədər desəniz oxuyaram".



Adətən peşəkar müğənnilərdə səs getdikcə açılır. Yaş ötdükcə, səs daha da gurlaşır, yaxşılaşır. İdris müəllimin də səsi get-gedə daha şaqraq olmuşdu, daim oxumaq həvəsindəydi. Lakin... bir gün ona dedilər: "Oxuduğun daha bəsdir, təqaüd vaxtın gəlib-çatıb". Həyatı səhnədə keçən hər bir sənətçi üçün bundan betər, ağrılı nə ola bilər ki?! Ona təqaüd vaxtını xatırladan bilməliydi ki, onsuz da İdris Mehdiyevin ömrünün davamı onun mahnılarındadır.

Digər tərəfdən belə də düşünmək olar. Sadəcə təskinlik üçün: nə yaxşı ki, xəstə yatdığı son bir ildə axır günlərini ailəsiylə birgə keçirdi, təkcə onların isti, məhrəm əhatəsində gözüdolusu yaşadı...

Bu, bir ömürdü yaşadı. Sənətə məhəbbətiydi yaşatdı.

Ailəyə sevgidi hələ də yaşayır...

Məhəbbət xanımın şeirlərində...

Məhəbbət ölüncə yanacaq sənsiz,
Yaşadıb bu eşqi səninlə sənsiz.
Sənin əbədi Məhəbbətin.



# Uzaq sahillərdə... rəqs

Azərbaycan rəqs sənəti əsrlər boyu inkişaf yolu keçərək öz istedadı, hünəri ilə seçilib-sayılan ifaçılar və görkəmli xoreoqraflar yetişdirib. Onlardan neçəsi bu sənəti öyrətmək üçün zaman-zaman başqa ölkələrə də dəvət olunublar. Bu sırada Qəmər Almaszadə, Əlibaba Abdullayev, Leyla Vəkilova, Roza Cəlilova, Alim Zeynalov, Qorxmaz Qurbanov, Nailə Mahmudova, Fərhad Vəliyev, Qəhrəman Nəsirov, Zakir və Leyla Ağayevlər bu sıradandır.

Bunlardan biri Mais Şükür oğlu Nuruyev 1957-ci il iyunun 17-si Bakıda anadan olub. Oxuduğu məktəbdə bədii özfəaliyyət dərnəyinin üzvü olub, dərnək rəhbəri olan Məmiş müəllimdən rəqsin əlifbasını öyrənib. 11 yaşlı Maisin istedad və həvəsini görən Böyükağa Məmmədov isə onu Mərkəzi pioner və məktəblilər evində rəhbəri olduğu "Cücələrim" rəqs ansamblına qəbul edib.



B.Məmmədovun rəhbəri olduğu bütün rəqs kollektivlərində Mais əsl rəqqas kimi yetişməkdəydi. Elə vaxt olurdu ki, bir məşqdən çıxıb digərinə gedirdi. Uşaqlar bir-birinin həvəsinə oynayırdılar; yarışırdılar ki, kim çox tur (fırlanma) edəcək. Gələcəyin rəqqasları artıq o vaxtdan gövdəni, qaməti necə saxlamağı, ritmi və digər şərtləri mükəmməl mənimsəmişdilər.

Peşəkar rəqs ansamblına qəbul zamanı M.Nuruyev üç dəfə baxış-müsabiqədən keçməliydi. Münsiflər heyətindəki görkəmli rəqs mütəxəssiləri Xumar Zülfüqarova, Kamil Dadaşov, Rafiq Əzizov idi. Neçə nəfərin içindən təkcə Maisi layiq bilmişdilər...

Beləliklə o, 1974-cü ildə Azərbaycan Dövlət Rəqs Ansamblına işə götürüldü. 1986-cı ilin sonuna kimi burda çalışdı. Dövlət Filarmoniyasının o vaxtkı direktoru Şəmsi Bədəlbəyli tez-tez ansamblın məşqlərinə tamaşa edir və solist Mais Nuruyevin bacarığını yüksək qiymətləndirirdi. 1975-ci ildən sonra Mais Fransada, İspaniyada, Hollandiyada qastrol səfərlərində oldu. Rəşid Behbudovun, Dövlət mahnı və rəqs ansamblı ilə Daşkənd konsertlərində M.Nuruyevin solo rəqsləri alqışlarla qarşılandı.

"Min bir qastrol" filmində Mais Nuruyev də öz solo ifası ilə kadra köçürülüb.

Arada Dağıstan "Ləzginka" Dövlət rəqs ansamblının bədii rəhbəri Tanxo İzrailov Azərbaycan Dövlət Rəqs Ansamblına dəvət olundu. O, Maisi sonradan "Ləzginka" ansamblına aparmaq istəsə də Mais getmədi. O, institutda oxuyurdu və həm də doğma kollektivə artıq öyrəşmişdi.

Bakı Xoreoqrafiya Məktəbini başa vurandan sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunda oxudu, buranı rejissor ixtisası üzrə bitirdi. Azərbaycan Mədəniyyət Nazirliyinin göndərişi iləsə A.V.Lunaçarski adına Moskva Teatr Sənəti Universitetində təhsil alaraq vətənə qayıtdı. Nazirliyin təyinatı ilə Naxçıvan Muxtar Respublikasının "Araz" Dövlət mahnı və rəqs ansamblına, daha sonra "Göy-göl" Dövlət mahnı və rəqs ansamblına baletmeyster göndərildi. →

**- Necə oldu ki, Gəncəyə göndərildiz?**

- 1988-ci ildə məni o vaxt kollektivə Fikrət Verdiyev dəvət etmişdi. Orda, "Gəncə toyu"nu bərpa elədim, "Qaragilə" xalq mahnısına, Ramiz Mirişlinin "Azərbaycan təranələri"nə, "İgidlər", "Cobanlar" rəqsi"nə yenidən quruluş verdim. Çox maraqlı bir nəticə alındı. Fikrətgil İtaliyaya gedəndə, Xocalı soyqırımı ilə bağlı xoreoqrafik rəqs-tamaşa qurmuşdum.

**- Baxıram, Siz milli adət-ənənələrə, folklorumuza bağlı adamsınız.**

- Orasını düz tutmusuz. Axı, axtarsan rəqsdə bizim milli dəyərlərimiz, milli varlığımız toplanıb. Götürək elə toyumuzu. Azərbaycan bölgələrində toy adətləri ilə bağlı nə qədər istəsən material var. Ümumiyyətlə toy - bizim milli adətlərimizin tərkib hissəsidir. Qız bəyənmə, elçilik, nişan aparmaq, xınayaxdı, toy qabağı bir sıra məsələləri yerinə yetirmək, qız evində toy, kəbin kəsmə, oğlan evində toy, toydan sonra üzgördü, bəzi bölgələrdə buna əlgördü, bəzisində üzəçıxdı da deyilir, yəni - bəy-gəlinin ev, ailə üzvlərinin, qohum-qonşunun arasına çıxması; bütün bunlar xalqın canından qopub gələn, onun həyat-məişətində bütün müsbət xüsusiyyətləri ilə özünü göstərir. Azərbaycan toyunda rəqslər üçün zəngin material var. Moskvada təhsil alanda, tələbə yoldaşlarımdan biri - İosif Matayev deyirdi: "Azərbaycanda folklor axtarmaq lazım deyil, elə nəyə əl uzatsan, folklorla qarşılaşırsan. Xoşbəxt xalqsınız ki, o boyda folklorunuz var".

---

*Mais Nuruyev 1989-1992-ci illərdə Bakı Xoreoqrafiya Məktəbində dünya rəqslərini tədris edib. 1989-1996-cı illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının nəzdindəki "Bulaq" Rəqs Teatrının bədii rəhbəri olub. Burada qurduğu kompozisiyalar, teatrvari rəqs quruluşları maraqla qarşılanıb. "Bulaq" Rəqs Teatrı həmin proqramla Belçika, Fransa, Polşa, İsveçrə, Misir və Türkiyədə keçirilən festivallarda çıxış edib. O "Bulaq" foklor nümunələrini özündə əks etdirən proqramla artıq kifayət qədər tanınmışdı...*

---

**- "Bulaq" teatrındakı fəaliyyətinizdən bəlkə bir az geniş danışaq?**

- Repertuarda folklorumuz üzərində qurulmuş rəqslərə də yer vermişdik. "Dəsmalı" xalq rəqs havasını xalq ifaçılarının lent yazılarından götürmüş, "Dəsmal aldı-qaç" xalq oyunu əsasında quruluş vermişdim. Burada əylənmə, oğlanların yarışması var, cəldlik, çeviklik nümayiş etdirilir. Rəqsdə bütün bunlardan istifadə etmişdim. "Alma oyunu" müxtəlif bölgələrdə, xüsusilə Gəncədə daha çox oynanılıb. Rəqsin əvvəlində məsai-hal, qızların fala baxması var. Qızların hər biri kasaya bəzək əşyası qoyur; qolbağ, sırğa, üzük, bilərzik və s. Sonra falabaxan qız gözübağlı, bayatı müşayiətilə kasadan bir şey götürür. Bu onun ürəyində tutduğu müəyyən cavab olur və həm də guya hansı oğlana nişanlanacağını bildirir. Sonra oğlanlar gəlir və "alma oyunu" başlanır. O vaxtlar qızların oğlanı bəyənməsi almanı kimdən almağı ilə bilinirdi.

**- Siz səhv etmirəmsə, "Qoçəli", "Dəli ceyran" və "Ovçu" rəqslərinə də yenidən quruluş vermisiz. Bunlar əvvəlkilərdən fərqlənirdimi?**

- Əlbəttə,"Qoçəli" rəqsində qoçuların qoz-fındıq sındırması məzəli oyun kimi təsvir olunub. "Ovçu" rəqsinin süjetində də maraqlı elementlər var. Bir oğlan tütək çalaraq quş ovlayır. Quş tütək səsinə gəlir və quşun gözəlliyini görən oğlan onu ovlamaqdan vaz keçir. Bu mövzunu Azərbaycan poeziyasından götürmüşəm. Yeri gəlmişkən deyim ki, bədii ədəbiyyatımızda rəqsə gətirilməli çox şey var. Yetər ki, xoreoqrafın həvəsi, sənətinə sevgisi, araşdırması, təxəyyülü olsun. "Dəli ceyran" qız üçün qurulmuş rəqsdir. Qızın cazibəli görkəmi, incəliyi, məlahəti, özünəməxsus gözəlliyi vəsf olunur. Mən İtaliyada bir sıra milli rəqslərimizi quranda çox vaxt poeziyamıza üz tutmuşam...

---

*Tale, istedad, işgüzarlıq, zəhmətsevərlik, təşkilatçılıq bacarığı onu vətəndən uzaqlara aparıb çıxarıb və tanıdıb. M.Nuruyev hələ 1989-cu ildə İtaliyada festivalda iştirak etmişdi. Sonradan bu ölkədə yaşayıb-yaratmağa dəvət aldı. O, 2000-ci ildən "Orizontena" Rəqs Akademiyasında dünya xalq rəqsləri üzrə, xarakter və klassik rəqs sənətindən dərs deyir, buranın dosenti sayılır. 2000-2003-cü* →

illərdə Milan Bələdiyyəsi mədəniyyət şöbəsində dünya xalq rəqsləri üzrə müəllim işləyib. La Skala teatrı ilə əməkdaşlıq edən Rəqqasları İxtisaslaşdırma Mərkəzi Akademiyasında dünya xalq rəqsləri üzrə pedaqoq-dosentdir. Eyni zamanda 2006-cı ildən İtaliyadakı Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, 2009-cu ildən "Türksoy" Beynəlxalq Mədəniyyət Təşkilatının İtaliya təmsilçisidir. 2012-ci ildən bu günədək Cüzeppe Verdi adına Milan Dövlət Konservatoriyasının improvizə fakültəsində xoreoqraf kimi çalışmaqdadır...



**- Doğrudanmı İtaliyada Azərbaycan rəqsləri tanınır?**

- Hətta, "Orizon" Rəqs Akademiyasının tələbələri İtaliyanın mərkəzi televiziyasında "Yallı", "İnnabı" rəqslərini də oynayıblar. Onlar rəqs etməzdən əvvəl xalqın mədəniyyət tarixi barədə danışır, sonra rəqsi təqdim edirlər. Qurduğum rəqslər İtaliyanın dövlət və milli bayramlarında, Azərbaycan-İtaliya birgə tədbirlərində, özü də, ən böyük şəhərlərdə göstərilir. Azərbaycan rəqslərindən "Qarabağ inciləri"ni F.Əmirovun əsərindən "Aişənin rəqsi" üzərində hazırladım, Q.Qarayevin "Yeddi gözəl" baletindən istifadə edərək digər bir işin öhdəsindən gəldim. T.Quluyevin "Qaytağı"sına rəqs qurdum, xalq rəqslərindən "Uzun dərə"ni işlədim, "Şalı-Şalı"nı olduğu kimi bərpa elədim. Daha maraqlı bir iş Ü.Hacıbəylinin bəstələdiyi "Azərbaycan himni" üzərində hazırladığım kompozisiya oldu. Qılıncoynatma rəqsi var ki, bütün bunlar kompozisiyada bir-birini tamamlayır. İtaliyada Xocalı soyqırımına həsr olunmuş rəqs-tamaşa da öz məzmunu, mahiyyəti ilə çoxunun diqqətini çəkdi. Bu tamaşada bəstəkar musiqisindən və "Sarı gəlin" xalq mahnımızdan istifadə etmişəm. Tamaşada Milanın C.Verdi adına Konservatoriyasının xoru oxuyub. Dirijor isə bəstəkar-şair Davide Gualtie idi...

*M.Nuruyev 2010-cu ildən bu günədək İtaliya Delfik Milli Şurasının vitse-prezidentidir. Onun bir mütəxəssis kimi dərin biliyi, fəaliyyəti, təcrübəsi, sənəti hərtətərəfli bilməsi, obyektivliyi nəzərə alınaraq 2009-cu ildən bu günədək o rəqs üzrə keçirilən beynəlxalq müsabiqələrdə həm də münsiflər heyətinin tərkibinə layiq bilinir. Türkiyə (Ankara), Shou one (Monza), Sanremo GEF (italiya Sanremo), Ukrayna (Kiyev), Rusiya (Tver, Volqoqrad, Novosibirsk), Qazaxıstan və Qırğızıstanın şəhərlərində keçirilən bütün beynəlxalq rəqs festival və müsabiqələrdə M.Nuruyev hörmətli qonaqların sırasındadır.*

*2014-2016-cı illərdə Milan Təhsil Nazirliyinin qərarı ilə "Toskanini", "Don Milani" və "De Amicis" adına orta məktəblərdə dünya rəqslərindən dərs deyib. 2017-ci ildən Milan "Arabesque" və Sarno "Professional balet" akademiyalarının dosentidir. Mədəniyyət və incəsənət sahəsindəki geniş və səmərəli fəaliyyəti nəzərə alınaraq o, Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb...*

*İtaliyada bizim dövlət və xalq bayramları ilə bağlı Azərbaycan Diaspor Təşkilatının keçirdiyi tədbir və konsertlər heç vaxt Mais Nuruyevin yaxından iştirakı olmadan keçinmir.*

*Başqa cür də ola bilməz. Axı o, bütün varlığı ilə Vətənə bağlıdır, onunla nəfəs alır... Bizə də sənətimizi, rəqslərimizi "uzaq sahillərdə" tanıtmaqda olan həmvətənimizlə qürur duymaq qalır...*

**Əhsən Rəhmanlı**
**sənətşünas**

# Yaqub Məmmədovun gülməcələri

*Yaqub Məmmədov olduqca təbii, sadə, səmimi, eyni zamanda məzəli adam idi. Onun xarakterinin bu yönü haqqında təsəvvürünüz yaransın deyə, bu böyük sənətkarla bağlı xatirələrdə qalan bəzi hadisələri, əhvalatları yada salmaq istəyirəm...*

**Mustafa Çəmənli**

Bir dəfə "beşmərtəbənin" yanında tanışı ilə rastlaşan Yaqub soruşur:
- Ə, qardaş, nə var, nə yox? İş-güc, özün nə təhərsən?
- Sağ olun, Yaqub müəllim.
- Ə, dədən nətəhərdi? O günləri görüşdüm, kişi yamanca yaxşı qalıb.
Tanış oğlanın qaşları çatılır:
- Düzü, Yaqub müəllim, atam iki il bundan qabaq rəhmətə gedib.
Yaqub tez dillənir:
- Ə, heylə şey olmaz! Pahoo... Ə, bu nə tez öldü? Axı o günləri burdaydı.

* * *

Arif Babayevlə Yaqub Məmmədov Nardaranda toy məclisində imişlər. Başqa qəsəbədən bir nəfər də toya gəlibmiş, özü də o qədər içibmiş ki, ayaq üstə dura bilmirmiş. Di gəl ki, dil qəfəsə qoymurmuş:
- Yaqub müəllim, səni bu gecə evinə mən aparacağam.
- Yaxşı, sonra apararsan, deyə Yaqub onu yola vermək istəyir. Çönüb Arif Babayevə deyir:
- Ə, bu ayaq üstə dura bilmir, aparıb bizi qırajaq.
İçkili adam yenə dilini dinc saxlamır:
- Yox, Yaqub müəllim, gərək səni evə mən aparam.
Yaqub qəlyanını yandırıb deyir:
- Ə, eybi yoxdur dayna, bu gecə o kamançaçını apar, sonra məni apararsan.



Hər evdə söz-söhbət olur. Rusdilli həyat yoldaşı Vera xanım Yaqub müəllimi rusdilli gəlininə dil verməkdə günahlandırır və iradını bildirir. Yaqıb müəllim qayıdır ki:
- Ay qız, mən rusca danışa bilirəm ki, ona dil də verim?

* * *

Bir gün Yaqub Məmmədov qaşqabağını turşudub dostu Hacı Maildən soruşur:
- Mail, qaynatam ölüb, srağagün üçü idi. Səndən çıxmayan iş, nə yaxşı gəlməmişdin?
- Yaqub, bağışla, vallah xəbərim olmayıb.
- Çox şey itirmisən, süfrəmizdə nə istəsən vardı.
- Məsələn, gözə dəyən nə vardı ki?
- Pavidla.

* * *

Yaqub kamança ustası Mirnazim Əsədullayevin maşınında Ağcabədiyə toya gedirmişlər. Yolda Mirnazim bircə dəfə maşına benzin doldurur. Ağcabədiyə çatanda Yaqub deyir:
- Mirnazim, bu nətəhər olur, bircə dəfə maşına benzin tökdün, gəlib Ağcabədiyə çatdıq. Amma oğlum Məhəmməd məni bir yerə aparanda hər 50 kilometrdən bir deyir ki, pul ver, benzin töküm?



* * *

Yaqub Məmmədov deyirmiş:
- Təzə-təzə sərhəd açılanda İrana getdim. Axı atam iranlıdır. Astaranı keçmişdim, hamı qabağıma yüyürüşdü ki, qohumumsan. Bir cavan gəlin vardı. Məni görəndə ürəyi getdi. birtəhər özünə gətirdilər. Oyanan kimi qayıtdı ki, sən dayımsan. Anam demişdi ki, ağzı-burnu balacaydı. Dedim, kimnənsə səhv salırsan. Əl çəkmədilər. Məcburi oldum dayı. Sonra bildim ki, məni qumarbaz Yaqubla səhv salıblar.

* * *

Yaqub deyirmiş:
- Sağ olsun bərdəlilər. Hörmət eləyirlər. Bir dəfə qəzetdə dedim ki, Ağcabədidə doğulsam da, onlardan razı deyiləm. Toylara başqalarını aparırlar. "Ves" rayon inciyib... Yerlim İnqilab Nadirovun yanına getdim bir dəfə. Binəqədidə icra başçısı işləyəndə. Dedim, 5-3 metr torpaq ver. Qayıtdı ki, get, Rafael Allahverdiyevdən sənəd gətir. A zalım, Rafaelin yanına gedirdimsə, sənin yanına niyə gəlirdim?.. Amma insafən kəlbəcərdə işləyəndə mənə 200 nəfərlik böyük qonaqlıq verdi. Xalq artisti adı almışdım onda. Aşıqlar çağırmışdı...

* * *

Yaqub Məmmədov deyirmiş:
- Növbəti dəfə Xalq artisti adlarını tərtib eləyib siyahını (o zaman mərkəzi Komitədə katib işləyən) Həsən Həsənovun qabağına qoyanda soruşub ki, Yaqubun adı yoxdur? Deyiblər ki, yox. Siyahını tullayıb qırağa. Deyib: "Yığışdırın bunu. Gedin onun adını yazın, sonra gətirin". Mənim də xəbərim yox. Bir gün "Kommunist" qəzetindən İlham Rəhimli zəng vurdu ki, Yaqub müəllim, sizə ad veriblər. Siyahı qabağımdadır. İnanmadım. "Ministr" çağırmayıb, heç kim bir söz deməyib. Qərəz, İlham soruşdu ki, düz çıxsa, nə verəcəksən? Dedim ki, bir kostyum alaram. Hələ də alıram... O da hər yerdə danışır. Bir dəfə toyda deyəndə, dedim, canın üçün razmerini bilmirəm. (Yenə bərkdən gülür). Əşi, nəyimə lazımdır, 50 yaşımda ad verdilər...

* * *

Yaqub Məmmədov deyirmiş:
- Səsə baxarsan, yaxşı olar, baxmazsan da... Həmişə səsimi gözləmişəm. Cavanlıqda mal ətidir, ikradı qəti dilimə vurmamışam. Səsin birinci düşmənidir. Amma indi yeyirəm. Kar eləmir axı indən belə... Toyuq əti yemişəm. Salat, göy-göyərti... İndikilər əllərinə keçəndən basıb yeyirlər. Çıxıb oxuyanda da...

* * *

→

Yaqub Məmmədov sovet dövründə Bərdədə bir kənddə toyda imiş. Yaqubu gecə saat 1-ə qədər oxudurlar. Pulları qurtaran azarkeşlər yaxınlaşırlar xanəndəyə:

- Yaqub müəllim, pulumuz qurtarıb, borc ver, sabah qaytararıq.

Yaqub gülür:

- Ə, lap yaxşı oldu. Borc verən deyiləm, toy qurtardı, durun gedin evinizə.

*  *  *

Bir dəfə Yaqub Məmmədov Ucarda toyda imiş, yenicə çalıb-oxumaq istəyirmişlər, qaça-qaça gəliblər ki:

- Amanın günüdür, çalmayın.
- Nə olub, nə baş verib?
- Bəyin babasıdır.
- Nə olar, qoy gəlsin, nəvəsinin toyudur.
- O, ömründə xanəndə olan toya girməz.
- Onun neçə yaşı var?
- Düz yüz yaşı var.
- Bu necə yüz il yaşayıb ki, müğamatı başa düşmür. Bu kişi bu 100 ili nəyə görə yaşayıb?!

*  *  *

Bir gün Vəli Məmmədov yolla gedərkən Yaqub Məmmədovun bir nəfər qohumu ilə rastlaşır. Qohum Yaquba ad verilməməsindən yanıb-yaxılır. Vəli Məmmədov:

- Darıxma, verərlər, görünür, yaddan çıxıb böyük sənətkar. Bəs sən bu barədə Yaqubdan soruşmursan ki, niyə ona ad vermirlər?
- Soruşmuşam.
- Nə deyir?
- Deyir ki, məni tapsalar ad verərlər.

*  *  *

1987-ci ildə Bakı kəndlərindən birinə gələn Yaqub müəllimi yaxındakı kluba aparıb oranın fəaliyyəti ilə tanış edirlər. Sov.İKP Siyasi Bürosunun divara vurulmuş portretlərinə baxıb bir-bir onların kim olduğunu soruşurmuş. Növbə Qorbaçova çatanda Yaqub Məmmədov sual verir:

- Ə, bəs bu kimdir?
- Yaqub müəllim, necə yəni kimdir? Baş katibdir də, təzə padşahımızdır.
- Ə, bəs o Brejnik nə oldu?
- Sən demə, Yaqub müəllim Brejnevin, Andropovun, Çernenkonun vəfatından hələ də xəbərsiz imiş.



**Nərgiz Quliyeva**
**Sənətşünas**

# Çin musiqi mədəniyyəti tarixindən...

Uzaq Şərq ölkələri özündə folklor və klassik musiqi gələnəklərini birləşdirən zəngin musiqi mədəniyyətinə malikdir. Erkən dövrlərdə, - səsin heroqlif sistemi özündə Uzaq Şərqin başlıca musiqi nümunələrini daşıyır desək - heç də yanılmarıq. Eranın əvvəlində Çində təşəkkül tapan yuefu mahnıları, Koreyada VII əsrdə yaranan *"Suçjeçxon"*, Yaponiyada isə IX əsrdəki *"Etenraku"* musiqi nümunələri bu qəbildəndir.

Klassik musiqi - mahiyyət etibarilə **saray musiqisidir**. Belə musiqi hər zaman yüksək ali təhsil görmüş insanların, peşəkar musiqiçilərin, hətta dövlət adamlarının məşğuliyyət sahəsi olubdur.

XVIII əsrdə Şərqi Asiya ölkələrində teatr sənəti də öz inkişaf dövrünü yaşayırdı. Çində Pekin operası, Koreyada Pxansoridir, Yaponiyadakı Kabuki və No da buna aiddir. Ancaq paralel olaraq instrumental musiqi də inkişaf etmişdi. Çində **tsin** alətində ifaçılıq, Koreyada **kayaqım** və **komunqo**, Yaponiyada syamisen və syakuxati buna misal ola bilər.

Uzaq Şərqin cəmi ölkələrindən ən qədimi sayılan Çin, öz mədəniyyəti ilə qonşu ölkələrə böyük təsir göstərirdi. Çinin tarixi təxminən dörd yarım minillikdən daha qədimdir. Çinlilər öz dövlətlərini **Çjunqonu** (Orta dövlət) və ya **Tyansyanı** (Göyaltı) adlandırmışlar.

Qədim Çin musiqisi məxsusi ayin hərəkətləri ilə, bayır və çöl işlərinin sona çatması münasibəti ilə, qurbanlar kəsməklə və ya el bayramları ilə sıxı bağlıydı.

Çində musiqi mədəniyyətinin qədimliyini arxeoloji tapıntılar da sübuta yetirir. XX əsrin birinci yarısında Anyan (Çin, Xenan əyaləti) həndəvərində aparılan arxeoloji qazıntılar musiqi alətlərinin ən qədim nümunələrini aşkara çıxardı. Hansıları ki, onlar sonrakı dövrlərdə Çin və Uzaq Şərq ölkələrində mərasim və saray musiqisinin ən vacib elementlərinə çevrildilər. Buna ən sadə zərb alətləri aid oluna bilər: *sii* (tək daş lövhə) və *çjun* (tunc və ya dəmir zınqrov); nəfəsli alət sayılan syuanı da bu sıradandır.









→

Qədim musiqi alətləri eynilə Koreyada və Yaponiyada da məşhurdur. Çində tunc zınqrov **txıkçojn**, Yaponiyada - **dotaku**, Koreyada - **xun** adlanır. Onu demək vacibdir ki, ən qədim zamanlardan Uzaq Şərqin musiqi alətləri öz aralarında "qohumlaşdılar". Bir qədər sonra, tək zınqrovlardan **tsin** və **çjun** əsasında iki *üfqi* bülöv daşıyla taxta çərçivəni təşkil edən **byansin** və **byançjun** alətləri üzə çıxacaqdı, hansılar ki, 16 dənə daş lövhə və ya tunc zınqrov onlardan asılacaq, və daha sonra onlar ayin mərasimlərində çalınacaqdılar.

Bu dövrdə fəlsəfənin dərketmə rolu və musiqinin ictimai həyatda yerinin formalaşması, hər şeydən əvvəl, *Konfutsi* məktəbi ilə bağlı idi. Konfutsinin fikrinə görə musiqi - təbiətin güzgüsüdür. Burda iki başlanğıc anlamına rast gəlmək olar: *Yan* - Səmanın gücüdür - işıqlı, fəal, kişi başlanğıcı, və *İn* - Yer kürəsinin (Torpağın) qüvvəsidir. Musiqi - Səmanın və Yerin (Torpağın) ahəngi kimi təbii olmalıdır və Yerlə Göyün arasında əlaqə vasitəsi kimi xidmət göstərməlidir. Başqa cür desək, musiqi - cəmiyyəti və dövləti idarə etmək üçün ahəngdar vasitədir. Musiqinin anlaşma dərəcəsinə əsaslanaraq, Konfutsi təlimi belə hesab edir ki, musiqi ictimai tərbiyənin və dövlətin idarə olunmasında ən əhəmiyyətli vasitələrdən biridir. Musiqi yüksək ideyası ilə cəmiyyətə ilham verir, amma eyni zamanda onun əxlaqını poza da bilər. Nəticədə, musiqinin hədəfi onunla bağlıdır ki, əks və eyni zamanda bir-biri ilə əlaqədə olan harmoniyanın dərketməsi **İn** və **Yanın** kosmik başlanğıcları, cəmiyyətdə xeyirxah güclərin oyanışına gətirməli və nəticədə mükəmməl bir dövlətin yaradılmasına imkan yaratmalıdır. Musiqinin tərbiyəvi roluna böyük önəm verən əfsanəvi Konfutsi belə deyirdi: "Ağıl odaların oxunmasıyla yaranır, xarakter - davranışın qaydalarıyla tərbiyə olunur, son təhsili isə musiqi aşılayır." Məlumata görə, şəxsən Konfutsi b. e. ə. 484-cü ildə məşhur *"Şiszin"i* ("Mahnıların Kitabı"nı) yazmış və oraya qədim çinlilərin 305-dən artıq nəğməsini daxil edibmiş...



Qədim Çində Konfutsi musiqi təlimi hakim mövqe daşısa da, o həmin dövrdə yeganə təlim deyildi. İlk növbədə bu sıradan daosizm ön plana çıxır.

Mənəvi baxımdan Çin sivilizasiyasında konfutsizm və daosizm bir-birini müsbət şəkildə tamamlayır, yeri gələndə bir-birinin çatışmazlığını da üzə vururdu.

Qədim Çində musiqinin fəlsəfi mahiyyəti ilə bərabər, musiqi nəzəriyyəsi ilə bağlı yaranan problemlərə də müntəzəm diqqət yetirilirdi. Musiqi nəzəriyyəsi haqqında məlumatların yer aldığı ilkin traktat - *Quan-Si-nin* eyniadlı risaləsi sayılır. Eynilə qədim yunanlarda olduğu kimi (onlardan tamamilə asılı olmayaraq, bəlkə də misirlilər və yunanlardan çox öncə) çinlilər səslərin rəqəmlərlə qarşılığını ortaya atdılar. Məhz çinlilər simlərin və taxta boruların uzunluğunun artıb-azalması nəticəsində səs yüksəkliyinin də artıb-azalmasına nail olmuşlar.

"Quan-Si" risaləsindən bəhs edərkən bir məqamı dəqiq-ləş-dirmək gərəkdir. Məsələ burasındadır ki, alimlər içərisində heç birisi bu traktatın ya-ranma tarixi və müəllifi barədə dəqiq mülahizə irəli sürməyibdir. Ancaq çox gü-man ki, görkəmli alim Yan in-Lyunun fikirləri (1899-1984) daha real və qəbul oluna bi-ləcək tərzdədir. Onun fikrincə, "Quan-Si" risaləsi bir neçə nəsil alimin birgə əməyi sayəsində meydana gəlibmiş. Sadəcə bunun əzəli Quan-Si tərəfindən başlanmış, bizim eradan əvvəlsə - 249-237-ci illər arasında tamama yetmişdir.

Diqqətlə nəzər yetirsək görə bilərik ki, Qədim Yunan və Qədim Çin (bura qədim Misiri də əlavə etmək lazımdır - Red.) xalq-la-rının musiqi baxışında ümumiliklər nəzərə çarpır. Bu məsələdə həm Qədim Yunanıstanın Çinə təsiri (?) həm də əksinə,

⟶

Qədim Çinin Yunanıstana təsiri barədə fikirlər mövcuddur. Ancaq bu mənada əslində söhbət Yunanıstan və Çin arasında mədəni əlaqədən getmir. Çünki, həmin dövrün tarixi üçün elmdə bunu sübuta yetirən heç bir məlumat yoxdur. Ancaq mədə-niyyət və incəsənətin ümumi qanunauyğunluqları və eyni zamanda beynəlxalq miqyasda daha obyektiv fəaliyyətdə olan musiqi sahəsi barədə bunu söyləmək düzgün olmazdı.

...Çinin gələcək musiqi mədəniyyəti üçün böyük hadisə, Xan dövründə, (206 - b.e.ə.-220 - b.e.), daha dəqiq desək, b.e.ə. 112-ci ildə **"yuefu"** adlanan xüsusi musiqi Palatasının - dövlət qurumunun təsis olunması idi. Palata imperator **U-dinin** (140-87 - b.e.ə.) əmri əsasında qurulmuş və musiqi təcrübəsinə nəzarətin dövlət səviyyəsində həyata keçirilməsi üçün nəzərdə tutulmuşdu. Palata ölkənin musiqi həyatını ciddi şəkildə izləməliydi. Çünki, tənzim olunan normalara riayət edilməsi və bunun düzgün şəkildə həyata keçirilməsi dövlətdə nizam-intizamı, əmin-amanlığı təmin edirdi. Onu deyək ki, *"Yuefu"* adlanan Musiqi Palatası 106 il fəaliyyət göstəribdir. Digər ölkələrin qədim tarixində buna bənzər qurumların varlığını axtarmaq əbəsdir. Bu mənada qeyd etməliyik ki, Palata saray mərasimlərinin, şülənlərin keçirilməsi qaydalarını sistemləşdirir, musiqinin ilk təsnifatını həyata keçirirdi həm də xalq mahnılarının ilk toplanması. Palatanın fəaliyyəti eyni zamanda mahnı poeziyasının inkişafına da böyük təsir göstərdi, gələcəkdə tan dövrünün (618-607), daha dəqiq desək, Çin poeziyasının intibahını hazırlamış oldu.



Bütün bunlar yalnız Konfutsi ideologiyasının deyil, eyni zamanda daos-buddist doktrinasına söykənirdi. Bu ideologiyanın əsasında sin ifaçılığının **təbiətlə bağlılığına üstünlük verilirdi.**

Tan imperiyası Ərəb ölkələri və Hindistanla dostluq əlaqələri saxlayırdı. Buna sübut olaraq "doqquz ölkənin musiqisi" və "on ölkənin musiqisi" nümunələrini misal gətirmək olar, hansı ki, özündə yalnız Çinin deyil, həm də bir çox ölkələrin musiqi sənətini ehtiva edir. "On ölkənin musiqisi" Çin musiqisiylə bərabər Hindistan, Buxara, Kaşqara, Səmərqənd, Kampuçi, Qərbi Türküstan, Koreya və s. musiqisindən ibarətdir.

Yuan sülaləsinin hakimiyyəti dövrü (1280-1368) olduqca ziddiyyətli çağdır. Lakin Çin tarixində olduğu kimi ötən əsrlərdə Çin mədəniyyətinin inkişaf tarixi o qədər güclü idi ki, xoşbəxtlikdən Çin sivilizasiyasının mənəvi dəyərləri tənəzzülə uğramadı. Məhz bu dövrdə teatr tamaşaları dramatik sənət səviyyəsinə yüksəldi. Pekin musiqi dramı **(Pekin operası)** məhz bu mənbədən əsaslanaraq XVIII əsrdə yeni janr kimi tanınmış oldu.

Ancaq maraqlıdır ki, Avropa fortepianosu tipli alətin olmamasına baxmayaraq tədqiqatçılardan heç kəs Çin musiqi mədəniyyətində bərabər hüquqlu temperasiyanın vacibliyini dəqiqliklə izah etməmişdir. Bununla bərabər eyni dövrdə bu məsələ Avropada da işləndi. Çinlilər avropalıların onilliklər sonrasında tətbiq etmiş olduğu temperasiyanı hələ XVI əsrdə kəşf etmişdilər.

1949-cu ildə, Çin Xalq Respublikası qurulandan sonra musiqi mədəniyyətinin inkişafı iki istiqamətdə davam etmiş oldu. Birincisi - Avropa musiqi elementlərinin ölkənin mədəni həyatına daxil olması, ikincisi isə - Çin ənənəvi musiqisinin inkişafı;

Uzaq Şərq ölkələrinin musiqi nəzəriyyə prinsipi Çində formalaşmış nəzəriyyəyə əsaslanır. Koreyada və Yaponiyada özünəməxsus nəzəri fikirlər sisteminin olmasına baxmayaraq, əsas müddəalar Çin sisteminə köklənib. Baxmayaraq ki, Yapon və Koreya mütəxəssislərinin bəzi qeydlərində isə, bütün bunlar Uzaq Şərq ölkələrinin musiqi nəzəriyyəsi hesab olunurdu...



# PƏRDƏ ARXASI





**Atababa İsmayıloğlu**

*Axtalanmış ölkələrdə ən çox artan əhalidir;*

*Həm sovet, həm də indiki çağda yaşayan adamların çoxu dəyişib olub - kentavr…*

*Şərəf insanı daxildən, şöhrət zahirdən parıldadır…*

*Düz yolla gedəndə də dörd yol ayrıcındasan…*

*İndini keçmişlə doldursan, gələcəyinə yer qalmaz…*

*Bu oyunbaz dünyada onun komediya kralı ilə, faciəsinin təlxəyi arasında elə ciddi fərq yoxdur…*

*Pərdə qalxır, səhnədə heç kim yoxdur… Mənbiləń, budur - Modernizm, Postmodernizm və başqa dəbdə olan "izmlər"….*

***Rahid Ulusel***
***Narın düşüncələr"dən...***

- Salam, Mehdi müəllim.

Hər dəfə bu sözləri deyəndən sonra qulağımdakı telefonun dəstəyində xeyli fasilə yaranırdı. Handan-hana bəlağətli, təmkinli bir səs eşidilirdi.

- Salam, Atababa.

- Onunla - müəllimim Mehdi Məmmədovla söhbətimiz belə başlayırdı. İstər Azərbaycan Teatr Cəmiyyətində işlədiyimiz dövrdə olsun, istərsə sonrakı vaxtlarda.

Mehdi müəllim salam alanda da, salam verəndə də təmkinli idi. 1967-ci ildən, onun tələbəsi olduğum andan ömrünün sonuna kimi olan dövrdə onun heç vaxt təmkinini pozduğunun, yerişinə "haram" qatdığının şahidi olmadım. O heç yerə tələsmirdi, amma heç yerə də gecikmirdi. O qədər ağır işləri necə planlaşdırırdı, necə çatdırırdı bir Allah bilir. Ürəyi də, vəzifələrdə çalışdığı vaxtda kabinetinə giriş də, mənzilinin qapısı da hamının üzünə açıq idi. Yetmişə yaxın tamaşanın, 20-yə yaxın sanballı elmi-kütləvi, publisistik kitabın, K.S.Stanislavskinin "Aktyorun öz üzərində işi" kimi sanballı bir əsərin və doqquz pyesin tərcüməçisi, yüzlərlə məqalənin müəllifi Mehdi Məmmədov... Hələ onun sevdiyi pedaqoqluq fəaliyyəti, tələbələrinə qayğısı... Adamı təəccüb bürüyür, o, həmin yerişlə, təmkinlə bu qədər işin öhdəsindən görəsən necə gəlirdi?! Bu insanın televiziyada, radioda çıxışlarını da bura əlavə etsək, adamı heyrət bürüyür. Mən onu tanıdığım andan son gününə kimi hansısa bir işi başdansovdu gördüyünün şahidi olmadım. Bəli, hər şeyə məsuliyyətlə yanaşırdı, yazdığı hər məqalədən, oynadığı hər roldan tutmuş hazırladığı tamaşalar, çıxış etdiyi hər veriliş böyük ajiotaj yaradır, tarixə həkk olunurdu. Hərdən düşünürəm ki, bu boyda insanın böyüklüyü bəs niyə görükmürdü ki? Amma, keçmiş də olsa, kədərli də olsa mən onun böyüklüyünün şahidi oldum. Təəssüf ki, dünyasını dəyişdiyi gün... Daha dəqiq desəm, 1988-ci il yanvarın 28-də...

→

O günü indi də xatırlayıram. Teatr Cəmiyyətində işləyirdim. Saat 1100-radələrində sədrimiz, Xalq artisti Şəmsi Bədəlbəyli mənim otağımın qapısını açıq görüb: - "Sabahın xeyir" deyərək, kabinetinə yollandı. Sədr gəlmişdi. O gələndən bir-iki saat sonra kimsə heç yerə getmirdi. Hamı iş başında oturub sədrin ona hansı tapşırıq verəcəyini gözləyirdi. Başım yazı-pozuya qarışmışdı. Selektorun - sədrlə birbaşa telefonun zənginə başımı qaldırıb qeyri-adi cəldliklə dəstəyi götürdüm.

- Bəli, Şəmsi müəllim - deməyimlə, sədrin həyəcanlı, titrəyişli səsini eşitdim.

- Bura gəl, təcili!...

Demək, nəsə baş verib... Bir göz qırpımında özümü Çəmiyyətin üçüncü mərtəbəsindəki dəhlizin bu başından o başına - sədrin otağına atdım. Şəmsi müəllim ayaq üstündəydi, rəngi ağappaq ağarmışdı. Yanında Qarik adlı sürücüsü dayanmışdı:

- "Kommunist" qəzetinin birinci mərtəbəsindəki dəlləkxanaya qaç. Qarik deyir ki, orada Mehdi müəllim...



...Mən dəlləkxanaya yaxınlaşanda ordan iki nəfər ağxalatlı çıxırdı. Mənim qışın bu çağında papaqsız, paltosuz dəlləkxanaya yüyürdüyümü gördükdə ayaq saxladılar. Rus dilində "o, artıq keçinib" dedilər. Özümü dəlləkxanaya saldım. Stollar, kreslolar yana çəkilmiş, Mehdi Məmmədovu dəlləkxananın ortasında uzatmışdılar. Mən əvvəllər də həmin dəlləkxanada olmuşdum. Otaq kiçik deyildi. Amma indi, sanki kiçilmişdi. Mehdi müəllim də mənim gördüyüm boyda deyildi. Gözümə qat-qat böyük görünürdü. Sonradan bu mənzərə gözümün qarşısında canlanarkən başa düşdüm ki, əksinə, "müəllim" indi olduğu boyda görünürdü. Sağlığında biz onun böyüklüyünü görməmişik. O nəinki böyük bir otağa, heç zəmanəsinə sığmırdı, elə ona görə də... Bunu o özü də bilirdi və deyirdi. Amma birbaşa yox, tərcümə edib tamaşaya qoyduğu Maksim Qorkinin "Meşşanlar" pyesindəki Teterov rolu vasitəsilə. Həmin rolu Məmmədrza Şeyxzamanovla yanaşı Mehdi müəllimin özü də ifa edirdi. Orada bir cümlə var: "Həyat düz adamlara boy vermir". Mehdi müəllimin o cümləni necə yanğıyla dediyi indi də mənim yadımdadır.

Nə edəsən ki, bu, həqiqət idi.

* * *

Mehdi müəllimin yazdığı kitablar bu gün də dərs vəsaiti kimi öyrənilir. Yenidən çap olunmadığı üçün əldən-ələ gəzir. Amma, onu Milli Elmlər Akademiyasına heç müxbir üzvlüyünə də seçmədilər. O, heç kimə şikayət etmədi, özünü heç o yerə də qoymadı. Dərdini tələbələrindən birinə demişdi:

- Sonradan başa düşdüm ki, məndən "şirma" kimi istifadə etmişlər.

İndi hanı həmin dövrdə ondan "şirma" kimi istifadə edib, akademik olanlar? Onların kitabları, məqalələri hardadır? Bu gün elmi iş yazanlar, teatrşünaslıqdan və səhnə sənətindən dərs deyənlər, estetika ilə maraqlananlar Mehdi Məmmədovun "Moskva Bədaye Teatrı", "SSRİ Xalq artisti M.A.Əliyev", "Malı teatr", "Böyük vətəndaş, dahi sənətkar" , "Həyat və sənət yollarında", "Azəri dramaturgiyasının estetik problemləri", "Estetika haqqında söhbətlər", "Rejissor sənəti", "Hüseyn Ərəblinski", "Onun sənət ulduzu", "Acı fəryadlar, şirin arzular" və s. kitablarından bəhrələnirlər.

Bu əsərlər böyük sənətkarın teatrşünaslıq və estetika sahəsindəki fəaliyyətidir. Buraya onun böyük səhnə islahatçısı Stanislavskidən tərcümə etdiyi "Aktyorun öz üzərində işi" kitabını da əlavə etsək, onun elmi fəaliyyətinin fəzası gözlərimiz önündə canlanar. Bəli,Mehdi müəllim

→

böyük rejissor və aktyor olmaqdan savayı, teatrşünas-alim, filosof və estet idi. Təsadüfi deyil ki, "Azəri dramaturgiyasının problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərkən ona fəlsəfə elmləri doktoru alimlik dərəcəsi də vermək istəyirdilər. Əslində, böyük sənətkarın bütün yazdıqlarının mayasında və qayəsində böyük bir fəlsəfi düşüncə, təfəkkür vardı. O, tədris prosesində dünyanın bir çox filosoflarından və ədəbiyyatşünaslarından misallar çəksə də, onları dərindən bilsə də, əslində marksist idi. Marksizm fəlsəfəsini dərindən bilirdi, ondan qaynaqlanırdı. Digər fəlsəfələrə də elə marksizm nöqteyi-nəzərindən qiymət verirdi. Onun marksizmi ilə zəmanəsinin popilist marksistləri arasında yerdən-göyə qədər fərq vardı. Mehdi müəllimi marksizmə çəkən insanların bərabər yaşaması, eyni hüquqlara sahiblik fəlsəfəsi idi. Ədalət, haqq - onun üçün hər şeydən üstün idi. Kitablarında hətta Nizamidən belə misal çəkərək bütün insanları eyni hüquqda, maddi sıxıntıdan uzaq görmək istəyirdi. Onun rejissorluğunun da qayəsində bu niyyət və amal kök salmışdı. Hazırladığı bütün tamaşalarının qayəsində insanlar üçün, daha dəqiq ifadə etsək - insanlıq üçün yanğı vardı. Onun üçün sənət də, elm də bir amala xidmət edirdi. İnsanların xoşbəxt, qayğısız yaşamasına!



Zaman keçdikcə, ictimai-siyasi mühit dəyişdikcə, Mehdi Məmmədov əqidəcə dəyişmirdi. Əslində onu əqidəsindən döndərmək qeyri-mümkündü. Bəs tamaşalardakı fərq nədəydi? Onun getdikcə müdrikləşməyi! İstər sənətdə, istərsə də elmdə daha dərinlərə baş vururdu. Sənətkar daim axtarışda idi. Hətta gənclik illərində Gəncə Dövlət Dram Teatrında işlədiyi dövrdə də Mehdi Məmmədovun rejissor kimi yaradıcılığının ən məhsuldar dövrü Gəncə Teatrında işlədiyi illərdir. Bu teatrın səhnəsində o, 15 tamaşa qurmuşdu. Elə il olmuşdu ki, gənc rejissor bir ildə hətta beş tamaşa hazırlamışdı. Sonralar bu "rekordu" o, bir daha təkrar etmədi. Ümumiyyətlə, belə sürət, tələsiklik Mehdi müəllimin nə xasiyyətinə, nə də sənətinə xas deyildi. Amma başqa bir yol, çarə də yoxuydu. O zaman həkimlər də, müəllimlər də, fəhlə və kəndli sinfi də belə işləyirdi. Amma bu tamaşaların heç birində başdansovduluq olmamışdı. Əksinə, rejissorun bu quruluşlarının hamısı nümunəvi tamaşalar idi. O, gecə-gündüz işləyirdi. Özü də kimsəni təqlid etmirdi. Gəncə teatrında ondan narazı qalan aktyorlar da vardı, razı qalanlar da... Mən Teatr Cəmiyyətində işləyəndə Gəncə teatrının aktyorlarının bir söhbətinin şahidi oldum. Onlar danışırdılar ki, Mehdi müəllim hazırladığı tamaşaların birində qəribə eksperiment edib. Əsərin əvvəlindən deyil, sonrakı pərdələrindən hazırlamağa başlayıb. Əvvəl rejissorun bu eksperimenti onları çaşdırıb; tərəddüd göstərənlər, etiraz edənlər də olub. Amma elə ki, sonda tamaşa uğurlu alınıb, rejissorun bu yeniliyini alqışlayıblar. Təxminən buna oxşar bir eksperimenti Mehdi Məmmədov 1955-ci ildə hazırladığı "Hacı Qəmbər" tamaşasında da işlədib. Bu haqda mənə rəhmətlik Barat Şəkinskaya danışmışdı. 1955-ci ildə, indiki Akademik Milli Dram Teatrında "Hacı Qəmbər" tamaşasının səhnə məşqləri başlayarkən, aktyorların hələ rollarını tam əzbərləmədikləri bir vaxtda Mehdi Məmmədov aktyorlara rol dəftərlərini kənara qoymağı təklif edir. Sonra həmin şəkildə baş verən hadisələri onlara bir daha →

xatırladır, onlara təklif olunan vəziyyəti başa salır. Deyir ki, elə bilin siz özünüz bu vəziyyətə düşmüsünüz. Bu vəziyyətdə insan nə edə bilərsə, o cür oynayın. Onlara düşünmək üçün də müəyyən vaxt verir. Sonra isə aktyorların "rejissorsuz" sərbəst məşqini izləyir. İndi sual oluna bilər - belə məşqlər nə üçündür?! Şübhəsiz aktyorların rollarını nə dərəcədə başa düşdüklərini, nə qədər tamaşaçıya çatdıra bildiyini öyrənmək üçün... Məhz bundan sonra ona hansı aktyorun rolunu nə dərəcədə başa düşdüyü, mənimsədiyi aydın olur. Bu onun aktyorlarla iş metodu idi. Mehdi Məmmədov rejissor yaradıcılığının hər üç dövründə də aktyorlarla işləməyə üstünlük verirdi. O, aktyorlardan maksimum dərəcədə istədiyini almağa çalışırdı...

Mehdi Məmmədovun "Müfəttiş"i dünya teatrlarında, xüsusən də bu əsərin "doğma vətəni" Rusiyada hazırlanan bütün "Müfəttiş" tamaşalarından fərqlənirdi. "Müfəttiş" tamaşasında o zaman teatrın ən güclü komik aktyoru Mirzağa Əliyevə rol vermişdi. Amma bu qüdrətli sənətkar nə Xlestakov, nə də Bələdiyyə rəisi rolunda çıxış edirdi. O, tamaşada ən kiçik bir rolu, Xlestakovun nökəri Osipi canlandırırdı. "Müfəttiş" pyesinə bələd olanlar yaxşı bilir ki, orada Osipdən başqa digər obrazların hamısı əxlaqsız, xalqın var-dövlətini talayan rüşvətxorlar, tüfeylilərdir. Bəs bu talanmanın əziyyətini kim çəkir? Bax, rejissoru da düşündürən bu məsələ idi. Osip də sizin birinizdir, buyurun, onun güzəranına baxın. Sonradan görkəmli teatr tənqidçisi Cəfər Cəfərov bu roldan söhbət düşdükdə yazacaqdı: - "M.A.Əliyevin ifasında Osip roluna gəldikdə isə, demək lazımdır ki, onun əhəmiyyəti uğurlu bir ifa olması ilə məhdudlaşmırdı, bu rol bütünlükdə tamaşanın ideya-psixoloji ahəngini tapmaqda rejissora kömək edirdi. "M.Əliyev mənim üçün kamerton rolunu oynayırdı, - deyə Məmmədov xatırlayırdı: - Ona əsasən mən səhnə sənətkarlığına sədaqətin və bütövlükdə tamaşanın həyatilik gücünün dərəcəsini yoxlayırdım". M.Əliyev Osip rolunu "heyrət doğuran bir dərəcədə sadə, təbii, hər cür süni effektlərsiz, ağıllı, məntiqli və həmişə də hər yerdə inandırıcı oynayırdı". M.Məmmədovun bir rejisor kimi can atdığı əsas məqsəd bu idi.

Mirzağa Əliyev Mehdi Məmmədovun sevdiyi aktyorlardan idi. Bir dəfə onun haqqında söhbət düşəndə dedi ki, Stanislavski sistemi bu kimi nadir sənətkarlara aid deyil. Onlar bir anın içində başqalaşıb rola girə bilirlər. Amma SSRİ-nin ən böyük fəxri adını daşıyan bir sənətkarı kiçik bir rola razı salmaq elə də asan məsələ deyildi. Görünür, Mehdi Məmmədov bu məşhur komik aktyorun yaradıcılığında və hətta həyatındakı dramatikliyi, onun üsyankar təbiətini görə bilmişdi. Axı Mirzağa Əliyev inqilab təmayüllü "Həmiyyət" truppasının yaradıcısı olmuş, inqilabi ruhlu şeir oxuduğu üçün çar hökuməti tərəfindən Volqaboyuna sürgün olunmuşdu...

Ümumiyyətlə, ayrı-ayrı istinalar nəzərə alınmazsa, dövrünün böyük sənətkarları siyasətçilərdən, hökmdarlardan daha uzağı görə bilirlər. Onların yaşadığı zamanda faciəsi və öləndən sonra xoşbəxtliyi ondadır ki, gördüklərinə göz yuma bilmirlər. Elə Mehdi Məmmədov da susa bilmirdi. "Dəli yığıncağı"nda olduğu kimi...

Yeri gəlmişkən, yadıma bir əhvalat düşdü. Bir dəfə dərs prosesində marksist estetikadan söhbət düşdü. Mehdi müəllim bir çox hallarda marksizmin düzgün anlaşılmadığını bildirdi. Sonra da ona teatr texnikumunda dərs deyən Hüseyn Cavidi yada saldı. Bildirdi ki, marksizmi anlamayanlar Hüseyn Cavid əsərlərini də qavraya bilməzlər. Danışdi ki; - bir dəfə Hüseyn Cavid dərsə əsəbi gəlmişdi. Əsəbdən qıpqırmızı qızarmışdı. Əlində pyesləri toplanmış kitab vardı. Kitabın qıraqlarını özündən asılı olmayaraq, hirsindən didik-didik etmişdi. O, bizə dedi ki, mən onlara Marksdan da misal çəkdim. Amma razılaşmadılar, çünki marksizmi bilmirlər. (Sonralar Mehdi müəllimin bu xatirəsini rəhmətlik müəllimim Turan xanıma da danışdım. Turan xanım: "Bilirəm" - dedi.)

Bəli, Mehdi Məmmədov müəllimi Hüseyn Cavidin yaradıcılığını dərindən bilir və sevirdi. Əlbəttə ki, dramaturqun "İblis" pyesini də. Hələ 60-cı illərin sonunda dərs zamanı müxtəlif pyeslərlə yanaşı, "İblis" pyesindən də söhbət düşmüşdü. Marksist Mehdi Məmmədov dinə meylli deyildi. Amma İblisin ünvanını tələbələrinə dəqiq nişan verirdi. O, İblisin yaranışıyla bağlı dini nöqteyi- nəzərdən deyilənləri izah edəndən sonra öz mülahizəsini diqqətə çatdırdı. Bildirdi ki, İblisi dini kitablarda, ⟶

əfsanələrdə deyil insanlarda axtarın. İnsanın qəlbi çirkinləşəndə siz əsl İblisi görə bilərsiniz. Dini kitablardakı İblis elə bu iblisləşmiş insandır. Əslinə qalarsa, dini kitablardakı İblis ibrət üçündür. Ən təhlükəli İblis - insanın qəlbindəki İblisdir. Bu İblisin mənəviyyatı, xisləti başqalarının haqqı üzərində qurulub. Bu isə müharibələrə, inqilablara, səfalətlərə, ictimai həyatdakı partlayışlara, bir sözlə qan və qovğalarla nəticələnən bir həyata gətirib çıxarır. Elə "İblis" tamaşasının qayəsində də bu məsələlər dururdu...



..."İblis"dən sonra da bu böyük sənətkar yeni tamaşalar hazırlamaq istəyirdi. Amma görəsən həmin tamaşada o, bədii cəhətdən "İblis"dən dərin, daha mükəmməl fikir deyə biləcəkdimi? "İblis" onun son tamaşası oldu. Bəlkə də ona görə ki, "İblis"dən sonra bu dünyada qalmağa nə hacət?!

**P.S.** Yadıma bir əhvalat düşdü. Daha doğrusu, həmişə gözümün qarşısında canlanan bir epizod. 1968-ci ilin sonunda Mehdi Məmmədov Lev Tolstoyun "Canlı meyit" pyesini Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoymuşdu. Seminarların birini də həmin quruluşun müzakirəsinə həsr etmişdi. Bir-bir bizi qaldırıb tamaşa haqqında fikirlərimizi soruşurdu. Hələ göylə gedən vaxtımız idi. Tamaşanı nadancasına tənqid də edirdik, yersiz tərifli sözlər də deyirdik. Mehdi müəllim də diqqətlə qulaq asırdı. Sonda yekun sözünü dedi. Bildirdi ki, sizin rejissor işi ilə bağlı tənqidləriniz mənə aiddir. Bu haqda fikirləşərəm. Amma aktyor ifasıyla bağlı tənqidi fikirləriniz haqqında siz fikirləşin. Maşa - Şəfiqə Məmmədova və Saşa Səfurə İbrahimovanı tənqid etmək ən azından insafsızlıqdır. Danışa-danışa auditoriyaya göz gəzdirirdi. Birdən gözü tələbə yoldaşımız Nailə Tərlanovaya sataşdı. Nailə müəllimin gözündən yayınıb, fikrini bildirməmiş yeganə tələbə idi. Ondan tamaşa haqqında fikrini soruşdu. Nailə çox güman ki, əsərə baxmamışdı, amma əlində yalançının şahidi kimi tamaşanın proqramını tutmuşdu. Bir an duruxdu, sonra - "Yaxşı tamaşadır" - dedi.

Şübhəsiz ki, Mehdi müəllim "yaxşı" kəlməsi ilə razılaşmayacaqdı. Elə də oldu.

- Yaxşı, bir halda ki, deyirsən, yaxşıdır, onda bu yaxşılığı izah et, de görək nə yaxşıdır.

Nailə əlindəki proqrama baxa-baxa yenə duruxdu. Sonra nəsə tapmış kimi dilləndi:

- Yaxşı odur ki, baş rolu iki aktyor oynayır.

Mehdi müəllimin üzündə sevinc göründü. O zaman Nailənin baş rol dediyi Protasov rolunu Mehdi müəllimin özüylə yanaşı görkəmli aktyor Əli Zeynalov da ifa edirdi. Hər aktyorun özünün rola yanaşma tərzi vardı. Bir-birlərini təkrarlamırdılar. Mehdi müəllim də, biz tələbələr də belə düşünürdük ki, Nailə bu haqda danışacaq. Nailə hıqqana-hıqqana dilləndi:

- Yaxşı odur ki, biri öləndə o biri həmin rolu oynaya bilər.

Bu sözdən sonra Mehdi müəllim uğunub özündən getdi. Mən ilk və sonuncu dəfə idi ki, onu gözü yaşarıncaya qədər gülən gördüm.

İndi hər zaman o mənzərə yadıma düşəndə elə bilirəm ki, ustad öz ölümünə gülürdü.

Ölüm neynədi ki?! ...Mehdi müəllim yaşasaydı da onun 100 illik yubileyi qeyd olunacaqdı, yaşamasaydı da...

# Mehdi əmimin ən böyük məhəbbəti...



SSRİ xalq artisti, rejissor, aktyor, alim və pedaqoq əmim, Mehdi Əsədulla oğlu Məmmədovun teatr sənətinə vurğunluğu Şuşadan Bakıya köçəndən sonra başlanıb.

Mehdi müəllimin xatirələrində bu sətirlərlə rastlaşırıq: "Teatrın havası, eşqi məni rahat buraxmır, elə bil cavab istəyir, qərar gözləyirdi. Peşə seçmək, həyatda öz yolumu tapmaq vaxtı çatanda atamın arzusuna qarşı durmalı oldum". Yadıma düşür ki, mənim valideynlərimin dediyinə görə, tanışları dindar Əsədülla kişidən soruşanda ki, "Hacı, oğlun hansı peşənin sahibidir?" o da sıxıla-sıxıla deyərmiş ki, "müəllim olmağa hazırlaşır".

Sənət aləmində güzəştə getmək, yaradıcılığa səthi yanaşmaq ona həmişə yad olub. Xarakterindəki bu cəhət, ömürlük qəbul etdiyi yaradıcılıq amalı hələ gənclik illərində özünü göstərmiş, onun sənətə baxışlarını birdəfəlik müəyyənləşdirmişdi. Bunun bariz nümunələrini tapmaq üçün uzaq illərə dönək. Abbas Mirzə Şərifzadəni özünə ustad, sənət idealı sayan Mehdi 18 yaşında ikən dahi aktyorun quruluş verdiyi "Dağılan tifaq" tamaşası ilə bağlı məqalə yazıb teatr aləmində hamının şəksiz olaraq böyük nüfuz sahibi saydığı sənətkarı tənqid etmişdi. Bu nə deməkdir? Səhnədə ideal sandığı sənətkarı inkar etmək, bir az da sərt desək, ustada xor baxmaq idimi? Xeyr! Böyük teatr bilicisi Cəfər Cəfərovun da yazdığı kimi, "gənc Mehdinin tənqidi qeydləri prinsipial əhəmiyyət daşıyırdı, klassik əsərə düzgün münasibətdən irəli gəlirdi. Bu sualın cavabını eyni zamanda gənc Mehdinin daxilində gəzdirdiyi və sonralar birmənalı şəkildə formalaşdırdığı şəxsi mövqeyində axtarmaq lazımdır".

Mehdi Məmmədov, "Teatr düşüncələri" adlı kitabında yazır: "Mən anladım ki, teatra məhəbbət təkcə duyğudan, hissdən, həvəsdən ibarət ola bilməz. Bu məhəbbət ağıl, əqidə, inam anlayışından ayrı deyil. Teatra məhəbbət heç də sadəcə həvəs deyil, həvəslə qəbul →

edilmiş vəzifədir. Xoş bir məşğuliyyət deyil, qürurla daşınan məsuliyyətdir".

...Sənət aləmində möhkəm əqidə sahibi, inam və məsuliyyət daşıyıcısı olan Mehdi Məmmədovun sənətkar şəxsiyyətinin özülü məhz həmin illərdə qoyulub. Və bu yaradıcılıq prosesi iki böyük sənətkarın aktyor və rejissor Abbas Mirzə Şərifzadənin və şair, dramaturq Hüseyn Cavidin yaxından iştirakı ilə baş tutub.

Azərbaycanda Teatr texnikumunda aldığı biliklərlə kifayətlənməyən gənc Mehdi Moskvada Dövlət Teatr Sənəti İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra ona Moskvada qalıb işləməyi təklif edirlər. Qalmır. Halbuki onun qarşısında Moskva teatrlarının birində tamaşalar hazırlamaq, yaxud Teatr sənəti institutunda dərs demək və beləliklə məşhurlaşmaq, o vaxtkı paytaxt ictimaiyyətinin diqqətini cəlb etmək perspektivi açılmışdı. Bütün bunlar onu şirnikləndirmədi, Vətəninə qayıtmaq, milli teatr sənətinə, Azərbaycan mədəniyyətinə, xalqına xidmət etmək məqsədindən, amalından döndərmədi. O, qayıtdı və bir-birinin ardınca Azərbaycan teatr tarixinin qiymətli səhifələri sayılan tamaşalar hazırladı.

Mehdi Məmmədovun quruluş verdiyi tamaşaların hazırlıq prosesi barədə xüsusi danışmaq gərəkdir. Məşqlər ondan ötrü az qala dini ayin qədər müqəddəs sayılırdı. "İblis" tamaşasının hazırlıq dövründə məşqə gecikən bəzi aktyorlara söylədiyi sözlər indi az qala zərbi-məsələ çevrilib. "İblis" tamaşasında kiçik yaşlı bir oğlan səhnədə sözsüz rolda görünməliydi. Bu balaca ifaçı məşqlərə çox səliqə ilə, vaxtlı-vaxtında gəlirmiş. Amma sonra o da bir sıra tanınmış ifaçılar kimi nizam-intizamı pozmağa başlayır. Mehdi müəllim aktyorları bir yerə toplayıb, acı təbəssümlə: "Bu uşaq məşqlərə həmişə səliqə ilə gələrdi. Bu, ondan sizə nümunə. Sonra o da gecikməyə başladı. Bu isə sizdən ona nümunə" deyir. Halbuki, əksinə olmalı idi.




Sənət etikasını bütün həyatı və yaradıcılığı boyu uca tutan Mehdi Məmmədov qurduğu tamaşalarda özünün vətəndaşlıq, sənətkar mövqeyini də yüksək mərtəbədə qoruyub saxlayırdı. Həm də bunu şüarçılıqla, fəlsəfi məzmunda, düşünən beyinlərin, yüksək estetik zövq sahiblərinin gözlədiyi tərzdə tamaşaçılara çatdırırdı. Yaradıcılığının və həyatının son dövrünə təsadüf edən "Canlı meyit", "Leyli və Məcnun", "Xəyyam", "Dəli yığıncağı", "İblis" əsərlərinə verdiyi quruluşları götürsək, fikrimizin təsdiqinə yetər. "Əsrinin yetimidir dahilər" "Xəyyam" tamaşasında söylənilən bu kədərli misra adlarını çəkdiyim digər tamaşaların da leytmotivi, Mehdi Məmmədovun rejissor konsepsiyasının ən doğru ifadəsidir.

Mehdi Məmmədov teatrı həyatda hər şeyə qısqanırdı. Hətta insanların böyük əksərinin sevdiyi futbola da. Bu, əlbəttə, onun teatra böyük sevgisindən irəli gəlirdi. Mən bu sevginin başqa təzahürünü dahi aktyor Hüseyn Ərəblinskinin şərəfinə keçirilən yubiley tədbirində görmüşəm. H.Ərəblinski həyatından onun faciəsindən danışan Mehdi Məmmədovun çıxışı əsnasında... kövrəldiyi an indi də gözümün qabağındadır... Teatra olan bu məhəbbət, məhz Mehdi Məmmədova məxsus həmişəyaşar məhəbbət idi və o, ömrünün sonunadək içində bəslədiyi bu hissləri özü ilə bərabər daşıdı, özündən sonrasa tələbələrinə, yetirmələrinə əmanət etdi...

**Əsəd Məmmədov**
**teatrşünas**

# Zülfüqar Abbasov: *"Mənсə, teatrsız tərəqqi heç vaxt kamil ola bilməz"*

Uzun illər Azərbaycan teatrı və kino sənəti üçün əvəzsiz işlər görən, hətta öz məktəblərini yaradan kəslər millətin çox dəyərli mənəvi sərvətidir. Amma nə yazıqlar ki, biz onların çoxunu hətta sağlığında belə yaddan çıxarmışıq. Bu gün onlardan çoxu indi də teatr və ekran sənətimiz üçün bu indi də çox işlər görməyə qadirdir, amma belə sənətkarlar nə üçünsə tamam unudulub, çıxdaş olunub. Belə maraqlı sənət ustalarından biri heç şübhəsiz ki, xalq artisti Zülfüqar Abbasovdur.

*Zülfüqar Qulu oğlu Abbasov Borçalıda doğulsa da, onların kökü Qərbi Azərbaycanın Vedi və Dərələyəz mahalındandır. Zülfüqar orta məktəbi Borçalıda və Tiflisdə isə Müəllimlər İnstitutunu bitirib. Tiflisin teatral mühiti gələcəkdə müəllim olmaq həvəsilə yaşayan Zülfüqarın fikrini tamam dəyişib. Azərbaycan Teatr İnstitutunun rejissorluq fakültəsinə qəbul olunub. Burda Mehdi Məmmədovdan, Rza Sabarbskidən, Müxlis Cənizadədən, Məlik Dadaşovdan bu sənətin sirlərini öyrənib. Rejissor kimi İrəvan, Mingəçevir, Qazax Dövlət Dram Teatrlarında quruluşçu rejissor, direktor, bədii rəhbər, baş rejissor vəzifələrində çalışıb. 200-dən çox tamaşaya quruluş verib.*

Uzun illər boyunca tanıdığım, quruluş verdiyi tamaşalara maraqla baxdığım, öz işinin ustası olan bir sənətkarla Azərbaycan teatrının dünəni, bu günü və sabahı barədə dərdləşdik. Qoy ürəyinə salmasın, ancaq bəri başdan onu deməliyəm ki, öz sevimli sənətindən ayrı düşməsi Zülfüqar Abbasovun yaşının üstünə yaş gətirib, onu xeyli bədbinləşdirib...



**- Zülfüqar müəllim, Siz, Mingəçevir teatrına neçə illər rəhbərlik etmisiz... Birdən-birə necə oldu ki, sizin kimi peşəkarı işdən uzaqlaşdırdılar? Üzünüzə demək olmasın, axı sizin kimi usta rejissorlarımızı barmaqla saymaq olar.**

- 1982-ci ildə böyük alim, akademik Zərifə xanım Əliyevanın Moskvada çap olunan, monoqrafiyasının Mingəçevirdə keçirilən müzakirəsində mən, özümün "Fillər ayaq üstə ölürlər" əsərimin tamaşasını bu monoqrafiyaya həsr etmişdim. Səhnədə Tibb mərkəzinin 100-ə yaxın müdavimi and içdilər. Sonra tamaşa göstərildi. Bu tamaşa həmin vaxtı böyük əks-səda doğurdu. Teatrda anşlaqla göstərildi. O unudulmaz günləri indi də xatırlayıram. Bir də onu tez-tez xatırlayıram ki, səhnə həyatı verdiyim əsərlərin tamaşalarına tanınmış şəxsiyyətlər, peşəkar ədəbiyyat və teatr xadimləri yüksək qiymət veriblər. Ona görə də tez-tez hücumlara məruz qalırdım... Amma bütün bunlara baxmayaraq, Aftil kişi →

demiş: “Deyim, necə deyim. Deməyim necə deməyim”. Fikirləşirəm ki, daldan atılan daş olmazmı?... Yəqin ki, olar. Nə isə... bunun üstündən sükutla keçək... Təkcə onu mütləq deməliyəm ki, 1997-ci ildə Şeyx Şamilin 200 illik yubileyi münasibətilə Mehdi Hüseynin “Şeyx Şamil” faciəsi mənim quruluşumda Azərbaycan Opera və Balet Teatrında göstəriləndə ulu öndər Heydər Əliyev də bu tamaşaya baxıb. Söhbət əsnasında öyrənib ki, tamaşanın quruluşçu rejissoru Zülfqar Abbasov uzun illər teatrda çalışsa da, hələ bu vaxta qədər fəxri ad almayıb və həmin tamaşadan sonra ümummilli liderin sərəncamı ilə mənə birbaşa Xalq artisti fəxri adı verildi. Azərbaycan rejissorluğunda Adil İsgəndərovdan sonra mən ikinci rejissor idim ki, birbaşa Xalq artisti fəxri adı verilirdi. Mənim quruluşumda İlyas Əfəndiyevin “Mahnı dağlarda qaldı” pyesinin Mingəçevir Dövlət Dram Teatrındakı tamaşasında Böyük bəy rolunu Milli Akademik Dram Teatrından dəvət olunmuş SSRİ Xalq artisti İsmayıl Dağıstanlı onda belə demişdi: “Bu tamaşa mənimçün böyük kəşf oldu. Çox istərdim ki, mənə Dövlət mükafatı Bakıda, Milli Akademik Dram Teatrda oynadığım Böyük bəy roluna görə yox, bu teatrda oynadığım rola görə veriləydi. Bir də, Zülfüqar müəllim izn versəydi, Böyük bəyin ev-eşiyi ilə vidalaşdığı son səhnədəki mizanı mən Bakıda oynadığım tamaşada eləcə oynardım”. Mənim birbaşa Xalq artisti fəxri adına layiq görülməyim, həyatda mənə qarşı olan qibtənin başlanğıcı oldu.. Yadımdadı, o vaxt mənim beynimdə Cəfər Cabbarlının “Sitarə”sini faciə kimi səhnələşdirib, tamaşaya qoymaq fikri oyanmışdı. Çox həvəslə işə başladıq. Onu da deyim ki, həmin illərdə Mingəçevir Dövlət Dram Teatrı öz tamaşalarına görə özünün ən yaxşı səviyyəsindəydi. Misalçün deyim ki, Milli Akademik Dram Teatrın direktoru, mərhum aktyorumuz, Xalq artisti Əliabbas Qədirov mənim Mingəçevir Dövlət Dram Teatrında hazırladığım və onların səhnəsində göstərdiyimiz İlyas Əfəndiyevin “Sevgililərin cəhənnəmdə vüsalı” tamaşasına baxdıqdan sonra, müzakirədə dedi ki, “biz rəqabətimizi bundan sonra Mingəçevir teatrı ilə aparmalıyıq”. Əlbəttə, bu bir dost zarafatı idi. Amma həqiqətə yaxın idi...

Nə isə, bu arada baş verənləri sadalamaq, bir daha yada salmaq istəmirəm...

**- Bəs necə oldu teatrdan ayrı düşdüz?**

- 2010-cu ildə teatrın direktoru məni çağırıb dedi ki, “sən ərizə verib, işdən getməlisən. Çünki 70 yaşın tamam olub”. Dedim ki, axı, mən indi başlamışam əsl gücümlə işləməyə. Xalq artistiyəm. 200-dən çox tamaşaya quruluş vermişəm. Cavabında bildirdi ki, “ yuxarıdan məsləhət belədir”. Həmin vaxt hələ “yaş senzi” də dəbə düşməmişdi. Mən ərizə vermədim. Onlar əmrlə işdən çıxardılar. Bu da mənim teatrla başlanan gözəl, uğurlu ömrümün sonu oldu. Düşdüyüm vəziyyəti təsəvvürə gətirin... Bir daha deyirəm. Həmin vaxtı “yaş senzi” hələ yox idi. Artıq belə bir vəziyyətdə çaş-baş qalmışdım. Bilmirdim kimə şikayət eləyim, öz haqqımı kimdən tələb eləyim...

**- Ondan sonra heç yanda işləmədiz?**

- Sağ olsun “EL” Televiziya Şirkətinin direktoru İqbal Məmmədəliyev... Məni o şirkətə işə dəvət elədi. Həmin televiziyada əsl yaradıcılıq zövqü ala-ala işləyirdim. Necə deyərlər, gözümün qurdunu böyük həvəslə öldürürdüm... İşimdən razıydım. Zəhmət haqqı da alırdım.

**- Doğrudan-doğruya teatrla tamam üzülüşdüz?**

- Yox. Bir gün Mingəçevir Teatrının direktoru Həsən Həsənov məni görüb, dedi ki, “teatrda studiya açılır. Gəl ona rəhbərlik elə”.

Teatra olan sonsuz istək yenə məni o məbədə apardı. Birinci iki illik kurs çox yaxşı oldu. Kursun sonuna yekun kimi özüm quruluş verdiyim “Ön xətdə müharibə” əsərim yaxşı qarşılandı. Əvvəllər özümdə düşünmədiyim, görmədiyim hallar baş verirdi. Bu istedadlı uşaqların çoxu hamını heyrətə salmışdı. Onların oyunu əsl peşəkar səviyyədəydi. Məhz buna görə də onların hamısı teatrda işə qəbul olundu. Sonra yenə ayağımın altı təzədən qazıldı. Çox keçmədi ki, yenə bu kursdan da çox ustalıqla uzaqlaşdırıldım...

⟶

Sonra da dedilər ki, kursa rəhbərlik teatrın yeni baş rejissoru Xəzər Gəncəliyə tapşırılıb. O Xəzər Gəncəli ki, o da həmin oyunların ucbatından hazırda teatrdan uzaqlaşdırılıb. O Xəzər Gəncəli ki, bu mövsüm başlayanda Mingəçevir Dövlət Dram Teatrının 50 illik yubileyində Əməkdar artist fəxri adına layiq görülmüşdü. Yəqin ki, buna inanmayacaqsınız, amma bu, bir həqiqətdir. Xəzər Gəncəli kimi maraqlı rejissor da artıq acıq eləyib, ümumiyyətlə Azərbaycandan tamam çıxıb gedib. Belə çıxır ki, teatrçün çox maraqlı işlər görən, maraqlı tamaşalar hazırlayan bir peşəkar rejissoru da itirdik və o, Azərbaycandan gedib, əvvəllər işlədiyi Türk teatrına pənah gətirib...




**- Doğrudan bizdə peşəkar rejissorlar belə çoxdur ki, biz onları da itirə-itirə gedirik?..**

- Yəni, nadanların gözü heç vaxt məğrur, savadlı, istedadlı adamları götürmür... Teatrsız neçə illərim beləcə keçib getdi... Başa düşürəm... Mən qəribə qisməti olan bir insanmışam. Kimin qolundan tutub qaldırmışamsa, o qolun yiyəsindən üzüdönüklük, xəyanət görmüşəm. Dostum, maraqlı aktyorumuz, Mingəçevir Dövlət Dram Teatrında yaddaqalan rollar oynamış, direktor işləmiş mərhum Mirbaba Xəlilov deyirdi ki, - Zülfüqar müəllim, sənin faciən - özünü müdafiə etməməyindədi. Allah ona rəhmət eləsin. Doğru deyirdi. Neynəmək olar, mən də beləyəm də... Əksinə, mən gücsüzlərin, arxasızların qolundan tutmuşam, onlara dayaq durmuşam. Sevinirəm ki, teatrımızda ad-san qazanan bir çox aktyorları - Neftun Tağıyevi, Vaqif Məmmədovu, Mirbaba Xəlilovu, Akif Mirabovu, Afət Əliyevanı, Vaqif Kərimovu, Asim Məmmədovu, Şıxı Yaqubovu, Hüseyn Mustafayevi, İlqar İbrahimovu, rəssamlar Rəfael Haşımovu, Yusif İmamverdiyevi, Qazax teatrında - Saqif İsgəndərovu, Hacı Hacıyevi, İlqar Hacıəliyevi, Xanım Məmmədovanı və başqalarını mən yetişdirmişəm. İşlədiyim müddətdə aşiqi olduğum teatr sənətinə sadiq qalıb, Vətənimə, dövlətimə layiqincə qulluq etmişəm. Sevinirəm ki, indi də mingəçevirlilər mənə böyük hörmətlə yanaşır, ehtiramla salam verirlər.

**- Bəs Xalq artisti, teatrdan ayrı düşən rejissor Zülfüqar Abbasov hazırda nəynən məşğuldur?**

- Cəmi insanlar kimi yaşayıram; ürəyimi, fikirlərimi, həyata keçirə bilmədiyim düşüncələrimi bədii yaşantılarımı... ovcumun içinə alıb oxşayır və mənə Ulu Tanrı tərəfindən verilən ömürün sonuna qədər getmək istəyirəm. Ara-sıra ağlımdan keçənləri kağıza köçürürəm və sonra da... cırıb atıram...

**- Niyə? Axı siz, həm də maraqlı dramaturqsunuz. Pyeslərinizi, səhnələşdirdiyiniz əsərləri oxumuşam. Bu gün Azərbaycan teatrlarının maraqlı səhnə əsərlərinə ehtiyacı var...**

- Fikirləşirəm ki, əgər sağlığımda hələ ki, tamaşalar hazırlamağa canımda su varsa və mənə öz sevimli işimi görməyə imkan vermirlərsə, mən öləndən sonra kimə lazım olacağam ki?! Yazdıqlarımı kim oxuyacaq?.. Fikirləşməyin ki, aciz adamam. Əsla! Hətta lazım gəlsə, ⟶

nə boyda düşmənlə olsa belə vuruşmağa hazıram. Hələki, susmağa üstünlük verirəm... Onu da fikirləşirəm ki, yazdığım pyeslər də sağlığımda tamaşaya qoyulmayacaqsa, niyə və kimdən ötrü yazıram?!

**- Siz, böyük təcrübə yiyəsi olan bir rejissorsuz. Bu gün də Azərbaycan teatrlarında əsl rejissora ehtiyac böyükdür. Sizin kimi rejissorlar niyə bekar durmalıdır ki?**



- Onu deyim ki, sözdə deyilməsinə baxmayaraq, teatr rəhbərlərinin müstəqil hərəkət etmək ixtiyarı demək olar ki, yox dərəcəsindədir. Truppasının formalaşmasında xeyli zəhmətim olan Qazax və Mingəçevir teatrlarının rəhbərləri dəfələrlə buna meyl etsələr də, buna nail ola bilməyiblər. Onlara ixtiyar verilməyib. Açıq deyirəm, mən özüm səhnə üçün çox darıxmışam. Bununla bağlı Mədəniyyət Nazirliyinə dəfələrlə müraciət etmişəm ki, imkan yaratsınlar, teatrlarda tamaşalar hazırlayım.

**- Böyük təcrübəsi olan bir rejissor kimi bugünkü Azərbaycan teatrı barədə fikriniz maraqlıdı. Azərbaycan teatrlarını dirçəltməkdən, dünyada tanıtmaqdan ötrü hansı işləri görməyi daha vacib sayırsız?**

- Bu sual bir qədər çətin olsa da, cavabı ziddiyyətli olacaq. Bir dəfə Mingəçevir teatrında müşavirə keçirən, çox savadlı və təmiz fikirli bir dövlət adamı ilə aramızda bu məsələyə münasibəti müzakirə etdik. Möhtərəm prezidentimiz İlham Əliyev teatrların inkişafı üçün "2009-2019" layihəsini irəli sürüb. Bu layihə həqiqətən teatrların maddi-texniki bazasının möhkəmlənməsinə təkan verdi. Həmin vaxt teatr işçilərinin maaşlar da, işə həvəsləri də birə-beş artdı. Amma sonralar bu layihə düzgün başa düşülmədi. Yaşlı, təcrübəli teatr mütəxəssisləri işdən aralandırıldı. Bunun yerinə xarici ölkələrdən ortabab rejissorlar, rəssamlar dəvət etmək dəbə çevrildi...



Yeri gəlmişkən, hara tərpənsən də, tamaşanın, dayağı-divarı aktyordur. "Əlahəzrət" aktyorun da yüksək biliyə sahib olmasını, öz rolunun rejissoru olmasını yalnız milli ruha malik rejissor yetişdirə bilər. Bu işdə Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlova istisna olmaqla başqa teatrlarda işlər elə də qənaətbəxş deyil. Yəni digər baş rejissorlar bu işi tam görə bilmirlər...

**- Elə mən də onu deyəcəkdim. Siz ona toxunduz. Uzaqdan rejissor dəvət eləmək indi bir dəbə çevrilib...**

- Mən də indiki şəraitdə teatrlara kənardan ortabab rejissorların dəvət olunmasının əlehinəyəm. Tez-tələsik tamaşalar hazırlayıb təhvil verən və tez də pullarını alıb, gəldiyi ölkələrə tələsən ortabab rejissorlar bizə gərək deyil. Mən vicdanla işləyənləri nəzərdə tutmuram. Onlar bir-iki nəfərdi. Hələ vaxtilə hər şeyə ciddi nəzarət olunduğu bir vaxtlarda Stanislavskinin özü, belə rejissorluğun əleyhinəydi. Müəllifin fikiri, bu əsəri niyə yazması və gələcək tamaşanın indiki tamaşaçılara nə verəcəyini düşünənlər demək olar ki, çox azdır. Axı, Hüseyn Cavidi tamaşaya qoymaq, "mən klassik əsər işlədim" - deyə düşünmək azdı. O, hər qəlibə, xüsusilə də indiki "müasir tamaşa" çərçivəsinə sığmır. Ümumiyyətlə teatrda bütün yük rejissorun çiyninə düşür. Məhz bu səbəbdən əsl rejissorlara qayğı göstərilməlidir. Onlara lazımi ⟶

şərait yaradılmalıdır ki, onlar lazım olan səviyyədə tamaşa qura bilsinlər... Ümumiyyətlə bütün dünyada olduğu kimi Azərbaycanda da teatrda səlahiyyət rejissora verilməlidir, teatrın direktoruna yox. Axı teatr zavod, fabrik deyil, yaradıcı müəssisədir...

**- Bu gün bizdə tətbiq olunan "yaş senzi" bir çox istedadlı, təcrübəli sənətkarların işdən getməsinə səbəb olub. Biz, bunun necə deyərlər, altını çəkirik və gələcəkdə də çəkəcəyik. Bundan peşiman olacağımız gün də uzaqda deyil.**

- Siz elə öz sualınızla buna məndən də tutarlı cavab verdiniz. Bəli, bu məsələ mən deyərdim ki, Azərbaycan mədəniyyətini, teatrını xeyli geriyə atmış oldu. Mənə belə gəlir ki, yaş həddini yaradıcı adamlara, xüsusən də aktyorlara, rejissorlara, rəssamlara aid etmək naşılıqdı. Püxtələşmiş, ustalaşmış aktyorlar, rejissorlar teatrlardan uzaq düşdü və onların yerinə hələ teatrı dərindən dərk etməyən, həvəskarlar, yarımçıq mütəxəssislər gətirildi. Bu, region teatrlarında daha aydın hiss olunur. Niyə belə oldu? Və niyə bu gün də belədir? Açığı mən özüm də buna mat qalmışam. Mənə elə gəlir ki, burda da hansısa xoşagəlməyən bir niyyət gizlənib. Doğru deyirsiniz ki, "bunun nəticəsi gələcəkdə çox pis olacaq" və artıq olur da. Möhtərəm prezidentimiz "2009-2019" layihəsində "yaz senzini" nəzərdə tutmayıb. Bunu aşağıdakı məmurlar belə başa düşüb və bununla da böyük səhv etdilər. Həmin səhv çox təəsüf ki, bu gün də davam etməkdədi.

**- Ömrünün böyük bir qismini Azərbaycan teatrının yüksəlişinə həsr edən və bu gün yalnız cüzi təqaüdə göz dikən Xalq artisti Zülfüqar Abbasov öz həyatından razıdırmı?**

- Əlbəttə ki, yox. Çoxlu sənət işlərimi, teatrla bağlı memuarlarımı, rejissor sənətiylə bağlı fikirlərimi, belə düşünürdüm ki, təqaüdə çıxanda, yaxşı təqaüd alanda oturub, heç bir problemi olmayan insan kimi yazacağam. Baxıram ki, yaratdığım və uzun illər rəhbərlik etdiyim Mingəçevir Dövlət Dram Teatrı artıq həmin teatr deyil. Demirəm, - tamam pisdir, amma bizim vaxtımızda olan teatr deyil. Şəxsi həyatımda da çatışmazlıqlar çoxdur. On ildir ki, Prezident təqaüdü almaqçün yuxarı müraciət etsəm də, indiyəcən bu məsələ özünün müsbət həllini tapmayıb. Mənim müraciətimi Mədəniyyət Nazirliyinə göndəriblər. Onlar da hər dəfə bir qayda olaraq yazırlar: "Xahişiniz nəzərə alınacaq". Ümidim Mingəçevir Dövlət Dram Teatrının 50 illik yubileyinə idi. Amma bu yubileydə də mənə yalnız Prezidentin "Fəxri Diplomu" nu təqdim etdilər. Bütün işlər bununla bitdi. Daha bundan sonra hansı işləri görməliyəm ki, mən Prezident təqaüdünə layiq görülüm? Bax, bu suallara heç cür cavab tapa bilmirəm... Nə isə... Sözümü belə yekunlaşdırmaq istərdim. Azərbaycan teatrı yaşamalı və daha da irəli getməlidi. Məncə, müasir dövrdə hər bir xalqın, millətin yüksək teatr sənəti olmalıdır. Nə deyim. Allah Azərbaycanımızı qorusun. Allah bizə ömür versin ki, Qarabağda yarımçıq qalan işlərimizi tamamlayaq. Təki sağlıq olsun...

---

**P. S.** *Biz belə qəmli əhvalla Zülfüqar Abbasovdan ayrıldıq. Axı, belə bir maraqlı sənət yolu keçmiş, istedadlı rejissoru teatdan ayırmaq əsl mənada günahdır. O, hələ bundan sonra da maraqlı tamaşalar hazırlayıb, Azərbaycan teatrına layiqli töhfələr verə bilər. Görəsən özümüzün peşəkar rejissorlarımıza belə laqeydlik hardan yaranıb? Zülfüqar Abbasovun timsalında bunu fikirləşən olacaqmı?.. Yəqin ki, olmalıdı...*

**Ağalar İDRİSOĞLU,**
**Əməkdar incəsənət xadimi**





# Təəssüf...

**İsrafil İsrafilov**
**sənətşünaslıq doktoru, professor**

...XXI əsrin bizləri "dindirdiyinə baxmayaraq dinməyən" (M.Ə.Sabir) Azərbaycan teatrının dövlət müstəqilliyi qazanan ölkənin dünyaya açılan qapılarından ən azı boylanıb, ölkəmizin sərhədlərindən kənardakı mədəni dünyada baş verənlərə nəzər yetirməyib, onlardan xəbərsiz olması incəsənətin bu sahəsinin gələcəyi barədə nikbin bir şey vəd etmir. Halbuki məhz çağdaş dövrümüzdə Azərbaycan dramaturji ədəbiyyatında olduqca maraqlı əsərlər var və onlar istedadlı rejissura sayəsində milli teatrı yeni fəaliyyət orbitinə çıxara bilər. Məsələn, Elçinin "Şekspir" və "Qatil" pyesləri bu baxımdan diqqəti cəlb edir. Xatırlayaq ki, təcəssüm təcrübəsi baxımından uğurlu taleyə malik olan "Şekspir" pyesi "Üns" yaradıcılıq səhnəsində atdığı ilk addımlardan sonra postsovet məkanında, o cümlədən Ukraynada, Rusiyada, Azərbaycanda (Akademik Milli Dram Teatrında), daha sonralar Türkiyədə, Böyük Britaniyada, ABŞ-da və s. səhnələrdə uğurla tamaşaya qoyuldu.

Eyni səhnə taleyi "Qatil" pyesinə də nəsib oldu. Ölkələrin fərqli, quruluşçu rejissorların müxtəlif olmasına baxmayaraq, həmin tamaşalarda başlıca bədii niyyət üst qatda olan və müəllifin "görünən" və "oxunan" fikirlərinin səhnə ifadəliliyi, rəngarəng oyun tərzindən uzağa getmirdi. Başqa sözlə desək, sözügedən tamaşaların (Petru Rutkereu və Mehriban Ələkbərzadənin quruluşları istisna olmaqla) rejissurasında sırf professional mətləb - ali məqsəd anlaşılmaz qalır və rejissorun simasında müəllifin müttəfiqi görünmürdü. Buna səbəb nə idi?

...Baxın, Elçin ixtiyari bir klinikada cəmiyyətin müxtəlif insanlarını (xəstə olsalar belə) bir məkanda toplayıb, onların talelərini və aqibətlərini, düşüncələrini və arzularını dialoqlarda ifadə etməklə öz oxucu, eləcə də tamaşaçı auditoriyasının nəzərini əbədi həqiqətlərə yönəldir. Burada insanın şüurlu varlıq olaraq mahiyyəti, yaşamaq səyləri, onun yer üzündəki həyatının məna ölçüləri - azadlıq, ölüm, etiraf, nəciblik və gözəllik, vicdan və s. dəyərlər barəsində müəllifin öz auditoriyası ilə dialoqu çoxqatlı universal yozum və səhnə həlli tələb edirdi. Amma rejissorlar sadəlövh bədii məqsədlərin səhnə mizanları ilə ifadəliliyinə nail olurdular. Bəzən bunun özü maraqlı olur və təsir edirdi. Amma:

Məişət qatında - klinika, onun xəstələri, həmin xəstələrin fikir və davranışlarının ifadəsi ön plana çəkilməklə başlıca niyyət məhdudlaşırdı. Halbuki:

Sosial-mənəvi qatda - klinikada müalicə olunanlar üçün xəstəlik əslində müəllif tərəfindən təqdim edilmiş bədii şərtdir. Onların demək olar ki, hamısının pozitiv ovqatı, xoşbəxtlik duyğusu, nikbin ruhları vardır.

İdeya-fəlsəfi qatda - müəllifin universal təfəkkürə ünvanlanan ideya- estetik mesaji mövcuddur. Klinikada müalicə olunan, qeyri-adekvatlıqları ilə seçilən bu insanlar, onların müalicəsi ilə məşğul olanlardan daha insani, daha nəcib, daha safdırlar. Bu, istər-istəməz Pikassonun məşhur "Don Kixot" rəsmini yada salır. Ruhca xəstə hesab edilənlərin həyat eşqi, gözəlliyə münasibətdə "əqidə" bağlılığı Elçinin dramaturji müəmması kimi öz təsir gücü ilə digərlərinə də sirayət edir. Yəni pyesdəki Şekspir sehri buradakı hər kəsə, hətta özgə planetdən gəlmiş adama da nüfuz edir. Gözəlliyə(onun dünyanı xilas edəcəyinə - (İ.İ.), ucalığa, bəşəriliyə ideya-fəlsəfi işarə olan Şekspir möcüzəsi sərhədtanımır, insanlığı birləşdirməyə qadir olan misilsiz →

dəyər olaraq əsərin virtual bədii obrazına çevrilir. Elçin yeni bir "Hamlet" yazmağa cəhd etmir, amma Şekspirin sakramentallaşan "olum, ya ölüm" sualının humanitar miqyasının imkan verdiyi amplitudada, çağdaş dövrümüzün tamaşaçısına bəşəriyyətin Tövrat, İncil, Qur'an həqiqətlərini xatırladır, əsərin ali məqsədi olaraq "yer üzünün əşrəfi" olmaq missiyasını ləyaqətlə yerinə yetirməyə çağırır.

Bura onu da əlavə edək ki, həmin pyeslərin səhnə təcəssümü prosesində rejissorlar bir mühüm məqama da əhəmiyyət verməyiblər. Yəni müəllif həmin pyeslərin sonunda nə nöqtə, nə də "Ağ dəvə"nin qayıdacağına ümid yeri qoymur, onları çağdaş dünyanın teatr avanqardı üçün başlıca əlamət olan suallarla bitirir.

Bu, dünya miqyasındakı postdramatik zaman içərisində yaşanan teatr həyatının hərəkətverici prinsipləri Afaq Məsudun və Kamal Abdullanın dramaturji yaradıcılığında da özünü göstərir. Və yeni teatr fəlsəfəsi, demək olar ki, yeni rejissura avantürü tələb edən Kamal Abdullanın "Dəvə yağışı", Afaq Məsudun "Can üstə" kimi pyesləri artıq teatrın yeni erasının başlanğıcının qaranquşları idi.

V.İbrahimoğlu sanki ötən əsrin 70-ci illərində ustadı T.Kazımovun sənət idealına, yarımçıq qalmış bədii fəaliyyət məcrasına qayıdır, eyni zamanda dünya teatr məkanında boy göstərən estetik dünyagörüşlərlə səsləşən səhnə ifadəliliyinə cəhd edən yeni rejissor tipi kimi diqqət çəkir. Orijinal ədəbi-bədii üslubu, sənətkar fəhmi, intellektual-estetik dünyabaxışı, hər bir yeni əsərdə yaradıcılıq potensialının fərqli xüsusiyyətləri ilə heyrətləndirməyi bacaran bu iki yazarın - Afaq Məsudun və Kamal Abdullanın pyesləri konyukturadan uzaq, azad ideya-fəlsəfi düşüncənin hopduğu səhnə materialı olaraq gözlənilməzliyi, bir qədər də müəmmalılığı və teatrallığı ilə rejissorun "Yuğ" estetikası üçün tamamilə əlverişli idi.

Hər iki dramaturqu yaxınlaşdıran və fərqləndirən yaradıcılıq xüsusiyyətləri V.İbrahimoğlu tərəfindən məmnunluqla qəbul edilir, onun səhnə konsepsiyalarında özünəməxsus bədii səhnə ifadəsini tapırdı. Rejissorun estetik özünüifadə texnologiyasında həmin dramaturqların ekzistensional konfliktdə əyanilәşən və sonadək dramaturji gərginliyini itirməyən hadisələr xətti "Yuğ" poetikasına müvafiq oyun tərzi ilə mənalandırılırdı.

Kamal Abdullanın "Dəvə yağışı" pyesində təqdim etdiyi dünya bir qədər dağınıq, "çərxi öz məcrasından çıxmış"(Şekspir), rəngləri tökülmüş, yaxud solmuş mənzərəni xatırladırdı. Burada mütləq həqiqət, yıpranmış qaydalar işləmir, arxetiplərin kölgə həyatı öz nizamı ilə davam edirdi. Müəyyən ritmdə qurulan dialoqların tamaşaçıya yönələn informativ işarələnməsi, aktyorların qrafik mizanlarla "Psixosof" poetikasının semantik sayrışmasına müvafiq oyun tərzi, hər şeydən əvvəl, dramaturji materialın açdığı imkanlar sayəsində mümkün idi. Paradoksallığın bu və ya digər şəkildə özünü göstərdiyi bu ədəbi-teatral mühit rejissorun ali məqsədə ən optimal yol tapmasına imkan verirdi. Bəzilərinə bu qənaətimiz qəribə görünsə də, deməliyik ki, Kamal Abdullanın hər bir səhnə əsəri kimi "Dəvə yağışı" pyesini də məhz V.İbrahimoğlu kimi müəllifə əqidə, zövq, intellektual baxımdan həmrəy olan rejissor təcəssüm etdirə bilərdi. Ən azı ona görə ki, bu pyesin tamaşası, təkcə vizual quruluş prinsipi ilə deyil, eyni zamanda aktyorların spesifik oyun texnikası, bədii səhnə ifadəliliyi vasitələri ilə intellektual-estetik "informasiya ötürülməsi"(P.Bart) aktı idi.

Afaq Məsudun "Can üstə" pyesinin ekzistensional konflikti varlıq və yoxluq marginallığında insan və onun mənəvi dəyərlər sistemində zavallı çarpışmaları, ətrafındakıların ən yaxşı halda riyakar vurnuxmaları şəklində verilirdi. Sanki klassik dramatikliyə və onun bədii qanunlarına meydan oxuyan müəllif, ideya-bədii dünyagörüş, həmçinin fəlsəfi-teatral yanaşma ilə yeni səhnə ədəbiyyatının perspektivə yönələn modelini cızırdı. Mühüm olan budur ki, təcəssüm prosesində Afaq Məsudun dramaturji əsəri müasir ingilis teatrının Uesker, Arden, Osborn kimi dramaturqlarının sənət təcrübəsində olduğu kimi, məhz teatrın yaradıcılıq mühitində, rejissorla həmfikir əməkdaşlıq şəraitində yaranır, formalaşırdı. Bu, V.İbrahimoğlunun radikalizmə meyilli rejissurası, hüdud bilməyən təxəyyülü üçün göydəndüşmə fürsət kimi uğurla istifadə edilirdi. Fərqli istedad və özünüifadə imkanlarına malik olan Afaq Məsudun, Kamal Abdullanın səhnə əsərlərinin ədəbi mətnləri

—→

təbii olaraq fərqli olsa da, V.İbrahimoğlu həmin mətnlərin üzərində özünəməxsus "əməliyyatlar"(lap ustadı T.Kazımov kimi - İ.İ.) aparırdı və bu zaman "sözün düşməni"(K.Abdulla) kimi amansızlığı ilə seçilirdi. Amma qəribədir ki, bunu gələcək tamaşanın uğuru, ali məqsədin aydın səslənməsi naminə etdiyinə hər dəfə müəllifləri inandıra bilirdi. Və doğrudan da sonucda yaradıcı heyət və tamaşaçı, həmçinin müəlliflər ondan razı qalırdılar.

Yuxarıda qeyd etdiyimiz dramaturgiya bu gün öz (möhtəşəm olsa belə - İ.İ.) dünənində qalmış Azərbaycan teatrı üçün sabahın dramaturgiyasıdır. O dramaturgiya ki, ideya-estetik enerjisi ilə teatr sənətini ucaltmağa qadirdir. Həmin ədəbi materialda ekzistensiallığa və varlıq dəyərlərinə diqqət yönəldən, yaradıcı düşüncənin özünüifadəsinə imkan verən güclü ideya potensialı mövcuddur. Onun estetik nüvəsində gerçəkliyin faktı olan nisbi həqiqətlərin mövcud plüralizmi, bəzi virtual dialoqların, dünya və insanla bağlı narahatlıqların, günah və qurban kimi əzəli anlayışların sürrealist təqdimat təşəbbüsləri sabahın teatrının ən arzuedilən yaradıcılıq qidası ola bilər. Amma təəssüf ki, bugünkü milli rejissura (bəzi istisnalarla - İ.İ.) köhnəlib. Gənc rejissuraya gəlincə, yenə təəssüflənməli oluruq, çünki iki istedadlı rejissorumuzdan biri Novosibirskdə (Mikayıl Mikayılov), digəri Peterburqda (Ərşad Həsənov) fəaliyyət göstərməli olublar. Yuxarıda qeyd etdiyimiz dramaturgiya isə məhz həmin rejissuranın teatr amallarına tam uyğundur. Vaqif İbrahimoğluna gəlincə o, bir qədər düşünülmüş şəkildə məqsədyönlü, bir qədər də intuitiv olaraq yeni teatr və yeni rejissura üfüqlərinə doğru addımlayırdı. O, bir zamanlar ustadından öyrəndiyi kimi mətndən inşaat materialı kimi istifadə edir və aydın dərk edirdi ki, teatrda mətnə riayətlə onun səhnədə illüstrasiyasını etmək olmaz.

Dünya miqyasında postdramatik teatrda iyerarxiyanı dağıtmaq cəhdləri ilə bərabər klassik rejissuranın da sonunun yaxınlaşdığını aydın başa düşən V.İbrahimoğlu Avropada müşahidə edilən tipoloji əlamətləri öyrənir, öz təcrübəsində perfomansla plastik ifadəliliyi, ahəngi və ritmi birləşdirib vizuallığın dominant mövqeyini təsdiqləyirdi. Onun rejissurasının ilkin çağlarındakı mərasim poetikasının, sonralar daha mükəmməl konsepsiyalarda təzahür edən estetik differensasiyası, nəticə etibarilə teatrı öz teatrallığına qaytarmaq cəhdləri idi. Məhz bu zaman yuxarıda qeyd etdiyimiz Elçinin, Afaq Məsudun, Kamal Abdullanın dramaturgiyası milli teatr sənətinin dünyagörüş və bədii yaradıcılıq demokratizmini təmin edəcək zəngin ədəbi qida ola bilərdi. Çünki həmin dramaturgiya yeni teatr formalarının və üslublarının yaranmasına, bu sənəti prinsipcə indiyədək görünməmiş ideya-estetik ucalığa qaldırmaq qüdrətinə malik idi. V.İbrahimoğlunun təbirincə desək, "amma və lakin" bu əməkdaşlığın ömrü qısa oldu. V.İbrahimoğlu dünyasını dəyişdi və... O öz ustadı T.Kazımovdan sonra nə az, nə çox, düz otuz il yaşadı, amma o da başladığı işi sona çatdırmağa macal tapmadı.

Beləliklə, XXI əsrin əvvəllərində uzun tarixləri adlayıb, biri digərini əvəz edən bütün bəlli konseptlər dağıldı. Necə yaranmışdısa, elə o cür də itdi getdi. Nə maarifçiliyi, nə böyüdücü şüşəliyi, nə də güzgülüyü qaldı teatrın...

Böyük rejissura G.Tovstonoqov, T.Kazımov, Y.Qrotovski, Y.Miltinis, A.Efros, V.Pluçek, C.Streller, Y.Lyubimov kimi mütəfəkkir sənətkarların simasında dünyamızı tərk etməklə öz hissələrini də bu sənətin mozaikasından qoparıb apardı, beləliklə, onillərlə formalaşan böyük teatrın bir zamanlar fövqəladə əzəməti ilə hər kəsi cəlb edən mənzərəsi pozuldu. Və rejissor dövrü bitdi.

Yeni teatr epoxası başladı, yaranan yeni ictimai-mədəni reallıqlar təbii olaraq, teatr sənətinin məqsədlərini və ideya-estetik meyarlarını əsaslı şəkildə dəyişmək meyillərini gücləndirdi.

Qoca Avropa mavrsayağı öz işini görüb, yəni artıq "göydə balonlarla gəzir"(M.Ə.Sabir), tədqiqatçı alimlər, tənqidçilər "meşələri qələm, dəryaları mürəkkəb"(C.Cabbarlı) etsələr də, Azərbaycan teatrı özünün "imitasiya" (Ə.Vəliyev) həyatını yaşamaqda, yəni "mənfi semantika ilə möhürlənmiş"(V.İbrahimoğlu) oyunçuluq mövcudluğunda qalır, dəyirman öz bildiyini etməkdə davam edir. Təəssüf...

# XATİRƏ ÇİÇƏYİ



*Ən qəribə qonaq əcəldir - tək gəlir, cüt qayıdır.*

*Hər cür təcrübə var, ölüm təcrübəsindən savayı;*

*Başdaşındakı rəqəmlər həyatın hesabıdır. Məna isə - ortadakı tirədədir.*

*Əgər bu dünyaya gəlmisənsə, qayıtmağın bircə yolu var.*

*Taxtlar saraylarda yox, son mənzildə qurulsaydı, daha əzəmətli görükərdi;*

*Dünyaya öləcəyin günün, səhərin gözü ilə bax, gör nə görərsən?*

*İnsan yalnız sınandan sonra məlum olur ki, o şüşədənmiş.*

*Adamlar xırdalandıqca, düşdükləri torun gözü də kiçilir;*

*Ən sədiq dost tənhalıqdır…*

*Qurmadığın bir dünyanı ikiəlli tutub necə saxlaya bilərsən axı?*

***Rahid Ulusel***
***Narın düşüncələr"dən...***



**Gülşən ƏLİYEVA-KƏNGƏRLİ**
**professor**

## "Molla Nəsrəddin" havası və ya sözün ağır gələn yükü...

Ötən dövr ərzində formalaşmış ədəbiyyat tariximizdə zaman keçdikcə təzələnən, mövcud dövrün həqiqəti kimi yeni nəsillərin yaddaşına öz təravəti ilə daxil olan adlar, əsərlər, imzalar var. Belə adlardan biri də möhtəşəm "Molla Nəsrəddin" kəlməsidir. Azərbaycanın milli istiqlalı qədim tariximizin üfüqlərini qızartdıqca "Molla Nəsrəddin" məcmuəsinin ədəbi-tarixi əhəmiyyəti də artır, o daha parlaq bir şəkildə müasirlik kəsb edir. O elə bir azərbaycançılıq kitabı, elə bir yaddaş abidəsidir ki, biz onu hər il yada salmalı, barəsində Azərbaycanın münəvvər gəncliyinə həqiqətləri deməliyik. Azərbaycan mollanəsrəddinşünaslığı XX əsr Azərbaycan ədəbiyyatşünaslığının mühüm istiqamətlərindən birini təşkil edir. Təkcə milli mətbuatımızın deyil, ümumiyyətlə Şərq, türk-islam mətbuatının ən möhtəşəm dərgisi olan «Molla Nəsrəddin» ta yarandığı gündən - 1906-cı ildən etibarən ədəbi-tarixi fikrin diqqət mərkəzində olmuşdur. Bunun bir neçə səbəbi var. Birincisi jurnalın ilk sayında yazılan «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» bəyanatında ifadə olunmuş böyük və müqəddəs məram idi. Xalq elə ilk gündən maraqlandı ki, «Molla Nəsrəddin» ona nə demək istəyir. Tezliklə məlum oldu ki, jurnal cümlə «müsəlman qardaşların» dərdi-sərindən yazır. Elə bu bəyanatla da o, ədəbi-tarixi fikrin diqqətini cəlb etdi. Mollanəsrəddinçi ədib Ə.Haqverdiyev yazır: «Birinci nömrə may ayının əvvəllərində əlimizə keçdi. Bu nömrə şəhər əhalisi arasında bomba kimi partladı… Jurnalın Şuşa əhalisinə təsirini, qələm təsvir etməkdə acizdir». İkinci səbəb bu idi ki, böyük yazıçı Y.V.Çəmənzəminli demişkən, «Molla Nəsrəddin» «Böyük bir ədəbi dövr yaratdı… ədəbi dövrün başçısı» na çevrildi. Bu Molla Nəsrəddin ədəbi məktəbi idi, məhz bu məktəbin nümayəndələri - C.Məmmədquluzadə, M.Ə.Sabir, Ömər Faiq, Ə.Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar və başqaları Azərbaycan ədəbiyyatında bədii metod və ədəbi cərəyan olaraq tənqidi realizmin →

əsasını qoyub, əsərləri ilə onun poetika və estetikasını formalaşdırdılar. Mirzə Cəlil etiraf edir ki, «Molla Nəsrəddin - tək bir nəfər müəllifin əsəri deyil. «Molla Nəsrəddin» bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam». Bu etirafda təkcə tarixi həqiqət yox, həm də böyük bir vətəndaş ziyalının səmimiyyəti vardır.

Üçüncü səbəb bu idi ki, «Molla Nəsrəddin» Azərbaycan tarixinin ən mühüm dövründə - dünyanı lərzəyə gətirmiş 1905-1907-ci illər xalq inqilabi dövründə yaranmışdı. Mirzə Cəlil tarixin gedişatını doğru təyin etmiş, XX əsrin önlərində başlanan milli intibahın belə bir jurnala ehtiyacı olduğunu duya bilmişdi. Bunu da yenə məhz Mirzə Cəlil özü hamıdan əvvəl, hamıdan dəqiq ifadə edərək yazırdı: «Molla Nəsrəddin»i təbiət özü yaratdı, zəmanə özü yaratdı... Onun birinci nömrəsi nəşr olunan gündən mənim bir az vaxtın müddətində nəinki tək bircə Qafqaz müsəlmanlarının içində, bəlkə Yavıq Şərqdə şöhrət tapdı».



Milli mətbuatımızın başçısı olmaq uğrunda jurnal çətin bir mübarizə yolu keçməli oldu. Onun səhifələrində Azərbaycan haqqında ən böyük milli-tarixi həqiqətlər əks olunurdu. O, ana dili uğrunda mübarizənin başında dayandı, ana dilində yazmağın və danışmağın canlı klassik nümunəsinə çevrildi. Azərbaycanın münəvvər ziyalıları hələ ilk saylarından başlayaraq bu dərginin ədəbi-tarixi əhəmiyyətini yüksək qiymətləndirirdilər. Azərbaycan professional ədəbiyyatşünaslığının banisi Firudin bəy Köçərli yazırdı: «Molla Nəsrəddin» jurnalı ilk nömrələrindən başlayaraq bizim ölkənin müsəlmanları arasında canlı maraq oyatmışdır... Jurnalı bir qrup ziyalı müsəlmanların əməkdaşlığı ilə savadlı və mədəni azərbaycanlı Cəlil Məmmədquluzadə nəşr edir... «Molla Nəsrəddin» nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir». XX əsrin Əlibəy Hüseynzadə, Üzeyir Hacıbəyli, Əhməd Ağaoğlu, Nəriman Nərimanov, Məhəmmədağa Şaxtaxtlı, M.Ə.Rəsulzadə, F.B.Köçərli kimi şəxsiyyətləri «Molla Nəsrəddin» haqqında çox dəyərli mülahizələr söyləmişlər. Lakin mollanəsrəddinşünaslığın bir elm kimi təşəkkülü XX əsrin 30-cu illərinə aiddir. Bu illər ümumən yeni ədəbi tənqidin və ədəbiyyatşünaslığın təşəkkülü dövrü idi. Həmin illərdə «Molla Nəsrəddin» jurnalı 25 illik əzəmətli, əzablı və şərəfli tarixi missiyasını artıq başa çatdırmışdı. Xalqın və ictimai fikrin yaddaşına «Molla Nəsrəddin» Cəlil Məmmədquluzadə ilə vəhdətdə həkk olunmuşdu. Məhz bu dövrdən etibarən yeni proletar diktaturası dövrünün başa düşmədiyi «çığırdaş ədibi» Mirzə Cəlili ədəbi-nəzəri fikir Molla Nəsrəddin deyə təhlilin və tənqidin mərkəzinə gətirirdi. Görkəmli ədib və etnoqraf alim, bacarıqlı diplomat Y.V.Çəmənzəminli «Ədəbi dövrün başçısı» məqaləsində («Ədəbiyyat qəzeti» 30 yanvar 1934) onun ədəbi-tarixi qiymətini verərək yazırdı: «Böyük bir ədəbi dövr yaradan, ictimai həyatımızda inqilablar törədən, 25 il populyar məcmuəyə rəhbərlik edən bu böyük sima... bu gün aramızda yoxdur. Lakin əsərləri yaşayır. Həm mövzusu və tipləri, lətifələri əsərlərinin böyük bir qələmə mənsub olduğunu açıqcasına ifa edir. Molla böyük bir orijinallıqdır». Mirzə Cəlil və «Molla Nəsrəddin» yeni quruluşun eybəcər təşkilatı olan «Mübariz Allahsızlar İttifaqı»nın orqanı olmaqdan imtina edərək, 1921-ci ildə Təbrizə getmişdi. Azərbaycan Maarif Komissarı D.Bünyadzadənin I Ümumazərbaycan şuralar qurultayındakı (1921-ci il, fevral) çıxışında deyilir: «Yəqin sizlərdən çoxunun xatirində qalır. Bir neçə il bundan qabaq, hələ Nikolay vaxtında «Molla Nəsrəddin» jurnalı nəşr edilirdi. O jurnalın redaktoru İrandadır. Biz onun Bakıya qayıtması üçün tədbirlər görmüşük». Və az sonra Mirzə Cəlil Bakıya qayıtdı. Fəqət bu qayıdışdan sonra, necə deyərlər, onun günü qara oldu. Əgər 1933-cü ildə vəfat etməsəydi, mübarək adı 1937-ci il represiya qurbanlarının siyahısında birinci yerdə dayanacaqdı...



30-cu illərdə Mirzə Cəlil haqqında ilk böyük monoqrafiyanı dövrün gənc və görkəmli tənqidçisi Əli Nazim yazdı. Əli Nazim 1933-cü ildə yazdığı tərcümeyi-halında göstərir ki, o, «Molla Nəsrəddin bir sənətkar kimi» adlı 6 müəllif vərəqi həcmində monoqrafiya planlaşdırıb. Bu ilk sovet alimlərindən olan Ə.Nazimin namizədlik dissertasiyası idi. Bu monoqrafiya 1936-cı ildə M.Hüseynin redaktorluğu ilə bir neçə siqnal nüsxəsi olaraq çap olunur. Bu vaxt Ə.Nazimin başının üstünü 37-nin qara buludları almışdı. Ona görə də əsərin kütləvi tirajla çapı dayandırılır. Həmin monoqrafiyanın yeganə nüsxəsi, AMEA-nın müxbir üzvü, mərhum professor Abbas Zamanovun şəxsi arxivindəndir. O, «Cəlil Məmmədqluzadə (Molla Nəsrəddin)» adlanır. Bu talesiz monoqrafiya mollanəsrəddinşünaslığın əsasını qoymuşdur. Çünki, bu əsərdə Mirzə Cəlil və «Molla Nəsrəddin» sinonim adlar, bütöv bir vəhdətin hissələri kimi ədəbi-tarixi düşüncəyə daxil edilir. Ə.Nazim həm də «Molla Nəsrəddin»i - Mirzə Cəlili Azərbaycan realizminin müstəqil mərhələsi kimi tədqiqata cəlb edir. Müəllif realizmin bu mərhələsini Molla Nəsrəddinin gülüşü ilə izah edərək yazırdı: «Onun gülüşünün bir xüsusiyyəti də, bu gülüşün göz yaşları ilə yoğrulmuş acı bir gülüş olmasıdır. Bu gülüş ağlamağını gizlətməyə çalışanların qəhqəhələrini özündə daşıyır... Lakin bu gülüş hər zaman belə qalmır, kinə keçir, nifrətə keçir, kəskin silah olur, məhvedici güllə olur, yandırır». 1939-cu ildə artıq Əli Nazim həbsdə olanda Azərbaycan mollanəsrəddinşünaslığının təşəkkülünü bir elmi sistem kimi tamamlayan ikinci monoqrafiya - Mirzə İbrahimovun «Böyük demokrat» əsəri çap olunur. Bu əsər artıq sovet rejiminin istədiyi tərzdə onun ideoloji doktrinası olan marksist-leninçi metodologiya ilə yazılmışdı. Müəllif burada Mirzə Cəlilin və «Molla Nəsrəddin»in ədəbi-tarixi dəyərini Azərbaycanda demokratik-ictimai fikrin M.F.Axundzadədən vüsət alan kontekstində verməyə səy göstərir. Öz zamanı üçün qiymətli olan bu monoqrafiyanın «Molla Nəsrəddin»ə qədər Azərbaycan mətbuatı, «Molla Nəsrəddin», «İki üslubun mübarizəsi» fəsillərində jurnalın ictimai-fəlsəfi mövqeyini əks etdirməyə çalışır. Marksist-leninçi metodologiya mövqelərində dayanaraq kitabın «İki üslubun mübarizəsi» fəslində «Molla Nəsrəddin» və «Füyuzat»ı üz-üzə qoysa da M.İbrahimov «Molla Nəsrəddin»in və Mirzə Cəlilin demokratizmini doğru müəyyənləşdirirdi. Monoqrafiyada oxuyuruq: «Molla Nəsrəddin» ilk nömrəsindən başlayaraq burjua-feodal həyatının yaramazlıqlarına atəş açır. Jurnalın birinci nömrəsindən o özünə məxsus sadə xalq dili ilə yazmağa başlamışdır. Cəlil Məmmədquluzadə demokratik ideyalar təbliği üçün demokratik üsullara müraciət edirdi... Hər şeydən vacib, xalqın anlayacağı dildə başa salmaq, onun öz düşüncəsi ilə öz həyatının dözülməzliyini ona dərk etdirmək lazım idi.

«Molla Nəsrəddin» qaranlıq və pozğun həyatı işıqlandıran, təmizləyən günəş kimi idi.

... Mollanəsrəddinçilər xalq kütlələrinin iştirakı olmadan milli intibah təsəvvür etmirdilər.




... «Molla Nəsrəddin» bizim inkişaf tariximizdə, xalqımızın ictimai həyatında çox mühüm və iftixara layiq bir hadisədir».

«Molla Nəsrəddin» və mollanəsrəddinçilik problemi Azərbaycan ədəbiyyatşünaslığında bütün XX əsr boyu diqqət mərkəzində olmuşdur. Həm mətbuat tariximizdən tədqiqatçılar, həm nəsrşünaslar, həm ictimai fikri araşdıran filosoflar, həm də dilçi və ədəbiyyat nəzəriyyəçiləri bu möhtəşəm abidəyə müxtəlif yönlərdən yanaşmış, onun milli-tarixi taleyimizdəki əhəmiyyətini təsdiq etmişlər. M.S.Ordubadi, Əziz Şərif,

Mir Cəlal, Abbas Zamanov, M.Cəfər, M.Arif, Əli Sultanlı, Q.Məmmədli, Əziz Mirəhmədov, K.Talıbzadə, X.Əlimirzəyev, M.Məmmədov, F.Hüseynov, Y.Qarayev kimi görkəmli yazıçı və ədəbiyyatşünaslar XX əsrin 50-80-ci illərində «Molla Nəsrəddin» haqqında xüsusi elmi-monoqrafik araşdırmanın predmeti ola biləcək dəyərli fikirlər söyləmişlər.




Azərbaycan mollanəsrəddinşünaslığının nəzəri-tarixi monoqrafiyanı xüsusi qeyd etməliyik: Yaşar Qarayev. «Realizm: sənət və həqiqət (Azərbaycan realizminin mərhələləri)» (1980), Əziz Mirəhmədov. «Azərbaycan Molla Nəsrəddini» (1980) və İsa Həbibbəyli «Cəlil Məmmədquluzadə: mühiti və müasirləri» (1997). Y.Qarayev və Ə.Mirəhmədovun əsərləri mollanəsrəddinşünaslığın 60-80-ci illər mərhələsini, İ.Həbibbəylinin monoqrafiyası isə ümumən XX əsr mollanəsrəddinçiliyini və cəlilşünaslığı yekunlaşdıran sanballı tədqiqatlardır.

Y.Qarayevin «Azərbaycan realizminin mərhələləri» monoqrafiyasında Mirzə Cəlilin və ümumən «Molla Nəsrəddin» ədəbi məktəbinin tənqidi realizmin mərhələ kimi formalaşmasında həlledici rolu nəzəri-fəlsəfi baxımdan əsaslandırılır. O yazır: «Mirzə Cəlil XX əsr Azərbaycan bədii fikrində yeni realizmin başçısı və böyük nümayəndəsi sayılır. Ümumən Azərbaycan realizmi Zakirdən Sabirə qədər keçdiyi yolda Mirzə Cəlildən yüksək zirvə tanımır: Bizdə tənqidi realizm Mirzə Cəlillə kamala çatır. O M.F.Axundzadə realizminin sadəcə davamçısı deyildi, bu realizmin inkişafında tam yeni mərhələnin «baneyi-kari» idi. Mirzə Fətəlidən sonra Azərbaycan nəsrində, dramaturgiyasında, ədəbi və ictimai fikrində böyük islahatlar Mirzə Cəlil yaradıcılığında baş verir». Ə.Mirəhmədovun «Azərbaycan Molla Nəsrəddini» monoqrafiyasında C.Məmmədquluzadənin dünyagörüşünün təşəkkülü və inkişafı, ədəbi mühitə və mətbuata gəlişi, demokratizm uğrunda mübarizəsi zəngin faktlarla araşdırılır və əsaslandırılır. Monoqrafiyanın xüsusilə «Molla Nəsrəddin» in banisi və redaktoru adlanan dördüncü fəslində jurnalı yaratmağın fədakarlıqları ilə bərabər C.Məmmədquluzadə və mollanəsrəddinçilik problemi xüsusi araşdırmanın predmetinə çevrilir.

Akademik İ.Həbibbəylinin fundamental monoqrafiyası tamamilə yeni materiallar və arxiv sənədləri əsasında yazılmış orijinal tədqiqat əsəridir. Burada Mirzə Cəlilin mühiti, uşaqlıq dövründən tutmuş ömrünün son dövrünə qədərki, ədəbi, jurnalistik və ictimai fəaliyyətinin bütün mərhələləri, şərəfli və ağrılı taledönümləri nəzərdən keçirilir. Molla Nəsrəddinçilik və füyuzatçılıq problemlərinin obyektiv tarixi qoyuluşu və həlli bu əsərin dəyərli cəhətlərindəndir. Müəllif ədibin təhsil illəri ilə bərabər müasirləri haqqında geniş məlumat verir. Əsərin son fəsli başdan-başa Mirzə Cəlilin nəsil şəcərəsinə həsr olunur. Bu nəhəng tədqiqat əsəri yeni tapılmış zəngin materiallardan ibarət «Əlavələr»lə tamamlanır ki, bu da əsərə elmiliklə bərabər, həm də əyanilik gətirir. Və ən başlıcası, akademik «Molla Nəsrəddin» və «Mirzə Cəlilin» mühitini sadəcə faktların və sənədlərin tarixi sırası kimi sadalamır. Burada mühit həm də fəlsəfi-estetik problem kimi işlənilir ki, bu da monoqrafiyanın dəyərli elmi-nəzəri keyfiyyətlərindəndir.

Azərbaycan mollanəsrəddinşünaslığı ciddi nəzəri-metodoloji problemlərə malik bütöv elmi bir sistemdir. Bir əsrdir ki, Azərbaycan tarixi-ictimai düşüncəsində «Molla Nəsrəddin» adı əbədiləşib; yüz ildən artıqdır ki, mollanəsrəddinşünaslıq adlanan elm formalaşıb. Bu elmi Azərbaycan ədəbiyyatşünaslığı kontekstində, monoqrafik hüdudlarda araşdırmaq artıq bu gün aktual tarixi zərurətə çevrilib.

# Ümmandan umacağı olmayan şair...

Məni qınamayın. Əvvəllər inanmazdım ki, tanıdığım, oturub-durduğum, özümü yaradıcılığına bələd saydığım bir insan haqqında yazmaq bu qədər çətinmiş. Söz vərəqə köçənə qədər bu boyda qəm-qüssə doğurarmış - heç mənimsəməzdim. İndi özüm o vəziyyətdəyəm. Elə sözlər, ifadələr axtarıram ki, özünə yaraşmış olsun. Söhbət müasir poeziyamızın qüdrətli simalarından biri, - indi haqq dünyasında olan Ələkbər Salahzadədən gedir.



Allı-güllü donunda
körpə nə bilir hələ?!
Gecə qovuşmayacaq
kiprik nə bilir hələ?
Göz yaşını siləcək
örpək nə bilir hələ?
Öndə bir yas karvanı,
körpü nə bilir hələ?
Kimi kimə vuracaq,
zərbə nə bilir hələ?!
Nələr görüb yaşında-
Torpaq
nə bilir hələ?!

Bu misralar Ə.Salahzadənin 1988-ci ildə yazdığı "Vaqif İbrahimin xatirəsinə" şerindəndir. Adətən, misal gətirilən nümunələr qısa, müxtəsər olur, diqqət təhlilə verilir. Mən də bu yolla getmək istədim, çox çalışdım. Amma bacarmadım. Ə.Salahzadə şeirindən hansısa misranı çıxarmaq mənə sal daşları özüldən qoparmaq kimi gəldi.

"Ehtiyacını (bəlkə də dərdini) deyə bilməyən, dünya malında tamahı olmayan adam" - mənim üçün Ələkbər Salahzadəni səciyyələndirən, gözlərim qarşısında bir şəxsiyyət olaraq canlandıran ikinci belə ifadə tapacağıma ümid etmirəm...

Ağır günlər idi. Köhnə yıxılmış, təzəsə hələ qurulmamışdı. "Ulduz" jurnalı müvəqqəti olaraq "Bakı Soveti" metrosu ilə üzbəüz məşhur Mirzəbəyov mülkündə yerləşirdi. Oxucuların məhəbbətini qazanan "Ulduz" da o vaxt digər jurnallar kimi çətin durumdaydı. Üzə vurmasa belə o vaxtkı baş redaktor Ələkbər Salahzadə də həqiqi mənada xiffət eləyir, çıxış yolu axtarırdı...

Ə.Salahzadəyə heç nə demədən, institutda tələbələrimə vəziyyəti başa saldım. Gözlədiyim kimi də oldu: Dayaq durmaq istəyən çox idi. Hətta təklif olundu ki, bəlkə "Ulduz"a kömək üçün nəqd pul yığılsın?! Amma, axırda razılaşdıq ki, jurnala kömək abunə şəklində olsun. Qısa bir müddət ərzində xeyli tələbə "Ulduz"a abunə yazıldı. Abunə qəbzlərini gətirib Ələkbərə göstərəndə kaş onun çöhrəsində yaranan məmnun ifadəni görəydiz. O ifadə mənim ömrüm boyu yadımdan çıxan deyil.

Elə güman olunmasın ki, "Ulduz"u guya bizim abunəmiz xilas eləyibmiş. Amma qaranquşun yanan evə dimdiyində su daşımağı - o hikmət boş yerdən yaranmayıb. Ələkbər onunla bir yerdə çalışan Allahverdiyə (Allah ona da rəhmət eləsin) sonralar demişdi ki, - mənbilən, jurnalımızın yaşamağına ümidi Oqtay müəllimin tələbələri diriltdi.

Ələkbər Salahzadənin doğulduğu kənd Qubadadır (keçmiş Qonaqkənd). Minlərlə insanın ziyarət etdiyi Cimi kəndi Baba dağından elə də uzaqda deyil. Əslində bu ziyarətgahın dinlə nə qədər əlaqəli olduğu dəqiq araşdırılmayıb. Sözsüz ki, Ələkbərin formalaşmasında ailəsinin, təhsil aldığı məktəblərin, ona dərs deyən müəllimlərin rolu olduğu kimi, az qala hər qarış torpağında rastına çıxan müqəddəs məkanların, əslin-nəslin, uluların olduğu mühitin təsirini də nəzərə almaq lazımdır.

Qayasından qopub adam,
yerinə-yurduna bənzər.
Ocağına çəkər,
oduna bənzər.

→

Torpağından qalxdı adam,
daşına bənzər.
Başı
uca dağlarının qaşına bənzər,
Qayasından seçilməz,
boyda çinardı
kökdə palıdı...

Ümumilikdə Ələkbər şerinin gözəlliyi onun şair niyyəti ilə bağlıdır. Niyyət saf olanda bəzən pozulmuş ritm də, qafiyə uyarsızlığı da nəzərə çarpmır. Gözəl şeir oxuyanda özünü Günəşin doğmasını, qönçənin açmasını, pişiyin quyruğu ilə oynayan körpəni müşahidə edən bir insan kimi hiss edirsən. Səmimi şeir də məzmunundan asılı olmayaraq, yeni yaranışa, yeni doğuşa bənzəyir. Canlılardan fərqli olaraq, belə şeirlərin taleyi, ömrü də məncə elə ilk oxunuşda məlum olur. Şerin yaratdığı anım sıldırım qayanın insan hənirinə verdiyi əks-səda misalıdır:

Səsə bax,
kökü-şaxəsi
bir nalənin yaxın, uzaq qanadında.
Sədaya bax,
bütövcə
yurduna bax, qanadında!
Səsin yaşına bax,
yaddaşına bax!

Min illərdir insan sözün sehrindədir. Onun möcüzəsi qarşısında bəzən bəni-adəm aciz qalır. Sonu, sayı olanla sonsuz fikirlər yaranır, istəklər, hətta nifrət belə dilə gəlir. Və birdən, əslində birdən yox, Ə.Salahzadənin nümunə verdiyim şeiri ilə tanışlıqdan sonra, fikirləşirəm: Söz, sözdən yaranmışın ən nəvazişlisi olan şeir məhz insanlar arasında körpü yaratmaq məqsədinə xidmət göstərir.

Ə.Salahzadənin şeirləri ilə baş-başa qalanda, neçənci dəfəliyindən asılı olmayaraq,görürsən ki, nə vaxt yazılmasının fərqi yoxdur, bu şeirlər həmişə təzədir, bəzən hətta o dərəcədə təzədir ki, nə qədər qeyri-adi görünsə də, lap son dövrlərin elmi müddəaları ilə səsləşir. Amma bir fərq var ki, bu səsləşmə daha çətin janrda, onun mürəkkəb formasında- poeziya dilində ifadə olunur. Belə ki, mövcudların hər bir şəkli gözə görükən və görünməyən tellərlə bir-birinə bağlıdır, insandasa bu varlığın hansısa izi mütləq öz əksini tapmış olur. Bu baxımdan Ə.Salahzadə öz şerində fəhmin gücünə güvənir.

Poeziyada rəngarənglik, mövzu bolluğu əsas şərtlərdəndir. Amma şerin mən deyərdim ki, dəyəri təkcə bununla bitmir. Baxırsan ki, eyni mövzuya çox şairlər üz tutur və tutmaqdadır. Ə.Salahzadədə isə istənilən mövzu öz ömrünü yaşamaqdadır.

Elə sənsiz də, bala,
Babəkdi Babək.
Nizamidi Nizami.
Füzuli də Füzuli.
Hərəsi
bir elin göz bəbəyi,
bir zamanın nizamı,
bir dünyanın özülü...

Şerdə özünü bəlirtən suallar mənəvi borc məsələsini ortaya qoyur - bu gün bu günlüyündə, bəs sən öz keçmişinə layiqsənmi?

Yaxşı,
bəs sən?
Nə işin yiyəsisən?
Şam başında pərvanə,
Gün böyründə kölgəmisən?

Bəlkə də Azərbaycan poeziyasında pərvanənin ilk dəfə bu baxımdan görülməsi Ə.Salahzadə şeri ilə bağlıdır. Adətən, pərvanə, xüsusilə poeziyada sevgi, məhəbbət, fədakarlıq rəmzi kimi tərənnüm olunur. Amma sübut olunub ki, pərvanə özünü oda (şama) aşiqliyindən, hissin coşqunluğundan deyil, aclığını dəf etmək istəyindən yaxırmış: Pərvanəni özünə çəkən məhz alovun rəngi, şöləsidir...

Bilənlər bilir ki, Ələkbər Salahzadə zahirən qaraqabaq bir insan təsiri bağışlayırdı. Yaxından tanıyanlar isə onun necə səmimi, qayğıkeş adam olduğunu yəqin ki, birmənalı şəkildə təsdiqləyər. Ələkbərin ölümünə ən təsirli şeir-rekviyemin müəllifi, tanınmış şair, məharətli təbib Tofiq Nurəli ilə bu barədə çox söhbətlərimiz olub. Klassik və müasir poeziyamızdan, şəxsiyyət və yaradıcılıq məsələlərindən danışmışıq. Fikirlərimizin üst-üstə düşmədiyi məqamlar belə münasibətlərimizdə zərrəcə soyuqluq yaratmayıb. Amma Ələkbər Salahzadə şəxsiyyətinin onun yaradıcılığına təsirindən danışanda həmişə bir-birimizlə razılaşmışıq...

⟶

Bilirik ki, Ə.Salahzadə uzun illər Azərbaycan ədəbi mühitini əks etdirən, onun güzgüsü sayıla bilən mətbuat orqanlarında - "Ulduz" və "Qobustan" jurnallarında baş redaktor vəzifələrində çalışıb. Amma qayğıkeşliyi - müvafiq tələblərə cavab verməyən hər hansı əsərin çapından imtina etməsinə mane olmayıb. Bundan inciyənlərin, narazı qalanların, kənar təsirlərin heç biri onu tutduğu yoldan döndərə bilməyib. Sonradan bu prinsipallığı düzgün dəyərləndirən kəslər Azərbaycan müasir poeziyasının saflığında Ə.Salahzadənin gözəgörükən xidmətlərini qeydsiz-şərtsiz etiraf ediblər.



Ana dilinin şirinliyi, vətənə bağlılıq Ə.Salahzadə yaradıcılığında parlaq şəkildə öz əksini tapıb. Təkcə qafiyələr deyil, sözlərin hamısında bir bağlılıq, ahəng və cazibə var. Sanki ucadan demək istəyir: Mənim dilim dillərin ən şirini, ən gözəlidir:

Nə qəribə quşdu!  
Elə bil nağıldan uçmuşdu.  
Gəlib qonub  
gözəlliyə bürümüşdü budağı.  
Qanadının mavi zolağı  
şır-şır axan su kimi keçdi gözümdən.  
Mən baxdıqca yəqin o quş da  
uzaqdan-uzağa bir damla içdi gözümdən.

Hər birimizin ömrümüzdə dəfələrlə müşahidə etdiyimiz mənzərənin nağıl səviyyəsində təsviri Ə.Salahzadənin yaradıcılığına xas cəhətlərdən biridir.

Heç uzağa getməyək: Böyük Səttar Bəhlulzadənin rəssamlıqdakı hünərini və onun şəxsiyyətini Ə.Salahzadə sözlə o zirvəyə qaldırmadımı?

Bir-bir hər qapıdan girmək çətindi,  
bir-bir hər obadan ötəydim gərək.  
De, buna ömürmü, vaxtmı çatandı?  
dünyaya hey gəlib-gedəydim gərək!  
...Bilirəm, hesabla mən bu yaşımda  
sənə borclarımı qaytarmalıydım.  
Başımmı qarışdı,  
gecmi alışdım?  
İndi çoxdan yanıb qurtarmalıydım!

Şeirin estetik təsiri ilə mənəvi gücü arasındakı bağlılıq Ə.Salahzadənin şeirlərində öz əksini yüksək səviyyədə tapır. Bəzən belə olur: Şeir gözəldir, poeziyanın "qayda-qanununa" yaxşı yaraşır. Lakin onun digər vacib funksiyası, - insanı mənəvi sarıdan zənginləşdirmək vəzifəsi yaddan çıxır. Çətin ki Ə.Salahzadə poeziyasında belə "birqanadlı" nümunələrə rast gələsən. Onun şerini oxuyanda hiss edirsən ki, sanki qanın durulur, qəlbində daşıdığın yük yüngülləşir:

Oğlu insan, qızı insan,  
odur ana, odurVətən.  
Necə yozsan, necə yazsan,  
bu torpağın adı -Vətən! (Torpaq)

Ələkbəri aparan zaman bizdən getdikcə daha çox uzaqlaşır. Bu əbədi ayrılığın ağrısını ovunduran yenə də onun istər dil, vəzn və istərsə də məna cəhətdən heç vaxt köhnəlməyən Poeziyasıdır.

**Oqtay Abbasov,**  
**ADU-nun dosenti, yazıçı**

# Hüseyn Cavidin "Peyğəmbər"i

*və onun səhnə taleyi...*

Öncə bu mənzum tarixi dramın meydana gəlməsinə təsir edən sosial-psixoloji amillər və səbəblər haqqında bir neçə söz.



Hacı Molla Abdullanın ailəsində doğulan və tərbiyə alan Cavidin ilk müəllimi atası olub. O, dindar bir mühitdə böyümüş, İslam dini, İslam tarixi, Şəriət və Qur'ani-Kərim haqqında ilkin bilgiləri atasından almışdı. Öncə mollaxanada, daha sonra Məhəmməd Tağı Sidqinin Naxçıvanda açdığı məktəbi-tərbiyədə təhsil alan Cavid dini mövzulara və Kərbəla hadisələrinə məxsusi maraq göstərir, atası ilə birgə dini mərasimlərdə iştirak edir və bu barədə şeirlər yazırdı. Sonralar Təbriz Talibiyyə mədrəsəsində dini təhsilini davam etdirdi. İstanbul Darülfünunu onun elmi və dini dünyagörüşünün biçimlənməsində yeni mərhələ oldu. Başqa sözlə, gənc Cavidin təhsili iki istiqamətdə gedirdi dini və dünyəvi. Bu cəhət onun yaradıcılığında gec-tez öz əksini tapmalıydı.

O, İstanbulda ali təhsil alıb vətənə qayıtdıqdan sonra mətbuatda müxtəlif mövzularda publisistik məqalələrlə çıxış edir. Həmin məqalələrin bir qismində Məhəmməd peyğəmbərə, Qur'ani-Şərifə və İslamda maarif məsələlərinə ayrıca diqqət yetirir...

Cavid 1912-ci ilin avqustundan 1914-cü ilin oktyabrınadək Tiflisdə yaşayır və müəllimlik edir. Burada Qurbanəli Şərifovun oğlu Əziz Şəriflə tez-tez görüşüb dərdləşir.

1913-cü ildə Tiflisdə şairin əlinə Tomas Karleylin "Tarixdə qəhrəmanlar və qəhrəmanlıq" kitabı keçir. Kitabdan Şekspir, Dante, Jan Jak Russo və Məhəmməd peyğəmbər haqqında oçerkləri oxuyur. Bundan sonra Caviddə Məhəmməd peyğəmbər haqqında əsər yazmaq fikri bir az da qüvvətlənir. "Maral" faciəsində Çingizin dilindən bu fikirləri ifadə edir: "Əcnəbilər böyük İskəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırıyor, heykəllər dikdiriyorlar. Fəqət bizlər isə Çingiz kibi cihangirləri, Teymur kibi qəhrəmanları xunxar, canavar deyə ləkələmək istiyoruz".

Dramaturq "Uçurum" faciəsində Məhəmməd peyğəmbər haqqında daha dolğun bədii fikirlərini filosof Əkrəmin dilindən ifadə edir:

Bən öylə bir rəssam olsaydım əgər
Hicaz ölkəsinə eylərdim səfər...
Təsvir eylər idim gənclik çağında
Böyük Məhəmmədi Hira dağında.
Bir halda ki, göydən enən bir mələk
Qarşısında gülümsər nur səpərək:
Təbliği-vəhy edər... Fəqət daima
Daima dalğın o sarsılmaz dəha.

Dramaturq bu monoloqda ifadə etdiyi fikirləri "Peyğəmbər" pyesində ayrı-ayrı obrazların dilində işlədir.

Nəhayət, dramaturq uzun illər düşündüyü mövzunu sovet →

hakimiyyətinin ilk illərində əvvəlcə nəsrlə qələmə alır, sonra nəzmə çəkir və əsərini kitab şəklində çap etdirir. Əsər oxucular tərəfindən böyük maraqla qarşılanır. Oxucuların xahişi ilə onu ikinci dəfə çap etdirir. Əsər təbii ki, marksist tənqidçilər tərəfindən rədd və tənqid olunur. O zaman mühacirətdə yaşayan M.Ə.Rəsulzadə yazır: "Topal Teymur" ilə mənzum "Peyğəmbər" sovet rəhbərlərini çox məşğul edir. Şairin bu iki əsəri oxucularda dərin təsir buraxır. "Sovet çörəyini yediyi halda tarixin pantürkist tiplərini idealizə etməyə cəsarət edən" şairə qarşı sovet tənqidçiləri atəş püskürürdülər".

Belə bir şəraitdə teatr üçün yazılmış pyes tamaşaya qoyulmur. Bununla belə, tamaşaya qoymaq istəsələr də, müəllifin özü buna maraqlı olsa da, göstərilən səbəblər üzündən pyes səhnə üzü görmür. Sovet rəhbərləri və senzurası, necə deyərlər əsərə "yasaq" möhürünü vurur.

Bir neçə söz "Peyğəmbər" mənzum tarixi dramının "tamaşası" barədə. Teatrşünas Cəfər Cəfərovun yazdığına görə, pyes 1923-cü ildə tamaşa üçün hazırlanmış, ancaq repertuara daxil edilməmişdir.

Teatrşünas İsrafil Cahangirovun yazdığına görə, pyes 1930-cü illərin əvvəllərində tamaşaya hazırlandı. Əsəri tamaşaya qoymaq üçün bir neçə ay aktyorlar məşq etdilər. Ancaq əsər yenə də tamaşaya qoyulmadı.

Teatrşünaslar bunun səbəbini izah etməsələr də, aydındır ki, nə 1920-ci illərdə, nə 1930-cu illərdə "Peyğəmbər"i tamaşaya qoymaq mümkün deyildi. "Topal Teymur" tamaşasının taleyi fikrimi təsdiq üçün kifayətdir. O pyes tamaşaya qoyulur, lakin bir neçə tamaşadan sonra Xalq Maarif Komissarlığının göstərişi ilə repertuardan çıxarılır və tamaşaya qoyulması qadağan edilir.

4 mart 1923-cü ildə Cavid Tiflisdə yaşayan dostu Əziz Şərifə məktub yazır. Həmin məktubdan bir parçaya nəzər salaq: *"...Bənim halıma gəlincə, pək üzgün və donuq bir haldayam. Yeni yazmış bulunduğum "Peyğəmbər"i islah edib ortaya çıxarmağa vaxtım yox... Çünki qardaşım Əlirza üç aydır ki, "vadyanka" xəstəliyilə yatır. Pək zəifdir. Başım bir qədər onunla məşğul, həm də fəzləcə yoruluram..."*

9 fevral 1924-cü ildə Əziz Şərifə yazdığı qeyri bir məktubunda pyes haqqında maraqlı məlumatlar var. Onu olduğu kimi bura köçürürəm: *"Pək möhtərəm Əziz Şərif! Əlan poçtdan yeni təb edilmiş "Peyğəmbər"i, zakaznoy olaraq sana göndərdim. Təbii, mütaliə edib, bir vaxt nöqteyi-nəzərini yazarsan. Lakin bir rica edəcəyəm. Burada (Bakıda İ.A.) oynanılmadığı kibi, oradakılara (Tiflisdəki Azərbaycan aktyorlarına İ.A.) da rast gəlsəniz, oynanılmamasına tənbeh və tövsiyə edərsiniz. Şimdilik bən razı olmayıram. Sonra, gələcək illərdə baxarız... Qardaşın Cavid".*

Bu məktubla tanış olmayan, Cavid haqqında məqalə və kitablar yazan bəzi müəlliflər belə hesab etmişlər ki, guya Cavid həmin əsəri tamaşaya qoymaq üçün yazmamışdır; yaxud pyesin tamaşaya qoyulmasında maraqlı deyildi və s. Bu, kökündən yanlışdır, həmin fikirləri təkzib etmək üçün dramaturqun son iki cümləsinə diqqət yetirmək kifayətdir. Deməli, o, "Peyğəmbər"in tamaşaya qoyulmasında maraqlı idi. ancaq əsərin tamaşaya qoyulmasında zamana və siyasi quruluşun dəyişməsinə ehtiyac görürdü. Pyesin 1923-cü ildə və 1930-cu ildə tamaşaya qoyulmasına cəhd göstərilməsi və bunun baş tutmaması da həmin səbəblərlə izah olunmalıdır.

1931-1932-ci illərdə İranda "Ayineyi-ibrət" truppası pyesi tamaşaya qoymağa təşəbbüs göstərsə də, nəzmiyyə idarəsi buna icazə verməmişdi.

"Peyğəmbər" tarixi dramının tamaşaya qoyulması ideyası 1980-ci illərdə Hüseyn Cavidin anadan olmasının 100 illiyinə hazırlıq zamanı meydana gəldi. Həmin ideyanın müəllifi vaxtilə şairin tələbəsi olmuş, görkəmli aktyor və rejissor Mehdi Məmmədov idi...

Çox təəssüflər olsun ki, Mehdi Məmmədovun da arzusu baş tutmadı, amansız ölüm onu bizdən ayırdı. Yadımdadır, bir qəzet müxbiri onunla bu barədə müsahibə aparmışdı. Suallardan biri belə idi: "Peyğəmbər" əsərinin tamaşası ilə kimləri sevindirəcəksiniz?"

O, maraqlı bir cavab vermişdi:

- Çoxlarını kədərləndirəcəyəm...

...Onu da ürək ağrısı ilə deyim ki, pyesə səhnədə tamaşa etmək arzusu bu günə qədər cavidsevərlərin və teatr həvəskarlarının qəlbində arzu olaraq qalır.

**İsgəndər Atilla (Orucəliyev)**
**Filologiya üzrə fəlsəfə doktoru**

# Hüseyinzadə Əli Turanın arxivindən:

## *Qafqaz İslam Ordusunun bildirişi*



Yavuz Akpınar

...Hüseyinzadə Əli (Turan) Bey, 1918-də Əhməd Ağaoğlu ilə birlikdə Qafqaza göndərilir. Cəlal Ünsizadə də onlara qoşulur. Qafqazda cərəyan edən sosyal, siyasi və əskəri hadisələrə yaxından şahid olur, onlara öz ölçülərində yön verir və Azərbaycanı istiqlala aparan sürəcin içində bulunurlar. Əhməd Ağaoğlunun rəsmən Türk ordusuna "müşavir" olaraq göndərildiyi açıkça bilinsə də Hüseyinzadənin hangi sıfatla bulunduğu hələ bəlli deyildir. (Əlibəy Bakıda hərbi həkim işləyəcəkdi... Red.)

Əlibəy Hüseynzadənin Ege Üniversitesi, Ədəbiyyat Fakültəsi, Türk Dili və Ədəbiyyatı Bölümündə mühafizə edilən arxivində, Azərbaycan Cumhuriyyəti qurulandan həmən sonra Gəncədə yazılan bir neçə şeirlə (birisi Cəlal Ünsizadəyə aid böyük bir mənzumədir) birlikdə fotonüsxəsi və mətni 1918-ci ildə "Qafkaz İslam Ordusu Komandanı Nuri Paşa" imzasıyla yayımlanan bildiriş də ordadır...

Bu sənədin Türkiyədə və Azərbaycan arxivlərində olma ehtimalı ola bilər, amma biz indiyə qədər Nuri Paşanın muhtemelen Gəncədəykən Qafqaz İslam Ordusu adına yayımladığı herhanki bir sənədlə qarşılaşmadık.

Sənəddə Allahın buyruqlarına, Hz.Muhammedin hədislərinə və İslama özəl vurğuda Qafqazda İslamın can və mal əmniyyətinə, beytülmala, yağmacılığa özəlliklə vurguda bulunduğu görülür ki, bu da qayət adi bir haldır. Ordunun, insanların can və mallarını əmniyətə almağı ilk vəzifə olaraq anlaşılır. Sənəddə Xalq, Müslümanların düşmanlarına qarşı var gücüylə "cihada" dəvət edilməkdədir. Bununla yanaşı sevinc göstəriləri sırasında havaya qurşun sıxmanın yasaqlanması diqqəti çəkir. Çünki o günlərdə hərbi sursata son dərəcə ehtiyac duyulmaqdaydı; bir qurşun belə boşa xərclənməməlidir!

Azərbaycan Cümhuriyyətinin 100 ilində Türkiyə-Azərbaycan qardaşlığının ən gözəl sübutlarından biri olan bu sənəd geniş yayımlanmalıydı. Beləcə yaxın tariximizə işıq tutan bu sənədə bir daha diqqət yetirməmiz vacibdir.

***"Bismillahirrahmanirrahim!***

***Ulu Tanrının inayeti, Halife-i Resulullah Sultan Mehmet Han-ı Hamis hazretlerinin iradesi və baş komandan vəkili Ənvər Raşanın əmriylə Qafqaz islamları üzərinə komandan olaraq getdim. Qafqaza ayak basıb islam kardaşlarıma kavuşduğumdan dolayı Cenab-ı Zül-Celal Hazretlerine həmd ve senalar olsun!***

***Müslümanlar!***

***Allahu-azimüşşanın böyüklüğünü düşünüp ondan korkunuz! Biliniz ki Cenab-ı Hak zalimi dünya ve axirette cezasız bırakmaz. Allahdan qorxmayan millet batar, məhv olub gedər. "Rasul-hikmeti mehafetu-lah" hikmetin başı Allah qorxusudur. Hər yaxşılıq Allah qorxusundan doğar.***

***Eşitdim ki, bəzı kimsələr Tanrının buyruğuna muxalif*** →

*olaraq və pək böyük günah qılan bir kimsə digər bir kimsəyi öldürürsə, nazm-ı celili mucibincə kısasən özü edam olunacağından, qatil özünü, həm də başkasını öldürmüş olur.*

*"Bilə-bilə Müslümanı öldürən kimsə cəhənnəmdə pek çok qalır. Allah binası olan vücud-ı insaniyi yıkan indallah ve inden-nas menfur olunur. Dünya ve axirəttə əzab-ı əzimə mustahakk olur".*

*Dindaşlar!*

*Aranızdakı nizayı qaldırın. Allahü-teala hazretleri Kur'anı-Keriminde buyurmuşdur ki Allahü-teala ve Rəsulinə itaət ediniz ve aranızda qovğa etməyiniz; əgər eylərsəniz, məğlub olarsınız, dağılırsız, adınız qalmaz, məhv olarsınız. İki kimse arasında qovğa olduğunu görürsəniz, həmən barışdırmağa, islah etməyə çalışınız, çünkü hədis-i-şərifə görə ən böyük sədəqə iki nəfər arasında qovğanı barışdırmaqdır. Müslümanlar bir adam kimidir, bir cesed kimidir ki, məsələn başı ya gözü ağrıyırsa bütün əzası ağrıyır və bir üzvü ağrıyırsa, qeyri üzvləri də ona tabe olur. Yuxu yatmaz və başı dərdə düçar olur. Bunun üçün İslam qardaşlarımızın başına gələn müsibət və bəlanı özünüzə gəlmiş təkin biliniz, çarə və kömək ediniz.*

*Beytül-mal umum əhl-i islama əmanətdir, Peyğəmbərimiz Muhammed Mustafa sallalahu-əleyhissəlam həzrətlərinin nehb və yağma haqqında buyurduğu olur ki "Allah və Rəsulu sizi yağmadan qadağan eylər, yağma olunan malı geri veriniz", yəni yağma halal deyildir, yağma olunan ət qazanını çevirin. Buna görə dünya və axirət əzabından qorxan kimsə həmən talan eylədiyi malı iadə etsin.*

*Əmanətə xəyanət edənin imanı yoxdur. Beytül-mala aid olanın*



*surət sərfi də hökumətə aiddir. Cenab-ı Hak-teala Hazretleri Kur'an-ı Keriminde belə buyurur: Mal-ı ganalime xəyanət edən kimsə qiyamətdə xəyanət zənciriylə bağlı olaraq gətirilir. Mal az, ya çox olsun, yağma edənlər və verilən əmri dinləməyənlər cəza görəcəkdir. Nazm-ı cəlili ile Müslümanlara xitabən buyurur: "Müslümanlar! Düşmanlarınıza qarşı əldən gəldiyi mərtəbə qüvvət, axurlarınızda bağlı-besili atlar hazırlayın, çünki bunlar ilə Allahın ve sizin düşmanlarınızı, Allahın bilib də sizin bilmədiyiniz başqa düşmanlarınızı qorxudursunuz. Allah yolunda sərf etdiyiniz şeyin mükafatı tamamən əda olunur. Bu babda əsla zülmə uğramazsınız" buyurur. Və lakin siz, təəssüf, bu ayət-i cəlilənin xılafına olarak, düyünlərdə, toylarda, bayramlarda şənlik için havaya tüfəng atarsınız. Sizin namusunuzu qoruyacaq olan o gülləni toplayınız, mühafizə ediniz ki, lüzumu halində düşmənə atılacaq cəbbəxanəniz bulunsun. Cəbbəxanəni havaya atmak, bir İslam qardaşına atmaq dərəcədə fənadır. Plevne, Edirne, İşkodra qalalarında aylarca arslanlar gibi vuruşan islam qardaşlarınız sonunda sursatsızlıq üzündən əsarətə giriftar olmuşlar. Havaya güllə atanlar İslamiyyətə ən böyük fənalıq edər. Bunun üçün bu gündən sonra boşuna güllə atanın şiddətlə cəzalanacağını elan edirəm".*

**Qafqaz İslam Ordusu Komandanı, yaveran-i Hazret-i Şehriyaridən Ferik-Nuri-Paşa.**

İstambul. "Türk yurdu" dərgisi. 2018-ci il. №368.

# Zaman - güzəştsiz münsifdir...

*("Qara kvadrat" önündə düşüncələr...)*



...Məşhur tarixçi V.Klyuçevskinin belə bir sözü var: "Tarix heç nə öyrətmir, lakin dərslərdən ibrət götürməməyə görə cəzalandırır". Belə bir fikir də çox maraqlıdır: "Tarix keçmişdə devrilmiş siyasətdir". Yalnız şərhlər əlavə edərək, müasirliyi özündə yaşadan tarixdən tarix yaratmaq olar. Yalnız bu tarix tarix kimi qalacaqsa... Sözsüz ki, tarix təsadüflərdən ibarət deyil, təsadüfilik dərkolunmaz bir qanunauyğunluq olsa belə... Hər nə baş verirsə, təsadüfən olmur, hər şey öz məntiqinə uyğun tarixi ardıcıllıqla baş verir. Tarix hətta zamanın sınağından çıxmış sənət əsərlərinə belə öz təsirini göstərir. Bununla da, sənət əsərinin tarixdə qalıb-qalmamaq şansı yaranır. Tarixin arxivinə köçən sənət əsəri kimi, tarixdə həmişəyaşar sənət əsərləri bəs əbədilik haqqını necə qazanır? Tarixin süzgəcindən keçən bu əsərlər nə qədər tükənməz ömür qazansa belə, bir gün tarixə həmişəlik düşərək qalır. Bəs Sovet dövründə yaranmış sənət əsərləri görəsən istər söz sənətində, istər teatrda, istərsə rəngkarlıqda əbədi yaşamaq hüququ qazandımı? Elə o əsərlər tarixin tozlu arxivindəcə qalmadımı? Təsviri sənət haqqında təsəvvürləri alt-üst edən Leonardo da Vinçi, Vinsent Van Qoq, Pablo Pikasso, Salvador Dali, Bosx və qeyriləri zamanında heç bir real izahatı olmayan möcüzə kimi qəbul olundular. Bəs görəsən bütün bunlar da tarixdə əbədi qalmaq haqqını nə dərəcədə qazandılar? Bunu zaman göstərir və yenə də göstərəcək. Burası yəqindir. Böyük rus yazıçısı A.Soljenitsinin roman və povestləri dövrün hökmü ilə yarandı. Necə qəbul olunmaları isə tamam başqa söhbətin mövzusudur. Sözsüz ki, tarix, zaman bunun əsl qiymətini verdi və verəcək də... Əbəs yerə deyilməyib ki, zaman ən doğruçu hakimdir. Bir də ki, sənətkar dediyin yaşadığı zamanın önündə gedəndə zamana və zəmanəyə qismən də olsa öz təsirini göstərə bilər. A.Kamyunun sözü var ki, - heç bir xalq öz yazıçısının dediyi sözə əməl eləmir. Rus-abxaz yazıçısı Fazil İskəndər də illər keçəndən sonra bu fikri təkrarladı. Sənətkar və hər bir əsl sənət adamı üçün öndə getməksə - daim zamanın nəbzini tutmaq, onun ağrılı nöqtələrini öz canında hiss etməkdir. Sənətkar bilməlidir ki, bu həm də onun öz şəxsi ağrısıdır. K.Maleviçin "Qara kvadrat"ı tarixin, zamanın tələblərinə necə lazımdısa, o cür cavab verdi. Sovet dövrünün "diqtəsiylə" yaradılmış bu əsər də elə tarixin sınağına verilmədimi? Bəstəkar G.Sviridov "Zaman, irəli!" əsərini yaradanda bilirdimi ki, tarixdə müvəqqətidir, ya əbədi? Eləcə də Soljenitsın "Qulaq Arxipelaqı"nı yazanda ümid edirdimi ki, tarixdə beləcə əbədiyyət qazanacaq, yaxud əksinə? Əlbəttə, tarixdə qalıb-qalmamaq məsələsi Zamanın hökmündədir. Zamanın sınağından uğurla çıxmış sənət əsərləri öz yerində, qalmayanlarsa tarixin, ən obyektiv tənqidçisi olan zamanın ələyindən keçə bilmir. Belə əsərlər sovet partiya nomenklaturunun sifarişi ilə yaradılmış əsərlər idi. Lakin bəzilərinin bu gün dodaq büzdüyü sovet əyyamında da həqiqətən dəyərli əsərlər yaranmış oldu. Təbii ki, Sovet sistemi dağılandan sonra dövrün sifarişiylə yaranmış bir çox yazılar Zamanın sınağından keçə bilmədi. Zamanla saf-çürük olundu və hər zamanda da beləcə... Bir daha əmin olursan ki, hər bir dövrdə yaranan sənət əsəri üçün ən dürüst, ən obyektiv sənətşünas və ən dəyərli məhək daşı Zamanın özüdür... Əslində "qara çöhrəsində" heç nə əks olunmayan "Qara kvadrat"a bir müddət baxandan sonra bunları düşünməli olursan... Hər halda mən öz ağlımdan keçənləri bir eskiz halında qələmə aldım...

**Aydan**

# PİLLƏLƏR



*Bütün güllərin ətri sozalır, kitabdan gələn mədəniyyət ətrisə heç zaman...*

*Sıfır öz ekizindən savayı, hansı rəqəmin yanında dayanırsa, kim olduğunu bilir...*

*Sözünə "bilirsiniz"lə başlayanlar, əslində "bilmirsiniz" demək istəyir...*

*Alim dünya ilə danışır, Şair dünyanı danışdırır...*

*Düz yolla gedəndə də dörd yol ayrıcındasan...*

*İndini keçmişlə doldursan, gələcəyinə yer qalmaz...*

*Pis təhsil görmüş xalq, heç təhsil görməmiş xalqdan daha xatalıdır.*

***Rahid Ulusel***
***Narın düşüncələr"dən...***

# MÜŞFİQ - TƏSVİRİ SƏNƏTİMİZDƏ

*(İkinci yazı)*

Xəzan acısına edib təhəmmül
Gülün kölgəsində ötəndə bülbül
Həyat, həyat! - deyə çırpınır könül
Könüldən, sevdadan necə əl çəkim?

Cəmi 29 il ömür sürmüş, lakin xalqımızın qəlbində və yaddaşında əbədi yaşar şairimiz Mikayıl Müşfiqin zəngin ədəbi irsi ədəbiyyatımızın inciləri sırasına daxildir.

Azərbaycanın bir çox dəyərli ziyalılarına faciəvi son hazırlayan, xalqımızın yaşadığı ən ağır tarıxi məqamlardan biri sayılan 1937-ci il repressiyasının qara kölgəsi Mikayıl Müşfiqdən də yan keçmədi. Bu repressiya ziyalılarımızın həyatına son qoymaqla yanaşı, xalqımızın milli ruhuna, milli şüuruna hədəflənmiş silah idi. Hələ ömrünün bahar çağında olan, yaradıcılığının zirvəsinə yetişməmiş gənc şairimizin faciəvi taleyi onu millətin qəlbinə əbədi həkk elədi. Bəlkə də, elə bu səbəbdən Mikayıl Müşfiqi yaddaşlarda əbədiləşdirmək istəyən bir çox rəssam və heykəltəraşlarımız öz əsərlərində Şairin obrazını yaratmışlar. Azərbaycanın tanınmış rəssam və heykəltəraşlarındanTamilla Seyidova, Münəvvər Rzayeva, Hacıağa Nəzərov, Hüseyn Əliyev, Altay Hacıyev, Həmid Qasımov, Yusif Hüseynov, Oqtay Sadıqzadə, Elmira Şahtaxtinskaya, Hüseyn Kərimov və başqalarının müxtəlif zamanda yaratdıqları kompozisiyalarda şairin obrazı öz əksini tapıbdır. Yuxarıda adları qeyd olunan bu rəssamların dahi şairə həsr etdikləri tematik tablo və portretlər müxtəlif janrda, müxtəlif səpkidədir.

Əməkdar rəssam Tamilla Seyidova hələ 1963-cü ildə diplom işi kimi Müşfiqə həsr etdiyi "Şairin heykəli" adlı kompozisiyasını yaratmışdı. Qeyd edək ki, həmin heykəl M.Müşfiqə həsr olunmuş ilk heykəl olmaqla, həm də heykəltəraşın ilk iri ölçülü əsəridir. Əsər ilk dəfə elə yarandığı il Azərbaycan Rəssamlarının sərgisində nümayiş etdirilmiş və çox böyük marağa səbəb olmuşdu. Dəyərli sənətşünas Mürsəl Nəcəfov əsərə münasibət bildirərək belə yazmışdı: "Yaradıcılıq yoluna yenicə qədəm qoymuş heykəltəraş Tamilla Seyidova sevimli şairimiz Müşfiqin cavanlıq çağlarını inandırıcı şəkildə əks etdirən bir heykəl-kompozisiya ilə çıxış edir. Gənc istedadın ilk sərbəst işi haqlı olaraq tamaşaçı rəğbətini qazanmış oldu"...

Heykəltəraş Tamilla Seyidova müsahibələrinin birində belə deyirdi: "Canını öz vətəninə, öz torpağına fəda edən insanların obrazları məni hər zaman daha çox özünə cəlb edib. Böyük Şairimiz Mikayıl Müşfiq mənim qəlbimdə, mənim duyğularımda ən yüksək, ən sevimli bir şair kimi yaşamaqdadır". →

Öz yaradıcılığında ədiblərə, qələm ustalarına xüsusi məhəbbətlə yanaşan Münəvvər Rzayeva Bakıda, İnşaatçılar prospekti ilə Nəriman Nərimanov küçələrinin kəsişdiyi yerdə qoyulan Mikayıl Müşfiqin şəhər heykəlini1968-ci ildə şairin 60 illik yubileyi ərəfəsində yaratdı. Heykəltəraş Münəvvər Rzayeva və memar Şəfiqə Rzayeva tərəfindən düşünülmüş bu abidənin açılışı 9 iyun 1970-ci ildə baş tutdu. Yüksək emosional gücə və ifadə tərzinə malik olan büstün hündürlüyü metrə yarımdır. Çəhrayı qranitlə üzlənmiş postamentlə birlikdəsə heykəlin ümumi hündürlüyü 3,2 m-ə çatır. Münəvvər xanım Rzayeva heykəl üzərində apardığı işi barədə özü belə ifadə edir: "Müşfiqin poeziyasını, onun şeirlərini oxumağı, dinləməyi kim sevmir ki? Kimi bu nakam sənətkarın şeriyyəti həyəcanlandırmır, düşündürmür?! Odur ki, bu obraz mənim ağlımda, hissiyatımdaydı. Ya ara-sıra bu unudulmaz şairin heykəlini yaratmaq haqqında düşünür, eskizlər hazırlayır, hətta neçə variantda büstlər düzəldirdim. Müşfiqin 60 illik yubileyi ərəfəsində hörmətli şairimiz, o zaman Respublika yubiley komitəsinin sədri olan xalq şairi Rəsul Rza özü emalatxanaya gəldi və söylədi: - "Büstü tamamlamış olsanız, bu yubileyə yəqin ki, ən yaxşı hədiyyə olacaq". Bu sözdən məni həyəcan bürüdü. Şairin yubileyi yaxınlaşırdı, çox az vaxt qalmışdı. Gecə-gündüz çalışmalı oldum. İş prosesində mən şairin şeir düşünən anı təsvir etməyə cəhd göstərmişəm. Əlbəttə, bununla heç də şairin tam obrazını yaratmışam deyə bilmərəm."



Bədii ifadə vasitələrindən məharətlə istifadə edən heykəltəraş şairin öz dünyasını göstərməyə çalışaraq, həqiqətən mükəmməl dinamik kompozisiya yaratmağa nail olubdur. Yeri gəlmişkən, onu qeyd etmək vacibdir ki, Xızıda fəaliyyət göstərən "Mikayıl Müşfiq ocağı"nın önündəki büst-heykəl də həmçinin Münəvvər xanım Rzayevanın eskizləri əsasında 1990-cı ildə hazırlanmışdır (bürünc, 1989, F.Əliyevlə birgə) .

Bir çox dəyərli sənətkarlarımızın portretlərini yaratmış tanıqlı rəssam Hacıağa Nəzərlinin yaradıcılığında "Mikayıl Müşfiq" və "Cəfər Cabbarlı və Mikayıl Müşfiq Xızıda" adlı əsərlər önəmli yerə və dəyərə malikdir.

"M.Müşfiqin yaradıcılığına dərindən bələd olan rəssam, şairin zəngin poeziyasından səmərəli surətdə faydalanmışdır. "Yenə o bağ olaydı!" şeiri əsərin məkanını müəyyənləşdirib, rəssam xəyallarını qayalıqlar arasına, Xəzərin qumlu sahilinə, göy sular səltənətinə aparıb; tablonun ruhuna, portretin psixolojisinə, qəlb aləminə, düşüncəsinə gəldikdə isə deməliyik ki, burada, "Yenə o bağ olaydı!"şeiri ilə yanaşı, rəssama başqa şerlər də qida verib, onun janr xüsusiyyətini dərindən duymağa kömək edibdir." (Qafar Əskərzadə - "rənglərin möcüzəsi")

Şairin yaradıcılığına dərindən nüfuz edən rəssam onun hisslərini, düşüncələrini, həyəcanını öz tablolarında vurğulamağa nail olur. "Yenə o bağ olaydı!" tablosu kompozisiya sadəliyinə görə çox maraqlıdır. Rəssam əsərdə məkan olaraq Xəzərin sahilini göstərir. Dənizin sahilində, qayalıq bir yerdə dizini əlləri arasına alıb, irəliyə doğru sakit nəzərlə baxan, ruhu kimi bəyaz geyimdə təsvir olunmuş gənc şairin yanındasa dəniz kimi çoşub çağlayan şair ilhamını müşayət edən qələm və dəftər təsvir olunub. Sakit nəzərləri ilə tamaşaçının ruhuna dərindən nüfuz edən şairin baxışları məharətlə təsvir olunub. Əsərin fonunda canlanan mavi dəniz tablonun ümumi rəng harmoniyasını tamamlayır.

Rəssam əsərin yaranması ilə bağlı fikirlərini bölüşərkən belə deyib: "Mikayıl Müşfiqin poeziyası məni həmişə özünə məftun etmişdir. Vurğunu olduğum bu ölməz sənətkarın portretini yaradarkən →

çoxlu axtarışlar aparmalı oldum. Ayrı cür də edə bilməzdim. İlk təşəbbüslərim məni şairin ata yurdu Xızıya gətirib çıxartdı. Müşfiqi dağlar qoynunda yerləşən Xızıda çiçəklər içində təsvir etmək istədim, çox eskizlər etdim. Bu eskizlərdə şairin surəti mənə çox sentimental göründü. Mən çox axtarışdan sonra "Yenə o bağ olaydı!" şerinin müəllifini dəniz kənarında, qayalar üstündə təsvir etmək qərarına gəldim. Elə fırçamı da "Yenə o bağ olaydı!" şerinin sarı simi üstündə köklədim. İstədim ki, Müşfiqi çılğın, hər yeni söz üçün qağayı tək dənizə şığıyan sənətkar kimi yaradım. Buna nə dərəcədə nail olduğumu, əlbəttə, tamaşaçılarımız deməlidir".




Hacıağa Nəzərlinin digər bir dəyərli əsəri "Cəfər Cabbarlı və Mikayıl Müşfiq Xızıda"dır. Azərbaycana bu cür dəyərli şəxsiyyətlər bəxş etmiş Xızı dağlarının füsunkar mənzərəsi fonunda təsvir olunmuş böyük sənətkarlar Cəfər Cabbarlı və Mikayıl Müşfiq obrazları rəssamın kompozisiya duyumu, rəng hissiyyatı ilə səsləşərək ecazkar bir səhnəni gözlər önünə sərgiləyir.

"Cəfər Cabbarlı və Mikayıl Müşfiq Xızıda" lövhəsinin xüsusi yeri vardır. Əsərdə mavi dağ fonunda Cəfər Cabbarlı və Mikayıl Müşfiq yanaşı təsvir edilib. Tarixi həqiqət belədir ki, həmyerli sənətkarlar arasında yaxınlıq, ayrılmaz dostluq, yaradıcılıq əlaqəsi olmuşdur. Əsərdən görünür ki, M.Müşfiq görkəmli dramaturqa öz müəllimi kimi baxır, ondan öyrənir. Rəssam bununla bərabər gənc şairin coşqun ilhamını da göstərməyə çalışmışdır. C.Cabbarlı isə əsərdə ağır təbiəti, özündən yaşca kiçik yaradıcı dostuna səmimi münasibət ilə yadda qalır. Ətraf mənzərənin təsviri hər iki sənətkarın ilhamlı təbiəti ilə həmahəng səsləşir, obrazların bütövlüyünü tamamlayır".

Mikayıl Müşfiq obrazına xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığında da rast gəlmək mümkündür. Rəssamın "Qara yazı" ("1937-ci il repressiyasının qurbanları") və "Yenə o bağ olaydı, yenə o qumlu sahil" tablolarında M.Müşfiqin obrazı yer almaqdadır. "Qara yazı" tablosunda 1937-ci il repressiya qurbanlarından Əhməd Cavad, Seyid Hüseyn, İdris Axundzadə, Pənah Qasımov, Mikayıl Müşfiq, Abbas Mirzə Şərifzadə, Yusif Vəzir Çəmənzəminli təsvir olunub.

Digər əsəri olan "Yenə o bağ olaydı, yenə o qumlu sahil" tablosunu xalq rəssamı 1988-1989-cu illərdə ərsəyə gətirmişdir. Lirik-poetik ovqat daşıyan bu əsərdə ölməz şairimizin obrazı səmada buludların arxasında əlində qələm xəyala dalmış, fikirli şəkildə təsvir olunub. Dalğaları coşub çağlayan dəniz, yarpaqları küləklə sovrulan ağac, zərif qız şairin ilham mənbəyi kimi əsərdə yer alır.

Məşhur rəssam Altay Hacıyevin hazırda görkəmli dramaturq-şairimiz Hüseyn Cavidin ev muzeyində "Cavidin şöhrəti" adlı otaqda saxlanan "Son yay" əsəri də yaddaqalandır. Tabloda Mikayıl Müşfiq, Əhməd Cavad, Rəsul Rza, Ənvər Məmmədxanlı və Ənvərin bacıları Arifə ilə Həbibə Məmmədxanlılar təsvir edilib.

Həmid Qasımovun "Mikayıl Müşfiq Xəzərdə" (Linoqravür, 1967), Əməkdar rəssam Yusif Hüseynovun "Mikayıl Müşfiqin portreti" (1968), Xalq rəssamı Elmira Şaxtaxtinskayanın plakat janrında çəkdiyi "Mikayıl Müşfiq" (1968), Gülbəniz Əzimzadənin şairin "Ana" və "Tar" şeirlərinə illüstrasiyaları (1968), Hüseyn Əliyevin "Mikayıl Müşfiqin portreti" (1968), Hüseyn Kərimovun "Mikayıl Müşfiq" (1978) adlı əsərlərində müəlliflər şairin portretlərini və ona həsr olunmuş müxtəlif mövzulu kompozisiyalar yaratmışlar.

Zəngin ədəbi irsi, vətən sevgisi, doğma xalqına bağlılığı M.Müşfiq şəxsiyyətini hər zaman bizlərin qəlbində yaşadacaqdır.

Bu vəfasız ömür, bu çoşğun dərə
Gərək boş-boşuna axıb keçməsin!
Bu gözəl cahanı sanıb pəncərə,
Hər gələn sadəcə baxıb keçməsin!

**Türkan Abbasova**

# Milli Azərbaycan Tarixi Muzeyi. Araşdırmalara bir nəzər...

Azərbaycan Milli Tarix Muzeyi özünün elmi əhəmiyyətinə, həmçinin ekspozisiya zənginliyinə görə hazırda respublikanın ən iri muzeylərindən biridir. Onun fondunda üç yüz minə yaxın eksponat qorunub saxlanmaqdadır. Bunların əksəri milli tarix və mədəniyyətimizin inciləri sayılır. Muzey özünün Şərq sikkə kolleksiyası ilə haqlı olaraq fəxr edir. Bu kolleksiya keçmiş SSRİ-də Ermitajdan sonra ikinci yerdədir. Nadir kitablar kolleksiyası da respublikanın hüdudlarından kənarda məşhurdur. Muzeyin materialları Əlcəzair, Fransa, Hollandiya, Yaponiya, Almaniya, Norveç və başqa ölkələrdə nümayiş etdirilmişdir.

Muzeyin əsas vəzifəsi həm də qədim Azərbaycan ərazilərini bir daha nişan vermək azəri türklərinin bu torpaqlarda məskunlaşma tarixini sənədlərlə, arxeoloji ekspedisiyalarda aşkar edilmiş faktiki materiallarla təsdiq etməkdir. Biz deyərdik ki, muzey - türk dünyasının qürur mənbəyidir. Məlumdur ki, Muzeydəki arxeoloji kolleksiyanın toplanması və təbliği işində respublikanın ən tanınmış tarixçi, arxeoloq və etnoqrafları iştirak etmişlər. Onlardan İsaq Cəfərzadə, Davud Şərifov, S.M.Qazıyev, Ə.K.Ələkbərov, Q.M.Aslanov, R.M.Vahidov, O.A.Həbibullayev kimi arxeoloqların adını xüsusi çəkmək olar. Hazırda Milli Azərbaycan Tarix muzeyində qorunan arxeoloji kolleksiyalar məhz onların əməyinin bəhrəsidir.

**İsaq Cəfərzadə** hələ universitetdə oxuyarkən - 1926-cı ildə Azərbaycan Dövlət Tarix Muzeyinə elmi işçi vəzifəsinə qəbul olunmuşdu. Həmin vaxtdan ömrünün sonunadək ömrünü xalqımızın qədim maddi-mədəniyyət tarixini öyrənmək işinə həsr etmişdi. Elə buna görə də alimin həyatı və uzun araşdırma yolu Azərbaycanda arxeologiya və etnoqrafiyanın inkişaf mərhələsini əks etdirən bir kitaba çevrilmişdi. Yada salmağa dəyər ki, respublikamızda geniş arxeoloji axtarışlar və qazıntılar aparmış 20-dən artıq ekspedisiyanın təşkili və fəaliyyəti



bilavasitə İshaq Cəfərzadənin adı ilə bağlıdır. Hələ 1925-1926-cı illərdə o, akademik İ.İ.Meşşaninovun başçılıq etdiyi ekspedisiyaların tərkibində Xocalıda və Qızılvəngdə, Çovdar və Yaloylutəpədə arxeoloji qazıntılar aparmış, olduqca maraqlı etnoqrafik məlumatlar toplamışdı. İsaq müəllimin Azərbaycanın ilk arxeoloqlarından sayılan Davud bəy Şərifovun rəhbərliyi ilə qədim Qəbələdə başlanan qazıntıları da çox uğurlu olmuşdu. Onu qeyd edək ki, İ.Cəfərzadə 1929-cu ildə Qara dəniz sahilindəki qədim şəhər Olviyanın arxeoloji qazıntılarını həyata keçirən Rusiya ekspedisiyasının tərkibində iştirak etmişdir. Bundan başqa o, Odessa, Xersones və Kiyev muzeylərinin struktur təcrübəsini yaxından mənimsəmiş və bu təcrübəni Azərbaycan Tarix Muzeyinin Arxeoloji

→

fondu təşkil olunanda tətbiq etmişdir. Topladığı təcrübə İsaq müəllimə az vaxt ərzində Azərbaycan Dövlət Muzeyində zəngin arxeoloji fond yaratmağa və xüsusi şöbə açmağa imkan vermişdi. Xalqımızın qədim tarixini, məişət və təsərrüfatını, mədəniyyət və incəsənətini öyrənmək məqsədilə o, Azərbaycan torpağını qarış-qarış gəzmiş və yüzlərlə tarixi abidə aşkara çıxarmışdır. 1933-cü ildən ömrünün sonuna qədər İsaq müəllim Elmlər Akademiyasında çalışmış, 1938-1964-cü illərdə Tarix İnstitutunun Arxeologiya şöbəsinə rəhbərlik etmişdir. Bu isə o dövrdə respublikada aparılan arxeoloji tədqiqat işlərinə bilavasitə elmi-təşkilati rəhbərlik deməkdi. Orta əsrlər dövrünün tədqiqində səmərəli fəaliyyət göstərən alim 1934-cü ildən Mil düzündə Örənqala arxeoloji ekspedisiyasında fəal iştirak etmişdir. Qazıntılar əsasında yazdığı əsərində İ.Cəfərzadənin irəli sürdüyü bir sıra müddəalar sonrakı illərdə öz təsdiqini tapmış oldu. Zəhmətkeş alim 1937-1939-cu illərdə Kiçik Qafqaz silsiləsinin əlçatmaz yerlərində ilk dəmir dövrünə aid 120-dən artıq möhtəşəm divarlı qalalar qeydə almış və bunları elmi əsaslarla tədqiq etmişdi. Onun həmin abidələrə həsr edilmiş tədqiqat əsəri elmi əhəmiyyətinə görə gənc alimlərin Ümumittifaq müsabiqəsində xüsusi mükafata layiq görülmüşdü.

İsaq Cəfərzadənin axtarışlarında qədim Gəncə qazıntıları da xüsusi yer tutur. Nizami Gəncəvinin 800 illik yubileyi ilə bağlı təşkil edilən bu qazıntılara bilavasitə İsaq Cəfərzadə rəhbərlik etmişdi. Onun səyi nəticəsində az vaxt ərzində qədim Gəncə şəhərinin yeri dəqiq şəkildə müəyyənləşdirilmiş, qazıntılar həmin yerdə qala divarlarının, sənətkarlıq məhəllələrinin, şəhər körpülərinin və başqa tikililərin qalıqları üzə çıxarılmış, yüzlərlə dəyərli maddi mədəniyyət nümunələri əldə edilmişdi. Maraqlıdır ki, təcrübəli alim qədim Gəncənin ətrafında Nizami dövründən daha qədimə - tunc dövrünə aid çoxlu abidələr üzə çıxarmış və xalqımızın mədəni irsinə aid dərin köklər müəyyənləşdirmişdi. Qədim Gəncə qazıntıları zamanı İsaq Cəfərzadəyə həm də böyük Nizaminin qəbrini açmaq şərəfi nəsib olmuşdu.

Müharibə və müharibədən sonrakı ilk illərdə İsaq müəllim Bakı limanında yerləşən sirli "Şəhri-Səbayıl"də və Yaloylutəpədə başlanan arxeoloji tədqiqatlara rəhbərlik etmişdi. İlk dəfə 1938, növbəti dəfə isə 1946-cı ildə İ.Cəfərzadə tərəfindən burda arxeoloji tədqiqatlar aparılmışdır. Dörd tərəfdən Xəzərin dalğaları ilə yuyulan "Şəhri-Səbayıl" tədqiqatları zamanı o, ağır və gərgin zəhmət hesabına dənizin dibindən 250-dən artıq iri ölçülü yazılı daş kitabə çıxara bilmişdi. Tədqiqatlar bu qalanın XIII əsrə aid olması və orta əsrlərdə Azərbaycanın iqtisadi-mədəni əlaqələrində mühüm yer tutması aydınlaşmışdı. 1941-ci ildə Cəlilabad rayonundakı Uzuntəpə adlanan yerdə aşkara çıxarılan maddi-mədəniyyət nümunələri - saxsı qablar, tuncdan və dəmirdən hazırlanmış silahlar, müxtəlif materiallardan düzəldilmiş bəzək əşyaları və s. tapıntılar alim tərəfindən araşdırılmış və bu tapıntıların nəticəsi olaraq İ.Cəfərzadə 1946-cı ildə nəşr etdirdiyi məqalədə Muğan mədəniyyətinin mövcudluğunu sübuta yetirmişdi. Yaloylutəpə qazıntılarının da nəticələri əhəmiyyətli yer tuturdu. Bu qazıntılar zamanı respublikamızın ərazisində qədim və özünəməxsus bir mədəniyyətə aid çoxlu yeni əşyayi-dəlillər üzə çıxarılmışdı.



**Saleh Qazıyev** 1939-cu ildən Azərbaycan Tarix muzeyində işləməyə başlamış, Qəbələ mahalının qədim abidələrinə həsr edilmiş dəyərli tədqiqat əsəri yazmışdır. Bundan sonra da o, Azərbaycan arxeologiya və etnoqrafiyası barədə zəngin məlumat və materiallar toplamış, tunc dövründən başlayaraq orta əsrlərə qədərki dövrə aid müxtəlif abidələrin tədqiqatçısı kimi tanınmışdır. Saleh Qazıyev eyni zamanda Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində mühazirələr oxumuş, arxeoloqların hazırlanması sahəsində əvəzsiz rol oynamışdır.

Görkəmli arxeoloq 1934-1947-ci illərdə Azərbaycan Tarix Muzeyinin elmi işçisi, 1947-1952-ci illərdə direktoru, 1952-1954-cü illərdə EA Tarix İnstitutunun arxeologiya və etnoqrafiya şöbəsinin →

rəhbəri olmuşdur. Alim, 40-dan çox elmi əsər və məqalə müəllifidir. O, Azərbaycanda arxeologiyaya aid ilk sanballı əsər olan "Azərbaycan arxeologiyası"nın müəlliflərindən biriydi. "Azərbaycan maddi mədəniyyəti silsiləsi"nin 4 cildi onun redaktəsi ilə hazırlanıb. Görkəmli alimin "Azərbaycanın qədim abidələri" (1948), "Qədim Mingəçevir"(1950) əsərləri, "Mingəçevir küp qəbirləri" (1960) albomu arxeologiya elminə, tariximizə və mədəniyyətimizə dəyərli töhfələrdir. Onu "Azərbaycan arxeologiyasının atası" adlandıranlar haqlıdırlar.



1923-cü ildən 1928-ci ilə kimi Tarix muzeyinin direktoru görkəmli alim, arxeoloq, coğrafiyaşünas, antropoloq **Davud bəy Şərifov** olub. 1924-cü ildə Bakıda "Birinci Ümumazərbaycan diyarşünaslıq qurultayı" keçirilmişdi. İctimai və mədəni tədbirlərdən heç vaxt kənarda qalmayan Davud bəy Şərifov həmin qurultayın plenar iclasında "Azərbaycanda muzey işi" mövzusunda proqram tipli məruzə ilə çıxış etmişdi. Məruzədə respublikada muzey işinin vəziyyəti və gələcək inkişaf perspektivləri dərindən təhlil olunurdu. Məhz Davud bəy Şərifovun məruzəsi əsasında vaxtilə Azərbaycandan qanunsuz çıxarılmış maddi mədəniyyət nümunələrinin geriyə qaytarılması barədə xüsusi qətnamə qəbul edilmişdi.

Davud bəyin səyi nəticəsində az vaxt içərisində Tiflis, Moskva, Sankt-Peterburq muzeylərində saxlanan Azərbaycana məxsus yüzlərcə nadir və dəyərli maddi mədəniyyət nümunələri Vətənə geri qaytarılmışdı. Onların içərisində mis, gümüş və qızıl sikkə kolleksiyaları, yüksək zərgərlik məmulatı, Azərbaycan xanlıqlarının rəmzləri, silah və bəzək nümunələri, vaxtilə azəri sənətkarlar tərəfindən toxunmuş xalılar və digər sənət əsərləri var idi.

1927-ci ildə Azərbaycan Tarixi Muzeyində toplanan eksponatların sayı artıq 50 minə çatmışdı. Qeyd etməyə dəyər ki, muzey fondlarındakı misilsiz xalı nümunələri həmin il Moskvada açılan Ümumittifaq sərgisində yüksək tərifə layiq görülmüşdü.

Azərbaycanın qədim tarixinin öyrənilməsində arxeoloji tədqiqatların fövqəl əhəmiyyət kəsb etdiyini yaxşı bilən Davud bəy 1925-ci ildə o zamanki Şəki qəzasına və Qəbələ mahalına ilk arxeoloji səfər təşkil etmişdi. Səfər zamanı elmə məlum olmayan bir sıra tarix və mədəniyyət abidələri qeydə alınmış, antik dövr və orta əsr tarixçilərinin əsərlərində adı çəkilən qədim Qəbələ şəhərinin yeri dəqiqləşdirilmişdi. Çöl axtarışlarına Davud bəy özü rəhbərlik edirdi. Bu səfər, əslində, Azərbaycan arxeologiya tarixində milli mütəxəssislər tərəfindən təşkil edilən ilk elmi ekspedisiya idi. Ekspedisiya 1926-cı ildə öz axtarışlarını daha da genişləndirir. Nic kəndi yaxınlığındakı Yaloylutəpə adlanan qədim dəfn yerində aparılan qazıntı işləri ilə Qafqaz Albaniyasına aid mükəmməl bir mədəniyyətin izləri üzə çıxdı. Qafqaz Albaniyasına aid bu qədim mədəniyyət Azərbaycan arxeologiyasına Yaloylutəpə mədəniyyəti adı ilə daxil olmuşdu. Qazıntılar zamanı müxtəlif biçimli nəfis gil qablar, tunc və digər metallardan hazırlanmış əmək alətləri, silah və bəzək nümunələri çıxarılmışdı. Onların çoxu yüksək bədii xüsusiyyətlərə malik olmaqla bərabər əsl sənət nümunələrini xatırlatmışdı. Sonrakı illərin tədqiqatları ilə Yaloylutəpə mədəniyyətinə aid yeni abidələr aşkar olunmuş, bu mədəniyyətin geniş coğrafiyaya aidiyyatı olması müəyyən edilmişdi. Davud bəy Şərifovun başçılıq etdiyi arxeoloji axtarışlarda qədim Qəbələnin tədqiqi xüsusi yer tuturdu. Axtarışlar zamanı qədim şəhərin müdafiə divarları, giriş yolu, bürcləri dəqiq ölçülmüş və təsvir olunurdu. Şəhərin mədəni təbəqəsini müəyyən etmək məqsədilə onun müxtəlif yerlərində kəşfiyyat qazıntıları aparılmışdı. Əldə edilən maddi mədəniyyət nümunələri şəhərin əsasən orta əsrlər tarixi ilə bağlıydı. Qəbələ şəhərinin yerində başlanan ilk arxeoloji araşdırmalar gələcəkdə aparılan geniş miqyaslı qazıntılar üçün əsas rolunu oynadı. Yaloylutəpə və Qəbələdə uğurlu çöl axtarışlarından sonra Davud bəy Şərifov →

1928-ci ildə Gəncə qəzasının payına düşən Çovdar adlı nadir abidənin tədqiqinə başladı. Həmin abidədə müxtəlif illərdə ötəri axtarışlar aparılsa da, onun haqqında tarixçilər üçün əhəmiyyət kəsb edən arxeoloji dəlillər üzə çıxarılmamışdı. Davud bəy Şərifovun yeni qazıntıları ilə Çovdar abidəsində daş qutulardan ibarət 42 qəbir açılmış oldu. Bunların hər birində vaxtı ilə oturaq vəziyyətdə dəfn olunmuş insan qalığına və zəngin avadanlıq üzə çıxarıldı. Müxtəlif ölçü və biçimli nəfis gil qablar, tuncdan hazırlanmış mükəmməl döyüş ləvazimatı, çoxlu sayda bəzək əşyaları aşkara çıxarılan qədim qəbirlərin avadanlığını təşkil etmişdi. Onların hərtərəfli tədqiqi və təhlili Çovdar dəfn abidəsinin e.ə. II minilliyin sonlarına və I minilliyin əvvəllərinə - Son tunc və ilk dəmir dövrünə aid olmasını sübuta yetirirdi. Çovdar abidəsinin öyrənilməsi ilə həmin dövrdə Azərbaycan ərazisindəki mövcud cəmiyyətlərin zəngin maddi mədəniyyəti, iqtisadi və ictimai durumu, Qərb və Şərqlə geniş mədəni əlaqələr haqqında bilik dairəsi öeyli genişlənmiş oldu. Onu da diqqətə çatdırmaq lazımdır ki, Davud bəy Çovdar abidəsində aparılmış arxeoloji qazıntıların nəticələrinə xüsusi əsər həsr etmişdi. Çox təəssüf ki, Çovdar qazıntıları, çöl axtarışlarına daima can atan zəhmətkeş alim Davud bəy Şərifovun arxeologiya sahəsində son tədqiqatları oldu. Tarix Muzeyinin direktoru vəzifəsindən çıxarılan istedadlı alim həmişəlik olaraq arxeoloji fəaliyyətdən kənar düşmüş oldu. Uğurlu fəaliyyəti ilə ön sırada gedən, nüfuzu gündən-günə artan Azərbaycan Tarix Muzeyi ilə bəzi təşkilatlar arasındakı münaqişələr, milli-mədəni irsi böyük əzm və inadkarlıqla öyrənən vətənpərvər alimdən də yan keçmədi. Qəribədir ki, Davud bəy Şərifovdan sonra Azərbaycanın Tarix Muzeyinə başçılıq iki erməniyə - S.Manutsyan (1928-1932-ci illər) və A.Melkumyana (1932-1934-cü illər) tapşırıldı. Təəccüblü deyil ki, onların başçılığı dövründə muzeyin milli mütəxəssislərinə qarşı təqiblər başlanmış, onların bir çoxu muzeydən uzaqlaşdırılmışdı. Eyni zamanda, muzeyin Davud bəy Şərifov tərəfindən böyük çətinliklə əldə edilən bir çox dəyərli eksponatları Moskvaya - İnqilab muzeyinə göndərildi və o vaxtdan geri qaytarılmadı. Böyük vətənpərvər alimin on il əvvəl erməni gülləsindən aldığı sağalmaz yaranın üstünə sanki duz tökmüşdülər. Hansı şəraitdə olursa-olsun xalqının tarixini, zəngin mədəni irsini öyrənməyi və onu ictimaiyyətə, xüsusən gənclərə çatdırmağı özünə borc və şərəf işi bilən, möhkəm iradə sahibi Davud bəy Şərifov bundan sonra əsl vətəndaşlıq vəzifəsini müəllimlikdə görmüş oldu. O, Bakının orta məktəblərində coğrafiya və tarix fənlərindən dərs deməyə başladı. Bu şərəfli işi Davud bəy böyük əzmlə ömrünün sonunadək davam etdirdi. Bununla yanaşı, o, vaxtaşırı Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda da çalışırdı. Məlumdur ki, 1944-46-cı illərdə Davud bəy Şərifov Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində etnoqrafiyaya, coğrafiya fakültəsində isə coğrafiyaya aid silsilə mühazirələr oxumuşdu. 1950-ci ildə isə universitetdə coğrafiyadan namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Acı təəssüf hissi ilə onu da qeyd etməliyik ki, ilk elmi fəaliyyətini bilavasitə arxeologiya sahəsində başlayan, gözəl nəticələr və yetkin təcrübə qazanan, adı və əsərləri Azərbaycandan çox-çox uzaqlarda tanınan Davud bəy Şərifov ömrünün son illərində sanki yaddaşlardan silindi və biganəliyin qurbanı oldu. Kamillikdən uzaq, xəbis insanların paxıllığı, istedadlı və işgüzar alimi qarabaqara izlədi...

Yarandığı ilk gündən mədəni-maarif və elmi-tədqiqat mərkəzi kimi fəaliyyətə başlayan Tarix muzeyi Azərbaycan xalqının tarixini əks etdirən maddi sərvətin ekspozisiya və sərgilərdə nümayişi, təbliği, eləcə də onların toplanması, mühafizəsi, tədqiqi və nəşri ilə məşğul idi. Muzeyin fondlarında və əksəri nadir kitablardan ibarət zəngin kitabxanasında 300 mindən artıq maddi abidə qorunur. Bu gün həmin kolleksiya tamaşaçıya və tədqiqatçıya ölkəmizin ən qədim dövrdən bu günədək keçib gəldiyi yolu, xalqımızın keçmişini, məişətini və mədəniyyətini öyrənmək, tariximizlə bağlı istənilən məsələni araşdırmaq imkanı yaradır. Muzeydə aparılan elmi-tədqiqat işləri Azərbaycanda tarix elmini inkişaf etdirməklə yanaşı özünün başlıca vəzifəsini yerinə yetirir, muzeyin simasını-onun ekspozisiyasını formalaşdırır. Müxtəlif ekspedisiyaların nəticələri, gərgin axtarışlardan sonra əldə edilən qiymətli arxeoloji, etnoqrafik, numizmatik, sənədli və əşya tipli materiallar xalqımızın özünəməxsus çoxəsrlik mədəniyyətinə və tarixinə şahidlik edir...

**Aynurə Hacıyeva**

# Soltan Hacıbəyovun kamera musiqisi və mətnşünaslıq problemləri...



SSRİ xalq artisti Soltan Hacıbəyovun yaradıcılığı - XX əsr Azərbaycan musiqi mədəniyyətinin parlaq səhifələrindən biridir. O, görkəmli bəstəkar, pedaqoq, ictimai xadim olmaqla, müxtəlif janrlarda milli musiqinin inkişafında müstəsna rol oynamışdır. Yenilikləri ilə seçilən S.Hacıbəyovun iri həcmli simfonik və musiqili-səhnə əsərləri dəfələrlə tədqiqat obyekti olmuşdur. Lakin kamera musiqisi, ümumiyyətlə, bu sahədə əlyazmaları, demək olar ki, heç araşdırılmayıb. 2019-cu ildə 100 illik yubileyi qeyd olunası sənətkarın yaradıcılığını kompleks şəkildə öyrənmək heç şübhəsiz ki, olduqca vacib və aktual məsələlərdən biridir. Bu, həm sənətkarın fəaliyyəti, həm də Azərbaycan bəstəkar musiqisi haqqında daha dolğun təsəvvür yaratmağa imkan verəcəkdir.

S.Hacıbəyovun not avtoqrafları Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin arxivində qorunub saxlanır və öz bədii-tarixi əhəmiyyətinə görə bu, ən dolğun və vacib arxivdir. Not avtoqrafları bəstəkarın ayrı-ayrı janr və formalarda yazdığı əsərləri əhatə edir. Bunlar müxtəlif növlərə bölünür: kiçik not yazıları, eskizlər, müəllifin axtarışlarını sübuta yetirən əsərlərin fraqmentləri, nəşrə hazırlanan tamamlanmış əsərlər və s. Arxivdə məşhur və repertuar nümunələriylə yanaşı, həm də az ifa olunan və ya tamamilə məlum olmayan nümunələr də vardır. Müxtəlif not əlyazmaları S.Hacıbəyov yaradıcılığının erkən dövründən tutmuş, son dövrünə qədərki yaradıcılıq yolunu izləməyə imkan yaradır. Bu nümunələrin müəyyən bir qismi bəstəkarın çoxsaylı kamera əsərləri sırasındadır. Onların əksəri bu vaxta qədər çap olunmayıb və təhlil edilməyibdir. Bununla əlaqədar olaraq bir çox problemlər hələ də öz həllini gözləyir. Qarşıya çıxan əsas vəzifələrdən biri - əsərlərin yaranış tarixini müəyyən etmək və tədqiqat obyektinə çevirməkdən ibarətdir. Yalnız bundan sonra S.Hacıbəyovun hər bir əsəri ayrılıqda təhlil olunmalı, özündə hansı dövrün əlamətlərini daşıması barədə mülahizələr söylənilməlidir. Əsas etibarilə, bəstəkarın kamera yaradıcılığının özünəməxsusluğu və üslub xüsusiyyətləri müəyyən edilməlidir. S.Hacıbəyova məxsus kamera əsərlərinə aid olunan əlyazmaların kompleks şəkildə araşdırılması - musiqi mətnşünaslığında öz tətbiqini tapmış müxtəlif metodların istifadəsini nəzərdə tutur. Bunların çoxu tarixi, analitik, tipoloji və s. metodlardır.

Musiqi mətnşünaslığı - musiqi elminin böyük və geniş bölümünü əhatə edir. Keçmiş SSRİ-də, Avropa musiqişünaslığından fərqli olaraq, musiqi mətnşünaslığı bir o qədər də inkişaf etməmişdi. Yalnız XX əsrin 60-ci illərindən etibarən bu sahəyə diqqət güclənmiş və bir-birinin ardınca maraqlı tədqiqat əsərləri meydana gəlmişdir. Bu proses ayrı-ayrı respublikalarda, o cümlədən, Azərbaycan musiqi elmində də özünü biruzə vermişdir. Ə. Bədəlbəyli, S.Ağayeva, E.Abasova, Z.Səfərova, Ü.İmanova və başqa musiqişünaslar diqqəti, keçmiş və müasir dövrün elmi risalələrinə, bəstəkar əlyazmalarına yönəltmiş, onları musiqi elminin, musiqişünaslığın obyektinə çevirmişlər. →

Maraqlıdır ki, Azərbaycanda ədəbi mətnşünaslıq musiqi mətnşünaslığı ilə müqayisədə daha sürətlə inkişaf yolu keçibdir. Mütəxəssislər haqlı olaraq qeyd edir ki, "mətnşünaslıqla bağlı tədiqiqatın ... ümumi mahiyyəti mövcuddur, çünki o müəyyən abidənin tarixi-ədəbi taleyini və ədəbi yüksəlişini aşkar edir. Bu funksiyada mətnşünaslıq ədəbi metodun bir hissəsi kimi özünü göstərir"




Mətnşünaslığın dəyəri hamı üçün bəllidir və bununla bağlı problemlər ciddi yanaşma tələb edir. Belə ki, Azərbaycan ənənəvi musiqisində not nümunələrinin çapa hazırlanması milli musiqi mədəniyyəti haqqında təsəvvürün genişlənməsinə, xalqdan gələn musiqi incilərinin itməməsi, tədqiqat obyektinə çevrilməsinə imkan yaradır. Bəstəkar irsinin öyrənilməsi isə bu nümunələrin yaranma tarixi, sənətkarın yaradıcılıq metodu və iş prinsipi, milli bəstəkar musiqisinin təşəkkülü və inkişafı barədə dolğun təsəvvür yaratmış olur.

Tekstoloji təhlilin əsas obyekti, ilk növbədə, bəstəkarın tamamlanmış və yarımçıq qalan əlyazmalarıdır ki, onların əsasında əsərin yaranma prosesini izləmək mümkündür. Təbii ki, çap olunmamış və çap üzü görmüş not nümunələri ilə yanaşı, gündəliklər, xatirələr, proqramlar və s. mənbələr də olduqca vacibdir. Hərdən, musiqi obyektlərini müxtəlif variantlar əsasında öyrənən mütəxəssislər tərəfindən əlyazmalar çapa hazırlanır. Təbii ki, bu zaman bir sıra problemlər üzə çıxır. Belə ki, ayrı-ayrı eskizlər, musiqi parçaları son variantdan uzaq və ya tamamlanmamış ola bilər. Hərdən əlyazmaların tədqiqi hansısa bədii ideyanın yaranması, tədricən formalaşması, eləcə müxtəlif axtarış yollarından soraq verir.

Bəstəkarın əlyazmalarının öyrənilməsi eyni zamanda musiqi təhlilini zənginləşdirir. Bəzi tarixi və nəzəri problemlərin həlli yalnız əlyazmaların tədqiqi vasitəsilə mümkündür. Onlar bir əsərin müxtəlif redaktələri, bəstəkarın musiqi üslubunun inkişafı barədə məlumat verir - tədricən əsərə yeni musiqi epizodlarının daxil olmasını, hansılarınsa yerini dəyişməsi barədə və s. Məsələn, Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası 1907-ci ildə yazılıb. Lakin bəstəkar 30-cu illərin əvvəlinə kimi bu əsəri redaktə etməkdəydi. Müxtəlif variantların müqayisəsi yolu ilə bəstəkarın ayrı-ayrı fikirlərinin, eləcə musiqi təfəkkürünün illər keçdikcə formalaşmasını izləmək mümkündür.

Başqa bir nümunə isə - Ü.Hacıbəylinin "Ər və arvad" musiqili komediyası ilə bağlıdır. Milli operetta janrının klassik nümunələrindən sayılan bu əsəri, Əməkdar incəsənət xadimi S.Fərəcov dahi sənətkarın əlyazmalarını diqqətlə öyrənəndən sonra, ilk dəfə olaraq çapa hazırlamışdır. Təbii ki, belə işlərin dəyəri və mahiyyəti olduqca qiymətlidir.

Bu gün Azərbaycan musiqi elminin əsas vəzifələrindən biri də - adı qızıl hərflərlə musiqi mədəniyyətinə yazılan bəstəkarların əlyazmalarını diqqətlə araşdırmaq və öyrənməkdən ibarətdir. Onlardan biri də yuxarıda dediyimiz kimi məhz Soltan Hacıbəyovdur. Sənətkarın bir çox kamera əsərləri əlyazmaların dəyərli hissəsinə aid oluna bilər. Bu, vokal, violino ilə fortepiano, simli kvartet, fortepiano üçün müəllif işləmələri, xalq havalarının nota köçürmə və işləmələri, mahnılar, eskizlər, fraqmentlər, eləcə də türkmən xalq mahnılarının not yazılarıdır. Təbii ki, bu əsərlərin ayrıca olaraq təhlili bəstəkarın yaradıcılığına yenidən baxmağa, sənətkarı yalnız simfonik, musiqili-səhnə yox, həm də parlaq kamera əsərlərinin müəllifi kimi təqdim etməyə imkan verəcəkdir.

Eyni zamanda, bu əlyazmaların təhlili bəstəkarın yaradıcılıq və sənət yoluna işıq salacaqdır. Belə iş isə olduqca vacibdir, çünki ⟶

müasir dövrdə mütəxəssisləri bədii nəticə ilə yanaşı, yaradıcılıq prosesi də daha çox maraqlandırır. Belə obyektiv xarakter daşıyan "yaradıcılıq laboratoriyası" müəyyən əsərin rüşeymdən, bəzən bir notdan müxtəlif variantlar nəticəsində formalaşmasını göstərir.

Mütəxəssislərin fikrincə, belə olan tərzdə tədqiqatçı üç əsas vəzifə ilə qarşılaşmalı olur: a) əsərin dəqiq mətnini müəyyən etmək; b) onu nəşr etmək məqsədi ilə kodlaşdırmaq; q) eyni zamanda mətnin özünü kodlaşdırmaq.

S.Hacıbəyovun kamera əsərlərini arxivdəki materiallar əsasında öyrənərək, aşağıdakı məsələlərə toxunmağı lazım bilirik:

1. bəstəkarın əlyazmalarını sistemləşdirmək;
2. bütün nümunələri (tamamlanmış və natamam) təhlil etmək;
2. müəyyən əsərləri ayrı-ayrı qaralama və eskizlər əsasında bərpa etmək;
3. miniatürlərin yaranma tarixini müəyyənləşdirmək;
4. kamera əsərlərinin maksimal şəkildə dolğun kataloqunu tərtib etmək;
5. əsərlərin üslub xüsusiyyətlərini müəyyənləşdirmək;
6. bu nümunələr əsasında bəstəkarın yaradıcılıq xüsusiyyətlərini izləmək;
7. bəstəkarın kamera əsərlərini onun ümumi yaradıcılığı kontekstində xarakterizə etmək.

Təbii ki, bu problemlərin həlli olduqca çətindir, çünki Azərbaycan musiqi elmində mətnşünaslıq çox zəif inkişaf edib və onun əsası, demək olar ki, işlənilməyibdir. Bundan əlavə, milli musiqi mədəniyyətimizə aid çoxsaylı materiallar hələ də təqdim olunmamış qalır. Onların bəziləri arxivlərdə, muzey fondlarında, bəziləri isə hələ də şəxsi saxlanclarda qalmaqdadır. Elə nümunələr də var ki, onların harda olduğu indiyəcən məlum deyil.

Ayrı-ayrı təşkilat və muzeylərin mətnşünaslıqla bağlı fəaliyyətini xatırlamaq yerinə düşərdi - Azərbaycan Mədəniyyət Nazirliyi, Respublikanın Milli Arxiv İdarəsi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi və s. Onların səyləri nəticəsində arxivlərdə görkəmli musiqiçilərin əlyazmaları, həyat və fəaliyyətinə aid materiallar toplanmışdır. Bu gün mütəxəssislər həmin tarixi sənədləri araşdıraraq, milli musiqi tarixi, musiqi janrları, ifaçılıq mədəniyyəti və başqa problemlər haqqında dəyərli məlumatlar əldə edirlər. Dövlət təşkilatları həm də müəyyən nümunələri nəşr etdirir. Bununla belə sənədli nəşrlərin sayı olduqca azdır. Hələ də Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, S.Hacıbəyov, Niyazi, T.Quliyev, C.Cahangirov və ümumiyyətlə heç bir görkəmli bəstəkar əsərlərinin tam nəşrinin hələ də işıq üzü görmədiyini qeyd etmək lazımdır. Əlyazmaların, xüsusilə bitkin əsərlərin çapı hər bir cəhətdən elmi (yalnız tarixi yox) tədqiqat üçün vacibdir.

Qeyd edək ki, Azərbaycan mətnşünaslığının əsas problemlərindən biri - hələ də onun nəzəri əsaslarının demək olar ki, yoxluğu ilə bağlıdır. Rus musiqi elmində bu sahə görkəmli alim B.Asafyev tərəfindən işlənməyə başlamışdı. Lakin o da bəllidir ki, B.Asafyev musiqi təhsilindən əlavə, həm də Peterburq universitetində humanitar təhsil almış, tarixi şöbəni bitirmişdi. Eyni zamanda B.Asafyev alimləri, bəstəkarların əlyazmalarını araşdırma predmeti kimi dərk etməyə cağırmış və xüsusi diqqəti "qaralama eskizlər, planlar və işin tərkib hissəsi olan fraqmentləri - yəni müəyyən yaradıcı fikrin təşəkkülünü, inkişafın... sirr və göstəricilərini xüsusi öyrənməyi" məsləhət bilirdi. Təbii ki, görkəmli alimin "çağırışı" olduqca vacibdir, çünki əlyazmalar - tarixin, zamanın, şəxsiyyətin yaradıcılığına ən yaxşı sübutdur. Məhz buna görə də milli mətnşünaslığın əsas vəzifələri sırasında müxtəlif xarakterli materialları (not, konsert proqramları, memuarlar və s.) toplamaq, sistemləşdirmək, musiqi əsərlərini çapa hazırlamaq və s. ön plandadır. Yalnız bu materiallar tam şəkildə toplanıldıqdan sonra bəstəkarın həyat və yaradıcılığı barədə dolğun təsəvvür yaratmaq mümkündür.

Beləliklə, musiqi mətnşünaslığının əsas obyekti - musiqinin mətnidir və mütəxəssis onu öyrənməli, hansı məqsədlə yazıldığını, əvvəllər çap olunub-olunmamasını müəyyən edərək, həmin əsərin tarixçəsini, daha doğrusu, necə deyərlər, "tərcümeyi-halını" yazmaqdır. Belə hərtərəfli tədqiqat işi xalq artisti, görkəmli bəstəkar Soltan Hacıbəyovun yaradıcılığına da aiddir...

**Səməngül Bayramova**

# YAZI-YOZU...



*Dünya zülmətə qərq olsa da, Dahi öz ağlının işığında yazır.*

---

*Dil mədəniyyətin yelkənidir…*

---

*İşlətmədiyimiz sözlər dilimizdən küsür…*

---

*Dəbdə olan bütün "izm"lər əsrin qırıntılarından görən epoxa düzəldə bildimi?*

---

*Dünyada mənasızlıq artdıqca, insanlar daha çox danışır…*

---

*Gəlmə sözlər - legioner kimidi, hər zaman və gözlənilmədən doğma dil ordusuna xəyanət edə bilər.*

***Rahid Ulusel***
***Narın düşüncələr"dən...***



**Mirmehdi Ağaoğlu**

*Ağaoğlu Mirmehdi Mirkazım oğlu 1982-ci ildə Neftçalada anadan olub. 2000-2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində təhsil alıb... Dörd kitab müəllifidir. Onlardan üçü romandır: "Görüş" 2011-də, "Küləyi dişləyən" 2012-də, "Bu gün səbr elə" romanısa 2015-ci ildə çap üzü görüb, "Alman malı" hekayələr kitabı 2016-cı ildə nəşr olunub. Tanınmış amerikan sosioloqu Erik Hofferin "Əsl inamlı" əsərini türkcədən bizim dilə çevirib.*

*Çap üzü görmüş əsərləri istər oxucuların, istərsə kitab müsabiqələrinin diqqətindən yayınmayıb. "Küləyi dişləyən" romanı Milli Kitab Mükafatının qalibləri sırasındadır.*

*2015-ci ildə Yaradıcılıq Fondu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təsis etdiyi "Qur'an motivləri əsasında hekayə" müsabiqəsinin qalibi də Mirmehdi Ağaoğludur.*

*2017-ci ildə Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafat ödülünü də o qazanıb.*

*Ədəbi-publisistik fəaliyyətinə görə 2017-ci ildə "Ədəbiyyat qəzeti"nin təsis etdiyi "Əli bəy Hüseynzadə" mükafatına layiq görülüb.*

*Mirmehdi Ağaoğlunun "85-ci gün" hekayəsi İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun 2017-ci ildə İranın Şiraz şəhərində keçirdiyi Birinci Qısa hekayələr müsabiqəsində də qalib sayılıb.*

# ÜÇÜNCÜ...

**Birpərdəli pyes**

**İştirak edirlər:**

**Rüfət** - ər
**Kifayət** - Rüfətin həyat yoldaşı
**Tomris** - Rüfətlə Kifayətin qızı, 8 yaşında
**Turqut** - Rüfətlə Kifayətin oğlu, 3 yaşında
**Calal** - Rüfətin xalası oğlu
**Gülşən** - Calalın həyat yoldaşı
**Həsən** - Calalla Gülşənin oğlu, 1 yaşında
**Seva** - Rüfətin internetdə tanış olduğu qadın
**Ofisiant**

*Axşam vaxtı. Mənzil. Kifayət göyərti arıtlayır, həm də Tomrisdən dərsini soruşur. Turqut yerdə oturub telefonla başını qatır. Rüfət isə divana yayxanıb. O, da telefonla məşğuldur.*

**Tomris** *(oxuduğu dərsi danışmağa çalışır).* İnsanlar öz əməklərini yüngülləşdirmək və daha səmərəli etmək üçün zaman-zaman müxtəlif alətlər, qurğular düzəltmişlər. Bu alətlərin (pauza) bir qrupunu hesablama alətləri təşkil edir. Eeee. Onların ən mükəmməli kompüterdir. Kompüter...

**Kifayət** *(əsəbi).* Neçə dəfə sənə demişəm, kitabda oxuduqlarını sözbəsöz danışmaq lazım deyil. Çalış öz sözlərinlə söylə.

**Tomris.** Yaxşı.

**Kifayət.** "Yaxşı" deyirsən, amma yenə öz bildiyini edirsən. Danış.

*Ayağa durub mətbəxə keçir.*

**Tomris.** İnsanlar öz əməklərini yüngülləşdirmək və daha səmərəli etmək üçün zaman-zaman müxtəlif alətlər, qurğular düzəltmişlər...

**Kifayət** *(mətbəxdən səsi gəlir).* Yenə əzbərdən danışır e. Rüfət, ona başa sal da!

**Rüfət** *(başını telefondan qaldırmadan).* Qızım, kitabdakıları əzbərləməyə ehtiyac yoxdur. Nə yadında qalıbsa, onu danış.

**Kifayət** *(otağa gələ-gələ, əlində bıçaq və boşqab dolusu pomidor-xiyar var).* Atanın kompüteri nələrdən ibarətdir?

**Tomris** *(qorxa-qorxa).* Notbuuk...

**Kifayət** *(əsəbi).* Hissələri say!

**Tomris.** Qapaq... Barmaq... gəzdirən...

**Kifayət.** Rüfət, gülmə, kömək elə. Bunu da mən öyrədim?

**Rüfət** *(telefonu kənara qoyur).* Qızım, qulaq as. Kompüterlərin formaları fərqli olsa da içləri eynidir. Bayaq adlarını çəkdiyin detallar var ha, bütün növ kompüterlərdə olur. Notbukda da monitor, klaviatura mövcuddur. Notbuklarda adətən mışka olmur, "barmaq gəzdirən" deyirdin ha, bax o mışkanı əvəz edir. İndi kompüterin hissələrini say görüm.

→

**Tomris.** Monitor, printer, klaviatura, səsucaldan...

**Rüfət.** Ay sağ ol. Bəs informasiya kompüterin harasında saxlanılır?

**Tomris.** İnformasiya? *(Pauza.)* Kompüterdə informasiya yaddaş qurğularında saxlanılır. Onlar sərt diskdən, Ram-dan, fləş-diskdən, optik diskdən ibarətdir.

**Rüfət.** Afərin. Kompüterin funksiyası nədir?

***Tomris.*** Kompüter... ona verilən informasiyanı emal edir. Eee, nəticəni.... (Rüfətin fikri artıq qızında deyil, yenətelefonu götürüb.) yaddaşda saxlayır, lazım olduqda çıxışa verir. Buna görə də kompüter...

**Kifayət.** Yenə əzbərdən deyir. Söz qanmır ki!!. *(Stolun üstündəki kitaba boylanır.)* Bəs giriş qurğuları nədir?

**Tomris** *(barmaqlarını həyəcanla ovuşdurur)*. Giriş qurğuları... səsucaldan...

**Kifayət** *(əsəbi)*. Yox. Mikrofon!

**Tomris.** Hə, mikrofon, kamera. Sonra...

**Kifayət** *(Rüfətə baxaraq)*. Bəs, insanın duyğu üzvləri ilə kompüterin hissələri arasında hansı əlaqə var?

**Tomris.** Biz gözümüzlə monitora baxır....

**Kifayət.** Baxır yox e, zilləyirik. *(Tomris susur.)* Sonra nəyə baxırıq? *(Tomris yenə susur.)* Telefona! Gözümüzü telefondan çəkmirik, işdən gələndən sonra da telefondan qopmuruq!.. Rüfət?.. Gözümüz telefonda, kompüterdə olur. Ailəmizi, uşaqlarımızı unudub o çər dəymişin içindəkilərlə danışırıq. Sonra neynirik? Rüfət!

**Rüfət** *(laqeydliklə)*. Hə.

**Kifayət.** Yenə gözünü zillədin telefona, bəlkə onu bir dəqiqəlik kənara qoyub uşağın dərsləri ilə məşğul olasan? Mən çatdıra bilmirəm. İşlər tökülüb qalıb. Salat hazırlayım, yeməyə baxım, yoxsa Tomrisin dərsləri ilə maraqlanım?Bir azdan da Calalgil gələcək. *(Ayağa durur)*. Mən hansını çatdırım? Qopmusan e bizdən. Qoy da onu kənara!

**Rüfət** *(gözünü telefondan çəkmədən)*. Nolub axı? Uşaq öyrənib də dərsini.

**Kifayət** *(əsəbi)*. Dərsi bəyəm təkcə budur? Hələ Azərbaycan dili, riyaziyyat qalıb. Calalgil gələndən sonra da başı qarışacaq, heç nə oxumayacaq. *(Rüfət reaksiya vermir.)* Qoy kənara telefonu! Nə görmüsən ordakılarda?

**Tomris.** Ana, elə sən də axır vaxtlar telefondan qopmursan da. Ata gələnə kimi telefonda yazışırsan.

**Rüfət.** Nə?

**Kifayət.** Kəs səsini, küçük. Uşaqsan, qaxıl otur uşaq yerində. Böyüklərin işinə də qarışma!

**Rüfət** *(acıqlı)*. Qızım düz deyir də! Neynirsən telefonda?

**Kifayət** Neynicəəm,şagirdlərimin valideynləri Vatsapda qrup yaradıblar. Orda danışırıq. Dərslərini başa salıram. *(Səsinin tonunu dəyişir.)* Yaxşı deyiblər e, oğru elə bağırdı, doğrunun bağrı yarıldı! Bəs sən neynirsən? Onu de!

**Rüfət.** Xəbərlərə baxıram.

**Kifayət** Xəbərlərə baxıram, xəbərlərə baxıram. Adam nə qədər xəbərlərə baxar? Allah bilir, orda kimlərnən danışırsan?!

**Rüfət** *(başını qaldırır)*. Nə çərənləyirsən? Kimnən danışasıyam?

**Kifayət** *(qayıdır)*. Özün yaxşı bilirsən kimnən! İnbokslarda kimə ürək göndərdiyindən xəbərim var! Bir dəfə o ləçərlərdən biri skrin edib yazışmalarını paylaşacaq, onda deyəcəm sənə! El içində biabır olacaqsan!

**Rüfət** *(telefonu kənara qoyur)*. Ayıbdı! Uşaqların yanında ağzına gələni danışma!

**Kifayət.** Nədi, gözəlçələrinə ləçər deməyim acığına gəldi?

**Rüfət.** Utanmaz! Qadınlığından utanmırsan-utanmırsan, heç olmasa qızından utan! *(Tomris başını aşağı salıb ağlamsınır, Turqut heç nəyə fikir vermir.)*

**Kifayət.** Məndə qadınlıq qoymusan?! Axırıncı dəfə nə vaxt mənə nəvazişlə yanaşmısan, bir xoş söz demisən? *(Ağlamsınır.)*

**Rüfət.** Yaxşı. Ağlama. İndi qonaqlar da gələcək.

**Kifayət** *(əsəbi)*. Cəhənnəmə gəlsinlər! Mən sənin üçün elə yemək bişirməyə, qonaq qarşılamağa, uşağa baxmağa yarayıram. Bir dəfə fikirləşməzsən ki, Kifayət də qadındır, onun da... Bir xoş söz deyim, başına sığal çəkim. Amma inboksdakılara... "Canım"ın, "əzizim"in sayı-hesabı yoxdur.

**Rüfət.** Ağzına gələni danışma! Heç kəslə yazışmıram. İnanmırsan, buyur bax. *(Telefonu uzadır.)*

**Kifayət.** Lazım deyil. Mən yaxşı bilirəm kimnən danışdığını. Evin içində qaradinməzdi, amma internetdə yadlarla toy-büsat qurur. Məsləhət verir, dərdi-sər eləyir. Belə dərd dinləyənsən, uşağının dərsini dinlə də. Bəlkə bir dəfə qızının dərsləri ilə maraqlanasan?

**Rüfət.** Maraqlanmıram? Niyə ədalətsizlik edirsən?

**Kifayət.** Maraqlanırsan! Ancaq Kifayət deyəndən sonra! *(Təzədən mətbəxə keçir. Ucadan.)* Balam, evlənmək istəmirdin, bunu vaxtında deyərdin, biz də işimizi bilərdik də. Ta iki uşağı niyə əkirdin? *(Tomris gah atasına, gah da mətbəxə sarı baxır.)* Elə bil on beş yaşında oğlandır. Bütün günü telefondan asılıb qalır. Nəgörmüsən axı orda? *(Pauza.)* Bircə biləm də hansı qancıqla danışırsan orda?!

*Qapının zəngi çalınır.*

**Kifayət** *(qayıdır)*. Qohumların gəldi. Yenə gecə birə-ikiyə kimi yeyib içəcəklər, Kifayət də yığışdıracaq. Qonaqlar gedəndən sonra da bəyəfəndi keçəcək kompüterin arxasına. Səhərə qədər orda çatdaşacaq. Adı da olacaq ki, iş görür, biznes-plan hazırlayır.

**Rüfət** *(ayağa qalxır)*. Yaxşı, bəsdir. Çərənləmə! Calalgil gəldi. Onların da yanında ağzına gələni deyərsən, biabır olarıq.

---

**Rüfət.** Necəsiz, işlər necədir? Danış görək, Calal?

**Calal.** İşlərdi də. Mərdəkanda götürdüyümüz mağazanı təhfil verdik.

**Rüfət.** Nöşün?

**Calal.** Saxlaya bilmədim. Gündə on nəfər alverə gələ, ya gəlməyə.

**Rüfət.** Demişdim də. Gedib dünyanın axırında yer götürərsən elə olar. A kişi, dörd il nahaq yerə iqtisadiyyat oxumamışam. Sənə xəbərdarlıq elədim ki, orda market icarəyə götürmək rentabelli deyil.

**Kifayət.** Yeriniz hardaydı ki, Calal?

**Rüfət.** Mən orda balaca bir butka açsaydım, üç ay dəniz mövsümündə sizin qazandığınızın beş qatını qazanardım.

**Kifayət** *(bir az acıqlı)*. Sənin də dükan işlətməyini çox görmüşük, az öyün.

**Rüfət.** Aha, Şikayət xanım yenə başladı.

**Kifayət.** Düz deyirəm də, Dərnəgüldə qapı-pəncərə sexi açdın, batdı. Tarqovıda restoran götürdün, heç iki ay işləmədi, bütün günü dostların müftə yeyib-içdilər, nisyələri indiyə kimi yığıb qurtara bilməmisən. Ərzaq mağazası açdın, mallar üstündə qaldı. Hansı birini deyim? Telefon dükanı açdın...

**Rüfət.** Onda da mən təqsirkaram? Yardılar da.

**Kifayət.** Kamera qoyardın!... Nəsə.

**Calal.** Yaxşı,bəsdirin. Dava salmaq üçün bizi gözləyirdiz? Bax, xalagəlini səni döysə ayıran deyiləm. *(Gülür.)*

**Rüfət.** O döyər, inanıram.

**Kifayət.** Düz deyirəm də, bilmirəm nə görmüsən xüsusi biznesdə. Gül kimi dövlət idarəsində çalışırsan, otur mühasibliyini elə. İndi də təzə biznes-plan yazır, gecəmiz-gündüzümüz yoxdur.

→

**Calal.** Nə barədədir biznes-planın?
**Rüfət.** Kiçik biznesin inkişafı barədə. Sahibkarlıq fonduna təqdim edəcəm.
**Calal.** Biznes-planı keçirmək üçün orda tanışın var?
**Rüfət.** Uzun məsələdir e, sonra danışarıq. Sən de görüm mağazadakı malların axırı noldu?Hara təhvil verdiz?
**Calal.** Elə malqarışıq verdik "Rahat" marketlər şəbəkəsinə.
**Rüfət.** Heç "Rahat" da o tərəfdə market işlədə bilməz. Batıracaqlar, görəssən.
**Kifayət.** Calal, heç demədin axı, hansı tərəfdəydi, market? Gülşən, sən oranı görmüşdün?
**Gülşən.** Yox, vallah. O marketə görə bu yay heç Calalın da üzünü düz-əməlli görməmişəm. Səhər tezdən çıxıb bir də gecəyarı gəlirdi.
**Calal.** Mərdəkanda, bağlar tərəfdəydi, Kifayət.
**Kifayət.** Dəniz tərəfdə?
**Calal.** Yox, əksinə Mərdəkanın içinə doğru.
**Kifayət.** Adam yaşamır ki, orda. Rüfət, biz yayda dənizə gedəndə o tərəflərdən keçmişik?.. Yenə öz aləmindədi. Girdi telefonun içinə. Gülşən, keç süfrə başına.
**Gülşən.** Bu dəqiqə. Bağışla sən Allah, süfrəni hazırlamaqda kömək edə bilmədim. *(Körpəsini oynadır.)* Balam imkan verir ki.
**Kifayət.** Doğrudan e, işdən başım açılmır uşağı soruşum. Necədi indi, həkim nə dedi?
**Gülşən** Həkim deyir körpə vaxtı uşaqlarda timus olur. Sadəcə soyuqdan qorumaq lazımdır, böyüdükcə keçib gedəcək.
**Calal.** Ay xala oğlu!
**Rüfət** *(telefona baxır, laqeydcəsinə)*. Hə.
**Calal.** Nə var, nə yox e?
**Rüfət** *(nəsə yazır)*. Bir dəqiqə, xala oğlu.
**Calal** *(istehza ilə)*. İşində ol, işində ol. Onsuz sənlə deyiləm, Turqutlayam. Necəsən, xala oğlu?.. Ay Turqut, ayə, xala oğlu?
**Gülşən** *(nəvazişlə)*. Turqut "Maşa Medved"ə baxır, əmisi.
**Calal.** İşində ol bala, sən də işində ol. Ata-bala heç kəsə qoz qoymursuz... Arvad, gəl ikimiz söhbət eləyək. Nətərsən e?
**Gülşən.** Gəl otur sən də, Kifayət, daşıyıb-tökmə, hər şey yaxşıdır.
**Kifayət.** Gəldim, bacı, gəldim. Turqut da dədəsinə çəkib, əmisi. *(Eyhamla danışır, qaş-gözlə Rüfətin telefonuna işarə edir.)* Ordakılar bizdən vacibdir axı.
**Rüfət.** Facebookda vacib bir paylaşım elədim, bağışlayın.
**Kifayət.** Turqutun nə iş gördüyün bilirəm, əmisi, "Maşayla Medved"ə baxır. Bəs bu Rüfətin nə işi var e telefonda?
**Rüfət** Rüfətin nə işi var, Rüfətin nə işi var? Paylaşım edirdim. İnanmırsan, buyur, bax!
**Kifayət** *(oturur)*. Lazım deyil mənə.
**Gülşən.** Deyir "Maşayla Medved" uşaqlara zərərdir, onları aqressivləşdirir. O gün internetdə oxudum.
**Kifayət.** Sən də? *(Gülür.)*
**Rüfət.** Adi multfilmdir də. Harda yazılıb?Hər yazılana fikir verməyin, kimin ağlına nə gəlir, yazır. İnternet zibil qutusu kimidir, nadir hallarda içindən fərli şey çıxır.
**Kifayət.** İlahi, bu sözləri internetdə yatıb-duran adam deyir!
**Tomris.** Ata, mən baxmıram.
**Gülşən.** Ay qız, Həsənin əlindən imkanım olur? Uşağı yatızdıranda başımı qatmaq üçün bir-iki dəqiqəlik İnstagrama-zada göz atıram, vəssəlam. →

**Calal** *(yarı zarafatla)*. Arvad, çaşıb orda kimnənsə danışarsan a?
**Gülşən** *(utanır)*. Calal, ayıbdı.

**Rüfət.** Yaxşı, bismillah eləyin. Başla, xala oğlu. *(Araq şüşəsinin qapağını açır.)*

**Calal.** Bıy, xala oğlu. Burdaymışsan ki.

**Rüfət.** Sənin də bu duzsuz zarafatların olmaya da. Rumkanı bəri ver görüm.

**Calal.** Mən içmirəm, maşınlayam.

**Rüfət.** Heç nə olmaz, "Ayıq sürücü" çağırarıq. *(Qədəhlərə araq süzür.)* Gərək qadınlara şərab alardıq. Heyf.

**Kifayət.** Telefondan başını qaldırsaydın, alardın. Bayaq yadına salmışdım.

**Gülşən.** Mən içmirəm.

**Calal.** Gedim alım?

**Kifayət.** Yox, mən də istəmirəm. Qalsın. Yenə Gülşən içsəydi, ona yoldaşlıq elərdim. Turqut, telefonu qoy kənara, gəl süfrəyə.

**Gülşən.** Özün bilirsən də uşaq...

**Rüfət** Yaxşı, xala oğlu, xoş gəlmisiniz, həmişə siz gələsiz.

**Calal.** Sağ ol.

---

**Calal.** Xala oğlu, neynirsən e, o telefonda?

**Rüfət.** Heç.

**Calal.** Necə yəni heç? Başını telefondan qaldırıb kəlmə kəsmirsən.

**Rüfət.** Xala oğlu, bir dənə qız tutmuşam. Dünya gözəli.

**Calal.** Hardan tutmusan?

**Rüfət.** Facebookdan.

**Calal.** Deyirlər, İnstagramda babat şeylər olur. Mən orda aktivəm.

**Rüfət** *(yenə otağa boylanır)*. Mənimki Facebookdu. Bir dənə status yazıram. Sonra baxıram görüm layk qoyan, şərh yazan qadınların içində dişəbatan kim var? Sonra da inboksda girişirəm.

**Calal.** Afərin.

**Rüfət.** Sən İnstagramda neyləyirsən? Bir şey olur?

**Calal.** Yox e, mənimki ancaq şəkillərdi... Göstər görüm.

**Rüfət.** Bir dənə şəkil atıb. Orda da saçları üzünə düşüb sifəti görünmür. Amma bir fiqurası var, gəl görəsən.

**Calal** *(ucadan)*. Göstər baxım da!

**Rüfət.** Bir az asta danış. Kifayətgil eşidəcək.

**Calal.** Mətbəxdədirər, eşitməzlər. Şəklini göstər baxım... Noldun?

**Rüfət.** Səbrin olsun.

**Calal.** Bunun üzü görünmür ki?!

**Rüfət.** Sən də tormozsan e! İndicə demədim, şəkildə üzü düşməyib?

**Calal.** Birdən saxta profil olar. Özüm ölüm şəkli internetdən götürüb.

**Rüfət.** Nə danışırsan! Saxta profil deyil. İki həftədi danışıram.

**Calal.** Bayaqdan onunla yazışırsan?
**Rüfət.** Yox. Yazıram, cavab vermir. Əri evdədi yəqin.
**Calal.** Pay anasını...Ərdədi?
**Rüfət** *(qımışır)*. Hə.
**Calal.** Adı nədir?
**Rüfət.** Seva. Adətən gündüz vaxtı yazışırıq, bir də gecə. Əri yatandan sonra.
**Calal.** Xala oğlu, özünü zibilə salacaqsan. Bax, məndən deməк.
**Rüfət.** Tapşırmışam, yazışandan sonra inboksu silir ki, heç nə qalmasın.
**Calal.** Birdən sən yazdığın vaxt telefon ərində oldu?
**Rüfət.** Deyir, yoldaşımla münasibətim heç yoxdur. Telefonuma da baxmır.
**Calal.** Evində nə olur, nə olmur, hamısını sənə danışıb ki?!
**Rüfət.** Eh, sən bir bilsən, biz onunla nələr danışmışıq, nələr? *(Gülür, başını bulayır.)*
**Calal.** Yenə də ehtiyatlı ol.
**Rüfət.** Narahat olma. Bayaqdan yazmışam. Hələ girməyib. Yəqin əri işdən gəlib.
**Calal.** Nə qadınlar var, ilahi!
**Rüfət.** Bu həftəsonu görüşməliyik.
**Calal.** Evdə?
**Rüfət.** Yox.
**Calal.** Oteldə?
**Rüfət.** Otelə aparası qadınlardan deyil. Deyir əvvəl bir kafedə filan görüşək. Bir-birimizi həyatda görək, növbəti dəfə evə gedərik.
**Calal.** Dəlisən? Birdən əri üstünə gəlib çıxdı, neyləyəssən?
**Rüfət.** Əri biznesmendi, tez-tez rayonlara gedir. O, Bakıda olmayanda görüşmək fikrindəyik. Sən narahat olma, hər şeyi düzüb-qoşmuşuq.
**Calal.** Uşağı-zadı var?
**Rüfət.** Bir qızı var. Beş yaşında.
**Calal.** Sevişəcəksiz?
**Rüfət.** Görək də... Razılaşmışıq. Dünən yazıb ki,səni arzulayıram. Səhərə qədər danışdıq. Bu dəfə elə-belə, kafedə görüşəcəyik. Növbətidə isə “böyük buluşma” olacaq. *(Otağa boylanır, sonra şaqqanaq çəkib gülür.)* Qaqan, gör neyləyəcək e!
**Calal.** Sən internetdə qızlarla yazışanda Kifayət harda olur?
**Rüfət.** Harda olacaq, yeddinci yuxuda. *(Gülür.)*
**Calal.** Kifatət də elə bilir sən biznes-plan yazırsan, iş qurursan.
**Rüfət.** Neyləyim e, arada biznes-plan da yazıram.
**Calal.** Xalagəlinini üzmə, yekə kişisən.
**Rüfət.** Bəsdir, Şikayət xanımlıq eləmə.
**Calal.** Məndən demək, o qadın kimdirsə qanına susayıb. Saytları oxuyursan, hər gün bir namus cinayəti baş verir. Ağzında “əri biznesmendir” deyirsən. Demək, imkanlı adamdır. Əli uzundur. Bəlkə arvadının telefonuna gizli proqram yazdırıb, nə hoqqa çıxardığını bilir?
**Rüfət.** İnanmıram.

**Kifayət** Rüfət, Calal, gəlin çay için.

**Rüfət.** Gəldik-gəldik.

**Calal.** Yenə özün bilən məsləhətdir, amma deyim ki, bunun adı oğraşlıqdır. Allah eləməmiş, bu məsələ üzə çıxsa, nəsə olsa, nə mən, nə də bir başqası səni müdafiə edə biləcək.

**Rüfət** Yaxşı da, xala oğlu. Mənim təqsirim nədir, qadın görüşmək istəyir. Rədd edim, dalımca desin impotentdir?

**Kifayət** Çaylar soyuyur.

**Calal.** Məndən demək. Özün bilərsən.

**Rüfət** Gəldik. Çaşıb ağzından bir söz qaçırarsan ha?!

**Calal.** Uşağam?!

**Turqut** *(balkonun qapısını açıb)*. Ata, ana diyi, çayla soyuyu.

**Rüfət.** Keç içəri, gəlirik. Gedək, Calal.

---

**Gülşən.** Ay bacı, rayondakı hadisədən xəbərin oldu da?

**Kifayət.** Hansını deyirsən?

**Gülşən.** Bir gəlin yoldaşının əmisi oğlu ilə qoşulub qaçıb.

**Kifayət.** Eşitdim.

**Gülşən.** Videonu da gördün?

**Kifayət.** Sən də bekarsan e. Videoya baxmağa vaxtın olur.

**Gülşən.** İnanırsan, uşaq vaxtımı da əmir. Ev işləri də bir tərəfdən. Həsəni yatızdıranda İnstagramda nə baxdım, baxdım.

**Kifayət.** Eh, sən də vaxtdan şikayətlənirsən, ay bacı? Bəs mən yazıq neyniyim?

**Gülşən.** Sənin işin lap ağırdır... Rüfətlə aran necədir?

**Kifayət** ...Bildiyin kimi... Sözün yarımçıq qaldı.

**Gülşən.** Onu deyirdim axı. O gəlinin də iki uşağı varmış. Qoşulub qaçıb. Deyir, məni məcbur ərə vermişdilər. Ömrümdə bir dəfə sevdim. Xoşbəxt olmaq istədim, ona görə də qoşulub qaçdım. İki uşaqla. Bunun başı xarabdır, vallah.

**Kifayət.** Qınama. Yazıq neyləsin? Yəqin sevib.

**Gülşən.** Qələt eləyib. İki uşaqla da adam sevərlər? Belə sevən idisə ərini sevərdi.

**Kifayət.** Ay Gülşən, indi heç sevib ərə gedənlər xoşbəxt ola bilmir. O bədbəxtin qızı neyləsin?

**Gülşən.** Hamını pozan bu telefonlardır.

**Kifayət.** Bax, onu düz deyirsən.

**Gülşən.** Hərə orda birini tapıb laqqırtı vurur, əxlaqsız şeylər yazırlar.

**Kifayət.** Sən də az bilmirsən. *(Gülür.)*

**Gülşən.** Ay qız, bəsdi. Calal eşidər, öldürər məni.

**Kifayət.** Mən Facebooku da bağlamışam. Heç hara da girmirəm.

**Gülşən.** Sən girmirsən, əvəzinə Rüfət qardaş nə vaxt baxırsan onlayndı.

**Kifayət.** Gülmə. Nə billah edirəm telefondan əl çəkmir. Elə ki, deyinirəm, dava salıram, bir-iki gün sakitləşir, telefonu qırağa qoyur, vaxtında yatır, vaxtında durur. Üçüncü gün yenə olur köhnə Rüfət! →

**Calal** Gülşən, çənən çıxmasın. Az danış orda. Gəl uşağa bax

**Gülşən.** Gəldim, gəldim, mən də bir dəqiqə dincəlim də.

**Calal** Gəl, gör nə istəyir, sonra yenə əngə verərsən.

**Gülşən.** Ata-bala çay içməyə də qoymazsız.

**Kifayət.** Tomris, uşağı gətir bura.

**Gülşən** *(çay fincanını başına çəkir)*. Yox, özüm gedirəm. Bəlkə Rüfətin həyatında başqası var? Bu interneti bilmirsən, əxlaqsız qadınlarla doludur.

**Calal** Gülşən!

**Gülşən.** Gəldim-gəldim. Tomris, qızım, uşağı gətir bura.

**Kifayət.** Bilmirəm ki, bəlkə də qadınla danışır.

**Gülşən.** Sən bir Rüfətin telefonunu yoxla.

**Calal** Gülşən! Gəl, uşağa bax. "Ayıq sürücü"nü də çağırdım. İndilərdə çatar.

**Kifayət.** Calal, gedərsiz də. Oturmusuz.

**Calal** Yox e, səhər tezdən durmalıyam.

**Gülşən** Dediyim kimi sən Rüfətin telefonunu yoxla. Bilmək olmaz, bəlkə o da birini tapıb?

**Kifayət.** Nə bilim...

**Calal** Gülşən!

**Gülşən** Gəldim...

---

*Gecə. Yataq otağı. Kifayət taxta uzanıb telefonda nəsə yazır. Səhnənin digər tərəfində Rüfət kompüterin qabağındadır. Burdakı danışıqlar səslənə də bilər.*

**Rüfət.** Axşamdan sənin mesajını gözləyirəm. Hardasan?

**Seva.** Yoldaşım evdəydi, yaza bilmirdim.

**Rüfət.** Bəs indi hardadır?

**Seva.** Yatıb.

**Rüfət.** Hmm. Darıxmışdım səndən ötrü, canım.

**Seva.** Mən də, əzizim.

**Rüfət.** Bilsən səni necə səbrsizliklə gözləyirdim.

**Seva.** Mən də. Uşaqları yatızdırdım, gözlədim, yoldaşım da yatsın.

**Rüfət.** İndi neynirsən?

**Seva.** Heç, oturmuşam divanda.

**Rüfət.** Əynində nə var?

**Kifayət** *(yataq otağından səslənir)*. Rüfət?

**Rüfət** Hə?

**Seva.** Kombinasiya.

**Kifayət** *(yataq otağından səslənir)*. Yatmırsan?

**Rüfət** *(Kifayətə, ucadan)*. Sən yat, mənim hələ bir az işim var, onu bitirim, yatacam.

→

**Kifayət.** O işi səhər də görərsən, gəl yat. Gecdi. Sabah yuxudan dura bilməzsən.
**Rüfət** *(Kifayətə, ucadan)*. Gəlirəm. Darıxma. *(Yazır.)*
**Kifayət.** Rüfət!
**Rüfət** Nə var?
**Kifayət** *(yataq otağından səslənir)*. Deyirəm bəlkə gələsən bir yerdə kinoya baxaq?
**Rüfət.** *(Kifayətə, ucadan.)* Mən yorulmuşam, səni necə, o seriallar yormadı?
**Kifayət** *(qapı ağzında görünür.)* Rüfət?
**Rüfət** *(Kifayətə tərəf baxmadan.)* Hə?
**Kifayət.** İçkilisən, sərxoş başla biznes-plan yazası deyilsən ki, gəl yataq.
**Rüfət.** Yox, yazıram. Birinci dəfədi bəyəm?
**Kifayət.** Onsuz da sən içəndə əlindən heç nə gəlmir... *(ciddiləşir)* Yaxşı, bəs kimiynən yazışırsan?
**Rüfət.** Nə?
**Kifayət.** Soruşuram kimnən yazışırdın?
**Rüfət.** Ürəyin istəyir, buyur gəl, yoxla.
**Kifayət.** Kimlə istəyirsən, yazış. Nə vecimə.
**Rüfət.** Dedim axı, heç kəslə yazmışmıram.
**Kifayət.** Yaxşı-yaxşı.
**Rüfət.** Gəlim filmə baxaq?
**Kifayət.** Yox, daha gecədən keçib. Yatıram...

*Rüfət yenə telefondadır.*

**Seva.** Rüfət, bu gün heç kefim yoxdur, yataq.
**Rüfət.** Arvadım oyanmışdı, ona görə yaza bilmədim.
**Seva.** Səni çağırırsa get də...
**Rüfət.** Çağırırdı. Dedim biznes-plan yazıram.
**Seva.** Çağırırsa get. Biz düz iş tutmuruq, Rüfət. İkimiz də günaha batırıq.
**Rüfət.** Gözlərini yum, məni düşün. Getdi yatmağa.Əlim budunun üstü ilə asta-asta...
**Seva.** Məni dəli eləmə... Tez elə, ərim oyanıb məni çağıracaq.
**Rüfət** *(ucadan)*. Kifayət, yatdın?
**Kifayət.** Hmmm.
**Rüfət.** Kaş səninlə həyatda da bu cür, Sevam... Həftə sonunu iplə çəkirəm.
**Seva** *(pıçıltıyla)*. Tələsmə, özün bilirsən ki, bizim görüşümüz ərimin işlərindən asılıdır.
**Rüfət.** Üçcə gün qalıb, offf.
**Seva.** Darıxma da, hələ üç gün var. Bəlkə o vaxta öldüm.
**Rüfət.** Ölsün səni istəməyənlər...
**Seva.** Davam elə...
**Rüfət.** Yaxşı...

**Rüfət.** İki saat sonra görüşürük.
**Calal.** Harda?
**Rüfət.** Burda yox, başqa kafedə.
**Calal.** Bəlkə evə aparasan?
**Rüfət.** Razı olmur. Deyir əvvəl elə-belə görüşək.
**Calal.** Xala oğlu, bax ha. Ehtiyatlı ol. Əri, ya qohum-əqrəbasından kimsə görər, böyük biabırçılıq olar. Eşidirsən də, gündə bir hadisə baş verir.
**Rüfət.** Sevda elələrindən deyil.
**Calal.** Nə bilirsən?
**Rüfət.** Bilirəm də...
**Calal.** Üzünü görmüsən?
**Rüfət.** Yox.
**Calal.** Səsini eşitmisən?
**Rüfət** Bu gün üzünü də görəcəm, səsini də eşidəcəm.
**Calal.** Bəlkə manyakın biridir? Allah bilir əri ilə nə problemi var, səni də salıb ortalığa.
**Rüfət.** Yaxşı görək. Mən də uşağam axı. Ağzımda deyirəm ki, bişib. O gün siz gedəndən sonra səhərə qədər söhbət eləmişik. Mənə hər şeyi danışıb.
**Calal.** Nəyi danışıb?
**Rüfət.** Əri ilə münasibətini. Bəlkə aylarla yaxınlıq eləmirlər. Allahın hər günü savaşırlar.
**Calal.** Bundan sənə nə?
**Rüfət.** Lap molla olub getmisən e.
**Calal.** Sadəcə sənə görə narahatam. Guya sənin Kifayətlə münasibətin nə yerdədi? Gündə dalaşmırsız?
**Rüfət.** Kifayətin dərdi başqadır. Ona nə qədər şəfqət göstərirsən, yenə deyir azdır.
**Calal.** Nə bilirsən, bəlkə sənin Sevandır, Sevdandır, hər nə zibildir, o da ərindən nahaq yerə şikayətlənir? Bəlkə onun əri də elə sənin kimi günahsızdır?
**Rüfət** Eeey, ağzının danışığını bil a! Nəyə işarə vurursan? Səni bura başıma dargalıq eləməyə çağırmamışam.
**Calal.** Yaxşı-yaxşı, özündən çıxma. Sözünü de.
**Rüfət.** Daha heç nə!
**Calal.** De.
**Rüfət.** Bir-iki saatlıq maşın lazımdır. Axşam qaytaracam.
**Calal.** Nədir, yalandan demisən ki, maşınım var?
**Rüfət.** Səndən ötəri yeniyetməyəm bəyəm, qıza deyim ki, bağ belə, bostan elə? Sadəcə yola gəlsə, dəniz qırağına gəzməyə gedəcəyik. Orda da...
**Calal.** Maşında yox!
**Rüfət.** Narahat olma.
**Calal.** Al bu da açar. Kifayət bacı bilsə, məni də dəftərdən silər.
**Rüfət.** Narahat olma, axşam evə çatan kimi deyəcəm ki, Calal maşınını verdi, Sevanı dəniz qırağına bazlığa apardım.
**Calal.** Duzsuz.
**Rüfət.** Kimin xalası oğluyam? (Gülür.) Duraq?
**Calal.** Duraq da! Onda məni apar işin yanına at, ordan get.
**Rüfət.** Olar, xalamın əziz-giramisi, olar...

*Kafe. Rüfət lap küncdə oturub.*

**Kifayət.** Xoş gördük!
**Rüfət.** Kifayət?
**Kifayət.** Gözləmirdin?
**Rüfət.** Sən burda neynirsən?
**Kifayət.** Nədir, yoxsa başqasını gözləyirdin?
**Rüfət.** Hə...
**Kifayət.** Kimi? Bəlkə mən də oturum?.. Demədin axı, kimi gözlüyürsən?
**Rüfət.** İşnən bağlı. Bir... Bir nəfər var, onnan təzə biznes-plana baxacağıq...
**Kifayət.** Lap yaxşı. Onda sizə mane olaram ki. Mən gedim.
**Rüfət.** Hə. Getsən yaxşı olar...
**Kifayət.** Bu nədi? Maşın açarıdı?
**Rüfət.** Hə.
**Kifayət.** Ərim maşın alıb, mənim xəbərim yox?
**Rüfət.** Yox Şikayət xanım, Calalın maşınıdır, bir neçə saatlığa götürmüşəm.
**Kifayət.** Hə də... Biznesmenin gərək maşını ola. Özü də fərlisindən. Deyirəm axı, mənim istəkli ərim səhər niyə üzünü qırxdı, kostyum geyindi, qalstuk taxdı, ətirlənib evdən çıxdı.
**Rüfət.** Doğrudur, Şikayət xanım, axır ki, bir-birimizi anlamağa başlayırıq.
**Kifayət.** Neynək... Onda mən gedim, ərimin qəttəzə biznesinə mane olmayım.
**Ofisiant.** Müəllim, qonağınız gəldisə menyunu gətirim.
**Rüfət.** Yox... Hə... Gətir.
**Kifayət.** Oooo, deməli müştəri xanımmış?
**Rüfət.** Oğlan, sən get, özüm çağırram. Kifayət, məzhəkəni qurtar. De görüm burda nə itin azıb? Telefonumu eşələyirsən?
**Kifayət.** Yox. Onu kim deyir?
**Rüfət.** Bəs mənim burda olduğumu hardan bilirsən? Ümumiyyətlə de görüm sənin burda nə işin var?
**Kifayət.** Vaay, ərim məni suç üstə yaxalamış. İlahi, mən axı neynədim?
**Rüfət** *(əsəbi).* Tomris sənin telefonda kimləsə yazışdığını deyəndə haqlıymış.
**Kifayət** *(qrafindən su süzür, günahkarcasına).* Aman Allah, əzizim, məni səhv anlamısan. Ki-şi i-lə gö-rü-şə gəl-miş-dim! *(Qəhqəhə çəkir.)* Am-maaa, gəlib gördüm qarşımdakı kişi de-yil, əsl na-kişi-dir! *(Stəkandakı suyu ərinin üzünə çırpır.)*
**Rüfət.** Kifayət! *(Dişlərini qıcayıb astadan.)* Səni öldürrəm! Rədd ol, burdan!
**Kifayət** *(səsini bir qədər qaldırır).* Ah, siz axı centlmensiniz, bu kobudluq sizə yaraşmır. İnbokslarda qadınların könlünü alan supermən məgər siz deyildiniz?
**Rüfət.** Həddini aşma!
**Kifayət** *(istehza ilə).* Yaxşı, bağışla. *(Rüfətə sarı əyilib pıçıltı ilə.)* Amma inboksda belə əfəl deyilsən, eh-ti-ras-lı-san!

*Rüfət susur.*

**Kifayət.** Saxta profil açıb öz ərinə yazmaq yaxşı fikir idi, hə? *(Rüfəti yamsılayır.)* Ah, Seva, canım Seva... *(Gülür. Pıçıltı ilə.)* Sənə bir sirr açım? Düşünəndə ki, öz halal ərim yataqda mənimlə sevişmək yerinə o biri otaqdan başqa qadın adına mənə yazıb virtual oxşayır, dəliyə dönürdüm. →

İstəyirdim yerimdən qalxıb gəlib sənin yaxandan yapışım, *(hər iki qolunu yuxarı qaldırıb əllərini yumur)* və deyim: Ay axmaq, Seva mənəm, mən. Gəl, məni... Öz halal arvadını...

*Uzun pauza yaranır. Kifayət başını masaya dayayıb hönkürməyə başlayır. Rüfət siqaret götürüb yandırır. Bu vaxt ofisiant yaxınlaşır.*

**Ofisant.** Müəllim, burda siqaret çəkmək olmaz.

**Rüfət.** Yaxşı, söndürrəm.

**Kifayət.** Ofisiant, yaxşısı budur icazə verin çəksin. Mənim ərim, yox, yox oynaşım...

**Rüfət.** Kifayət, bəsdir!

**Kifayət.** Bəli, bəli oynaşım indicə elə bir şok yaşayıb ki, siqaret çəkməsə siz bura təcili yardım maşını çağırmalı olacaqsınız. Məlum, bizdə də təcili yardımlar həmişə gecikir, yəni onlar gələnə qədər ərim, pardon, oynaşım ölə bilər.

**Rüfət** *(ofisianta)*. Siz gedin, mən həll elərəm.

**Kifayət** *(Rüfətin əlini itələyib oturur. Siqaretindən birini götürür)*. Sənə nə demişdim? Daha doğrusu Seva nə demişdi? Arabir ərimin siqaretindən gizlicə oğurlayıb həyətdə çəkirəm?

**Rüfət.** Özünü ələ al, dur gedək. Camaat bizə baxır.

**Kifayət** *(ucadan)*. Getməyəcəm! Mən bu gün oynaş... *(Səsini alçaldır.)* Mən bu gün oynaşımla görüşdəyəm. İstəyirəm o məni dəniz qırağına aparsın və ordaa...

**Rüfət.** Kifayət, özünü ələ al. Yaxşı konsert çıxardın. Dur gedək.

**Kifayət.** Əl çək. Heç yana gedən deyiləm. Sənin alçalmağına doyunca tamaşa edim! *(Ucadan.)* Ofisiant, ordan bizə iki fincan qəhvə.

*Ofisiant çaşıb qalır, Rüfət başı ilə işarə edir ki, sifarişi gətirsin.*

**Kifayət** *(səsini alçaldır)*. Özümü lap filmlərdəki xəyanətkar qadınlar kimi hiss elədim. Ah, necə də gözəldi... Hərdən öz-özümə fikirləşirəm. Axı mən harda səhv elədim? Yəni mən internetdəki o qadınlardan belə pisəm?! Nədir bunun səbəbi? Bəlkə özümə baxmıram? Yox, baxıram. Ən azı ona görə ki, camaat arasına çıxıram, böyük bir məktəbdə müəlliməyəm. Bəlkə sənə yetərincə səmimi ola bilmədim, hə?.. Cavab ver...

**Rüfət.** Kifa...

**Kifayət.** Nə deyəcəksən axı, yenə internet olsaydı bir şey tapıb uydurardın. İnternetdəki o mehribanlığını görəndə elə istəyirdim ki, ordan çıxmayaq, həmişə o lənətə gəlmiş virtual məkanda yaşayaq. Axı, orda sən məni xoşbəxt edə bilirdin! Gerçəkdə isə... mən bütün günü iş-gücün dalıyca qaçıram, uşaqlarla maraqlanıram. Sənsə... Sənsə bitib-tükənməyən biznes-planlar adıyla gecəni səhərə qədər internetdə keçirib, naməlum profillərlə həzz yaşayırsan!

**Rüfət.** Kifayət, bəsdi dedim.

**Kifayət.** İlahi, mən necə dəli olmayım! Özümü internetdəki özümə qısqanırdım. Mənim ərim mənim internetdəki özümə gerçək həyatdakından daha çox maraq göstərirdi. Axı, niyə? Hə! Cavab ver, niyə?

**Rüfət.** İnan ki, bu sualların cavabını mən də bilmirəm. Bir səhvdi eləmişəm. Axı son nəticədə sənə xəyanət etməmişəm.

**Kifayət.** Yox, əksinə... Bəlkə başqası ilə xəyanət etsəydin məni bu qədər yandırmazdı. Sən mənə mənim özümlə xəyanət etmisən. Mənim özümlə! Qadın üçün bundan böyük təhqir ola bilərmi?.. De görüm, mən neçənci Sevayam? De də...

**Rüfət.** Açığı heç özüm də bilmirəm niyə belə olur. Virtual aləmin qəribə cazibəsi var. Ehtiras sövq edir ki, danışasan. Ordakı illüziya özünə çəkir. Bu yuxularda yaşamaq kimidir. Necə ki,adam yuxuda özünü son dərəcə xoşbəxt hiss edir, ayılmaq istəmir, virtual aləm də o cürdür. Bilə-bilə ki, sabun köpüyüdür, ilğımdır, yenə onun var olduğuna inanmaq istəyirsən. Bəlkə də ordakılarla problemlərdən danışmadığına görədir. →

**Kifayət.** Çürük fəlsəfəni özünə saxla, Kant! Yalanlarını da. Ordakılar sənə dərdlərini danışanda səbrlə dinləyirsən. Seva adıyla yazanda özüm qəsdən problemlərlə səni yormağa çalışırdım. Yoxlayırdım görüm, ordakı mənə nə qədər dözəcəksən? Bilmək istəyirdim, sən axı niyə beləsən?! Amma görürdüm, yox. Həyatda məni dinləmirsən, adımı Şikayət xanım qoyursan, amma virtualdakı məni səbrlə eşidirsən.

**Rüfət.** Yox, yox...

**Kifayət.** Bəlkə sənə göndərdiyim yarı çılpaq şəklə görə idi... Ay bədbəxt, o şəkildə arvadının bədənini də tanıya bilmədin. *(Qəhərlənir.)* Gör sənə nə qədər yad olmuşam, yad.

**Rüfət.** Bağışla məni, Kifayət. Bağışla.

**Kifayət.** Necə murdar sözdür: "Bağışla". Hər cür əclaflığı elə, axırda da denən ki, - "Bağışla". Vəssəlam... Nə isə... Saat neçədir? Turqutu bağçadan götürmək lazımdır.

**Rüfət.** Gedək.

**Kifayət.** Yox. Sən getməyəcəksən. Otur, Sevanı gözlə. Tək gedəcəm. Axşam da xahiş edirəm, evə gəlmə.

**Rüfət.** Bəs hara gedim?

**Kifayət** *(qalxır)*. Sevagilə getsən yaxşıdı. Əri hələ rayondan qayıtmayıb, qorxma... Kinoda necə deyillər? Çao, amiqo.

**Pərdə enir.**



**YAXIN SAYIMIZDA:**

*50 yaşında "Cırtdan" (cizgi filmimiz yarıyüzə çatdı)*
*Cəmilə Həsənzadə - XIV əsr. Çin incəsənətinin Təbriz üslubuna təsiri*
*Ziyadxan Əliyev - 70*
*Kalvalı rəssam (Soltan Soltanov)*
*Xəzər Gəncəli niyə təzədən Türkiyəyə qayıtdı?*
*Rəhman Əlizadəni anarkən...*
*İntihar qismətli Yapon yazıçıları...*
*Ülviyyə Heydərova - "Onların iti" (bir pərdəli pyes)*



*Qiymәti:*
1 manat 50 qәpik

INDEKS 76347
ISSN 0134 - 7160



Qobustan@azyb.az